REYHAN HƏBİBLİ

# NİTQİN ELMİ ÜSLUBU

(Psixologiya təmayülü)

**Ali məktəblərin hazırlıq şöbələrində təhsil alan əcnəbi tələbələr üçün dərs vəsaiti**

*Azərbaycan Respublikası Təhsil Nazirinin 08.04.2014-cü il tarixli əmri ilə təsdiq edilmişdir (əmr № 411)*

- 15202 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

BAKI – 2014

**Elmi redaktor:** *prof.S.Ə.Abdullayeva*

**Rəyçilər:** *dos.Y.Ə.Məmmədli*

*dos.E.Ə.Əhmədova*

*psixol.ü.f.d.Y.Ə.Vəliyeva*

**R.Həbibli**

**"Nitqin elmi üslubu" (Psixologiya təmayülü). Bakı, 2014."MSV NƏŞR", 348 səh.**

*Nitqin elmi üslubu (psixologiya təmayülü) üzrə dərs vəsaiti hazırlıq şöbələri üçün Azərbaycan dilinə dair tədris kompleksinin bir hissəsidir. Vəsaitin məqsədi – əcnəbi tələbələri «Psixologiya» ixtisası üzrə mühazirələrin dinlənilməsinə hazırlamaq, elmi üslub materialı əsasında tələbələrdə bilik və bacarıqları formalaşdırmaqdır. Sintaktik strukturlar, ümumelmi və xüsusi leksik minimum əcnəbi tələbələrdə «Psixologiya» ixtisası üzrə monoloji ifadə vərdişlərini inkişaf etdirməyə imkan verir.*

**© R.Həbibli 2014**

# Ön söz

İxtisas materialı əsasında xarici dilə düzgün və sərbəst yiyələnmə vərdişlərinin formalaşmasının bəzi məsələləri bu gün də mürəkkəb və ziddiyyətli olaraq qalır. Burada materialın metodik cəhətdən necə təşkil olunması, dil təliminin daha rasional və effektiv olması üçün hansı tapşırıqlar sisteminin təklifi, elmi dili öyrənməkdə aktiv və passiv qrammatika, eləcə də lüğət tərkibinin sərhədlərinin, elmi dilin şifahi və yazılı formalarının nisbətinin müəyyənləşdirilməsi problem olaraq qalır.

Nitqin elmi üslubunun öyrənilməsi Azərbaycan dilinin xarici dil kimi tədrisi metodikasının ehtiyaclarından irəli gəlir. Ali məktəblərin hazırlıq şöbələrində «Nitqin elmi üslubu» fənninin tədrisi mühüm əhəmiyyət kəsb edir. Bu fənn əcnəbi tələbələri seçdikləri ixtisas üzrə sistematik kursu mənimsəməyə hazırlamaq vəzifəsini yerinə yetirir. Əcnəbi tələbələr üçün Azərbaycan dilini öyrənmək, təhsil almaq, professional hazırlıq keçmək, seçilən ixtisasa yiyələnmək vasitəsidir, çünki onlar seminarlarda, praktik məşğələlərdə fəal iştirak etməli, imtahan verməli, kurs və buraxılış işləri yazmalı, xüsusi ədəbiyyat oxumalı, mühazirə dinləməli, ixtisas mövzuları və ona yaxın fənlər üzrə söhbətlər aparmalıdır. Bu göstərilənlər «Nitqin elmi üslubu» fənninin bütövlükdə tədris sistemində yerini müəyyən edir.

Bu dərs vəsaiti ali məktəblərin hazırlıq şöbələrində təhsil alan əcnəbi psixoloq-tələbələr üçün nəzərdə tutulub. Onun məqsədi nitqin elmi üslubunun tələbələrin gələcək ixtisas profilinə uyğun materiallar əsasında öyrədilməsidir. Vəsaitin vəzifələri bunlardır: nitqin elmi üslubu üçün xarakterik olan zəruri ümumelmi və xüsusi leksika minimumunu və sintaktik strukturları mənimsətmək; tələbələri ixtisas üzrə elmi ədəbiyyatın mütaliəsinə və mühazirələrin dinlənilməsinə hazırlamaq; elmi üslub bazasında monoloji nitq vərdişlərini inkişaf etdirmək; psixoloq-tələbələrin passiv lüğət ehtiyatını genişləndirmək.

Vəsaitin leksik və qrammatik materialı mövcud tədris-pedaqoji və elmi ədəbiyyatı nəzərə alaraq seçilmişdir. Hər paraqrafın baza mətni, çalışmaları var. Təsvir-izah xarakteri daşıyan mətnlər öyrənilən dil və nitq materialının möhkəmləndirilməsinə xidmət edir. Çalışmalar Azərbaycan dili dərslərində öyrənilmiş qrammatik materiala əsaslanır və oxunmuş mətnin başa düşülməsinə istiqamətlənib. Mətn və çalışmaların terminlərlə zənginliyini və onların əcnəbi tələbələr tərəfindən qavrama çətinliklərini nəzərə alaraq müvafiq materialın seçimində bəzi leksik və dil çətinliklərini aradan qaldırmağa çalışmışıq.

Mətnlərin və tapşırıqlar sisteminin məqsədi psixologiya üzrə ümumelmi və xüsusi leksik minimumu təqdim etmək, mətnlərin əsas məntiqi-kompozisiya elementlərini, tip və strukturunu mənimsətmək, tələbələrin gələcək ixtisas predmeti kimi psixologiya haqqında məlumatlarını genişləndirməkdir.



Vəsaitdəki çalışmalar dilin linqvistik, psixoloji, didaktik əsasları üzərində qurulmuşdur. Çalışmaları iki qismə ayırmaq olar: a) qrammatik xarakter daşıyanlar; b) nitq inkişafına, elmi dilin mənimsənilməsinə xidmət edənlər. Hər iki qisimdən olan çalışmaların tərtibində nitq inkişafı ilə yanaşı, elmilik, müasirlik və ideyalılıq prinsipləri də əsas götürülür. Bunlar da dil təliminin keyfiyyətini yüksəltməyə geniş imkanlar açır.

Vəsait hazırlanarkən istifadə olunan kitab və dərsliklərin müəlliflərinə öz minnətdarlığımızı bildiririk.

## §1. Psixologiyanın mövzusu

«Psixologiya» termini iki yunan sözündən – «psyuxe» – ruh, ruhi aləm, «loqos» – bilik, öyrənmək, elm sözlərindən əmələ gəlmişdir, «psixika haqqında elm» deməkdir. Psixologiya elmi qədim tarixə malikdir. Psixoloji anlayışlar sistem şəklində ilk dəfə Aristotelin (eramızdan əvvəl IV əsr) «Ruh haqqında» məşhur traktatında şərh olunmuşdur. Uzun müddət (XIX əsrin sonlarına qədər) psixologiya elmi fəlsəfəyə (və ilahiyyata) aid fənn hesab edilmişdir. Avropa ədəbiyyatında bəzən onu mental fəlsəfə, ruhiyyat, pnevmatologiya adlandırmışlar. XVIII əsrin sonu – XIX əsrin əvvəllərindən başlayaraq «psixologiya» termini Amerika, Avropa və rus ədəbiyyatında, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda işlənilməyə başlanmışdır.

Psixologiya heyvan və insanların psixikasını, fəaliyyət və ünsiyyətin psixoloji problemlərini öyrənir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ruh | 1) insanın psixi aləmi, hiss və duyğuları; 2) insanın mənəviyyatı; 3) bir şeyin əsas xüsusiyyəti |
| bilik | oxumaq və ya öyrənməklə qazanılmış elm |
| qədim | çox uzaq keçmişə aid olmaq; köhnə |
| malik olmaq | sahib olmaq |
| anlayış | məfhum |



| | |
|---|---|
| era | tarixin başlanğıcı |
| traktat | bir mərhələ, problem haqqında elmi əsər |
| şərh olunmaq | izah edilmək |
| müddət | vaxt, zaman |
| ilahiyyat | din elmləri |
| fənn | elm, bilik sahəsi, tədris obyekti |
| sistem şəklində | sistem formasında, sistemli |
| əmələ gəlmək | 1) baş vermək; 2) mümkün olmaq, həyata keçmək |
| psixika | 1) beyinin xassəsi; 2) psixi xüsusiyyət, ruhi hal |
| cəmiyyət | insan toplusu |
| inkişaf etmək | artmaq, yüksəlmək |
| sahə | 1) boş, açıq, geniş yer, torpağın hissəsi; 2) şöbə, hissə |
| tələbat | tələb olunan şeylər |
| şərait yaratmaq | lazımlı şərtlər, mühit yaratmaq, düzəltmək |
| aləm | dünya, kainat |
| surət | 1) şəkil, üz, sifət; 2) üsul, qayda, tərz; 3) portret, şəkil; 4) xarakter |
| fakt | 1) olmuş hadisə, nümunə; 2) gerçəklik |
| qanunauyğunluq | hadisələr arasında əlaqə |
| mexanizm | 1) bir şeyin daxili hissəsi, quruluşu; 2) maşın, qurğu; 3) proseslərin məcmusu |

| | |
|---|---|
| nəzəri | nəzəriyyəyə aid |
| müşahidə | diqqətlə baxma, öyrənmə |
| eksperiment | təcrübə, sınaq |
| əldə edilən | tapılan, qazanılan |
| məlumat | 1) bilik; 2) yazılı izahat; 3) xəbər |
| əsaslanmaq | istinad etmək, əsas götürmək |
| rol oynamaq | əhəmiyyəti olmaq, təsiri olmaq |
| iş görmək | işləmək, məşğul olmaq |
| əhəmiyyətli | mühüm |
| müəyyən olunmaq | təyin olunmaq, müəyyənləşdirilmək |
| həll etdiyi | 1) yerinə yetirdiyi; 2) tapdığı |
| vəzifə | rol, funksiya |
| tədricən | yavaş-yavaş, az-az |
| genişlənmək | daha geniş olmaq, böyümək |
| zəmin | 1) yer, torpaq; 2) fon; 3) mühit, şərait |
| formalaşmaq | formaya düşmək, düzəlmək |
| tipoloji | bir tipə aid olan |
| aparat | alət, cihaz |
| hesab edilmək | sayılmaq, bilinmək |
| mental | psixi olan |
| pnevma | nəfəs, ruh |
| fəaliyyət | iş, çalışma; aktivlik |
| ünsiyyət | qarşılıqlı münasibət, əlaqə, yaxınlıq |



***Çalışma 2. Suallara cavab verin.***

1. «Psixologiya» termininin mənası nədir? 2. Psixoloji anlayışlar ilk dəfə harada verilib? 3. Psixologiya termini nə vaxt müxtəlif ölkələrdə işlənilməyə başlanıb? 4. Psixologiya nəyi öyrədir?

***Çalışma 3. İsimləri tapın.***

İnsan psixologiyası haqqında elm, yəni obyektiv və düzgün biliklər olmadan cəmiyyət inkişaf edə bilməz. İctimai praktikanın müxtəlif sahələrində (istehsalat, məktəb, səhiyyə, hərbi, idman və s.) insan haqqında biliklərə olan elmi-praktik tələbat elmi psixologiyanın əmələ gəlməsi üçün şərait yaratmışdır.

***Çalışma 4. Psixologiyanın tərifini öyrənin. Sözləri düzgün tələffüz edin.***

Psixologiya beyində obyektiv aləmin subyektiv surəti kimi əmələ gələn psixikanın faktları, qanunauyğunluqları və mexanizmləri haqqında elmdir.

***Çalışma 5. Mücərrəd isimləri tapın.***

Elmi-psixoloji biliklər empirik və nəzəri biliklər kimi özünü göstərir. Empirik psixoloji biliklər müşahidə və eksperiment vasitəsilə əldə edilən məlumatlara əsaslanır. Orta əsrlərdə bu biliklərin inkişafında filosoflar, şairlər və ədəbiyyatçılar xüsusilə böyük rol oynamışdılar. Zaman öz işini görürdü.

***Çalışma 6. Cəm şəkilçilərinin altından xətt çəkin.***

Psixologiyada praktika üçün əhəmiyyətli olan empirik qanunauyğunluqlar müəyyən olunurdu. Psixologiyanın həll etdiyi praktik vəzifələr tədricən genişlənirdi. Empirik

biliklərin zəminində nəzəri biliklər formalaşırdı. Elmdə müxtəlif izahedici sxemlər, modellər, tipoloji anlayışlar və s. yaranırdı. Psixologiyanın anlayışlar aparatı inkişaf edirdi.

***Çalışma 7. Terminləri öyrənin.***

psixologiya, ruh, bilik, psixika, ilahiyyat, mental, pnevmatologiya, pnevma, empirik bilik



## §2. Psixologiya elminin tarixindən

Psixologiya elminin inkişaf tarixi iki mərhələdən keçmişdir: birinci mərhələ lap qədim zamanlardan başlayaraq XIX əsrin 70-80-ci illərinə qədər davam edir. İkinci mərhələ isə (XIX əsrin 70-80-ci illərindən müasir dövrə qədər) psixologiyanın müstəqil elm kimi inkişaf mərhələsidir.

Psixoloji biliklər hələ eramızdan neçə min il əvvəl qədim Şərq ölkələrində təşəkkül etmişdir. Onun inkişafı fəlsəfə və təbiətşünaslığın inkişafı ilə bağlı olmuşdur.

XVII-XIX əsrlərdə psixologiya elmi dünyanın müxtəlif ölkələrində, xüsusilə Rusiyada, Almaniyada, Fransada, İngiltərədə və Amerikada inkişaf etməyə başladı.

Azərbaycanda ilk psixoloji təsəvvürlərin təşəkkülü xalqın qədim adət-ənənə, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlı olmuşdur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| inkişaf | artma, yüksəlmə, yüksəliş |
| mərhələ | dövr |
| davam etmək | dözmək; fəaliyyətdə olmaq; dayandırmamaq |
| müasir | indiki əsrdə, dövrdə olan; çağdaş |
| dövr | vaxt, zaman |
| müstəqil | sərbəst, ayrıca, xüsusi |
| təşəkkül etmək | formalaşmaq |
| təbiətşünaslıq | təbiət hadisələri haqqında elm |
| bağlı olmaq | bağlanmış; asılı olmaq, əlaqədar |

| | |
|---|---|
| | olmaq |
| nailiyyət | yaxşı nəticə, uğur |
| zəmin | şərait, mühit, vəziyyət, imkan |
| müxtəlif | bir cür olmayan |
| təsəvvür | 1) xəyal, fikir; 2) bir şey, adam haqqında bilik; 3) olmuş hadisəni xəyalına gətirmə |
| adət | müəyyən bir şeyə alışma; qəbul olunmuş qayda |
| ənənə | adət, əxlaq qaydaları, zövqlər |
| mərasim | yığıncaq, təntənə, şənlik |
| ayin | ibadət, dini mərasim; din qanunları |
| əyləncə | 1) əylənmək vasitəsi, kef; 2) faydasız şey |
| oyun | 1) rəqs; 2) əyləncə növləri; 3) bəzi idman növləri |
| lətifə | gülməli qısa hekayə |
| nağıl | uydurma hadisələr və şəxslər haqqında hekayə |
| dastan | epik əsər |
| rəy | fikir, mülahizə, söz |
| hadisə | əhvalat, iş |
| təsvir olunmaq | 1) çəkilmək; 2) şərh edilmək |
| məzmun | mövzu, məna, mahiyyət |
| əksini tapmaq | göstərilmək, ifadə edilmək |
| münasibət | qarşılıqlı əlaqə, yaxınlıq, uyğunluq |
| diqqəti cəlb etmək | maraqlandırmaq |
| irs | miras |



| | |
|---|---|
| rast gəlinmək | üz-üzə çıxmaq, qarşısına çıxılmaq |
| rol oynayan | əhəmiyyəti olan |
| əhəmiyyət vermək | diqqət yetirmək, məna vermək, fikir vermək |
| keyfiyyət | fərqli xüsusiyyət, əlamət |
| fərdiyyət | 1) tipik xüsusiyyətlərin məcmusu; 2) fərd |
| şüurlu | 1) şüuru olan, düşüncəli, şüurla bağlı olan; 2) qəsdən |
| varlıq | 1) var olma; 2) real həyat |
| fenomen | qeyri-adi şəxs, hadisə |
| səslənmək | 1) səs çıxartmaq; 2) səsini ucaltmaq |
| şayiə | dillərdə gəzən danışıq |
| kütləvi | kütlə üçün, çox, geniş miqyasda; kütləyə xas olan |
| barədə | haqqında |
| mülahizə | fikir, rəy |
| təşkil olunmaq | düzəldilmək, yaradılmaq, qaydaya salınmaq |
| nəzərdə tutmaq | haqqında düşünmək, fikirdə tutmaq |
| fon | əsas rəng, ton, yer |
| mənimsəmək | 1) öyrənmək; 2) sahiblənmək |
| xarakteristika | səciyyəvi xüsusiyyətlərin təsviri |
| nümunə | örnək, model |

***Çalışma 2. Suallara cavab verin.***

1. Psixologiya elminin tarixi neçə mərhələdən ibarətdir? 2. Psixologiyanın inkişafı hansı elmlərlə bağlı ol-

muşdur? 3. XVII əsrdən sonra hansı ölkələrdə psixologiya inkişaf etməyə başladı?

***Çalışma 3. Mətnə plan qurun.***

***Çalışma 4. Qoşasamitli sözləri tapın.***

1.Azərbaycan lətifələri, nağıl və dastanlarında xalqın müxtəlif sosial hadisələr haqqındakı ictimai rəyi, psixoloji hadisələr geniş təsvir olunmuşdur. 2. Hələ e.ə. II-I minilliklərdə «Avesta»da ruh və psixi hadisələr haqqında müxtəlif məzmunlu təsəvvür və ideyalar öz əksini tapmışdır. 3. «Kitabi-Dədə-Qorqud» dastanı insanların qarşılıqlı münasibətlərinin psixoloji təhlili baxımından diqqəti cəlb edir. 4. Bəhmənyarın zəngin fəlsəfi irsində maraqlı psixoloji ideyalara rast gəlinir. 5. Xaqani ünsiyyət prosesində mühüm rol oynayan psixoloji keyfiyyətlərə böyük əhəmiyyət verirdi.

***Çalışma 5. Qoşasaitli və yanaşı saitli sözləri tapın.***

1. Nizaminin bədii əsərlərində çox zəngin, orijinal psixoloji ideyalar öz əksini tapmışdır. 2. Nəsirəddin Tusi psixologiyanı təbiət elmləri sırasına daxil etmişdir. 3. Nəsiminin fikrincə, insan dərin fərdiyyəti olan şüurlu varlıqdır. 4. Füzulinin «Leyli və Məcnun» poemasında «məcnunluq» psixoloji fenomen kimi səslənir. 5. Şayiələrin psixologiyası, bir sıra başqa kütləvi psixoloji hadisələr barədə Mirzə Fətəli Axundovun əsərlərində maraqlı mülahizələr vardır.

***Çalışma 6. Xüsusi isimləri tapın.***

1. 1879-cu ildə Leyspiq şəhərində Vilhelm Vundt məşhur eksperimental psixologiya laboratoriyasını yaratdı.



2. 1885-ci ildə Paris şəhərində psixoloqların I Beynəlxalq Konqresi keçirildi. 3. Rusiyada ilk eksperimental psixologiya laboratoriyası V.M.Bexterev tərəfindən 1886-cı ildə Kazan şəhərində təşkil olunmuşdur. 4. 1912-ci ildə Moskva Universitetində Eksperimental Psixologiya İnstitutu işə başladı. 5. Azərbaycanda ilk psixologiya laboratoriyası 1926-cı ildə F.Ə.İbrahimbəyli tərəfindən yaradılmışdır.

***Çalışma 7. Aşağıdakı sözlərə cümlə qurun.***

müasir, sərbəst, müxtəlif, inkişaf, zaman

***Çalışma 8. Nöqtələrin yerinə lazım olan əvəzlikləri qoyun.***

1. ... psixoloji bilik deyəndə psixologiyanı öyrənən adamların biliyini nəzərdə tuturuq. 2. ... adamın psixoloji həyat təcrübəsi vardır. 3. Adamlar çox vaxt ... termin və anlayışı müxtəlif mənada başa düşürlər. 4. Tələbə ... bilikləri, adətən, ... təcrübəsi fonunda mənimsəyir. 5. Tələbə ... psixoloji xarakteristikaları ... nümunəsində öyrənir.

**Əvəzliklər:** *hər, həmin, biz, bütün, öz, eyni*

## §3. XX əsrdə psixoloji cərəyanlar

XX əsrdə psixologiyada bir sıra cərəyanlar əmələ gəldi. Freydizm, biheviorizm cərəyanları onların içərisində xüsusi yer tutur.

**Freydizm cərəyanı** XIX əsrin sonu – XX əsrin əvvəllərində əmələ gəlmişdir. Onun banisi Avstriya psixiatrı və psixoloqu Ziqmund Freyddir (1856-1939). Freydin adı ilə cərəyan Freydizm adlanır. Freydin özü isə onu «psixoanaliz» adlandırırdı.

**Biheviorizmin tarixi** XIX əsrin sonu – XX əsrin əvvəllərində Edvard Torndaykın (1874-1949) heyvanlar üzərində apardığı tədqiqatla başlayır. Lakin buna baxmayaraq həmin cərəyanın nəzəri lideri Con Uotson (1878-1958) hesab olunur.

**Koqnitiv** (latınca cognition – bilik, idrak deməkdir) **psixologiya** XX əsrdə 50-ci illərin sonu – 60-cı illərin əvvəllərində əmələ gəlmişdir.

**«Humanistik psixologiya»** 50-ci illərin əvvəllərində Qərbdə, xüsusən amerikan psixologiyasında biheviorizm və freydizm cərəyanlarına reaksiya kimi əmələ gəlmişdir. Onun baniləri K.Rocers, Q.Olport, A.Maslou və başqalarıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| cərəyan | 1) axın, su axını; 2) elektrik yükünün hərəkəti; 3) ictimai, siyasi hadisə |



15202

| | |
|---|---|
| əmələ gəlmək | yaranmaq |
| yer tutmaq | cəmiyyətdə, ailədə, elmdə, idmanda və s. mövqe. yer tutmaq |
| psixiatr | ruhi xəstəliklər mütəxəssisi olan həkim |
| psixoloq | psixologiya mütəxəssisi |
| tədqiqat | araşdırma |
| lider | rəhbər, başçı; yarışda birinci olan adam və ya komanda |
| hesab olunmaq | sayılmaq, bilinmək |
| reaksiya | əks təsir |
| irrasional | ağılla idarə olunmayan |
| behavior | davranış |
| koqnitiv | bilik, idrak |
| ekzistensial | mövcud olmaq |
| bani | tikən, yaradan, quran |
| tədqiqat aparmaq | araşdırmaq |
| şüursuz | şüuru olmayan, düşüncəsiz |
| idarə olunmaq | yönəldilmək, istiqamətləndirilmək |
| baxımından | nəzərdən |
| mahiyyət | daxili məzmun, əsas məna |
| davranış | hərəkət, rəftar |
| zövq | 1) sevinc hissi, ləzzət; 2) estetik duyğu; 3) əyləncə |
| tabe olmaq | razı olmaq, itaət etmək |
| rol | artistin göstərdiyi surət |
| qıcıq | orqanizmə olan təsir |
| asılılıq | 1) tabelik, sərbəstliyin olmaması; |

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

| | |
|---|---|
| | 2) bir hadisənin digərinə münasibəti |
| vahid | 1) bir, tək, yeganə; 2) ümumi, birləşmiş |
| predmet | 1) fənn; 2) əşya; 3) obyekt |
| inkar etmək | qəbul etməmək, rədd etmək |
| qəbul etmək | 1) almaq, götürmək; 2) razı olmaq; 3) daxil etmək; 4) qarşılamaq |
| imkan | 1) mümkünlük; 2) əlverişli şərait; qüvvə |
| həyata keçirmək | yerinə yetirmək, tətbiq etmək |
| müştəri | 1) alıcı; 2) istəyən, arzu edən |
| müraciət etmək | 1) yanına gedib soruşmaq; 2) istifadə etmək |
| narahat edən | 1) rahatlığını pozan, incidən; 2) həyəcana salan, qorxudan |
| həll etmək | 1) həyata keçirmək, axtarıb tapmaq |
| təhlil etmək | araşdırmaq, tədqiq etmək, müəyyənləşdirmək |

***Çalışma 2. Freydin fikirlərini təhlil edin.***

Freydə görə, insan davranışı irrasional, şüursuz psixi qüvvələr tərəfindən idarə olunur. Freydizm baxımından insan asosialdır, mahiyyət etibarilə bir çox xüsusiyyətlərinə görə heyvana bənzəyir. İnsanın davranışı iki prinsipə – «zövq prinsipinə» və «reallıq prinsipinə» tabedir. İnsan davranışında şüurun rolu azaldılır.

***Çalışma 3. Mücərrəd isimləri tapın.***

Biheviorizmə görə, psixologiya şüuru deyil, davranışı öyrənməlidir. Psixologiyanın əsas vəzifəsi qıcıqla orqanizmin cavab hərəkətləri arasındakı asılılığı öyrənməkdən ibarətdir. Biheviorizm stimul (S) və reaksiya (R) arasındakı əlaqəni davranışın vahidi kimi qəbul edir, psixika və şüuru psixologiyanın predmeti kimi inkar edirdi.



***Çalışma 4. Səhvləri düzəldin.***

Psixaloji praseslərdə və insan davranışında biliylər mühüm rol oynıyır. Bu baxımnan koqnitiv psixalogiya hafize və təfəkkürün təşgilində biliylərin rolunu öyrənir. Həmin cərəyan şəxsiyəti, fərdi fərkləri, emosiyaları və s. təhlil edir.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan hal şəkilçisini qoyun.***

«Humanistik psixologiya»... ekzistensial psixologiya da adlandırırlar. «Humanistik psixologiya» insan... hisslərlə yaşayan varlıq kimi götürür. Onların fikrincə, insana öz imkanları... həyata keçirmək üçün kömək etmək lazımdır. İnsan psixoterapevt... müştəri kimi müraciət etməli, onu narahat edən problemləri özü həll etməlidir, həyatının mənasını başa düşməlidir.

***Çalışma 6. Söz birləşmələri düzəldin.***

| | |
|---|---|
| psixoloji | funksiyalar |
| ruhi | materiya |
| psixi | sistemi |
| idealist | proseslər |
| canlı | fikirlər |
| sinir | aləm |

***Çalışma 7. Aşağıdakı sözlərə əks mənalı sözlər tapın.***

qədim – ...　　　　ümumi – ...

diqqətli – …  obyektiv – …
birlikdə – …  müxtəlif – …

*Çalışma 8. Suallara cavab verin.*

1. Freydizm cərəyanı nə vaxt yaranıb? 2. Onun banisi kimdir? 3. Biheviorizmin tarixi nə vaxtdan başlayır? 4. Koqnitiv psixologiya və humanistik psixologiya nə zaman meydana gəlib? 5. Humanistik psixologiyanın baniləri kimdir? 6. Freydizm insanı necə təhlil edir? 7. Biheviorizmdə niyə davranış əhəmiyyətlidir? 8. Koqnitiv psixologiya nəyi öyrənir? 9. Humanistik psixologiyanın insana münasibəti necədir?

*Çalışma 9. Terminləri öyrənin.*

psixoloq, psixoterapevt, irrasional, koqnitiv, behavior, ekzistensial, ilahiyyat



## §4. Psixi hadisələrin mahiyyəti

Psixi proseslər, psixi hallar və psixi xassələrin hamısına birlikdə **psixika** və ya **psixi hadisələr** deyilir. Psixi proseslər psixologiya elminin əsas kateqoriyalarından biridir. İdrak proseslərinə (duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, nitq və təxəyyül), iradi proseslərə və emosional proseslərə birlikdə **psixi proseslər** deyilir.

Psixi hadisələrin ikinci qrupunu təşkil edən psixi hallar və ya vəziyyətlər də müxtəlifdir. Şən əhval, affektlər, ehtiraslar, dalğınlıq, inamsızlıq, şübhə və s. psixi hallara misal ola bilər.

Psixi xassələr də psixologiya elminin kateqoriyaları içərisində mühüm yer tutur. Temperament, xarakter və qabiliyyətlər əsas psixi xassələrdir. İnsan üçün səciyyəvi olan əqli keyfiyyətlər, emosional xassələr (tez özündən çıxma, emosionallıq) və s. də psixi xassələrə aid edilir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| psixi | ruhi |
| proses | hadisənin gedişi |
| hal | 1) vəziyyət; 2) güc, qüvvət; 3) vaxt, an |
| xassə | hal, keyfiyyət, xasiyyət |
| psixika | 1) beyinin xarici aləmi əks etdirmə xassəsi; 2) ruhi hal, xüsusiyyət |
| kateqoriya | 1) maddi aləmin ümumi və mühüm xassələrini əks etdirən məfhum; 2) |

| | |
|---|---|
| | hadisələrin, əşyaların ən ümumi xüsusiyyətlərini göstərən məfhum |
| idrak | dərk etmə, bilmə; dərrakə, şüur |
| duyğu | hiss |
| qavrayış | başa düşmə, anlama, dərk etmə |
| diqqət | 1) baxış və danışığın yalnız bir obyektə yönəldilməsi; 2) qayğı |
| hafizə | yaddaş |
| təfəkkür | 1) insanın fikirləşmək, düşünmək bacarığı |
| nitq | danışma qabiliyyəti; danışma tərzi; danışıq, tələffüz |
| təxəyyül | xəyal, xülya; yaradıcılıq fantaziyası |
| iradi | iradə ilə bağlı olan; ixtiyari |
| emosional | həyəcanlı |
| şən | sevincli, şad, məmnun |
| əhval | 1) ovqat, hal, vəziyyət; 2) kef, səhhət |
| affekt | iradə nəzarətindən çıxmış ruhi- psixoloji hal |
| ehtiras | 1) çox güclü hiss, coşğunluq; 2) şiddətli istək, eşq, dalğınlıq |
| inamsızlıq | inam, etibar yoxluğu |
| şübhə | tərəddüd, inanmama |
| temperament | şəxsiyyətin psixi fəaliyyətində dinamik cəhətlərin xarakteristikası |
| xarakter | xasiyyət, hal, mahiyyət, keyfiyyət |
| qabiliyyət | bacarıq |
| səciyyəvi | bir şəxsə və ya şeyə xas olan |



| | |
|---|---|
| əqli | ağıla aid |
| özündən çıxma | hirslənmə, əsəbiləşmə |
| dalğınlıq | fikirli olmaq |
| yer tutmaq | 1) mövqe tutmaq; 2) sahə tutmaq |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| xarakter daşımaq | xarakterə malik olmaq |
| dərk olunmaq | başa düşülmək |
| fəaliyyət | iş, çalışma |
| mexanizm | 1) maşın, qurğu; 2) bir şeyin daxili quruluşu; 3) proseslərin məcmusu |
| təbabət | tibb |
| fiziologiya | orqanizmin vəzifələri və fəaliyyəti haqqında elm |
| əmələ gəlmək | 1) baş vermək; 2) mümkün olmaq, həyata keçmək |
| ali | 1) ən yüksək, ən yuxarı; 2) uca, hündür, yüksək; 3) ən mükəmməl |
| qanunauyğun | qanuna tabe olan |
| surət | 1) şəkil; 2) üsul, qayda, tərz; 3) portret; 4) tip, xarakter; 5) nüsxə |
| həcm | ölçü, böyüklük, miqdar |
| zədələnmə | yaralanma, əzilmə |
| dərhal | tez, gecikmədən |
| pozulmaq | 1) silinmək; 2) vəziyyəti, kefi pisləşmək; 3) bir-birinə qarışmaq |
| inikas | 1) əksolunma: 2) xəyalda canlanma |
| mürəkkəb | 1) bir neçə hissədən ibarət; 2) müxtəlif; 3) çətin |

nəzərdən baxmaq
keçirmək

*Çalışma 2. Suallara cavab verin.*

1. Psixi hadisələr nəyə deyilir? 2. Psixi proseslər nədir? 3. Psixi hallara nə aiddir? 4. Psixi xassələri izah edin.

*Çalışma 3. Mücərrəd isimləri tapın və izah edin.*

Proses latın sözü olub, hər hansı bir hadisənin başlanması, gedişi və inkişafı mərhələlərini əks etdirir. Bu baxımdan bütün psixi hadisələr prosessual xarakter daşıyır. Həmin məsələyə ilk dəfə rus alimi İ.M.Séçenov diqqəti cəlb etmişdir. Onun fikrincə, psixi olan, ancaq proses kimi dərk oluna bilər. Yəni hər bir psixi aktın «müəyyən başlanğıcı, gedişi və sonu vardır».

*Çalışma 4. Qoşasamitli sözləri tapın və mənasını aydınlaşdırın.*

Psixi olan, hər şeydən əvvəl, canlı, plastik, fasiləsiz təşəkkül və inkişaf edən proses kimi mövcuddur. İnsanın real fəaliyyətini (daha geniş mənada həyat fəaliyyətini) ancaq bu baxımdan düzgün və hərtərəfli təhlil etmək olar. Bu sözlər həm psixi proseslərə, həm də psixi halların və xassələrin öyrənilməsinə aiddir.

*Çalışma 5. Söz birləşmələri düzəldin.*

| | |
|---|---|
| canlı | forması |
| fəaliyyət | şəraiti |
| psixoloji | aləm |
| həyat | təcrübə |
| davranış | problemlər |
| şəxsi | prosesi |



*Çalışma 6. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.*

1. Psixi fəaliyyətin mexanizmlərinin öyrənilməsi də ... məsələlərdən biridir. 2. ... zamanlar psixológiya, təbabət və fiziológiyanın hüdudunda psixologiya elminin ... sahəsi – neyropsixologiya əmələ gəlmişdir. 3. Neyropsixologiya ... psixi funksiyaların beyin mexanizmlərini öyrənir. 4. Psixoloji faktlar qanunauyğyn xarakter ... . 5. Psixologiyada insan əmək, idrak və ünsiyyət ... kimi öyrənilir.

**Sözlər:** *ali, son, daşıyır, mühüm, yeni, subyekti*

*Çalışma 7. Səhvləri düzəldin.*

1. Başımızda əmələ gələn surətlərdə neyrofizioloji prasesdər deyil, cisim və hadisələrin xüsusiyətdəri – rəngi, forması, həcmi və s. əks olunur. 2. Beyində zədələnmə olan kimi psixi həyat da dərhal bozulur. 3. Cansız təbiyətdə inikas pasiv xarakter daşıyır. 4. Psixalogiya elminin predmeti mürəkgəbdir. 5. Müasir psixaloqiyada insanı fərt (biyoloji varlıq) və şəxsiyət (sosial varlıq) kimi nəzərdən keçirirlər.

*Çalışma 8. Terminləri öyrənin.*

psixika, psixi hadisələr, psixi proseslər, psixi hallar, psixi xassələr, duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, nitq, təxəyyül, əhval, affekt, ehtiras, dalğınlıq, inamsızlıq, şübhə, temperament, xarakter

## §5. Psixika

Psixika obyektiv aləmin subyektiv inikasından ibarətdir. Psixologiyada **«obyekt»** sözünün özünəməxsus mənası var: insanın fəaliyyət prosesində bilavasitə iş gördüyü, təsir göstərdiyi cisimlərə «obyekt» deyilir. «**Obyektiv**» sözünün isə mənası budur: predmetlər subyektdən kənarda və ondan asılı olmayaraq mövcuddur. **İnikas** dedikdə, iki obyektin qarşılıqlı təsir prosesi və onun nəticəsi nəzərdə tutulur.

Sinir sisteminin yaranması və təkamülü ilə birlikdə **psixi inikas** əmələ gəlməyə başlayır. **Psixika** üzvi materiyanın, yəni beyinin xassəsidir. **Beyin** müxtəlif üzvlərin mürəkkəb sistemidir. Onların fəaliyyəti ali heyvanların və insanın psixikasını şərtləndirir. Psixika reflektor xarakter daşıyır.

Subyektivlik psixikanın ümumi xarakteristikasıdır. Psixikanın məzmununu obyektiv aləm təşkil edir. Obyektiv aləm insanın beynində əks olunur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| predmet | mövzu; əşya |
| subyekt | şəxs, şəxsiyyət, adam |
| qarşılıqlı | hər iki tərəfə aid olan |
| sinir sistemi | əsəb sistemi |
| təkamül | inkişaf, kamilləşmə, yeniləşmə |
| üzvi | 1) canlı, orqanik; 2) bir şeyin əsasına aid olan |



| | |
|---|---|
| materiya | 1) insan şüurundan kənarda mövcud olan varlıq; maddə; 2) fiziki cisimləri təşkil edən maddə |
| fəaliyyət | iş, çalışma, aktivlik |
| ali | 1) ən yüksək, ən yuxarı; 2) uca |
| şərtləndirmək | 1) şərt qoymaq; 2) bir şeyin yaranmasına səbəb olmaq |
| reflektor | qeyri-üzvi, mexaniki |
| daşımaq | 1) bir yerdən başqa yerə aparmaq; 2) yanında gəzdirmək; 3) sahib olmaq; 4) vəzifə tutmaq, işləmək |
| torvari | tora oxşayan, tor kimi |
| səpgi | dəri üzərində əmələ gəlmiş qabarcıqlar |
| düyün | yumrucuq; dolaşıqlıq |
| boru | içi boş uzunsov məmulat |
| meduza | çoxayaqlı dəniz heyvanı |
| soxulcan | torpaq içində, nəm yerdə yaşayan qurd |
| həşərat | cücülər |
| hüceyrə | canlı orqanizm quruluşunun ən sadə vahidi |
| filogenez | doğulma, mənşə |
| xorda | bəzi heyvanların (məsələn, balıqların) bel sütunu fəqərəsi |

***Çalışma 2. Qara hərflərlə verilmiş sözlərin vurğusunu müəyyənləşdirin.***

Canlı **orqanizmin** – bitki və heyvanların **biotik** (**bioloji** cəhətdən əhəmiyyətli) təsirlərə cavab vermə qabi-

liyyətinə **qıcıqlanma** deyilir. Təkamül prosesində heyvanlarda qıcıqlanmanın yeni forması – **həssaslıq** meydana çıxır. Heyvan biotik təsirləri məsələn, iyinə, rənginə, **formasına** görə fərqləndirməyə başlayır. Bu, artıq sadə formada **duyğunun** əmələ gəlməsi deməkdir.

***Çalışma 3. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

Uzunmüddətli təkamül prosesində psixika əmələ gə-l...r. Tədricən o, müxtəlif formalarda – duyğu, qa...rayış, hafizə və s. psi...i proseslər kimi təzahür etməyə başla...ır. Psi...ikanın filogenezində, yəni təkamül prosesində əmələ gəlməsi mürək...əb prosesdir. O, müxtəlif amillərlə, xüsusilə mühitin t...siri və sinir sisteminin inkişafı ilə bağlıdır. Sinir sistemi inkişaf etdi...cə heyvanın mühitlə əla...əsi genişlənir.

***Çalışma 4. Sinir sistemi haqqında məlumatı öyrənin.***

Sinir sistemi də təkamül prosesinin məhsuludur. Onun aşağıdakı növləri var: a) torvari, yaxud səpgin sinir sistemi; b) düyünlü sinir sistemi; c) borulu sinir sistemi. **Torvari sinir sistemi** ən bəsit sinir sistemidir. Meduzalarda (və s.) sinir hüceyrələri bədənin səthinə tor şəklində səpələnir. **Düyünlü sinir sistemində** sinir hüceyrələri qruplaşır, mərkəzi düyünlər əmələ gəlir (məsələn, soxulcanlar, həşəratlar və s.). **Borulu sinir sistemi** ali sinir sistemi tipidir. O, boruda yerləşən sinir hüceyrələrinin birləşməsindən ibarətdir (məsələn, xordalılarda).



***Çalışma 5. Aşağıdakı sözləri cümlədə işlədin.***

xüsusiyyət, səviyyə, zəruri, fərdi, material

***Çalışma 6. Mənsubiyyət şəkilçilərini göstərin.***

1. Psixikanın ən yüksək səviyyəsini şüur təşkil edir. 2. Şüur beyinin funksiyasıdır. 3. İctimai şüur dedikdə, bütövlükdə müəyyən cəmiyyət üçün və ya sosial qrup üçün səciyyəvi olan baxışlar, ideyalar nəzərdə tutulur. 4. Fərdi şüur adamın doğulması ilə və ölümü ilə birlikdə doğulur və ölüb gedir.

***Çalışma 7. Suallara cavab verin.***

1. «Obyekt» sözünün mənası nədir? 2. Psixi inikas necə əmələ gəlir? 3. Psixika nəyin xassəsidir? 4. Psixikanın xarakteristikası və məzmunu nədir? 5. Qıcıqlanma və həssaslıq nədir? 6. Sinir sisteminin hansı növləri var? 7. Şüurun neçə növü var?

***Çalışma 8. Terminləri öyrənin.***

reflektor, torvari, hüceyrə, filogenez, obyekt, obyektiv, subyektiv, inikas, predmet, üzvi, materiya, təkamül

## §6. Psixologiyanın sahələri

XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən psixologiya elmində diferensiasiya prosesi başlayır. Əvvəlcə yaş və pedaqoji psixologiya, tibbi psixologiya, daha sonra əmək psixologiyası, sosial psixologiya, bundan sonra mühəndislik psixologiyası, təyyarəçilik psixologiyası, kosmik psixologiya və s. formalaşmış və inkişaf etmişdir. XX əsrin 70-80-ci illərində psixologiya elminin bir çox yeni sahələri, məsələn, siyasi psixologiya, iqtisadi psixologiya, kommunal psixologiya, idarəetmə psixologiyası və s. təşəkkül etmişdir.

Beləliklə də, psixoloji elmlər sistemi ümumi psixologiyadan və psixologiya elminin müxtəlif sahələrindən ibarətdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| diferensiasiya | ayırma, fərqləndirmə, ayrılma, fərqlənmə |
| pedaqoji | 1) pedaqoqla bağlı olan; 2) pedaqoqlar hazırlamaqla məşğul olan; 3) pedaqogika ilə əlaqədar olan |
| formalaşmaq | əmələ gəlmək, müəyyən formaya düşmək, düzəlmək |
| kommunal | şəhər təsərrüfatına aid olan |
| idarəetmə | rəhbərlik, başçılıq, idarəçilik |
| təşəkkül etmək | müəyyən bir şəklə girmək, formalaşmaq |
| metod | üsul, üsullar sistemi |



| | |
|---|---|
| təlim | 1) öyrətmə, dərs vermə; 2) bir sahə haqqında nəzəriyyə |
| qanunauyğunluq | hadisələr arasında zəruri əlaqə, obyektiv qanunlardan asılılıq |
| mühit | təbii və ya ictimai şəraitin məcmusu |
| təzahür | üzə çıxma, özünü göstərmə; ifadə |
| stereotip | 1) mətbəə naboru surəti; 2) dəyişmədən təkrarlanan, şablon (söz, ifadə, danışıq) və s. haqqında |
| yönüm | istiqamət; meyil |
| optimal | ən əlverişli, ən münasib, ən yaxşı |
| eksperiment | 1) təcrübə, sınaq; 2) elmi yoxlama |
| ekspertiza | yoxlama prosesi |
| etibarən | başlayaraq |
| mühəndislik | mühəndis sənəti |
| təyyarəçilik | təyyarə sürücülüyü |
| ön plana keçmək | mühüm olmaq |
| tərbiyə | yetişdirib böyütmə |
| anormal | normal olmayan, qeyri-təbii |
| müddət | vaxt, zaman |
| yeniyetmə | çox gənc |
| yaşlı | cavan olmayan |
| sima | 1) üz, sifət; 2) şəxsiyyət |
| baş verən | əmələ gələn, olan |
| variant | bir şeyin başqa şəkli |

| | |
|---|---|
| təsəvvür | xəyala gətirmə, xəyal; 2) ümumi tanışlıq |
| toy | evlənmə mərasimi, şadlıq |
| məişət | yaşayış |
| yas | kədər, matəm |
| mərasim | təntənə |
| təsadüf edilmək | birdən qarşısına çıxmaq, görülmək |
| cinayətkar | cinayət edən adam |
| həyat tərzi | yaşama tərzi |
| aydınlaşdırılma | izah edilmə, müəyyən edilmə |
| şahid | bir hadisəni öz gözü ilə görmüş adam |
| səbəb | bəhanə, əsas |
| cinayət | təhlükəli hərəkət, pis hərəkət |
| məhkəmə | ədliyyə orqanı |

***Çalışma 2. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.***

Psixologiyanın metodoloji, nəzəri-tarixi məsələ...nin, məsələn, psixi proseslər... əmələ gəlməsi, psixoloji qanunlar... müəyyən edilməsi, tədqiqat metodları... nəzəri-praktik məsələləri... öyrənilmə... *ümumi psixologiyanın* başlıca vəzifəsi... Ümumi psixologiya fəaliyyət və ünsiyyət..., eləcə də şəxsiyyət... ümumi psixoloji məsələləri... öyrənir. Ümumi psixologiya... subyekt-obyekt münasibət... ön plan... keçir.

***Çalışma 3. Mücərrəd isimləri göstərin.***

*Pedaqoji psixologiyanın* predmeti təlim və tərbiyə prosesinin psixoloji qanunauyğunluqlarının öyrənil-



məsidir. O, şagirdlərdə qavrayış, diqqət, hafizə, təfəkkür, təxəyyül və s. tərbiyəsi məsələlərini tədqiq edir, pedaqoqla şagirdlər arasındakı qarşılıqlı münasibətləri, şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərini aydınlaşdırır. Pedaqoji psixologiyanın sahələri bunlardır: təlim psixologiyası, tərbiyə psixologiyası, müəllim psixologiyası, anormal uşaqlarla təlim-tərbiyə işinin psixologiyası.

***Çalışma 4. Söz birləşmələrini tapın.***

*Yaş psixologiyası* uzun müddət uşaqların yaş xüsusiyyətlərini öyrənmiş və *uşaq psixologiyası* adlanmışdır. Hal-hazırda o, uşaqlar və yeniyetmələrlə yanaşı, gənclərin, yaşlı adamların da yaş xüsusiyyətlərini öyrənir. Bu mənada da ona *yaş psixologiyası* deyilir.

***Çalışma 5. Mötərizədəki sözləri lazım olan formada yazın.***

*Etnik psixologiya – etnopsixologiya* (insanlar) müəyyən etnik qrupda, xüsusi etnik mühit və şəraitdə formalaşması ilə əlaqədar olaraq (onlar) psixi simasında, psixoloji xüsusiyyətlərində baş verən (dəyişikliklər) qanunauyğunluqlarını, təzahür xüsusiyyətlərini öyrənən elm (sahəsi). Etnik milli psixologiyanın (problemlər) bu və ya digər xalqa məxsus etnik stereotip və yönümlər, adət-ənənələr, milli xarakterlər, hisslər və s. (daxil).

***Çalışma 6. Toplu isimləri göstərin, necə işləndiyini izah edin.***

Hər hansı bir xalqın və ya etnosun etnik psixoloji xüsusiyyətlərini öyrənmək müxtəlif xalqlar və millətlər arasında qarşılıqlı münasibətlərin düzgün qurulmasına,

onların optimal variantlarının tapılmasına kömək edir. Deməli, etnik psixologiyanın həm ciddi elmi-nəzəri, həm də çox böyük praktik əhəmiyyəti vardır.

***Çalışma 7. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.***

Azərbaycanda etnik psixoloji fikrin çox … tarixi vardır … etnik psixoloji təsəvvürlərin təşəkkülü xalqın qədim adət-ənənə, mərasim və ayinləri, əyləncə və oyunları ilə bağlı olmuşdur. Ailə və məişət (toy, yas və s.) mərasimlərində … sosial psixoloji hadisələrin … xarakteristikalarına təsadüf edilir. Etnik psixoloji biliklər şifahi xalq yaradıjılığı və … ədəbiyyat nümunələrində əks etdirilmişdir.

**Sözlər:** *qədim, ilk, kütləvi, maraqlı, bədii*

***Çalışma 8. Səhvləri düzəldin.***

*Hüquq psixologiyası* – insannarın psixi fəaliyətinin mexanizmlərini öyrənir. XIX əsrin sonları və XX əsrin əvvələrində hüquq psixalogiyası sahəsində ilk eksperimentdər aparılıp. Burada cinayətkarrarın psixalogiyası məsələlərinin aydınnaşdırılması, onların həyat tərzinin və davranışının xüsusiyyətdərinin öyrənilməsi mühüm yer tutur. Şahit ifadələrində səhvlərin meydana gəlməsi səbəbləri və şərayiti də hüquq psixalogiyasında araşdırılır.

***Çalışma 9. Məhkəmə psixologiyası haqqında məlumatı öyrənin.***

*Məhkəmə psixologiyası* – məhkəmə işi və məhkəmə psixoloji ekspertiza məsələləri ilə bağlı problemləri öyrənir. Burada, əsasən, cinayətin mərhələləri, xüsusən motiv və məqsədləri, cinayətin hazırlanması və həyata keçirilməsi zamanı təzahür edən iradi və emosional proseslərin xüsusiyyətləri, cinayətlə bağlı olan psixi halətlər araşdırılır.



***Çalışma 10. Suallara cavab verin.***

1. Psixologiyanın sahələri nə zaman yaranıb? 2. Ümumi psixologiyanın vəzifəsi nədir? 3. Pedaqoji psixologiyanın predmeti nədir və hansı sahələri var? 4. Yaş psixologiyası niyə belə adlanır? 5. Etnik psixologiyanın əhəmiyyəti nədir? 6. Hüquq psixologiyası və məhkəmə psixologiyası nəyi öyrənir?

***Çalışma 11. Terminləri öyrənin.***

yaş psixologiyası, pedaqoji psixologiya, tibbi psixologiya, əmək psixologiyası, mühəndislik psixologiyası, təyyarəçilik psixologiyası, kosmik psixologiya, siyasi psixologiya, iqtisadi psixologiya, kommunal psixologiya, hüquq psixologiyası, məhkəmə psixologiyası.

## §7. Psixologiyanın prinsipləri

**Determinizm** ictimai və təbii hadisələrin səbəbi haqqında təlimdir. Bu prinsipə görə, psixoloji hadisələr maddi həyat vasitələri, istehsal üsulunun inkişaf qanunları ilə, ictimai münasibətlərlə müəyyən olunur.

**Xətti determinizmdə** insan maşın kimi təsvir edilir, psixi həyatı mexaniki qanunlar əsasında aydınlaşdırılır.

**Sistemli yanaşma prinsipi** psixoloji hadisələri müxtəlif koordinatlar sistemində nəzərdən keçirmək və onları şərtləndirən amilləri elmi baxımdan ətraflı təhlil etmək imkanı verir.

**İntrospektiv psixologiyada** əsasını şüur haqqında idealist təsəvvürlər əsas yer tutur. İnsanın şüuru ancaq özünümüşahidə və yaxud daxili təcrübə, daxili görmə yolu ilə dərk oluna bilir.

**Şüur və fəaliyyətin vəhdəti prinsipinin** mahiyyəti budur ki, şüur və fəaliyyət bir-birinə əks deyil, lakin bir-birinin eyni də deyildir. Şüur və fəaliyyət vəhdətdədir.

**Psixika və şüurun fəaliyyətdə inkişafı prinsipinə** görə, psixika və şüurun obyektiv qanunauyğunluqlarını yalnız fəaliyyətdə – əmək, təlim və oyun prosesində müəyyən etmək olur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| determinizm | müəyyən etmək |
| istehsal üsulu | insanların həyatı üçün zəruri vasitələrin istehsalının konkret növü |



| | |
|---|---|
| mexaniki | 1) mexanikanın öyrəndiyi hadisə və proseslərə aid olan; 2) qeyri-şüuri, qeyri-iradi |
| yanaşma | yaxınına, yanına gəlmə; bir məsələyə və sahəyə münasibət göstərmə |
| koordinat | müəyyən nöqtənin vəziyyətini təyin edən ədəd |
| imkan vermək | bir işi həyata keçirmək üçün şərait yaratmaq, yol vermək |
| amil | faktor, səbəb |
| introspeksiya | «intro» – daxil, «spesto» - baxıram. Psixi hadisələrin özünümüşahidə yolu ilə öyrənilməsi |
| idealist | 1) idealist fəlsəfə tərəfdarı; 2) həqiqəti ideallaşdıran |
| təsəvvür | 1) xəyala gətirmə; 2) bir şey, adam haqqında bilik |
| müşahidə | diqqətlə baxma, seyr etmə; araşdırıb öyrənmə; nəzarət etmə; izləmə |
| vəhdət | 1) Allahın birliyinə inanma; 2) birlik, ümumilik |
| metodika | 1) metodlar, üsullar məcmusu; 2) elmin tədris üsulları haqqında nəzəriyyə |
| səmərəli | fayda verən, əlverişli |
| meyar | ölçü, əsas cəhət |
| mötəbərlik | etibarlılıq; hörmətli olma |
| reprezentativlik | təmsil etmə |

| | |
|---|---|
| mənəviyyat | insanın mənəvi keyfiyyətləri, yüksək əxlaq |
| mütəhərrik | hərəkət edən |
| təsbit etmək | bir şeyin düzgünlüyünü təsdiq etmə, sübut etmə |
| həkk olunmaq | həmişəlik qalmaq, unudulmamaq |
| əsasında | bir şeyin mənbəyi, səbəbi olmaq |
| anadangəlmə | lap doğulandan; fitri |
| komponent | tərkib hissə |
| məcmu | bütün, tamam, hamı |
| çağ | vaxt, zaman |
| kontekst | mətnin mənaca bitmiş hissəsi |
| meyil | istək, arzu, həvəs |
| konkret | tam, dəqiq |
| material | 1) cisim, maddə; 2) məlumat |
| nisbət | mənsubiyyət, bağlılıq, münasibət |
| nəticə | son, qısa xülasə |
| rəy | bir şey haqqında fikir |
| əsaslı | 1) əsası olan, möhkəm; 2) ciddi, inandırıcı; 3) doğru; 4) çox mühüm; 5) hərtərəfli |

***Çalışma 2. İsmi xəbərləri tapın.***

1. *Metodologiya* konkret metodiki üsulların məcmusudur. 2. Hər bir psixoloji tədqiqatın konkret metodikası var. 3. Konkret tədqiqat metodikalarının spesifik cəhətləri öyrənilən psixoloji hadisənin xarakterindən asılıdır. 4. Tədqiqatın səmərəli olmasını şərtləndirən meyarlar bunlardır: metodun əsaslı olması, mötəbərliliyi, reprezentativliyi, informasiyanın dəqiqliyi və s.



***Çalışma 3. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

1. Tədqiqat metodları onun mə...səd və vəzifələrinə uy...un olmalıdır (*metodun əsaslı olması*). 2. Konkret tədqiqat metodikasını ...lə işləmə... lazımdır ki, o, hət...a müxtəlif şərait...ə təkrar ...dildikdə, eyni nəticə alınsın (*tədqiqatın mötəbərliyi*). 3. Rəyi öyrəniləcək adamları ...lə seçmə... lazımdır ki, bu zaman müxtəlif sosial qrupların nisb...ti düzgün nəzərə alınsın (*tədqiqat reprezentativliyi*). 4. Tədqiqat pr...sesində nə qədər çox adam öyrənilsə, informasiyanın dəqi...liyi bir o qədər yüks...k olar (*informasiyanın dəqiqliyi*).

***Çalışma 4. Səhvləri düzəldin.***

Konkret psixaloji tədqiqat metodikasında dörd mərhələ var: birinci mərhələ hazırlık mərhələsidir. Bu mərhələdə müxtəliv yollarla (müşahidə, anket və s.) ilkin məlumat toplanılır. Tədqiqatın ikinci mərhələsi eksperimental xaraktər daşıyır. Bu mərhələdə tədqiqatın konkret metodikası reallaştırılır. Tədqiqatın üçüncü mərhələsində tədqiqat materiyalları kəmiyət baxımından təhlil olunur. Dördüncü mərhələdə materiyallar psixaloji nəzəriyə əsasında şərhedilir.

***Çalışma 5. Söz birləşmələri düzəldin.***

| | |
|---|---|
| psixoloji | fəaliyyət |
| tədqiqatın | anlayışlar |
| konkret | nəticələri |

| | |
|---|---|
| elmi | formaları |
| psixi | şərait |
| təfəkkür | biliklər |

***Çalışma 6. Mötərizədəki sözləri lazım olan formada yazın.***

1. «Kitabi Dədə Qorqud»da (insan) müxtəlif emosional halətləri təsvir edilmişdir. 2. Abbasqulu ağa Bakıxanovun «Nəsihətnamə» və «Təhzibül-əxlaq» (əsərlər) müxtəlif etik problemlər psixoloji kontekstdə təhlil olunmuşdur. 3. Mirzə Fətəli Axundovun əsərlərində təlim və tərbiyənin köməyi ilə etnosun əxlaq və mənəviyyatını dəyişdirməyin mümkünlüyü (ideya) özünü göstərir. 4. Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə və Üzeyir Hacıbəyov kimi görkəmli mütəfəkkirlərin əsərlərində xalqın (psixologiya) yeniləşdirmək meyli güclü olmuşdur. 5. Xalqın tipik tərbiyə üsulları (etnos) psixologiyasını formalaşdırır.

***Çalışma 7. Aşağıdakı sözlərin mənasını izah edin.***

psixika, obyekt, inikas, proses, xassə, təkamül, təxəyyül

***Çalışma 8. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.***

1. *İnstinkt* (latınca instinctus – oyanma) heyvanların və insanların psixika və davranışının anadangəlmə komponent…inin məcmusu… . 2. *İmprintinq* (ingiliscə – imprint – həkkolma) quş və heyvan balalarının öz həyatlarının ilk çağların… yaxınlıqda yerləşən mütəhərrik cisimlər… təsbit etmək və yadda saxlamaq qabiliyyəti… deyilir. 3. *Fəaliyyət* dedikdə, insanın fəallığı… özünəməxsus forması nəzərdə tutulur. 4. Praktik fəaliyyət prosesin… insanın əşyalarla əməliyyat aparması, onları fəaliyyət prosesin… dəyişərək dərk etməsi *əşyavi fəaliyyət* adlanır. 5. Fəaliyyət insan… daxili (psixi) və xarici (fiziki) fəallığı… vəhdəti kimi özü… göstərir.



***Çalışma 9. Suallara cavab verin.***

1. Psixologiyanın prinsipləri hansıdır? 2. Psixoloji tədqiqat metodikasının hansı mərhələləri var? 3. Tədqiqatın səmərəli olması üçün hansı meyarlar var?

***Çalışma 10. Terminləri öyrənin.***

determinizm, xətti determinizm, sistemli yanaşma, istehsal üsulu, introspeksiya, özünümüşahidə, fəaliyyət, metodika, mötəbərlik, reprezentativlik, instinkt, imprintinq, əşyavi fəaliyyət

## §8. Psixologiyanın tədqiqat metodları

Psixologiya elminin tədqiqat metodlarını dörd qrupa bölmək olar. **Birinci qrupa** müqayisəli, longityudal (uzunmüddətli) və kompleks metodlar daxildir. Onlar **təşkilati metodlar** adlanır. **İkinci qrupa** bunlar daxildir: a) müşahidə və özünümüşahidə; b) eksperimental metodlar (laborator, təbii və s.); c) psixodiaqnostik metodlar (testlər, anketlər, sosiometriya, intervü və s.); ç) fəaliyyət prosesləri və məhsullarının təhlili üsulları və ya praksimetrik metodlar (xronometriya, profesioqrafik təsvirlər, məlumatın, görülmüş işin, müxtəlif növlü əsərlərin və s. qiymətləndirilməsi); d) modelləşdirmə (riyazi, kibernetik və s.); e) bioqrafik metodlar (insanın həyat yoluna aid faktların, tarixlərin və hadisələrin, sənədlərin, şəhadətnamələrin və s. təhlili). **Üçüncü qrupda** bu metodlar var: a) kəmiyyət (riyazi-statistik) təhlili; b) keyfiyyət təhlili. **Dördüncü qrup** metodlar **şərh metodları** adlanır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| uzunmüddətli | uzun müddətə verilmiş |
| kompleks | 1) bir vəhdət təşkil edən şeylərin və ya hadisələrin məcmusu; 2) komplekt, dəst; 3) hərtərəfli, tam, bütün |
| təşkilati | təşkil edən |
| qiymətləndirilmə | dəyər verilmə, əhəmiyyət verilmə |
| modelləşdirmə | bir şeyin modelini hazırlama |



| | |
|---|---|
| kibernetik | kibernetikaya aid olan |
| şəhadətnamə | bir şeyi təsdiq edən, bir şeyə icazə verən rəsmi sənəd |
| kəmiyyət | miqdar, qədər, say |
| keyfiyyət | bir şeyi və ya şəxsi fərqləndirən xüsusiyyət |
| şərh | açma, anlatma, izah, bildirmə |
| nəzərdə tutmaq | fikrində tutmaq, haqqında düşünmək |
| müəyyənləşdirmək | müəyyən etmək, dəqiqləşdirmək |
| müddət | vaxt, zaman |
| əldə etmək | qazanmaq |
| eksperiment | 1) təcrübə, sınaq; 2) elmi yoxlama |
| cihaz | hər hansı bir işi görmək üçün alət, mexanizm |
| laboratoriya | elmi və ya texniki təcrübələr aparılan bina və ya otaq |
| formalaşdırıcı | müəyyən forma verən, şəklə salan, təşkil edən |
| fakt | 1) olmuş hadisə, nümunə; 2) reallıq |
| sənəd | rəsmi kağız |
| izləmək | 1) ardınca getmək, axtarmaq; 2) birinin yolu ilə getmək |
| şərait yaratmaq | lazım olan şərtləri vermək, vəziyyəti yaratmaq |
| tətbiq olunmaq | həyata keçirilmək, işlədilmək |
| sınaq | yoxlama, imtahan |
| mütəxəssis | xüsusi biliyi olan adam |

| | |
|---|---|
| kollektiv | adamlar toplusu, bir yerdə işləyən adamlar |
| surətdə | şəkildə, formada |

***Çalışma 2. Hal şəkilçilərini göstərin.***

*Müşahidə metodu* dedikdə, psixi hadisələri izləmək nəzərdə tutulur. Müşahidə psixoloji faktları öyrənmək üçün böyük əhəmiyyətə malikdir. Müşahidə vasitəsilə həm ayrıca bir şəxsin, həm də müəyyən qrupun psixoloji vəziyyəti barədə məlumat əldə etmək mümkündür. Onun köməyi ilə insanın həyatındakı hadisə və dəyişiklikləri müəyyənləşdirmək olar.

***Çalışma 3. q samitinin tələffüzünə və yazılışına diqqət edin.***

*Eksperiment metodu* müşahidədən fərqli olaraq qısa müddətdə daha dəqiq nəticələr əldə etməyə imkan verir. Eksperiment zamanı alim-psixoloq öyrəniləcək adamın tapşırığı yerinə yetirməsi üçün şərait yaradır və həmin şəraiti istədiyi vaxt dəyişir. Eksperimentdə müxtəlif cihazlardan, texniki vasitələrdən, şəkillərdən, mətnlərdən və s. istifadə olunur. Belə eksperimentlər laboratoriyalarda və ya xüsusi otaqlarda aparılır.

***Çalışma 4. Sözləri hecalara ayırın.***

*Təbii eksperiment* ilk dəfə 1910-cu ildə A.F.Lazurski tərəfindən tətbiq olunmuşdur. Təbii eksperimentdə xüsusi eksperimental şərait yaradılmır. Hadisə təbii şəraitdə, məsələn, dərs zamanı öyrənilir.

Psixologiyada eksperimentin xüsusi forması kimi *formalaşdırıcı eksperimentdən* istifadə olunur. Formalaş-



dırıcı eksperiment tədqiqat prosesində şagirdlərin və ya başqa şəxslərin öyrədilməsini, onlarda müəyyən keyfiyyətlərin inkişaf etdirilməsini nəzərdə tutur.

***Çalışma 5. Cümlələri tamamlayın.***

Psixologiyada psixodiaqnostika məqsədilə XIX əsrin sonlarından başlayaraq *testlərdən* ... . Test ingiliscə «sınaq» ... . Psixologiyada da bu mənada ... və fərdi fərqləri öyrənmək məqsədilə ... . Testlər müxtəlif tapşırıq və suallar şəklində mütəxəssislər tərəfindən ... .

**Sözlər:** *deməkdir, işlədilir, tətbiq olunur, istifadə olunur, işlənilir*

***Çalışma 6. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

Psixodiaqnostik met...dlar iç...risində *sosiometriya* mühüm yer tutur. Bu və ya di...ər qrupda insanlar arasında...ı qarşılı...lı münasib...tləri öyrənmə... mə...sədilə ondan istifadə olunur. Sosiometriya amerikalı psixolo... C.Moreno tərəfindən işlənilmiş...ir.

***Çalışma 7. İsmi xəbərləri tapın, hansı sözlərdən düzəldiyini izah edin.***

Şəxsiyyətlər arasındakı münasibətləri öyrənən metodlardan biri də intervüdür. *İntervü* sorğu üsullarından biridir. Mənaca «qarşılaşma», «söhbət», «müsahibə» deməkdir. O daha çox birtərəfli kommunikasiya prosesidir. Bu zaman hər hansı məsələ haqqında müəyyən bir şəxsin fikri soruşulur.

*Çalışma 8. Mötərizədəki sözləri lazım olan formada yazın.*

*Anket sorğusu* zamanı (suallar) yazılı surətdə cavab verilir. Psixologiyada anket (metod) diaqnostik məqsədlə istifadə edilir. Məsələn, şəxsiyyətlərarası (münasibətlər) yaxşılaşdırılması, kollektiv üzvlərinin (fikirləri) öyrənmək üçün anketdən istifadə etmək faydalıdır.

***Çalışma 9. Suallara cavab verin.***

1. Təşkilati metodlar hansılardır? 2. Şərh metodları hansı qrupa daxildir? 3. Müşahidənin əhəmiyyəti nədir? 4. Eksperiment metodunda nədən istifadə olunur? 5. Testlərdən nə məqsədlə istifadə olunur? 6. Sosiometriya, intervü və anket sorğusu metodlarının faydası nədir?

*Çalışma 10. Terminləri öyrənin.*

müşahidə metodu, eksperiment metodu, təbii eksperiment, formalaşdırıcı eksperiment, psixodiaqnostika, sosiometriya, intervü, anket sorğusu



## §9. Psixologiyada statistik (riyazi) metodlar

**Statistik metodlar** dedikdə, tətbiqi riyazi statistickanın psixologiyada istifadə olunan ayrı-ayrı metodları nəzərdə tutulur. Psixologiyada statistik metodların tətbiqi tarixi, əsasən, XIX yüzilliyin 60-cı illərindən başlayır. Bu sahədə aşağıdakı istiqamətlər var: 1) təsviri statistika; 2) statistik nəticə nəzəriyyəsi; 3) eksperimentlərin planlaşdırılması nəzəriyyəsi.

**Alternativ analiz metodu** ilə müxtəlif psixi xassələrin, əlamətlərin, keyfiyyətlərin olub-olmaması kəmiyyət baxımından qiymətləndirilir. Əgər biz həmin psixi xassə, əlamət və keyfiyyətlər arasındakı asılılığı müəyyən etmək istəsək, başqa statistik metoddan – **korrelyasiya analizi metodundan** istifadə etməliyik. **Variasiya analizi metodu** tipik əlamətləri təsadüfi əlamətlərdən fərqləndirmək imkanı verir. **Riyazi psixologiyanın** əsas vəzifəsi riyazi metodların psixologiyada tətbiqi yollarını öyrənməkdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| statistika | hər şeyin miqdarca hesaba alınması |
| tətbiqi | praktik əhəmiyyəti olan |
| riyazi | riyaziyyata aid olan |
| yüzillik | bir əsr |
| istiqamət | bir şeyin hərəkət xətti; cəhət, səmt, tərəf |
| alternativ | bir-birini istisna edən imkanlar |

| | |
|---|---|
| baxımından | nöqteyi-nəzərdən |
| asılılıq | sərbəstliyin, müstəqilliyin olmaması;bir hadisənin başqa hadisəyə münasibəti |
| korrelyasiya | öyrənilən hadisələr arasında statistik əlaqə |
| variasiya | əsas mövzunun müxtəlif variantlarda təkrarlanması |
| təsadüfi | hərdənbir; daimi olmayan; səbəbsiz olan |
| imkan vermək | əlverişli şərait yaratmaq, yol vermək |
| reqressiya | dənizin çəkilməsi halı |
| intellektual | əqli, zehni |
| variant | bir şeyin dəyişmiş şəkli |
| planlaşdırılma | planı çəkilmək |
| əks | 1) şəkil, surət; 2) tərs, zidd |
| əsas | 1) təməl; 2) ən mühüm, zəruri; 3) səbəb |
| görkəmli | 1) görünən; 2) yaxşı; 3) məşhur, tanınmış; 4) mühüm; 5) maraqlı |
| şərtlənmək | 1) şərtlə bağlanmaq; 2) əsas olmaq, səbəb olmaq |
| səciyyəvi | fərqləndirən |

***Çalışma 2. Suallara cavab verin.***

1. Statistik metodlar nədir? 2. Psixologiyada bu metodlar nə vaxt tətbiq olunub? 3. Statistik metodların hansı istiqamətləri var? 4. Metodları izah edin.



***Çalışma 3. Qoşasamitli sözləri tapın, tələffüzünü və vurğusunu dəqiqləşdirin.***

Psixologiya üçün əhəmiyyətli olan *reqressiya və korrelyasiya analizi* ideyası F.Haltonun (1822-1911) diferensial psixologiyaya aid tədqiqatları ilə bağlıdır. İntellektual qabiliyyətləri tədqiq etmək üçün *faktor analizinin* bəzi variantları işlənilmişdir. Psixoloji testlərin keyfiyyətini yoxlamaq üçün bir sıra xüsusi statistik metodlar yaradılmışdır.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

1. *Təsviri statistikaya* əldə ...dilmiş materialın qruplaşdırılması, qrafik əksi və kəmiyy...t təsviri da...ildir. 2. *Statistik nəticə nəzəriyyəsi* psi...oloji tə...qiqatlarda seçilmiş c...hətlərin yo...lanmasının nətic...lərini müəyyənləşdirir. 3. *Eksperimentlərin planlaşdırılması nəzəriyyəsi* də...işənlər arasında səbə... əla...ələrini yoxlayır.

***Çalışma 5. Mötərizədəki sözləri lazım olan formada işlədin.***

*Diferensial psixologiya* insanlar, eləcə də insan (qruplar) arasındakı fərqləri öyrənir. Bu termin ilk dəfə alman (psixoloq) V.Şternin «Fərdi fərqlər psixologiyası» haqqındakı əsərində təklif olunur. Lakin (o) əsasları xeyli əvvəl – XIX yüzilliyin 80-ci illərində F.Halton tərəfindən işlənilmişdir. V.Vundt ümumi (psixologiya), F.Halton isə diferensial (psixologiya) banisi hesab olunur.

*Çalışma 6. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.*

Diferensial psixologiyanın ... metodu testlərdən ibarət idi. Onlar ... fərdi, ... isə qrup testləri kimi tətbiq olunurdu. Testlərdən fərdin əqli ... səviyyəsini müəyyən etmək üçün istifadə edilirdi. Testlərin ... faktor təhlili yolu ilə müəyyən olunur. Bu yeni istiqamətin ... görkəmli nümayəndələri içərisində A.Bine, A.Lazurski, C.Kettel və başqaları yer tutur.

**Sözlər:** *nəticələri, sonralar, əsas, mühüm, əvvəlcə, ilk, inkişaf*

***Çalışma 7. Qara hərflərlə verilmiş sözləri izah edin.***

Psixologiya sahəsində C.Spirmenin iki **amil** nəzəriyyəsi və multifikator nəzəriyyəsi daha geniş yayılmışdır. *İki amil nəzəriyyəsinə* görə, **fəaliyyətin** hər bir **növü** iki amillə – ümumi və xüsusi faktorla şərtlənir. Ümumi amil fəaliyyətin bütün növləri, xüsusi faktor isə konkret (musiqi, rəssamlıq, bədii yaradıcılıq və s.) fəaliyyət sahəsi üçün **səciyyəvidir**. *Multifikator* (latınca multum – çox deməkdir) *nəzəriyyəsi* ümumi amili inkar edir. **Həmin** nəzəriyyəyə görə, əqli **qabiliyyətlər** müxtəlif amillərlə şərtlənir.

***Çalışma 8. Aşağıdakı sözləri izah edin.***

müşahidə, proses, qavrayış, psixika, fəaliyyət, daşımaq

***Çalışma 9. Terminləri öyrənin.***

statistik metod, təsviri statistika, statistik nəticə, eksperimentlərin planlaşdırılması, alternativ analiz metodu, korrelyasiya analizi metodu, variasiya analizi metodu, riyazi psixologiya, reqressiya, multifikator, diferensial psixologiya



## §10. Şəxsiyyət, fərd və fərdiyyət anlayışları

Psixologiya insanı fərd və şəxsiyyət kimi öyrənir. Hər bir insan həm bioloji, həm də sosial varlıqdır. Onun bioloji varlıq kimi psixoloji xüsusiyyətlərini «fərd» termini ilə ifadə edirlər. **Fərd** özünəməxsus psixoloji xüsusiyyətləri olan, heç kəsə oxşamayan təbii varlıq deməkdir. İnsan fərd kimi doğulur, cəmiyyətdə müəyyən sosial keyfiyyətlər kəsb edir və şəxsiyyətə çevrilir. **Şəxsiyyət** dedikdə, fərdi hər hansı cəmiyyətin üzvü kimi xarakterizə edən sosial keyfiyyətlərin sistemi nəzərdə tutulur. **Fərdiyyət** insanı başqalarından fərqləndirən fərdi xüsusiyyətlərin özünəməxsus birləşməsidir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| özünəməxsus | özünə aid olan; orijinal |
| oxşamaq | 1) bənzəmək; 2) öz sevgisini ifadə etmək |
| kəsb etmək | əldə etmək, öyrənmək, qazanmaq |
| xarakterizə etmək | səciyyələndirmək; fərqləndirici xüsusiyyətlərini müəyyənləşdirmək |
| şüur | düşüncə; dərk etmək, anlama qabiliyyəti; ağıl |
| fəallıq | çalışqanlıq, aktivlik |
| tələbat | tələb; tələb olunan şeylər |
| əqidə | 1) etiqad, məslək; 2) fikir |
| orqanizm | hər cür canlı vücud |

| | |
|---|---|
| nəzərə almaq | fikrində tutmaq, haqqında düşünmək |
| sinir sistemi | əsəb sistemi |
| iqlim | bir ölkənin, bir yerin meteoroloji (havası, suyu və s.) xüsusiyyətləri |
| əlaqələndirmək | əlaqədar etmək, bir-biri ilə bağlamaq, uyğunluq yaratmaq |
| irsiyyət | orqanizmin öz əcdadından aldığı təbii xüsusiyyətlərin məcmusu |
| səy | çalışma, cəhd |
| impulsiv | ilk daxili səbəbin (impulsun) təsiri altında olan |
| zəmin | 1) şərait, mühit, vəziyyət, imkan; 2) yer, torpaq |
| vasitəsiz | vasitəsi olmayan, arada heç bir vasitə olmayan |
| manipulyasiya | 1) əlin bir işlə bağlı hərəkəti; 2) fırıldaq, hiylə |
| mənimsəmək | 1) bir işi öyrənmək; 2) başqasının malına yiyələnmək; 3) öyrənərək yadda saxlamaq |
| nəzəriyyə | ideyalar sistemi, elmi sistem |
| ifadə etmək | demək, söyləmək, bildirmək |
| qavrama | başa düşmə, anlama, dərk etmə |
| məcmu | bütün, tamam, hamı |
| münasibət | uyğunluq, qarşılıqlı əlaqə, yaxınlıq |



***Çalışma 2. Səhvləri düzəldin.***

Şəxsiyyəti xaraqterizə edən iki cəhət var: a) insanın mahiyəti ictimayi münasibətdərin məcmusundan ibarəttir. İnsan cəmiyətin üzvü kimi ictimayi münasibətdər sisteminə daxil olur; b) şəxsiyyət ictimayi praseslərə daxil olmakla öz həyat şərayitini fəyal surətdə dəyişməyə başdıyır. O, münasibət subyektinə, şüurru fəaliyət subyektinə çevrilir. Şəxsiyyət ancak şuur və mənlik şüurunun yaranması ilə birlikdə əmələ gəlir.

***Çalışma 3. Söz birləşmələrini tapın.***

Şəxsiyyət müxtəlif xüsusiyyətlərə malikdir: 1) *ictimai fəallıq* – şəxsiyyət öz fəaliyyət dairəsini genişləndirir, həyat şəraitini dəyişdirir; 2) *motivlərin davamlı sistemi* – motivlərin, yəni maraqlar, əqidə və s. sistemi formalaşır və onlar şəxsiyyətin istiqamətini müəyyən edir; 3) *şəxsi məna* – şəxsiyyətin tələbatına və s. uyğun gələn obyektlər onun üçün şəxsi məna kəsb edir; 4) *münasibətlər* – insanın başqa adamlara, əməyə, şeylərə münasibətləri onun şəxsiyyətini xarakterizə edir.

***Çalışma 4. Konkret isimləri göstərin.***

Şəxsiyyətin inkişafının ilkin təbii şərtləri dedikdə, ətraf mühitin ümumi amillərini nəzərə almaq lazımdır. İnsan hansı iqlim şəraitində, harada yaşayırsa, onun həyat tərzində, mənzil şəraitində özünəməxsus cəhətlər əmələ gəlir. Bu şərtlər kimi onun orqanizminin xüsusiyyətləri, əsasən mərkəzi sinir sisteminin xüsusiyyətləri daha mühüm əhəmiyyətə malikdir.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.***

*Endogen* (yunanca endon – daxili, genes – mənşə deməkdir) nəzəriyyə... şəxsiyyətin inkişafı... bioloji amil...lə əlaqələndirir, irsiyyətin roluna xüsusi əhəmiyyət verir. *Ekzogen* (yunanca exo – xarici deməkdir) nəzəriyyə...də insan «tabula-rasa»ya (ağ lövhə...) bənzədilir, şəxsiyyət... formalaşması ancaq sosial amillərin: mühit və tərbiyə... təsiri ilə izah olunur.

***Çalışma 6. Altından xətt çəkilən şəkilçilər hansı kateqoriyaya aiddir?***

Müasir psixologiyada belə bir fikir var ki, insanın şəxsiyyəti «endopsixi» və «ekzopsixi» cəhətlərə bölünür. Qavrama qabiliyyəti, təfəkkür və təxəyyülün xüsusiyyətləri, iradi səy, impulsivlik və s. kimi əlamətlər *«endopsixikaya»*, şəxsiyyətin münasibətlər sistemi və təcrübəsi, yəni maraqları, meyilləri, idealları, hissləri, bilikləri və s. isə *«ekzopsixikaya»* daxildir.

***Çalışma 7. Əvəzlikləri göstərin.***

Mühitin təsirləri uşağın öz inkişaf səviyyəsindən, psixoloji xüsusiyyətlərindən asılı olaraq dəyişilir. Uşaqların inkişaf səviyyəsindən asılı olaraq mühitin eyni bir elementi onlara müxtəlif formalarda təsir göstərir. Müxtəlif inkişaf səviyyəsində olan iki uşaq hətta eyni şəraitdə böyüsələr də, onu eyni şəkildə başa düşmürlər; mühit onlar üçün eyni məna kəsb etmir, bu zəmində də uşaqla «ətrafdakı mühit» arasında özünəməxsus münasibət əmələ gəlir.



***Çalışma 8. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.***

Fəaliyyət şəxsiyyətin formalaşmasının ... şərtlərindən biridir. Fəaliyyətin ... növləri vardır: a) *vasitəsiz emosional ünsiyyət* körpənin anası ... özünəməxsus dialoqudur; b) *əşyavi-manipulyativ fəaliyyət* prosesində uşaq şeylərin xassələrini ...; c) *rollu oyunlar* insan ... mənimsənilməsi prosesidir; ç) *təlim fəaliyyətində* uşaqlar ... təcrübəni mənimsəyirlər; d) *intim-şəxsi ünsiyyət.* Getdikcə uşaqların həyatında yoldaşın rolu artır.

**Sözlər:** *dərk edir, əsas, ilə, müxtəlif, ictimai, münasibətlərinin*

***Çalışma 9. Suallara cavab verin.***

1. «Bioloji varlıq» və «sosial varlıq» anlayışlarını necə başa düşürsünüz? 2. Şəxsiyyəti hansı cəhətlər xarakterizə edir? 3. Şəxsiyyətin hansı xüsusiyyətləri var? 4. Şəxsiyyətin inkişafının ilkin şərtlərinə nə aiddir? 5. «Endogen» və «ekzogen» nəzəriyyələri izah edin. 6. Uşağa mühit necə təsir edir? 7. Fəaliyyətin hansı növləri var?

***Çalışma 10. Terminləri öyrənin.***

fərd, şəxsiyyət, fərdiyyət, ictimai fəallıq, motivlərin davamlı sistemi, şəxsi məna, münasibətlər, endogen, ekzogen, endopsixi, ekzopsixi, vasitəsiz emosional ünsiyyət, əşyavi-manipulyativ fəaliyyət, rollu oyunlar, təlim fəaliyyəti, intim-şəxsi ünsiyyət

## §11. Tələbatlar

Hər hansı bir canlı varlıq kimi insan da yaşamaq və inkişaf etmək üçün öz ehtiyaclarını təmin etməlidir. İnsanın ehtiyacları onun üçün psixoloji məna kəsb edir və tələbatlar kimi təzahür edir. Tələbat geniş anlayışdır. **Tələbatlar** insanın ehtiyacları ilə yanaşı, həm də onun öz ehtiyaclarına münasibətini əks etdirir. Tələbatlar insanın konkret həyat şəraitindən asılılığını ifadə edir, onun bu şəraitdə aktivliyini şərtləndirir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| varlıq | 1) olma, var olma; 2) var olan şeylər, təbiət, dünya; 3) bolluq; 4) vücud, bədən |
| inkişaf etmək | 1) irəliləmək, tərəqqi etmək, artmaq, yüksəlmək, genişlənmək; 2) kamilləşmək, yetkinləşmək; 3) böyümək, yetişmək, möhkəmlənmək |
| ehtiyac | 1) hər hansı bir şeyə olan tələbat, gərəklik; 2) yoxsulluq |
| təmin etmək | 1) lazım olan bütün şeyləri vermək; 2) bir şeyi həyata keçirmək üçün lazımi şərait yaratmaq |
| kəsb etmək | 1) çalışıb qazanmaq, gəlir götürmək; 2) əldə etmək, qazanmaq, öyrənmək |
| təzahür etmək | üzə çıxmaq, özünü göstərmək |
| tələbat | tələb, tələb etmə, tələb olunan şeylər |



| | |
|---|---|
| münasibət | 1) iki şey arasındakı uyğunluq; 2) qarşılıqlı əlaqə, yaxınlıq |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| şərait | 1) vəziyyət; 2) şərtlər |
| şərtləndirmək | 1) şərt qoymaq; 2) bir şeyin əmələ gəlməsinə səbəb olmaq |
| ifadə olunmaq | söylənmək, deyilmək, izah olunmaq |
| məzmun | mətləb, mövzu, bir şeyin mənası |
| asılı olmaq | bir səbəblə əlaqədar olmaq |
| əvəz etmək | 1) yerini tuta bilmək; 2) ardınca gəlmək; 3) dəyişdirmək |
| boğmaq | 1) boğazı sıxmaqla nəfəsini kəsmək; 2) əl, ip və s. ilə sıxmaq; 3) inkişaf etməyə qoymamaq |
| mənbə | 1) qaynaq, bulaq; 2) başlanğıcı təşkil edən şey |
| malik olmaq | sahib olmaq |
| vasitə | üsul, yol |
| növ | çeşid, bir şeyin variantı, tipi |
| mənşə | bir şeyin çıxdığı, törədiyi yer |
| üzvi | canlı, orqanik |
| cins | canlı vücudların iki kateqoriyasından biri (qadın və kişi) |
| hesab olunmaq | sayılmaq, bilinmək |
| zərər çəkmək | maddi itki vermək |
| dinamik | daim hərəkətdə olan |
| iyerarxiya | bütöv bir sistemin hissələrinin aşağıdan yuxarıya yerləşməsi |

| | |
|---|---|
| zənginləşmək | 1) varlanmaq, varlı olmaq; 2) biliyi artmaq, kamilləşmək |
| tamaşa | 1) baxıb seyr etmə; 2) teatrda və s.-də göstərilən şey |
| maddi | 1) fiziki; 2) pula aid olan |
| mədəni | 1) mədəniyyətin yüksək dərəcəsində olan, tərbiyəli; 2) mədəniyyətə aid olan |
| mənəvi | insanın daxili aləmi ilə bağlı olan |
| məhv olmaq | yox olmaq |
| istehsal | hazırlama |
| ibtidai | 1) ilk; 2) inkişaf etməmiş; 3) başlanğıc; 4) primitiv |
| ali | 1) ən yüksək, ən yuxarı; 2) uca, hündür; 3) ən inkişaf etmiş |
| təşkil etmək | yaratmaq |
| əsasında | bir şeyin mənbəyi olmaq |
| əlaqədar | əlaqəsi, münasibəti olan, bağlı, aidliyi olan |
| zəruri | 1) ən lazımlı, ən vacib; 2) məcburi, mütləq |

***Çalışma 2. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

İnsa...ın tələbatl...rı müxtəlif...ir. Lakin onların aktuallaşması konkret həyat şəraitin...ən asılıdır. İnsa...ın yeyib-içmə...ə, mənzilə, geyimə və s. tələbatl...rı da konkret həyat şəraitin...ən asılı olara... müxtəlif məzmun və formal...rda ifad... olunur.



***Çalışma 3. Əvəzlikləri tapın, növünü müəyyənləşdirin.***

İnsan öz tələbatlarını təmin etməlidir. Əgər belə bir imkan yoxdursa, o, tələbatı başqası ilə əvəz etməli və ya onu boğmalıdır. Özünün bu xüsusiyyətlərinə görə tələbatlar konkret istiqamətə malik olur. İnsan onları təmin etmək üçün üsul və vasitələr axtarmalıdır. Şəxsiyyətin fəallığının mənbəyini tələbatlar təşkil edir.

***Çalışma 4. İsmi xəbərləri tapın, necə düzəldiyini izah edin.***

Tələbatların müxtəlif növləri vardır. *Mənşəyinə* görə tələbatların *təbii (üzvi)* və *mədəni* növləri məlumdur. Bütün adamlarda yeməyə, yuxuya, əks cinsə, soyuqdan və ya istidən qorunmağa və s. tələbat vardır. Bunlar təbii tələbatlardır. Mədəni tələbatların növləri genişdir. Çəngəl və bıçaqdan istifadə etmək, dişləri yumaq, evi bəzəmək, hər hansı bir əsəri əldə etmək və s. onun növləridir.

***Çalışma 5. Qara hərflərlə verilmiş sözlər ismin hansı halındadır?***

Tələbatlar **predmetinə** görə iki **yerə** – maddi və mənəvi **tələbatlara** bölünür. **Qidaya, geyimə, mənzilə,** məişət **şeylərinə** və s. olan tələbatlar **predmetinə** görə maddi tələbatlar hesab olunur. Mənəvi **tələbatlara** isə aşağıdakıları misal göstərmək olar: əmək, ünsiyyət, qəzet və jurnal oxumaq, rəsm **əsərlərinə**, təbiət **mənzərələrinə, kinoya** və **tamaşalara** baxmaq, musiqi dinləmək və s.

*Çalışma 6. Səhvləri düzəldin.*

Təbiyi tələbatdara *vital* (latınca vitalis – həyati deməkdir) tələbatdar deyilir. Onnar insanın həyat fəaliyəti üçün zəruritir. Əgər təbiyi tələbatdar, xüsusilə yeməyə, yuxuya və s. tələbatdar təmin oluna bilməzsə, insan məhf olar. Mədəni və mənəvi tələbatdar təmin edilmədiydə ondaki insani cəhətdər citdi zərər çəkir.

*Çalışma 7. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.*

Tələbatlar … xarakter daşıyır. … fəaliyyət və ünsiyyət sahəsi genişləndikcə onlar da dəyişir. Tələbatların inkişafı istehsalın inkişafı ilə … . Məsələn, televizor və ya telefon olmadığı dövrdə … tələbat yox idi. Lakin bunların istehsalından sonra … yarandı. Bu da televizor və ya telefon istehsalını … . Deməli, tələbat olmasa, istehsal da olmaz.

**Sözlər:** *bağlıdır, insanın, genişləndirdi, dinamik, bunlara tələbat*

*Çalışma 8. Nöqtələrin yerinə lazım olan şəkilçiləri qoyun.*

Tələbat… iyerarxiya təşkil edir. Onun aşağı səviyyələri… ibtidai, yuxarı səviyyələri… ali tələbatlar təşkil edir. Genetik baxımdan maddi (təbii) tələbatlar birinci…, mənəvi və mədəni tələbatlar on…ın əsasında formalaşır. Mənəvi və mədəni tələbatlar maddi tələbatlarla sıx əlaqədar…. Ali tələbatlar… təmin olunması şəxsiyyətin daxili aləmi… zənginləşməsinin zəruri şərti….



*Çalışma 9. Suallara cavab verin.*

1. Tələbat nədir? 2. Tələbatların hansı növləri var? 3. Tələbatların istehsalla əlaqəsi necədir? 4. Tələbatların təmin edilməsi nə üçün lazımdır?

*Çalışma 10. Terminləri öyrənin.*

tələbat, təbii tələbat, maddi tələbat, üzvi tələbat, mədəni tələbat, mənəvi tələbat, vital tələbat, ibtidai tələbat, ali tələbat, sadə tələbat

## §12. Motivlər

**Motiv** dedikdə (latınca movere – hərəkətə gətirmək, itələmək deməkdir) insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur. Bu, tələbatların təmin olunması ilə əlaqədardır. Motivin əsas funksiyaları **təhriketmə** və **istiqamətləndirmədir**. Motiv insanı fəaliyyətə təhrik edir və onun fəaliyyətinin istiqamətini müəyyənləşdirir.

Motivlər çoxdur. Lakin motivlərdən biri əsas, aparıcı, digəri isə ikinci dərəcəli olur. Şəxsiyyət üçün həyatının mənasına çevrilən motivlər əsas motivlərdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| motiv | musiqi və ya başqa sənət əsəri mövzusunun əsas ünsürü |
| təhrik etmək | bir işi görməyə həvəsləndirmək |
| təmin olunmaq | lazım olan bütün şeylərin verilməsi, lazımi şəraitin yaradılması |
| ikinci dərəcəli | əlavə |
| müəyyənləşdirmək | müəyyən etmək, təyin etmək, aydınlaşdırmaq, dəqiqləşdirmək |
| təlim | öyrətmə, dərs vermə, oxutma |
| idrak | dərk etmə qabiliyyəti |
| fənn | elm, bilik sahəsi, tədris obyekti |
| tədris | dərs vermə, dərs oxuma, təhsil alma |
| davamlı | dözümlü, möhkəm |
| modallıq | nitqin məzmununun gerçəkliyə münasibətini bildirən qrammatik kateqoriya |



| | |
|---|---|
| doymaq | lazımınca yemək |
| səy | çalışma, cəhd |
| əldə etmək | tapmaq, qazanmaq, ələ keçirmək |
| nəzarət etmək | nəzər yetirmək, baxmaq, üstünə göz qoymaq |
| təsir göstərmək | təsiri olmaq, nüfuz etmək |
| kəsb etmək | çalışıb qazanmaq, əldə etmək, öyrənmək, qazanmaq |
| əhəmiyyətli | əhəmiyyəti olan, mühüm |
| yönəlmək | 1) istiqamət almaq, yanaşmaq, yanına getmək; 2) üzünü çevirmək, dönmək |
| situativ | vəziyyətlə, şəraitlə əlaqədar olan |
| çalar | 1) rəng müxtəlifliyi; 2) azacıq fərq, incəlik |
| doymamaq | 1) ac olmaq; 2) bezməmək |
| səylə | inadla, gərgin, cəhdlə |
| yerinə yetirmək | icra etmək, həyata keçirmək |
| fakt | 1) olmuş hadisə, nümunə; 2) reallıq |
| deduktiv | deduksiyaya (xüsusi nəticəyə gəlmə) əsaslanan |
| ətraflı | hərtərəfli, geniş |

***Çalışma 2. Səhvləri düzəldin.***

*Təlim motivleri* iki qurupa bölünür: *idrak motivleri* və *sosyal motivler*. Əyər şagirdin fəallığı ayrı-ayrı fənnərin (Azərbaycan dili, riyaziyyat, tarix, kimya və s.) tedrisi

prasesində öyrənilən abyektlərə yönəlmişdirsə, bu idrak motivleridir. Əyər təlim prasesində şagirdin fəallığı başka adamlarla münasibət sahəsinə yönəlirsə, bu, sosyal motivlerdir.

***Çalışma 3. Motivlərin formalarını öyrənin.***

Motivlərin formaları bunlardır: 1. *Motivlərin davamlılığı.* Motivlər davamlı və situativ ola bilər. 2. *Motivlərin emosional çalarları* və ya *modallığı.* Motivlər həmişə müsbət və mənfi xarakterli emosiyalarla müşahidə olunur. 3. *Motivlərin qüvvəsi və ifadə xüsusiyyətləri.* Motivlər güclü olduqda şagird saatlarla işləməkdən doymur, ev tapşırıqlarının hamısını səylə yerinə yetirir.

***Çalışma 4. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

İdrak motivlərinin növləri bunlardır: 1) *geniş idrak motivləri* (şagird ... fənlərdə yeni faktlar, ... məsələlər, deduktiv nəticələr və s. ilə maraqlanır); 2) *tədris-idrak motivləri* (şagirddə bir və ya ... fənnə maraq əmələ gəlir, o, müvafiq fənləri daha ... öyrənməyə başlayır); 3) *özünütəhsil motivləri* (şagird maraqlandığı fənlər üzrə ... surətdə yeni biliklər əldə etməyə başlayır).

**Sözlər:** *nəzəri, bir neçə, müstəqil, bütün, ətraflı*

***Çalışma 5. "Cisim" və "əmək" sözlərini hallandırın.***

***Çalışma 6. Məsdərləri tapın.***

1. Motivlərin formalaşması və inkişafı prosesinə *motivasiya* deyilir. 2. *Mənaverma, mənalandırma* yalnız insana məxsus funksiyadır. 3. Şəxsi mənanın əmələ gəlməsinə nəzarət etmək və ancaq söz vasitəsilə təsir göstərmək mümkün deyildir. 4. Hər hansı bir şeyin əldə edilməsi şəxsi məna kəsb edirsə, həmin şey şəxsiyyət üçün əhəmiyyətli olur.



***Çalışma 7. Fellərin qarşılığını tapın.***

| | |
|---|---|
| şadlanmaq – ... | əmələ gəlmək – ... |
| başa düşmək – ... | ucalmaq – ... |
| xoşa gəlmək – ... | bitmək – ... |

***Çalışma 8. Söz birləşmələri düzəldin.***

| | |
|---|---|
| fəaliyyət | xüsusiyyətlər |
| insan | inkişafı |
| sosial | prosesi |
| şəxsiyyətin | mövqe |
| fərdi | tələbatları |

***Çalışma 9. Suallara cavab verin.***

1. Motiv nədir? 2. Motivin hansı funksiyaları var? 3. Təlim motivləri neçə qrupa bölünür? 4. Motivlərin hansı formaları var? 5. İdrak motivlərinin növlərini göstərin. 6. Motivasiya nədir?

***Çalışma 10. Terminləri öyrənin.***

motivlər, tələbatlar, təhriketmə, istiqamətləndirmə, təlim motivləri, idrak motivləri, sosial motivlər, motivlərin davamlılığı, motivlərin modallığı, motivlərin qüvvəsi, geniş idrak motivləri, tədris-idrak motivləri, özünütəhsil motivləri, motivasiya, mənavermə

## §13. Emosiyalar və hisslər

**Hiss və emosiya** insanın dərk etdiyi cisim və hadisələrə, başqa adamlara, özünün rəftar və davranışına, fikir və arzusuna bəslədiyi münasibəti ifadə edən psixi prosesdir. Hisslər ətraf aləmdə baş verən hadisələrin insan həyatı üçün faydalı və ya təhlükəli olması barədə xəbər verir. Bu onun siqnal funksiyasıdır. Hisslər insanın hərəkət və fəaliyyətinin motivi kimi, onları müəyyən istiqamətə yönəldə bilir. Bu cəhət hisslərin **tənzimetmə funksiyası** ilə bağlıdır. Emosiya üzvi tələbatların, məsələn, yeməyə, təmiz havaya, suya və s. olan ehtiyacların ödənilməsi ilə əlaqədardır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| hiss | duyğu |
| emosiya | həyəcan, təəssürat |
| rəftar | birisinə və ya bir şeyə qarşı münasibət, davranış, hərəkət |
| davranış | hərəkət, rəftar |
| tənzim etmək | nizama salmaq, qaydaya salmaq |
| üzvi | 1) canlı, orqanik; 2) daxili; 3) tamın hissələri |
| ödənilmək | 1) başqasından alınan şeyi qaytarmaq, vermək; 2) təmin edilmək |
| stereotip | mətbəə naboru surəti |
| törəmə | 1)nəsil; 2) bir proses nəticəsində əmələ gələn şey |



| | |
|---|---|
| şaxə | ağacdan, koldan ayrılan budaq, qol |
| ifadəli | yaxşı və aydın ifadə edən, olunan; daxili keyfiyyətləri əks etdirən |
| intonasiya | səs tonunun ucalıb-alçalması, ton, tələffüz xüsusiyyəti |
| tembr | səs çaları, ton |
| törəmək | əmələ gəlmək, baş vermək, meydana gəlmək, doğmaq |
| çəkindirmək | pis bir işdən saxlamaq, qaytarmaq |
| qütb | bir-birinə zidd olan cəhətlərdən hər biri |
| münasibət bəsləmək | yaxınlıq duymaq |
| baş verən | əmələ gələn, meydana gələn, olan |
| faydalı | xeyirli, yaxşı nəticə verən |
| təhlükəli | təhlükəsi olan, qorxulu |
| məhsul | 1) torpaqda yetişdirilənlər, sənayedə hazırlananlar; 2) bir şeyin nəticəsi |
| pozulma | 1) silinmə; 2) pisləşmə; 3) qarışma |
| tonus | 1) sinir sisteminin, əzələnin fəaliyyəti; 2) fəaliyyət |
| formasiya | inkişaf mərhələsi |
| məzmun | mövzu, əsas məna |
| ahəng | 1) uyğunluq; 2) gözəl səs, ton; |

| | |
|---|---|
| | 3) nəğmə, mahnı |
| fasilə | 1) tənəffüs, aravermə; 2) məsafə, ara |
| kədər | qəm, dərd |
| gümrahlıq | sağlamlıq, qıvraqlıq |
| nifrət | 1) dərin narazılıq; 2) sonsuz qəzəb |

***Çalışma 2. Dodaq ahəngi pozulan sözləri tapın.***

1. Hissin obyekti ətrafdakı cisim və hadisələr, başqa adamlar, onun subyekti şəxsiyyətin özüdür. 2. Hisslər beyinin məhsuludur. 3. Hisslərin əmələ gəlməsində dinamik stereotipin yaranması və ya pozulması halı mühüm rol oynayır. 4. İnsanın emosional tonusu törəməli şaxənin – *retikulyar formasiyanın* vəziyyətindən asılıdır.

***Çalışma 3. Söz birləşmələrini seçin.***

Müxtəlif hisslər baş verəndə bədəndə müəyyən üzvi dəyişikliklər əmələ gəlir. Belə dəyişikliklər *hisslərin xarici ifadəsi* adlanır. Bu ifadəyə görə insanda hansı hissin baş verdiyini təyin etmək mümkündür. Hisslər daha çox *ifadəli hərəkətlərdə* təzahür edir. İnsanın mimikasına (üzün ifadəli hərəkətlərinə), pantomimikasına (bədən üzvlərinin ifadəli hərəkətinə), səsin intonasiya və tembrinə görə onun hisslərini təyin etmək olar.

***Çalışma 4. Mənsubiyyət şəkilçilərini tapın.***

Hisslər insanın nitqində də ifadə olunur. Bunun üçün ifadələrin düzgün seçilməsi, sözlərin xüsusi şəkildə tələffüzü, mimikanın, pantomimikanın nitqin məzmununa, ahənginə uyğun gəlməsi də vacibdir. Buraya intonasiya,



danışıq sürəti, vurğunun yerində işlədilməsi, sözlər arasındakı fasilə və s. daxildir.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

1. İnsan hissləri üçün onun ...eçmiş təcrübəsi, ictimai-siyasi h...yat tərzi, ad...t et...iyi rəftar və davranışı müh...m rol oynayır. 2. İnsan emosiyaları...da ifadə olunan münasib...t həmişə şəxsi ...arakter daşıyır. 3. İnsanda hisslər yaşın artma...ı, görüş dairəsinin genişl...nmə...i, h...yat təcrübəsinin zənginləşmə...i ilə əlaqədar dəyişilir. 4. Hisslərin mənbə...i obyekti... aləmdir.

***Çalışma 6. İsmi xəbərləri göstərin, necə əmələ gəldiyini izah edin.***

1. Emosiyalar daha sadə hissi haldır. 2. Emosiya heyvanlarda da vardır. 3. İnsan ictimai varlıqdır. 4. Hisslər insanın ali tələbatları, mürəkkəb ictimai münasibətləri ilə bağlı olduğu üçün yalnız insana məxsusdur. 5. Hisslər insanın fəaliyyəti ilə bağlıdır.

***Çalışma 7. Mötərizədəki sözləri lazım olan formada işlədin.***

İnsan hissləri müəyyən fəaliyyət prosesində törəyib (cərəyan etmək). Hisslər (fəaliyyət) motivi kimi insanı bu və ya digər fəaliyyətə təhrik edə, yaxud fəaliyyətdən çəkindirə bilər. Bu cəhətdən hisslər fəal – *stenik* və qeyri-fəal – *astenik* olmaqla iki (qrup) ayrılır. Stenik hisslər orqanizmin həyat (fəaliyyəti) yüksəldir, onun (qüvvəsi) artırır. Astenik hisslər orqanizmin həyat (fəaliyyəti) zəiflədir, (enerjisi) azaldır.

*Çalışma 8. Əks mənalı sözləri tapın, izah edin.*

İnsan bu və ya digər cismə, hadisəyə ya müsbət, ya da mənfi münasibət bəsləyə bilər. Bu cəhətdən insan hissləri həmişə bir-birinin əksi olur. Bu, *hisslərin qütblüyü* adlanır. Məsələn, gümrahlıq – yorğunluq, sevinc – kədər, məhəbbət – nifrət və s. İnsanın keçirdiyi hisslər zəif və qüvvətli ola bilər. Məsələn, həddən artıq şadlıq, kədər qüvvətli hissdir.

*Çalışma 9. Bacarmaq və zəifləmək fellərini indiki zamanda şəxsə görə dəyişin.*

*Çalışma 10. Suallara cavab verin.*

1. Hiss və emosiya necə prosesdir? 2. Hisslərin neçə funksiyası var? 3. Hisslər necə ifadə olunur? 4. Fəal və qeyri-fəal hisslər özünü necə göstərir? 5. Hisslərin qütblüyü nədir?

*Çalışma 11. Terminləri öyrənin.*

hiss, emosiya, siqnal funksiyası, tənzimetmə funksiyası, törəməli şaxə, retikulyar formasiya, hisslərin qütblüyü, stenik hisslər, astenik hisslər, hisslərin xarici ifadəsi, ifadəli hərəkətlər, dinamik stereotip



## §14. Emosional halətlər

Hisslər qüvvə, davamlılıq və sürətə görə müxtəlif növlərə ayrılır. Bunlar insanın **emosional haləti** adlanır. İnsanda əmələ gələn, günlərlə, hətta bəzən həftələrlə davam edən emosional halətlər onun əmək məhsuldarlığına, psixi sağlamlığına təsir göstərir. Həmin halətlər bunlardır: əhval, affektlər, ehtiras, stress, frustrasiya

*Çalışma 1. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| davamlılıq | dözümlülük, möhkəmlik |
| məhsuldarlıq | məhsul vermə qabiliyyəti |
| cəmləşmək | bir yerə toplanmaq, yığılmaq |
| iradi | iradəyə aid, iradə ilə bağlı olan |
| təhrik etmək | bir iş görməyə həvəsləndirmək |
| aradan qaldırmaq | yox etmək, ləğv etmək, ortadan qaldırmaq |
| cərəyan etmək | 1) keçmək, axmaq, hərəkət etmək; 2) baş vermək, olmaq |
| qıcıqlayıcı | qıcıqlandıran |
| lazımi | lazım olan |
| təlatüm | tufan, dalğalanma |
| qeyz | hirs, qəzəb |
| öhdəsindən gəlmək | bir işi yerinə yetirməyə gücü çatmaq, bacarmaq |
| təzahür etmək | üzə çıxmaq, özünü göstərmək |
| xəyali | qeyri-həqiqi, təsəvvür edilən |
| nahaq | haqsız, ədalətsiz, boş yerə |

| | |
|---|---|
| sarsıntı | 1) bərk zərbə nəticəsində tərpənmə, titrəyiş; 2) həyəcan |
| nevroz | mərkəzi sinir sistemi xəstəliyi |
| cəhd | ciddi çalışma, səy, məqsəd |
| səbəb | bəhanə, əsas |
| kifayət qədər | lazımi qədər |
| həddən artıq | çox, hədsiz |
| kəskin | 1) iti; 2) şiddətli, güclü; 3) qıcıqlandırıcı; 3) gərgin, ağır; 4) kobud |
| pozucu | 1) qaydasızlıq edən; 2) dağıdıcı |
| şüurlu | 1) şüuru olan, düşüncəli; 2) şüurla bağlı olan; 3) qəsdən |
| bayılmaq | özündən getmək |
| gözlənilməz | xəbərsiz, əvvəlcədən bilinməyən |
| inciklik | küsmə, narazılıq |
| maneə | çətinlik |
| inamsızlıq | inam, etibar yoxluğu |
| nəzərə çarpmaq | görünmək |
| ocaq | 1) od yandırılan yer; 2) mərkəz, mənbə |
| coşqun surətdə | qızğın, güclü, həyəcanlı |
| törətmək | əmələ gətirmək, yaratmaq |

***Çalışma 2. Köçürün. Əvvəlcə birhecalı, sonra ikihecalı, daha sonra çoxhecalı sözləri seçin.***

*Ehtiras* – qüvvətli, uzunmüddətli və dərin hissdir. Ehtiras insan şüurunun, daxili qüvvələrinin cəmləşməsində, vahid məqsədə yönəlməsində öz əksini tapır. Bu zaman hisslər iradi cəhd ilə birləşir, adamı müəyyən çətinlikləri aradan qaldırmağa təhrik edir.



***Çalışma 3. Cingiltili samit ahəngi olan sözləri seçin.***

Ehtiras insanı həmişə fəallaşdıra bilmir. Ehtiras ikili xarakterdə olur: insanın qüvvəsini ya zəiflədir, ya da artırır. O, çox böyük qüvvəyə malik olur. Ehtiraslar mənfi və müsbət ehtiraslara bölünür. İnsanın qumara, spirtli içkilərə, pula, varlanmağa və s. olan ehtirası mənfi ehtiraslardır. Elmə, musiqiyə, incəsənətə, zəhmətə və s. olan ehtiras müsbətdir.

***Çalışma 4. Köçürün. Vurğulu hecaların altından xətt çəkin.***

*Əhval* – çox zəif cərəyan edən emosional halətdir. Əhvallar xeyli müddət: həftələrlə, aylarla davam edə bilər. Əhvalın bəzən səbəbi tam aydın olmur. Onu çox zəif qıcıqlayıcılar belə, dəyişə bilir. Əhval insanın təsəvvür və düşüncəsinə, onların məzmun və istiqamətinə, ətraf aləmə münasibətinə təsir göstərir.

***Çalışma 5. Mənsubiyyət şəkilçilərini göstərin.***

Əhvalı törədən səbəblər çoxdur. İnsan orqanizmində baş verən dəyişikliklər, insanın yaşadığı və fəaliyyət göstərdiyi həyat şəraiti, lazımi iş yerinin, rahat mənzil şəraitinin, kifayət qədər nəqliyyatın, sakitliyin, təmiz havanın olub-olmaması, insanlar arasındakı qarşılıqlı münasibət əhvala ciddi təsir göstərir.

*Çalışma 6. Mücərrəd isimləri tapın.*

*Affektlər* – azmüddətli, lakin qüvvətli hisslərdir. Latın dilində affektus ruhi təlatüm, həyəcanlanma deməkdir. Affektlər coşqun surətdə əmələ gəlir. Qeyz, dəhşət, həddən artıq şadlıq, kədər, qəzəb və s. affektə misal ola bilər. Affekt kəskin xarici ifadəyə malik olur.

*Çalışma 7. Fellərin zamanını müəyyənləşdirin.*

Affekt halları bəzi adamların fəaliyyətinə pozucu təsir göstərir, onların öz hərəkətləri, danışığı üzərindəki şüurlu nəzarəti zəifləyir. Affekt anında bəzi adamlar qışqırır, kəskin hərəkətlər edir, aydın danışığını itirir, bayılır və s. Bu zaman beyində kəskin oyanma ocağı əmələ gəlir.

*Çalışma 8. Stress haqqında məlumatı öyrənin.*

*Stress* insanın gözlənilməz gərgin şəraitlə rastlaşarkən keçirdiyi emosional halətdir. Stress terminini 1936-cı ildə məşhur Kanada fizioloqu Q.Şeyel təklif etmişdir. O, əvvəlcə fizioloji termin kimi işlənilmişdir. Hal-hazırda *fizioloji* və *psixoloji stress* terminlərindən də istifadə olunur.

*Çalışma 9. Felləri kök və şəkilçiyə ayırın.*

*Psixoloji stress* emosional və informasiya stresslərinə bölünür. İnformasiya yükü çox olduqca insan tapşırığın öhdəsindən gələ bilmir, onda informasiya stressi əmələ gəlir. *Emosional stress* təhlükəli, qorxulu, yaxud inciklik şəraitində təzahür edir. Bu halda psixi proseslərin, fəaliyyətin motivasiya sahəsində dəyişiklik baş verir. İnsanın hərəkətlərində, nitqində pozğunluq özünü göstərir.



*Çalışma 10. Düzəltmə sözləri tapın.*

İnsan real və ya xəyali maneələrlə rastlaşdığı zaman *frustrasiya* vəziyyətinə düşür. Latınca frustratio – aldanma, nahaq gözləmə, əhval pozğunluğu deməkdir. Frustrasiya halətində insanda dərin psixi sarsıntılar baş verir. Bu halət bəzən insanın xarakterinə təsir edir, onda bir sıra dəyişikliklər törədir, onun davranış və rəftarında özünə inamsızlıq nəzərə çarpır. Bir sıra nevrozların baş verməsi də frustrasiya haləti ilə izah edilə bilər.

*Çalışma 11. Suallara cavab verin.*

1. Emosional halətlər hansılardır? 2. Ehtiras insana necə təsir edir? 3. Əhvalı hansı səbəblər törədir? 4. Affekt zamanı nə baş verir? 5. Stressin hansı növləri var? 6. Frustrasiya necə vəziyyətdir?

*Çalışma 12. Terminləri öyrənin.*

emosional halət, affekt, əhval, ehtiras, stress, frustrasiya, psixoloji stress, emosional stress

## §15. Emosional stress və psixosomatik xəstəliklər

**Emosional stress** təhlükənin reaksiya vasitəsilə qiymətləndirilməsi və müdafiəyə hazırlıq prosesidir. Stressi törədən amillər, səbəblər **stressorlar** adlanır. Orqanizm və həyat üçün təhlükəli olan hər bir stressor emosional stress yarada bilir. Stressor insana təsir edən əlverişsiz stimullar, hallar, hadisələrdir. **Psixosomatik proses** müxtəlif psixi hal və onların dəyişmələrinə orqanizmin fizioloji reaksiyasıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| qiymətləndirmək | qiymət vermək, fikir söyləmək, məna vermək |
| törətmək | əmələ gətirmək, meydana gətirmək |
| əlverişsiz | yararsız, uyğun olmayan |
| özünənəzarət | öz hərəkətinə, işinə və s. nəzarət etmə |
| ürəkbulanma | mədənin qarışması |
| dərəcə | 1) kəmiyyət və keyfiyyət səviyyəsi; 2) elmi rütbə; 3) idmanda ustalıq səviyyəsi |
| iddia | 1) tələb; 2) özü haqqında böyük fikirdə olmaq |
| hirs | qəzəb, acıq |
| hiddət | qəzəb, qeyz, sərtlik |
| gərginlik | ağırlıq, gərgin hal |
| münaqişə | ixtilaf, çəkişmə |
| narazılıq | bir şeyə mənfi münasibət |
| üzvi | 1) canlı orqanik; 2) tamın hissələrindən biri |
| xora | irinli, xırda yaralar |
| işemiya | yerli qanazlığı |
| psixogen | psixoloji |
| təhlükə | qorxulu hal |
| hədd | sərhəd, hüdud |
| qeyri-adi | adi olmayan, qəribə |
| iştahanın küsməsi | yemək istəməmək |
| əzələ | bədənin yığıla bilən orqanı |
| həyəcanlı | həyəcan keçirən |
| həssas | çox tez hiss edən |
| hesab edilmək | sayılmaq, bilinmək |
| təchizat | lazım olan şeylərin məcmusu |



***Çalışma 2. Suallara cavab verin.***

1. Emosional stress nədir? 2. Stressi törədən amillər necə adlanır? 3. Psixosomatik proses nə deməkdir?

***Çalışma 3. Mürəkkəb sözləri tapın.***

1. Emosional stress özünənəzarətin itirilməsi, yəni situasiyanı düzgün qiymətləndirə bilməməkdir. 2. Emosional və ya psixoloji stress fərdin normal fəaliyyət həddini keçən qeyri-adi haldır. 3. Müasir tibbi psixologiyada insanları normal, aksentuasiyalı, psixopatik xüsusiyyətli, psixopatabənzər şəxsiyyətlər və ruhi xəstələr kimi qruplara ayırırlar. 4. İmtahanqabağı ürəkbulanma, qarın ağrısı,

dizlərin və əllərin əsməsi, iştahanın küsməsi və s. emosional stressə olan somatik reaksiyadır.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan sözləri yazın.***

1. ... əzələ gərginliyi orqanizm üçün stressor agent rolu oynayır. 2. ... stressor insanın sağlamlıq dərəcəsindən və şəxsiyyət tipindən asılıdır. 3. Stressor ... təsir gücünə malik olur, müxtəlif dərəcəli stress yaradır. 4. Aksentuasiyalı şəxsiyyətlər daha həyəcanlı, həssas və ... iddia səviyyəsinə malik olur. 5. Psixopatik şəxsiyyətlərdə sağlam insana məxsus ... əlamətlər vardır, lakin onlar ya zəifləmiş, ya da güclənmiş şəkildə olur.

**Sözlər:** *müəyyən, hər hansı, bütün, istənilən, yüksək*

***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır: -lı$^4$, -ın$^4$, -lar$^2$.***

Psixosomatik reaksiya..., əsasən, emosional gərginlik (qorxu, hirs, hiddət, sevinc), affekt... zamanı formalaşır. Bəzən bu reaksiya...a *«orqan...ın nitqi»* deyilir. Psixogen faktor...ın təsiri nəticəsində somatik pozulma... formalaşır və bu...a *psixosomatik xəstəlik...* deyilir. Psixosomatik xəstəlik belə əmələ gəlir: stress faktoru affektiv gərginlik əmələ gətirir. Affekt psixi və somatik sahə... arasında körpü hesab edilir.

***Çalışma 6. Söz birləşmələrini tapın.***

Son illərin stressorları bunlardır: 1) iş, onun təşkili və iqtisadi çətinliklər; 2) geniş tələbat malları ilə təchizat; 3) işləyən qadınlarda psixi gərginlik; 4) həll olunmamış ev problemi; 5) ailə münaqişələri, işdə və digər yerlərdə olan



narazılıqlar; 6) gərginliyi aradan götürmək məqsədilə toksik maddələrdən istifadə (alkoqol, nikotin, narkotik maddələr və s.).

***Çalışma 7. Mətndə hansı sahə haqqında danışılır?***

Psixogen komponentin təsiri nəticəsində üzvi somatik xəstəliklər baş verir. Əsasən, hipertoniya, mədə və onikibarmaq bağırsaq xorası, infarkt miokard, işemiya xəstəliyi, miqren (kəskin xroniki baş ağrıları), bronxial astma, revmatik artrit, kolit, neyrodermatit. Psixogen təsir nəticəsində psixogen ölüm halları da baş verə bilir.

***Çalışma 8. "Müşahidə" və "fərd" sözlərini hallandırın.***

***Çalışma 9. Aşağıdakı sözlərə sual verin.***

emosional, psixi, gərginlik, stimul, baş vermək, reaksiya, psixogen, təhlükəli

***Çalışma 10. Terminləri öyrənin.***

stress, emosional stress, emosional halət, əhval, affekt, ehtiras, frustrasiya, fizioloji stress, psixoloji stress, stressor, aksentuasiyalı şəxsiyyət, psixopatik şəxsiyyət, psixosomatik reaksiya, orqanların nitqi, psixosomatik xəstəlik

## §16. Ali hisslər

**Ali hisslər** insanın yüksək dərəcədə inkişafının məhsuludur, məzmunca ən zəngin hisslərdir. Buraya əxlaqi, zehni və estetik hisslər daxildir. Həmin hisslər əsasında insanın ictimai həyata, əxlaq normalarına olan münasibətini təyin etmək mümkündür.

**Əxlaqi hisslər** müəyyən cəmiyyət miqyasında mövcud olan əxlaq normalarına subyektiv münasibətdir.

**Estetik hisslər** təbiətin, incəsənət əsərlərinin gözəlliyini qavramaq, dərk etməklə əlaqədardır.

**Zehni hisslər** insanın idrak fəaliyyəti ilə əlaqədar olan, onu ətraf aləmi daha dərindən və ətraflı dərk etməyə yönəldən mürəkkəb hisslərdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| miqyas | ölçü, dərəcə, dairə |
| qavramaq | anlamaq, başa düşmək, dərk etmək |
| idrak | bilmə, dərk etmə qabiliyyəti, şüur |
| ətraflı | hərtərəfli, geniş |
| yönəltmək | istiqamət vermək, istiqamət göstərmək |
| rəngarəng | 1) müxtəlif rəngli, əlvan; 2) cür-bəcür, müxtəlif |
| gümrahlıq | cismən və ruhən sağlamlıq |
| etinasızlıq | diqqətsizlik, əhəmiyyət verməmə |
| qüssə | qəm, kədər, sıxıntı, dərd |
| utancaqlıq | utanma xasiyyəti |



| | |
|---|---|
| münasibət bəsləmək | duymaq, hiss etmək, ürəyində saxlamaq, yaxınlıq duymaq |
| rəftar | münasibət, davranış |
| füsunkar | gözəl, cəlbedici |
| yamac | dağın ən yüksək nöqtəsindən aşağıya maili səthi |
| əhvali-ruhiyyə | ovqat, hal, vəziyyət, kef |
| hiss doğurmaq | hiss yaratmaq |
| fəhm | anlama, dərrakə |
| həll etmək | həyata keçirmək, yerinə yetirmək |
| dünyagörüşü | həyat, təbiət və cəmiyyət haqqında görüşlər sistemi |
| meyar | bir şeyi qiymətləndirmək, əsas əlamət |
| əxlaqi | əxlaqa, etik normalara aid olan |
| estetik | estetikaya aid olan |
| zehni | beyinlə əlaqədar olan |
| intizar | həsrətlə gözləmə |
| şübhə | tərəddüd, güman |
| təəccüb | heyrət |
| iftixar | fəxr etmə |
| qısqanclıq | 1) şübhə hissə; 2) paxıllıq; 3) xəsislik |
| mənbə | 1) qaynaq, bulaq; 2) bir şeyin başlandığı yer |
| axtarış | axtarma, yoxlama |
| heyrət | çaşqınlıq, təəccüb |

*Çalışma 2. Mücərrəd isimləri göstərin.*

İnsanın hissləri çox və rəngarəngdir. Şadlıq, gümrahlıq, yorğunluq, zəiflik, etinasızlıq, darıxma, qüssə, kədər, təəssüf, qorxu, qəzəb, dəhşət, intizar, şübhə, təəccüb, gözəllik, sevgi, nifrət, qısqanclıq, utancaqlıq, iftixar və s. kimi müxtəlif hisslər vardır. İnsan hisslərinin rəngarəngliyi onun ətraf mühitə müxtəlif münasibətindən asılıdır.

*Çalışma 3. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?*

İnsan təbiətə, cəmiyyətə, insanlara, ictimai müəssisələrə, əmək fəaliyyətinə, müəyyən əxlaq normalarına, ailə münasibətlərinə hər hansı bir münasibət bəsləyir. Buna görə də hissləri iki əsas cəhətə görə növlərə bölmək olar: 1) hisslərin yönəldiyi obyektlərə; 2) hisslərin məzmununa görə.

*Çalışma 4. Nöqtələrin yerinə lazım olan şəkilçini qoyun.*

Əxlaqi hiss...in obyekti ayrı-ayrı adam..., insan qrup...ı, insan... arasındakı münasibət..., ictimai həyat hadisə...i və qanun...ı, adamın öz hərəkət və rəftarı ola bilər. Əgər həmin hadisə...ə münasibət cəmiyyətin birgə yaşayış qayda...ına, davranış norma...ına uyğundursa, o zaman insanda müsbət əxlaqi hiss... yaranır.

*Çalışma 5. Mətndə nədən söhbət gedir?*

Füsunkar ... mənzərələri, yaşıl çəmənliklər, güllü, çiçəkli yamaclar, aylı gecələr, quşların nəğməsi və s. insanda estetik hisslər yaradır. ... gözəllikləri bizdə müxtəlif əhvali-ruhiyyə əmələ gətirir. İnsanın estetik hisslərinin ilk mənbəyi ... gözəlliyidir. Bədii ədəbiyyat, incəsənət əsərləri, musiqi, insanın hərəkət və rəftarı da estetik hisslər yarada bilər.



*Çalışma 6. Mötərizədəki felləri indiki zamanda işlədin.*

Zehni hisslər təlim prosesində, elmi axtarışlar, yaradıcı fəaliyyət zamanı (meydana çıxmaq). Zehni hisslər insanın zehni, idrak fəaliyyəti prosesində (yaranmaq) və onun vasitəsilə (törətmək). İnsanın bilik qazanma meyli müxtəlif hisslər (doğurmaq). Şübhə, təəccüb, inam, fəhm, yenilik, heyrət hissləri zehni hisslər (hesab olunmaq).

*Çalışma 7. "Təəccüb", "şübhə", "inam" sözlərini nöqtələrin yerinə elə qoyun ki, məna pozulmasın.*

Bir məsələni həll etmək üçün insan düşünür, onda bir sıra zehni hisslər əmələ gəlir. Əgər məsələ mürəkkəbdirsə, o zaman ... hissi özünü göstərir. Məsələ həll edildikdən sonra insan alınmış cavabın doğru olub-olmamasını fikirləşir, bu zaman insanda ... hissi əmələ gəlir. Buna görə də insan öz nəticələrini yenidən yoxlayır. Əgər məsələnin düzgün həll edilməsinə inanırsa, bu zaman ... hissi yaranır.

*Çalışma 8. Qara hərflərlə verilmiş sözlərə sual verin.*

1. Əxlaqi hisslər **cəmiyyətin** əxlaq normalarına insanın **mənfi** və ya müsbət münasibətidir. 2. Estetik hisslər **maddi** tələbatın ödənilməsi ilə bilavasitə əlaqədar olmur. 3. **Bəzən** insanın estetik hissləri əxlaqi hisslərlə **birləşir**. 4. İnsanın estetik **hisslərinə** onun dünyagörüşü,

yaşadığı ictimai şərait təsir edir. 5. Hər insanın gözəllik meyarı müxtəlif olur.

***Çalışma 9. "Darıxmaq" və "itirmək" fellərini mənsubiyyətə görə dəyişdirin.***

***Çalışma 10. Terminləri öyrənin.***

əxlaqi hisslər, estetik hisslər, zehni hisslər, idrak, idrak fəaliyyəti



## §17. Sosial mövqe, gözləmələr və nəzarət

Şəxsiyyətin sosial qrupda yerini təhlil etmək üçün psixologiyada **mövqe** və ya **status** (latınca status – vəziyyət deməkdir) anlayışından istifadə olunur. Sosial qrupda üzvlərin mövqeyi eyni olmur. Bu mövqeyi səciyyələndirmək üçün iki şkaladan – maaş cədvəli və hörmət şkalasından istifadə etmək olar. Hörmət və nüfuz insanın şəxsi qarşılıqlı münasibətlər sistemindəki vəziyyətini əks etdirir.

Birgə fəaliyyət və ünsiyyət prosesində insanların bir-biri ilə qarşılıqlı əlaqə və rabitələri **sosial normalar** vasitəsilə tənzim olunur. İnsanlar sosial qrupdakı mövqelərindən asılı olmayaraq sosial normalara əməl edirlər.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mövqe | yer, rol, vəziyyət, vəzifə |
| şkala | kəmiyyəti müəyyənləşdirən rəqəmlər sistemi |
| rabitə | bağlılıq, münasibət |
| tənzim olunmaq | qaydaya salınmaq, nizama salınmaq |
| əməl etmək | yerinə yetirmək |
| əmək haqqı | maaş |
| zahiri | xarici |
| bilavasitə | vasitəsiz olaraq, birbaşa |
| xidmət | bir idarədə maaşla qulluq etmə, rəsmi vəzifə yerinə yetirmə |

| | |
|---|---|
| hörmət | böyüklərə, yaşlılara və ya xidmətinə görə birinə göstərilən ehtiram |
| nüfuz | hörmət, etibar |
| töhfə | hədiyyə, bəxşiş, pay |
| şəxsi keyfiyyət | şəxsi fərqləndirən xüsusiyyət |
| nəzarət | yoxlama məqsədilə baxma |
| həmkarlar təşkilatı | işçilərin mənafeyini qoruyan təşkilat |
| müvafiq | uyğun, münasib, əlverişli |
| nəzərə almaq | fikrində tutmaq, haqqında düşünmək |
| gözləmə | ümid, istək, arzu |
| müdiriyyət | rəhbərlik edən orqan |
| aydınlaşdırılma | izah edilmə, müəyyən edilmə |
| təsdiq olunma | qəbul edilmə, rəsmiləşdirilmə |
| bəyənilmə | xoşa gəlmə, seçilmə |
| vəzifə tutmaq | hər hansı vəzifədə işləmək |
| ixtisas | 1) elmin, texnikanın sahəsi; 2) qazanılmış bilik, peşə |
| peşə | sənət, iş |
| tarixən | tarixə görə |
| mövcud olan | var olan |
| vasitəsilə | köməyi ilə, hər hansı üsul ilə |
| həyata keçirilmək | yerinə yetirilmək, tətbiq edilmək |
| adətən | həmişə olduğu kimi, daim, həmişə |
| hərəkət etmək | davranmaq |



***Çalışma 2. Qoşasamitli sözləri tapın və tələffüzünə diqqət edin.***

*Əmək haqqı* insanın sosial mövqeyini səciyyələndirən ən ümumi zahiri əlamətdir. Onun özünəməxsus sosial-psixoloji əhəmiyyəti vardır. Əmək haqqı insanın peşə-ixtisas (təhsil) səviyyəsi ilə müəyyən olunur və tutduğu vəzifə ilə bilavasitə bağlıdır.

***Çalışma 3. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Hörmət və nüfuz* psixoloji cəhətdən şəxsiyyətin xidmətlərinin ətrafdakı adamlar tərəfindən təsdiq olunması, bəyənilməsi və qəbul edilməsi deməkdir. Şəxsiyyətin hörmət və nüfuzu onun əmək töhfələri ilə yanaşı, həm də şəxsi keyfiyyətləri, qrup üzvləri ilə münasibətlərinin xarakteri və s. ilə müəyyən olunur. Hörmət və nüfuzun formalaşmasında cins-yaş amilləri (qoca, qadın və s.) də müəyyən rol oynayır.

***Çalışma 4. Sosial normaların izahını öyrənin.***

*Sosial normalar* dedikdə, tarixən əmələ gəlmiş və müəyyən olunmuş davranış və fəaliyyət qaydaları nəzərdə tutulur. *Norma* latın sözü olub *qayda, nümunə* deməkdir. Siyasi, əmək, hüquq, mədəni, etik (əxlaq) və s. normalar buna misal ola bilər. Hər bir qrupda mövcud olan normalar da sosial normalardır.

***Çalışma 5. Mötərizədəki felləri lazım olan zaman şəkilçisi ilə işlədin.***

Sosial normalar insanların münasibətini (tənzim etmək). Hər bir qrupda böyüklə kiçik, qadınla kişi, müəllimlə şagird və başqaları arasındakı münasibətlər sosial

normalar vasitəsilə (tənzim olunmaq). Bu, sosial normaların *tənzimetmə funksiyasıdır*. Digəri *qiymətləndirmə funksiyasıdır*, yəni insanlar sosial normalar vasitəsilə həm başqa adamların, həm də özlərinin davranış və rəftarını (qiymətləndirmək), müxtəlif yollarla öz münasibətlərini (tənzim etmək). Bu yollara *sosial nəzarət sistemi* (deyilmək).

***Çalışma 6. I növ ismi birləşmələri seçin və necə əmələ gəldiyini izah edin.***

Sosial nəzarət sistemi iki səviyyədə – rəsmi (formal) və qeyri-rəsmi (qeyri-formal) vasitələrlə həyata keçirilir. Müəssisənin müdiriyyəti, həmkarlar təşkilatları, nəzarət qrupları və s.-nin mühüm funksiyalarından biri sosial nəzarətdən ibarətdir. Sosial nəzarət rəsmi qaydalara müvafiq olaraq həyata keçirilir. O, hər bir işçinin fəaliyyətinin ictimai mənasının aydınlaşdırılmasından başlayır və müxtəlif formalarda tətbiq olunur.

***Çalışma 7. Aşağıdakı sözləri izah edin.***

reaksiya, metod, eksperiment, qanunauyğunluq, motiv

***Çalışma 8. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?***

Hər bir adam, adətən, başqa adamların ondan nə gözlədiyini bilir, bu cəhəti öz davranış və rəftarında nəzərə alır. Psixologiyada buna *sosial gözləmələr* deyilir. Hər hansı bir adamın hansı rol ifa etməsini nəzərə almaq və onun müvafiq sosial situasiyada rolun tələblərinə uyğun hərəkət edəcəyini gözləmək lazımdır. Bu o deməkdir ki, insanların qarşılıqlı təsiri prosesində sosial gözləmələr rol gözləmələri kimi özünü göstərir.



***Çalışma 9. 8-ci tapşırıqda əvəzlikləri tapın, növünü müəyyənləşdirin.***

***Çalışma 10. Terminləri öyrənin.***

mövqe, status, sosial qrup, hörmət, nüfuz, sosial normalar, tənzimetmə funksiyası, sosial nəzarət sistemi, sosial gözləmələr

## §18. Sosial mövqe, gözləmələr və nəzarət (davamı)

***Çalışma 1. Tək və toplu isimləri tapın.***

Rol şəxsiyyətin hüquq və vəzifələrini əks etdirir. Bu hüquq və vəzifələr cəmiyyət, ictimai təşkilat və ya konkret qrup tərəfindən müəyyən olunur. Rolun hüquq və vəzifələri psixoloji baxımdan onun başlıca cəhətini təşkil edir. İnsanın öz roluna, başqa adamların onun roluna münasibəti bununla bağlıdır.

***Çalışma 2. Altından xətt çəkilmiş şəkilçilər hansı hala aiddir?***

C.Mid rollar nəzəriyyəsinin banisidir. Onun firkincə, insanların qarşılıqlı təsirinin təşkili ağıldan asılıdır. Əgər ağıl rolları qəbul etmək qabiliyyətinə malik olmasaydı, fərdlər öz fəaliyyətini uzlaşdıra bilməzdilər. İnsanların qarşılıqlı münasibətində əsas cəhət ictimai-iqtisadi münasibətlərdir. İnsanlar arasında bütün digər münasibətlər onların əsasında formalaşır.

***Çalışma 3. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

Rol davranışı...da aşağıdak...ları göstərmə... olar: a) rol gözləmələri; b) rol konsepsiyası (mövqeyi). Rol gözləmələri sosial gözləmələrin x...susi halı...ır. Rol gözləmələri konkret ...arakter daşıyır və müəy...ən bir rol davranışı...ın normalarını ifad... edir. Rol gözləmələri



sosial qru...da qarşılı...lı təsir və münasibətlər sist...mini tənzim edir.

***Çalışma 4. Nöqtələrin yerinə uyğun gələn əvəzlikləri yazın.***

Rol gözləmələri ikitərəfli prosesdir: ... adam, bir tərəfdən, başqa adamlardan ... ... rollarına uyğun davranış tərzi gözləyir. Əgər ... adam ... ətrafdakı adamların gözlədiyi kimi aparmırsa, ... arasında müxtəlif formalarda konfliktlər yaranır. ... konfliktlərə *rollararası konfliktlər* deyilir. Digər tərəfdən, ... adam başqa adamların ... ... gözlədiyini bilir və ... müvafiq rol gözləmələrinə uyğun olaraq aparır.

**Əvəzliklər:** *öz, belə, hər, nə, onların, həmin, ondan, özünü*

***Çalışma 5. Sözləri hecaların sayına görə qruplaşdırın.***

Rol konsepsiyası rol gözləmələri ilə əlaqədardır. Rol konsepsiyası rol gözləmələrinin mənimsənilməsi əsasında əmələ gəlir. Lakin rol konsepsiyası anlayışı daha genişdir. Rol konsepsiyası şəxsiyyətin öz roluna və özünün sosial qrupdakı münasibətini ifadə edir. Bu cəhət rolun ifasında öz əksini tapır.

***Çalışma 6. Qara hərflərlə verilmiş sözləri yaxın mənalı sözlərlə əvəz edin.***

Rol nəzəriyyəsinin əsas nümayəndələrindən biri C.Morenodur. Onun fikrincə, sosial **təşkilat** insanların **davranışını məhdudlaşdıran** və ona istiqamət verən rollar şəbəkəsindən ibarətdir. Moreno «cəmiyyət» termini

əvəzinə «sosial təşkilat» terminindən **istifadə edir**. Sosioloqlar **çox vaxt** bu məqsədlə «sosial institut» terminini işlədirlər. Rol nəzəriyyəsinə görə: a) sosial təşkilat rollar şəbəkəsindən ibarətdir; b) insanların davranışı **müvafiq** rollarla müəyyən olunur. Rollar insanların davranışını həm məhdudlaşdırır, həm də ona istiqamət verir.

***Çalışma 7. Söz birləşmələrini göstərin.***

Rolun ifası müəyyən bilik, bacarıq və vərdişlər tələb edir. İnsanın intellektual səviyyəsindən, emosional mədəniyyətindən, iradi keyfiyyətlərindən, anatomik xüsusiyyətlərindən asılı olaraq hər bir rolun ifasında fərdi çalarlar əmələ gəlir. Rol davranışı insanın öz rolunu necə başa düşməsi, öz roluna və sosial qrupdakı yerinə münasibəti ilə bağlıdır.

***Çalışma 8. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| bani | bir şeyin əsasını qoyan, tikən, quran, səbəbkar |
| uzlaşdırmaq | uyğunlaşdırmaq |
| mənimsənilmək | öyrənilmək, başa düşülmək |
| ifa | bir işi icra etmə, yerinə yetirmə |
| əksini tapmaq | əyani surətdə göstərilmək, ifadə edilmək |
| məhdudlaşdırmaq | müəyyən bir çərçivədə saxlamaq |
| şəbəkə | tor, hörgü, ornament |
| vərdiş | təcrübə, adət edilmiş şey |
| iradi | iradədən asılı olan; ixtiyari |
| çalar | 1) rəng müxtəlifliyi; 2) bir şeydəki fərq, incəlik |



| | |
|---|---|
| konflikt | münaqişə, ziddiyyət |
| özünü aparmaq | özünü idarə etmək |
| nümayəndə | nəyisə, kimisə təmsil edən şəxs |
| təşkil | düzəldilmə, düzəltmə, əsası qoyulma |
| təşkilat | ictimai birləşmə və ya dövlət idarəsi |

***Çalışma 9. Suallara cavab verin.***

1. Rollar nəzəriyyəsinin mahiyyəti nədir? 2. Rol gözləmələri necə prosesdir? 3. Rollararası konfliktlər nədir? 4. Rol konsepsiyası necə əmələ gəlir? 5. C.Morenonun fikirlərini izah edin.

***Çalışma 10. Terminləri öyrənin.***

rollar nəzəriyyəsi, rol davranışı, rol gözləmələri, rol konsepsiyası, rollararası konflikt, sosial təşkilat, sosial institut

## §19. Sosial yönümlər

**Yönəlişlik** müasir psixologiyada geniş istifadə olunan əsas anlayışlardan biridir. İnsanda öz həyat təcrübəsi prosesində cisim və hadisələrə yanaşma tərzi və ya meyli əmələ gəlir. O, həmin cisim və hadisələri bu baxımda qavramağa başlayır.

Elmdə yönəlişlik anlayışı ilk dəfə 1862-ci ildə **Herbert Spenser** tərəfindən işlənilmişdir. XIX əsrin sonları – XX əsrin əvvəllərində psixi prosesləri və s. təsvir etmək üçün müxtəlif psixoloqlar (L.Lanke, Q,Müller, T.Şuman, N.Ax, Y.Tomas, F.Znanetsi və b.) həmin anlayışdan ayrı-ayrı mənalarda istifadə etmişlər. Yönəlişlik haqqında ümumi nəzəriyyəni XX əsrdə 20-ci illərin sonu 30-cu illərin əvvəllərində gürcü psixoloqu **D.N.Uznadze** yaratmışdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| yön | istiqamət, səmt, tərəf |
| yönüm | istiqamət, meyil |
| yanaşma | 1) yaxınlaşma; 2) bir məsələyə münasibət göstərmə |
| təsvir etmək | bir şeyi gözəl surətdə tərif etmək |
| metodoloji | metodologiyaya aid olan |
| irəli sürmək | müzakirə, məlumat və s. üçün təklif etmək |
| fenomen | qeyri-adi şəxsiyyət, hadisə |
| amil | səbəb, vasitə |
| illüziya | olmayan bir şeyi həqiqi bir şey kimi qəbul etmə; yanlış təsəvvür, xəyal |
| məqsədyönlü | müəyyən məqsədə yönəldilmiş; faydalılıq |
| şərtlənmək | bir şeyin əmələ gəlməsinə səbəb olmaq; bir şərtlə bağlanmaq |
| vasitəsizlik | vasitənin olmaması |
| müddəa | fikir, iddia |
| situasiya | vəziyyət, şərait, hadisələrin gedişi |
| təsir etmək | müəyyən bir şeyin özünü göstərməsi |
| ifa etmək | 1) yerinə yetirmək; 2) çalmaq, oxumaq, göstərmək |
| qadağan | qanunla icazə verilməyən, yasaq edilən şey |
| hökm | əmr, sərəncam |
| mülahizə | yaxşı düşünülmüş fikir, rəy |
| uyuşmaq | 1) uyğunlaşmaq; 2) duyma qabiliyyətini itirmək |
| şər | 1) pislik, yamanlıq, fənalıq; 2) böhtan, iftira, fitnə |

***Çalışma 2. Mətndə sifətləri tapın.***

D.N.Uznadze özünün ilk nəzəri-metodoloji əsərlərində (1923-1925) yeni konkret psixologiya yaratmaq vəzifəsini irəli sürürdü. Bunun üçün başlıca şəxsiyyət amilini tapmaq zəruri idi. D.N.Uznadze 20-ci illərin sonunda bu məqsədlə *yönəlişlik* anlayışından istifadə etməyə başladı. Həmin fenomeni öyrənmək üçün xüsusi üsul kəşf etdi. O, əvvəlcə psixologiyada *«Şerpante illüziyası»* adı ilə məlum olan illüziyadan istifadə etdi. İllüziyanın mahiyyəti

budur: müxtəlif eyni çəkili, lakin müxtəlif formalı iki cisimdən kiçik olanı ağır görünür.

***Çalışma 3. Təsirli və təsirsiz felləri tapın.***

D.N.Uznadze yönəlişlik haqqında orijinal ümumpsixoloji nəzəriyyə yaratdı. Bu nəzəriyyəyə görə, şüurun məzmunu və ya hər hansı bir davranış aktı yönəlişliklə şərtlənir. Yönəlişlik, fəallığı məqsədyönlü surətdə həyata keçirmək üçün zəruri olan daxili və xarici şərtləri özündə birləşdirir. O, insanın mental (idrak) və hərəki fəallığının ümumi istiqamətini müəyyən edir.

***Çalışma 4. İsimləri göstərin, mənaca növünü müəyyən edin.***

1. Qərb psixoloqları psixi hadisələri *«vasitəsizlik postulatına»* əsasən izah edirdi. 2. *Postulatum* latın sözü olub, *sübutsuz qəbul edilən müddəa* deməkdir. 3. D.N.Uznadze üç tərkibli davranış modelini irəli sürdü: stimul – yönəlişlik (fərd) – reaksiya. 4. Fərdin reaksiyası ona təsir göstərən stimulla, yönəlişlik halı ilə şərtlənir.

***Çalışma 5. Aşağıdakı sxemi izah edin.***






***Çalışma 6. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

**Yönəlişliyin** müxtəlif növləri vardır. **Onlardan** biri *sosial yönəlişlik* adlanır. Bu, yönəlişlik insanlarda sosial **gerçəklik** hadisələrinə münasibətlə bağlıdır. İnsan şəxsiyyət kimi müxtəlif sosial **münasibətlərə** daxil olur: o, ailənin, dostlar qrupunun, müəyyən bir ölkənin və digər təşkilatların **üzvüdür**. Bu prosesdə insanda müxtəlif sosial yönəlişlər əmələ gəlir.

***Çalışma 7. Səhvləri düzəldin.***

Yönəlişlik halında situasiya (gerçəkliy) fərdin tələbatdarı baxımınnan əkis olunur. Yönəlişlik fərdin fəallığının əsasını təşgil edir. Buna görədə müvafik şərayitdə fərdin davranışı məksətyönnü xarakter daşıyır.

***Çalışma 8. İnkar şəkilçilərinin altından xətt çəkin.***

Əgər situasiya və tələbatlar insana birlikdə təsir etmirsə, yönəlişlik əmələ gəlmir və gələ də bilməz. Sosial situasiyanı təkcə iki və ya daha çox adamın qarşılıqlı əlaqəsi kimi başa düşmək olmaz. Adamların ifa etdikləri rollardan, onların münasibətlərindən, sosial normalar, gözləmələr və qadağanlardan asılı olaraq sosial situasiya yeni xüsusiyyətlər kəsb edir.

***Çalışma 9. İsmi xəbərləri tapın.***

Sosial yönəlişlik (attitude) üç tərkibli quruluşa malikdir: koqnitiv → affektiv (emosional) → davranış (konativ). *Koqnitiv cəhət* obyekt haqqında biliklərdən, qiymətverici hökm və mülahizələrdən ibarətdir. *Affektiv cəhət* insanın müvafiq obyekt və ya hadisə ilə bağlı hisslər

sistemidir. Sosial yönəlişliyin *davranış* tərəfi insanın obyektlə real əməlləridir.

***Çalışma 10. Terminləri öyrənin.***

yönüm, yönəlişlik, mental fəallıq, vasitəsizlik postulatı, stimul, reaksiya, situasiya, tələbat, sosial yönəlişlik



## §20. İnsanların bir-birini qavraması və anlaması

İnsanların qarşılıqlı münasibətləri onların bir-birini qavraması və anlaması prosesində formalaşıb inkişaf edir. Ünsiyyət insanların bir-birini qavramasından başlayır. Qavrayışın bu növü psixologiyada **sosial persepsiya** (latınca sosialis – ictimai, perseptio – qavrayış deməkdir) adlanır. Sosial persepsiya termini psixologiyada XX əsrin 40-cı illərinin ortalarından işlənilməyə başlanılmışdır. Psixologiyada appersepsiya termini də vardır. **Appersepsiya** (latınca ap<ad + perseptio – qavrayış deməkdir) – qavrayışın insanın keçmiş təcrübəsindən, psixi fəaliyyətinin ümumi məzmunundan və fərdi xüsusiyyətlərindən asılı olmasıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ünsiyyət | qarşılıqlı münasibət, əlaqə, yaxınlıq |
| qavrayış | qavramaq, anlamaq qabiliyyəti |
| şəxsiyyətlərarası | şəxsiyyətlər arasında olan, bir neçə şəxsə aid olan |
| birgə | bir yerdə, birlikdə, bərabər |
| ifadəli | yaxşı və aydın ifadə edən |
| ekspressiv | mənalı, təsirli, ifadəli |
| təəssürat | xarici aləmdəki əşya və hadisələrin insan şüurunda izi |
| bəxş etmək | bağışlamaq, vermək |
| statik | sabit, hərəkətsiz |

| | |
|---|---|
| rəy | bir şey haqqında fikir, mülahizə |
| tamahkar | hər şeydə gözü olan, acgöz |
| rüşvətxor | rüşvət alan |
| müftəxor | başqalarının hesabına yaşayan |
| böhtançı | böhtan söyləyən, iftiraçı |
| məharətlə | ustalıqla, bacarıqla |
| saxta | 1) uydurma, yalan; 2) süni, yapma, qeyri-səmimi |
| çalar | rəng müxtəlifliyi, azacıq fərq |
| təsəvvür | 1) xəyala gətirmə, xəyal, fikir; 2) bir şeyi, adamı fikrində canlandırma; 3) bir şey, adam haqqında bilik |
| stereotip | dəyişmədən təkrarlanan, şablon |
| sxematik | 1) sxem şəklində, sxem halında; 2) ümumi şəkildə, yığcam |
| təhrif olunmuş | yanlış şəklə salınmış, pozulmuş |
| əksini tapmaq | əyani surətdə göstərilmək, ifadə edilmək |
| əhvalat | hadisə |

***Çalışma 2. Fellər hansı növdə işlənib?***

Hazırda sosial persepsiya termini ilə 3 prosesi – şəxsiyyətlərarası qavrayış, insanın özünü qavraması və qruplararası qavrayış nəzərdə tutulur. Psixologiyada sosial persepsiya proseslərinin xüsusiyyətləri müxtəlif səviyyəli qruplarda birgə fəaliyyət şəraitində öyrənilir, onlar fəaliyyət prinsipi əsasında təhlil edilir. Sosial persepsiyanın əsas məsələsi insanın insan tərəfindən qavranılması və anlaşılmasıdır.



***Çalışma 3. Nöqtələrin yerinə uyğun gələn zaman şəkilçisini yazın.***

İnsanların bir-birini qavramasında sifət mühüm yer tut... . İnsan sifəti affektiv əhəmiyyətə malikdir. Sifətin ən ifadəli əlamətləri ağızla göz sahəsində yerləş... . Bu sahəyə *mimika zonası* deyil... . İnsanın insan tərəfindən qavranılmasında ekspressiv yükü bu zonalar daşı... .

***Çalışma 4. Mətndəki fellər quruluşca necədir?***

Təbii imkanların, məsələn, zahiri görkəmin köməyi ilə yaradılan maska *fizioqnomik maska* adlanır. Yunanca phusis – təbiət, gromon – bilən deməkdir. *Fizioqnomik maska* başqa adam üçün yaradılır və ünsiyyət zamanı qarşılıqlı təsir vasitələrindən biri olur. İnsan başqa adamlarda özü haqqında yaxşı təəssürat yaratmağa çalışır. Bu zaman öz fizioqnomik imkanlarından istifadə edir. O, adətən, yaş, cins və peşə xüsusiyyətlərini nəzərə alır.

***Çalışma 5. Təyini söz birləşmələrini tapın.***

Fizioqnomik maska statik xarakter daşıyır. Ünsiyyətin dinamik cəhəti mimikada, jestlərdə və s. təzahür edir. İnsanlar onların vasitəsilə psixoloji maska yaradırlar. *Psixoloji maska* hisslərin, fikrin, rəyin gizlədilməsini nəzərdə tutur. Tamahkar, rüşvətxor, müftəxor, böhtançı adamlar psixoloji maskadan məharətlə istifadə edirlər. Belə adamların başqa adamlarla qarşılıqlı münasibətləri saxta xarakter daşıyır.

*Çalışma 6. Qara hərflərlə verilmiş sözlər necə sözlərdir?*

İnsanlar **ünsiyyət** prosesində sanki bir-birinin davranışının psixoloji çalarlarını «oxuyurlar». Onlar qavradıqları adamların zahiri görkəminin, **ekspressiv** davranışının və geyim **xüsusiyyətlərinin** mənasını özləri üçün aydınlaşdırır, şəxsi **keyfiyyətlərini** təhlil edirlər. İnsan **cəmiyyətdə müəyyən** yer tutan, cəmiyyətin həyatında rol oynayan **şəxsiyyət** kimi qavranılır və dərk olunur.

*Çalışma 7. Etalon haqqında məlumatı öyrənin.*

İnsanlar qavrayış prosesində bir-birini müxtəlif sosial etalon və stereotiplər baxımından qiymətləndirirlər. *Etalon* fransız sözü olub, ölçü nümunəsi deməkdir (məsələn, metr – uzunluq ölçüsü etalonudur). İnsanlar sosial obyektləri də qiymətləndirərkən müəyyən etalonlardan istifadə edirlər. Sosial etalonlar müxtəlifdir. Kişilik və qadınlıq etalonlarını buna misal göstərmək olar.

*Çalışma 8. Cəm və toplu isimləri göstərin.*

İnsanların bir-birini qavraması prosesində *sosial stereotiplərin* də öz rolu vardır. Yunanca stereos – möhkəm, tuqos – ad deməkdir. Stereotiplər müəyyən bir irqə, millətə, peşəyə, etnik qrupa və s. mənsub olan adamlar, qruplar haqqında təsəvvürlərdir. Bu təsəvvürlər sadə, sxematik, bəzən təhrif olunmuş xarakter daşıyır.

*Çalışma 9. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?*

Stereotiplərdə sosial obyektlər haqqında müəyyən biliklər öz əksini tapır. Stereotiplər sosial obyektlərə müəyyən münasibət yaradır. Onlar insanların şəxsi təcrübə...nin ümumiləşdirilmə... əsasında formalaşır. Kitablardan, kinofilmlərdən alınmış məlumatlar, tanış adamların danışdıqları əhvalatlar və s. bu stereotiplərin möhkəmlənmə... üçün şərait yaradır. Onlar çox vaxt adamların bir-birini düzgün dərk etmə...nə mane olur.

*Çalışma 10. Terminləri öyrənin.*

sosial persepsiya, şəxsiyyətlərarası qavrayış, qruplararası qavrayış, mimika zonası, fizioqnomik maska, psixoloji maska, sosial etalon, stereotip, appersepsiya

## §21. İnsanların bir-birini qavraması və anlaması (davamı)

***Çalışma 1. İsimləşən felləri tapın.***

*Refleksiya* dedikdə, insanın özünü, öz daxili aləmini dərk etməsi, özünün fikir və hisslərini təhlil etməsi, özünü, öz əməllərini, adamlarla münasibətlərini görmək bacarığını, özü haqqında mühakimələrini nəzərdə tuturlar. Refleksiya – başqa adamların sənə necə münasibət bəslədiyini, necə yanaşdığını, onların səni necə başa düşdüklərini görmək və dərk etmək deməkdir.

***Çalışma 2. Əvəzlikləri tapın, necə işləndiyini izah edin.***

Bəzən biz özümüzü başqa adamın yerinə qoyuruq, özümüzü onunla eyniləşdiririk. Psixologiyada buna *identifikasiya* deyilir. Latınca identificare – eyniləşdirmək deməkdir. Bu prosesin ikinci tərəfi də vardır: biz başqa adamı qavrayırıq, o da bizi qavrayır. Sosial persepsiya qarşılıqlı prosesdir. Ünsiyyət prosesində identifikasiya və refleksiya vəhdətdə meydana çıxır.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözlərə yaxın mənalı sözlər tapın.***

İnsanın insan tərəfindən qavranılması **müxtəlif** amillərlə şərtlənir. **Fərdi** həyat təcrübəsi, yaş, cins, **peşə**, təhsil, milliyyət, etnik **mənsubiyyət** və s. sosial persepsiyaya **mühüm** təsir göstərir. Sosial obyektlərin qavranılması emosional çalarlarla **zəngindir**. Başqa adamı başa



düşmək həm də onun sənə münasibətini dərk etmək deməkdir.

***Çalışma 4. Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.***

İnsan ... adamın ona münasibətini ... üçün həmin adamın rəftar və davranışının motivlərini aydınlaşdırmalıdır. Bu, sosial persepsiyanın ... qanunauyğunluqlarından biridir. Adamlar ... qavrayarkən, zahiri əlamətlər haqqındakı məlumatlarla kifayətlənmirlər, bir-birlərinin davranışının ... aydınlaşdırır, ayrı-ayrı ... görə şəxsiyyətlərini xarakterizə edirlər.

**Sözlər:** *ümumi, səbəblərini, başqa, keyfiyyətlərə, dərk etmək, bir-birini*

***Çalışma 5. Sözləri hecalara bölün.***

İnsanın başqa adamların davranış və rəftarının səbəblərini və motivlərini şərh etməsinə *kauzal atribusiya* deyilir. Latınca cauza – səbəb, attriduo – verirəm, bəxş edirəm deməkdir. Bu mənada «kauzal atribusiya» terminini Azərbaycan dilində «səbəbin şərhi» kimi işlətmək olar.

***Çalışma 6. Kauzal atribusiyanın səbəblərini öyrənin və təhlil edin.***

Kauzal atribusiya üçün səciyyəvi olan üç xüsusiyyət var: a) başqa adamı qavrayarkən bizim onun haqqında aldığımız informasiya, adətən, məhdud xarakter daşıyır və əsaslı nəticə çıxarmaq imkanı vermir; b) bu zaman biz qavradığımız adamın davranışının səbəblərini ehtimal

yolu ilə izah etməyə başlayırıq; c) güman etdiyimiz səbəbi ona aid edirik.

***Çalışma 7. Sifətləri tapın.***

İnsanın insan tərəfindən qavranılması prosesində müxtəlif effektlər müşahidə olunur. *Oreol effektinin* mahiyyəti budur ki, biz hər hansı bir adamı yaxşı adam kimi tanıdıqda, sonralar onun nöqsanlarını görmürük, davranışını, əməllərini, ayrı-ayrı keyfiyyətlərini ilk xoş təəssürat əsasında qiymətləndiririk. Əksinə, adam yeni kollektivdə, qonşular arasında özünü pis adam kimi tanıtdıqda, onun hətta yaxşı əməllərinə də inanmırlar. Beləliklə, oreol effekti iki formada – müsbət və mənfi oreol effekti kimi özünü göstərir.

***Çalışma 8. Hal şəkilçilərini göstərin.***

*Yenilik effekti* tanıdığımız və tanımadığımız adamlar haqqındakı informasiyanın əhəmiyyəti ilə bağlıdır. Tanımadığımız adamın davranışını izah edərkən onun haqqında bizə məlum olan ilk informasiyaya əsaslanırıq. Tanıdığımız adamın davranışını izah edərkən onun haqqında başqa adamlardan aldığımız yeni informasiyanı nəzərə alırıq.

***Çalışma 9. Terminləri öyrənin.***

refleksiya, identifikasiya, kauzal atribusiya, oreol effekti, yenilik effekti

***Çalışma 10. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mühakimə | 1) bir şey haqqında fikir; 2) məhkəmədə işə baxma |
| nəzərdə tutmaq | fikrində tutmaq, haqqında düşünmək |



| | |
|---|---|
| motiv | 1) insanı fəaliyyətə təhrik edən psixoloji hadisə; 2) sənət əsəri mövzusunun əsas elementi |
| qanunauyğunluq | hadisələr arasındakı zəruri əlaqə, obyektiv qanunlardan asılılıq |
| kifayətlənmək | razı qalmaq, qane olmaq |
| xarakterizə etmək | səciyyələndirmək |
| məhdud | 1) əhatə edilmiş, hüdudlanmış; 2) kiçik, əhəmiyyətsiz; 3) biliyi, məlumatı az olan |
| nəticə çıxarmaq | müəyyən nəticəyə gəlmək |
| ehtimal | güman, təxmin, fərziyyə |
| güman etmək | ehtimal etmək, zənn etmk |
| nöqsan | çatışmazlıq, qüsur, qəbahət, eyib |
| əməl | 1) iş; 2) icra; 3) hərəkət |
| əsaslanmaq | 1) bir təmələ söykənmək; 2) istinad etmək; 3) kök salmaq |

## §22. Şüur

Şüurun üç əsas funksiyası – **koqnitiv** (ingiliscə cognition – bilik deməkdir), **tənzimetmə** və **kommunikativ** (ingiliscə communicate – məlumat vermək deməkdir) funksiyaları vardır. Psixoloji tədqiqatlar göstərir ki, həmin funksiyalar müxtəlif formalarda psixi inkişafın bütün mərhələlərində təzahür edir. Lakin şüurun əmələ gəlməsi və inkişafı ilə onlar yeni xüsusiyyətlər qazanır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| tənzimetmə | nizama salma, qaydaya salma |
| üzvi | canlı orqanik; tamın hissələrindən biri |
| bilavasitə | heç bir vasitə olmadan; birbaşa |
| əməliyyat | 1) məqsədli və əlaqəli işlər; 2) cərrahlıq işi; 3) döyüş işləri |
| mənimsəmək | öyrənmək, başa düşərək yadda saxlamaq, qanunsuz olaraq sahiblənmək, udaraq həzm etmək |
| tutuşdurmaq | qarşılaşdırmaq, müqayisə etmək |
| zərurət | 1) əlacsızlıq; 2) lazımlıq; 3) ehtiyac |
| mübadilə | bir şey verib əvəzində başqa bir şey alma |
| təəssürat | xarici aləmdəki əşya və hadisələrin insan şüurunda izi |
| mənlik | 1) bir şəxsin öz varlığı, öz halı; 2) şərəf |

***Çalışma 2. Söz birləşmələrini göstərin.***

Mənimsənilmiş biliklərin insanın həyat fəaliyyətində istifadə olunması *koqnitiv funksiyanın* əsasını təşkil edir.



Koqnitiv funksiya fərdi şüurun ictimai şüurla üzvi əlaqəsini bilavasitə ifadə edir. Bu funksiya idrak prosesləri vasitəsilə həyata keçirilir. İnsan onların köməyi ilə öz biliklərini zənginləşdirir. İdrak prosesləri çoxdur. Duyğu, qavrayış, diqqət, hafizə, nitq, təfəkkür və təxəyyül idrak prosesləridir. Bilik idrak əməliyyatları vasitəsilə mənimsənilməlidir.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözlərə əks mənalı sözlər tapın.***

Şüurun *tənzimetmə funksiyası* **müxtəlif** formalarda həyata keçirilir. Biz iki cəhətə **xüsusi** diqqət yetirməliyik: a) **şüurlu** məqsəd fəaliyyət prosesində özünəməxsus etalon rolunu ifadə edir; insan öz işinin nəticəsini onunla tutuşdurur; b) insanın fəaliyyəti onun iradəsinin təzahürü kimi həyata keçirilir; o, qarşıya çıxan **çətinlikləri** aradan qaldırır.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

İnsanın öz davranış və fəaliyyəti...i tənzim etmək zərurəti onun sosial varlı...ı ilə şərtlənir. O, i...timai münasibətlərə da...il olark...n, davranış və fəaliyyətini tənzim etməli...ir, əks halda onun cəmiy...ətdə, həyatda özünəmə...sus çətinlikləri olacaq...ır. İnsanın sosial normaları, qaydaları və prinsipləri mənimsəmə...i mühüm əhəmiy...ət kəsb edir, özünütənzim üçün şərait yara...ır.

***Çalışma 5. Mənsubiyyət şəkilçilərini göstərin.***

Şüurun *kommunikativ funksiyası* insanların bir-biri ilə ünsiyyəti prosesində formalaşır. Kommunikativ funk-

siya insanlar arasında bilik mübadiləsi, onların bir-birinin təcrübəsini mənimsəməsi, bir-birinin davranışını qarşılıqlı surətdə tənzim etməsi prosesi kimi həyata keçirilir.

***Çalışma 6. Aşağıdakı sözləri izah edin.***

mahiyyət, proses, münasibət, təəssürat, etalon

***Çalışma 7. Mətni öyrənin.***

Başqa insanlarla birgə iş və ünsiyyət şəraitində insanın hisslər aləmi və münasibətlər sistemi təşəkkül edir. İnsanın hisslər aləmi və münasibətlər sistemi vəhdətdədir. Şüurun mühüm bir cəhəti mənlik şüuru ilə bağlıdır. İnsan özünü dərk edir, «mən»ini «qeyri-mən»dən ayırır, öz əməllərini və özünü şüurlu surətdə qiymətləndirir.

***Çalışma 8. Zaman şəkilçilərinin altından xətt çəkin.***

Sosial rolla sosial münasibətin uyuşması sosial yönəlişin əmələ gəlməsi üçün əsas şərtlərdən biridir. Əgər sosial rolla sosial münasibət bir-birinə uyuşmursa, sosial yönəlişlik bu zaman ancaq koqnitiv və ya affektiv səviyyədə ifadə olunur, insan sosial hadisəni müəyyən baxımdan qavrayır, ona uyğun hisslər keçirir. Sosial yönəlişliyin istiqaməti, onun pozitiv və ya neqativ olması müxtəlif amillərlə şərtlənir. Xeyir, şər, ədalət, xoşbəxtlik, gözəllik, azadlıq və s. haqqındakı ictimai ideallar və sərvətlər onların içərisində xüsusi yer tutur.

***Çalışma 9. Terminləri öyrənin.***

şüur, koqnitiv funksiya, tənzimetmə funksiyası, kommunikativ funksiya, mənlik şüuru



## §23. Şüur və şüursuzluq

İnsanın psixi həyatının müəyyən bir sahəsi şüursuzluqla bağlıdır. Psixologiyada **şüursuzluq** dedikdə, elə psixi proses və halların məcmusu nəzərdə tutulur ki, onlar gerçək hadisələrlə şərtlənir, lakin insan onların təsiri haqqında özünə hesabat vermir. Bu zaman insan cisim və hadisələrə münasibətini, öz əməllərinin motivlərini dərk etmir, onları təhlil edib qiymətləndirə bilmir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| məcmu | 1) bütün, tamam, hamı; 2) yekun, cəm |
| hesabat | bir şey və ya iş haqqında izahat, geniş məlumat |
| şüursuzluq | 1) ağılsızlıq; 2) düşüncəsiz, ağılsız iş, hərəkət |
| hesabat vermək | izahat, məlumat vermək |
| hipnoz | sözlə, baxışla təlqin nəticəsində əmələ gələn yuxululuq halı |
| patogen | xəstəlik törədən mikrob |
| təlqin | iradəyə, psixikaya təsir etmə |
| təhrik | meyilləndirmə, həvəsləndirmə |
| sayıqlama | mənasız sözlər |
| yanılma | səhv etmək, yanlış fikirdə olmaq |
| intuisiya | duyma qabiliyyəti; duyğu |
| obraz | surət |
| sirayət | yoluxma, keçmə, keçərək yayılmaq |
| patoloji | 1) patologiyaya aid olan; 2) qeyri-nor- |

mal, xəstə

məqsədyönlü müəyyən məqsədə yönəldilmiş; faydalı, səmərəli

sima üz, sifət, surət, xarici görünüş

***Çalışma 2. Fellərdə altından xətt çəkilmiş şəkilçilər nəyi bildirir?***

Şüursuzluq hallarının öyrənilməsi psixopatologiya ilə bağlıdır. Fransız psixiatriya məktəbində hipnoz metodu ilə aparılan tədqiqatlar zamanı şüursuzluq hallarının patogen rol oynaması, bu prosesdə insanın davranışının dəyişilməsi və s. müəyyən edilmişdi. Bu faktlar Z.Freydin diqqətini cəlb etmişdi.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

1. Z.Freyd 1886-cı ildə isterik **pozğunluqları** təlqinlə müalicə etmək imkanları ilə **maraqlanmışdı**. 2. O, 1891 – 1896-cı illərdə həkim İ.Breyerlə birlikdə xüsusi hipnoterapiya metodunu **işlədi**. 3. *Həvəs* fəaliyyətə tələbatdan ibarət olan təhrikdir. 4. O, fəaliyyətin dərk edilməyən **təhriklərinə** aiddir. Belə psixi halət, adətən, **keçici** olur.

***Çalışma 4. Freydin şüursuzluq haqqındakı fikrini təhlil edin.***

Z.Freyd *şüursuzluq* dedikdə, insanın həyata keçirilməyən meyillərini nəzərdə tuturdu. Guya bu meyillər sosial normalara uyğun gəlmədiyinə görə şüur sahəsinə buraxılmır, şüursuzluq sahəsinə sıxışdırılır. Sayıqlamalarda, dil yanılmalarında və s.-də təzahür etməyə başlayır.



***Çalışma 5. Feli sifətləri tapın.***

Şüursuzluq hadisələri müxtəlifdir. Onları belə qruplaşdırmaq olar: a) yaradıcılıq prosesində özünü göstərən, onun ancaq müəyyən bir cəhətini təşkil edən, şüur vasitəsilə nəzarət edilməyən psixi fəallıq halları. Yaradıcılıq intuisiyası vasitəsilə əldə edilən biliklər və obrazlar buna misal ola bilər. İlham şüur vasitəsilə nəzarət edilməyən özünəməxsus psixi fəallıqdır.

***Çalışma 6. Sözləri hecalara ayırın. Hecaların növünü müəyyənləşdirin.***

b) yuxugörmə, hipnoz, psixoloji sirayət, bəzən affektiv vəziyyətdə, yorğunluq zamanı və s. hallarda əmələ gələn psixi hadisələr. Fəaliyyətin dərk edilməyən motivləri, həvəs, yönüm və s. buna misal ola bilər; c) davranışın dərk edilməyən icra tərzləri. Adətləri buna misal göstərmək olar. İnsan müəyyən şəraitdə müvafiq hərəkətləri avtomatlaşmış şəkildə icra edir; ç) xəstə adamın psixikası üçün səciyyəvi olan bəzi patoloji hallar, məsələn, sayıqlama, hallüsinasiya (qarabasma) və s. Şüursuzluq sahəsinə aiddir.

***Çalışma 7. Altından xətt çəkilmiş felləri indiki zamanın inkarında şəxslər üzrə dəyişin.***

d) *subsensor* və ya *subseptiv* reaksiyalar. Eşidilməyən səslər, görünməyən işıq siqnalları və s. subsensor (latınca sub – alt, aşağı, sen-sus – hiss, duyğu deməkdir) *qıcıqlar sahəsi* adlanır. Bu zaman müvafiq qıcıq insana təsir göstərir, lakin o, zəif olur, insan tərəfindən bilavasitə

dərk edilmir, əlverişli şəraitdə özünəməxsus cavab reaksiyaları ilə müşahidə olunur.

***Çalışma 8. Səhvləri düzəldin.***

Şüursuzluk insana məğsus psixi hadisədir. O, insanın ictimayi həyat şərayiti ilə şərtlənir. Bu zaman insan öz hərəkətdərinə məksədyönnü nəzarət edə bilmir və onnarın nəticələrini, adətən, qiymətləndirmir. İnsanın psixaloji siması şüurla müəyən olunur.

***Çalışma 9. Terminləri öyrənin.***

şüur, şüursuzluq, psixopatologiya, psixiatriya, hipnoz, hipnoterapiya metodu, isterik pozğunluq, həvəs, hallüsinasiya, subsensor reaksiya, subseptiv reaksiya



## §24. Mənlik şüuru

**Mənlik şüuru** insanın özünü şəxsiyyət kimi tanıması və dərk etməsi prosesidir. Mənlik şüuru dedikdə insanın özünün tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti nəzərdə tutulur. Onun əsas əlamətləri aşağıdakılardan ibarətdir: insan özünü bütün ətraf aləmdən, yəni «mən»ini «qeyri-mən»dən ayırır, özünün fiziki, psixi və mənəvi keyfiyyətlərini qiymətləndirir və dərk edir, psixi həyatının bütün cəhətlərinə şüurlu münasibət bəsləməyə başlayır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| qabiliyyət | 1) istedad; 2) bacarıq; 3) ləyaqət, mərifət |
| münasibət bəsləmək | duymaq, hiss etmək, ürəyində saxlamaq |
| struktur | quruluş |
| cəhət | 1) tərəf, yön, səmt; 2) bir şeyin tərkib hissəsi; 3) bir şeyə aid olan əlamət |
| avtoportret | rəssamın özü tərəfindən çəkilmiş şəkli |
| potensial | mümkün ola bilən |
| təxminən | bir qədər, bir qədər çox, bir az tez (gec) |
| lüğət ehtiyatı | söz miqdarı |
| yeniyetmə | gənclik yaşına çatmış oğlan və |

| | |
|---|---|
| | ya qız |
| mərhələ | dövr |
| özünütərbiyə | özünü tərbiyə etmə |

***Çalışma 2. Mənlik şüurunun strukturunu öyrənin.***

Mənlik şüurunun strukturu 3 cəhətdən ibarətdir:

1. «Mən-obraz» – insanın özü haqqında təsəvvürləri (buna *psixoloji avtoportret* də deyilir).

2. Özünüqiymətləndirmə – insanın özünün özü haqqındakı təsəvvürlərinin qiymətləndirilməsi.

3. Potensial davranış reaksiyaları – insanın «Mən-obraz»ı və özünə verdiyi qiymətlərin onun davranış və rəftarında təzahür etməsi.

***Çalışma 3. Sayları sözlə yazın.***

Uşaqlar özlərini güzgüdə ilk dəfə 18 aylıq olanda tanıyırlar. Özünü güzgüdə tanımaq 20 aylıq uşaqlar üçün adi işdir. 2 yaşında uşaq təxminən 200 – 300 söz bilir. 3 yaşında onun fəal lüğət ehtiyatı bir il ərzində təxminən 5 dəfə artır: 1200 – 1500 sözə çatır. Uşağın nitqində «Mən» şəxs əvəzliyi daha geniş və düzgün işlənməyə başlayır.

***Çalışma 4. Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.***

1. Mənlik şüuru ... xas deyildir. 2. Uşağın öz «mən»ini ifadə etməsi ... inkişafı ilə bağlıdır. 3. Refleksiya özünüdərketmə ... . 4. Refleksiyanın əmələ gəlməsi ilə kiçik məktəbli özünün fikir və əməllərini obyektiv surətdə ... başlayır. 5. Onun başqa adamlarla ... münasibətlərinin xarakteri dəyişir.



**Sözlər:** *prosesidir, qarşılıqlı, nitqin, təhlil etməyə, heyvanlara*

***Çalışma 5. Nöqtələrin yerinə hansı hal şəkilçisi yazılmalıdır?***

Mənlik şüuru yeniyetməlik yaşı dövründə formalaşır. Yeniyetmədə mənlik şüurunun formalaşması onun öz davranışı..., mənəvi keyfiyyətləri..., xarakter və qabiliyyətləri... dərk etməsi ilə başlayır. Yaş artdıqca yeniyetmə öz şəxsiyyəti... müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır. Yeniyetmə öz davranış və xüsusiyyətləri... dərk etdikcə, onda özünütərbiyə tələbatı yaranır. İlk gənclik yaşı mənlik şüurunun yaranmasının xüsusi mərhələsi... təşkil edir.

***Çalışma 6. Aşağıdakı sözlər hansı suallara cavab verir?***

nitq, metodik, tərbiyə, təsadüf etmək, mürəkkəbləşmək, sosiallaşmış, təsəvvür, təəssürat

***Çalışma 7. Suallara cavab verin.***

1. Mənlik şüuru nədir? 2. Mənlik şüurunun hansı əlamətləri var? 3. Onun strukturuna nə daxildir? 4. Mənlik şüuru nə zaman formalaşır?

***Çalışma 8. Terminləri öyrənin.***

mənlik şüuru, mən obraz, özünüqiymətləndirmə, psixoloji avtoportret, refleksiya, «mən», «qeyri-mən»

## §25. Mənlik şüuru (davamı)

«Mənlik şüuru» termini iki sözdən – «mənlik» və «şüur» sözlərindən ibarətdir. «Mənlik şüuru» şüurun strukturuna daxildir, şüurun mühüm xarakteristikalarından birini təşkil edir. Şüurun özünəməxsus cəhətləri də vardır. «Mənlik şüuru»nda şüurun bütün xüsusiyyətləri insanın «mən»i vasitəsilə ifadə olunur. Mənlik şüuru bimodal xarakter daşıyır: onda eyni vaxtda həm «mən»ə (subyektə), həm də «qeyri-mən»ə (obyektə) mənsub olan cəhətlər əks olunur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mənsub | aid, əlaqəsi olan |
| xarakteristika | 1) səciyyəvi xüsusiyyətlər; 2) xasiyyətnamə |
| dialektik | dialektik qanunlara əsaslanan |
| fəxr etmək | iftixar etmək, öyünmək |
| pərdələmək | 1) qabağını örtmək, tutmaq, görünməz etmək; 2) üstünü örtmək, gizləmək |
| tamamlamaq | 1) tamam etmək, bütövləşdrmək; 2) sona yetirmək, qurtarmaq |
| zənginləşdirmək | zəngin, varlı etmək, çoxaltmaq |
| ziddiyyət | tam uyğunsuzluq, düz gəlməyən |
| uyğunsuzluq | arada uyğunluq olmama, uyuşmazlıq |
| modallıq | nitqin məzmununun gerçəkliyə münasibətini bildirən kateqoriya |
| modal | modallıq bildirən |



***Çalışma 2. Qara hərflərlə verilmiş sözlərin necə düzəldiyini izah edin.***

«Mən-obraz»ın əsasını insanın özü haqqında **biliklər** təşkil edir. Onlar insanın özünə münasibətini ifadə edir. İnsanda eyni vaxtda üç «Mən-obraz»: «real mən», «ideal mən» və «sosial mən» mövcuddur. «Mən-obraz»ın formalaşması dialektik prosesdir. İnsanın özü haqqında təsəvvürlərinin formalaşmasında hərəkət və **görmə duyğuları** mühüm rol oynayır.

***Çalışma 3. Qalın sait ahəngli sözləri tapın.***

*«Real mən».* Bu zaman insan özünə öz gözü ilə baxır. O, özünün «real mən»i ilə fəxr edə bilər; insanın özü haqqındakı bu obrazı başqa adamlardan gizlətməsi də mümkündür. Bəzi hallarda isə «real mən» ətrafdakı adamların insana verdikləri qiymətlərə uyğun gəlmir.

***Çalışma 4. Qara hərflərlə verilmiş felləri qeyri-qəti gələcək zamanın inkarında şəxslər üzrə dəyişin.***

*«İdeal mən»* insanın özü haqqında idealları ilə bağlıdır. Onun psixoloji mənası bundan ibarətdir: insan öz «ideal mən»ini həyata keçirmək üçün yollar **axtarır** və bu sahədə böyük səy **göstərir**. «İdeal mən»də hər bir insanın yüksək qiymətləndirdiyi müəyyən keyfiyyətlər əks olunur.

***Çalışma 5. Fellərdəki indiki zaman şəkilçilərini nəqli keçmiş zamanın şəkilçiləri ilə əvəz edin.***

*«Sosial mən».* Bizim hər birimiz insanların içərisində yaşayırıq və özümüzə onların gözü ilə baxmalıyıq. İnsanların qarşılıqlı sosial təsiri prosesində «sosial mən»in

əhəmiyyəti bundadır. İnsan həmişə özünü başqa adamlara yaxşı göstərməyə çalışır, özünün «pis əməllərini» müxtəlif yollarla pərdələyir, psixoloji «maskalardan» da bu məqsədlə istifadə edir.

***Çalışma 6. Mətndəki fellərin təsirli və ya təsirsiz olduğunu müəyyənləşdirin.***

Real, ideal, sosial «mən» bir-birini tamamlayır və zənginləşdirir. Lakin bəzən onların arasında ziddiyyətlər müşahidə olunur. Əgər «real mən» «ideal mən»ə uyğun gəlmirsə, «sosial mən» «real mən»i gizlətməyə xidmət edirsə, insanın özü haqqında təsəvvürlərində spesifik çətinliklər meydana çıxır. Belə hallarda insan refleksiya yolu ilə bu uyğunsuzluqları təhlil edir.

***Çalışma 7. Nöqtələrin yerinə uyğun gələn şəkilçini yazın.***

«Mən-obraz»ın formalaşmasının əsas mənbəyini başqa adam... təşkil edir. İnsan o... vasitəsilə kişilik, qadınlıq, mənəvi gözəllik və s. haqqındakı etalon və stereotip...ə yiyələnir, başqa adam...ı və özünü qiymətləndirməyi öyrənir.

***Çalışma 8. Suallara cavab verin.***

1. Mənlik şüuru necə xarakterə malikdir? 2. «Mən-obraz» neçə yerə bölünür? 3. Real, ideal, sosial «mən»i izah edin.

***Çalışma 9. Terminləri öyrənin.***

mən – obraz, real mən, ideal mən, sosial mən, etalon, stereotip



## §26. Özünüqiymətləndirmə

**Özünüqiymətləndirmə** termini iki sözdən – özünü və qiymətləndirmə sözlərindən əmələ gəlmişdir. Onun psixoloji mənası aydındır: söhbət insanın özünə verdiyi qiymətdən, özünün obrazını qiymətləndirməsindən gedir.

İnsanın özü haqqındakı təsəvvürlərinin formalaşması özünüqiymətləndirmə ilə bağlıdır. Onun üçün bir insan kimi mühüm olan hər şeyi: öz qabiliyyətlərini, qarşılıqlı münasibətlərini, qrup və kollektivdə, başqa adamlar arasında tutduğu yeri qiymətləndirir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| kollektiv | birləşmiş adamlar toplusu |
| konflikt | münaqişə, ziddiyyət |
| ləyaqət | 1) yüksək mənəvi keyfiyyətləri göstərən xassələrin məcmusu; 2) qabiliyyət, bacarıq, istedad |
| yekun | hesabın məcmusu; bir şeyin nəticəsi |
| ekspert | mübahisəli məsələləri həll edən mütəxəssis |
| tələbkar | hər şeyə çox ciddi yanaşan |
| vərəqə | kağız parçası |
| şkala | kəmiyyəti müəyyənləşdirən rəqəmlər sistemi |
| əmsal | 1) oxşar, bənzər; 2) tay-bərabər |

***Çalışma 2. Damaq ahəngi olan sözləri göstərin.***

Özünüqiymətləndirmə mürəkkəb prosesdir: o, özünümüşahidə və özünütəhlil yolu ilə formalaşır, bu zaman insan özünə başqa adamların gözü ilə baxır, özünü onlarla

müqayisə edir. Müəyyən həyati situasiyalarda, ailədə və kollektivdə insan mühüm bir addım atdıqda, konflikt şəraiti yarandıqda və s.-də özünüqiymətləndirmə böyük əhəmiyyət kəsb edir.

***Çalışma 3. Necə? hansı? suallarına cavab verən sözləri tapın.***

Özünüqiymətləndirmə zamanı qiymətin müxtəlif növlərindən – əxlaqi, estetik, intellektual, emosional və s. qiymətlərdən istifadə olunur. Onların içərisində emosional qiymətlər əsas yer tutur: əxlaqi qiymət də, intellektual qiymət də özünüqiymətləndirmə səviyyəsində emosional çalara malikdir.

***Çalışma 4. Mürəkkəb sözləri tapın və necə düzəldiyini izah edin.***

Özünüqiymətləndirmə özünüsevmə, özünəhörmət, öz ləyaqətini saxlamaq və s. kimi hisslərlə birləşir, yəni emosional qiymətlərə əsaslanır. Özünüqiymətləndirmə səviyyəsində qiymətverən və qiymətləndirilən eyni bir adamın şəxsində birləşir: mən – mənə qiymət verir.

***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

İnsan... qiymətləndirmə zamanı öz...ini kiminləsə müqayisə edir... . Başqa adam bu zaman etalon rolunu oynayır. İnsan müəyyən obyektiv meyar...a əsaslanır, lakin özünüqiymətləndirmədə subyektiv amil... başlıca yer tutur. Özünütərbiyənin səviyyəsi insanın özünə tənqidi yanaşıb-yanaşmamasından, özünə qarşı tələbkar olub-olmamasından asılıdır.



***Çalışma 6. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

Bir ço... tə...qiqat metodikaları...da tələbəl...rin özlərinə verdi...ləri qiymətlər obyektiv m...lumatlarla – fizioloji göst...ricilər, imtahanların real n...ticələri, psixoloji testlər və qrup qiymətlərinin yekunları, z...ruri hallarda isə ekspert qiymətləri ilə müqayisə ...dilir.

***Çalışma 7. Fellər hansı növdə işlənmişdir?***

Özünüqiymətləndirmə müxtəlif üsullarla öyrənilir. Məsələn, tələbələrə özlərini sərbəst surətdə təsvir etmək təklif olunur, yaxud onlara müəyyən qiymətverici hökmlər yazılmış vərəqələr verilir: bu zaman tələbələrə onların zahiri görkəmini və ya hisslərini ifadə edən vərəqələri qruplaşdırmaq təklif edilir.

***Çalışma 8. İsmi xəbərləri tapın və necə düzəldiyini izah edin.***

Müxtəlif özünüqiymətləndirmə şkalaları və əmsalları da məlumdur. Bu məqsədlə müəyyən sifət – sözlərdən istifadə olunur. Bəzən tələbələrə aşağıdakı cavablardan birini seçmək təklif edilir: 1) mən ən yaxşı tələbələrdən biriyəm; 2) mənim qabiliyyətlərim orta səviyyədən yüksəkdir; 3) mənim qabiliyyətlərim orta səviyyədədir; 4) mənim qabiliyyətlərim orta səviyyədən aşağıdır; 5) mən az qabiliyyətli tələbələrdən biriyəm.

***Çalışma 9. Terminləri öyrənin.***

özünüqiymətləndirmə, özünümüşahidə, özünütəhlil, özünütərbiyə

## §27. Özünüqiymətləndirmə (davamı)

Özünüqiymətləndirmə insanın davranışının tənzim olunmasında mühüm rol oynayır. İnsanın başqa adamlarla qarşılıqlı münasibətləri, onun öz uğurlarına və uğursuzluqlarına münasibəti, ayrı-ayrı həyati situasiyalarda davranış və rəftarı özünüqiymətləndirmədən asılıdır. Özünüqiymətləndirmə insanın fəaliyyətinin səmərəliliyinə və onun bir şəxsiyyət kimi inkişafına mühüm təsir göstərir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| səmərəli | əlverişli |
| adekvat | eyni, uyğun |
| layiq olmaq | münasib olmaq, yaraşdırılmaq |
| möhkəmləndirmək | 1) möhkəm etmək, davamlı hala salmaq; bərkitmək; 2) qüvvətləndirmək; 3) ciddiləşdirmək |
| avtoritar | tabeçiliyə əsaslanan |
| nəzərə almaq | nəzərdə tutmaq, fikirdə tutmaq, haqqında düşünmək |
| natamam | 1) bitməmiş, qurtarmamış, başa vurulmamış, yarımçıq qalmış; 2) qüsurlu, kəsirli, nöqsanlı |

***Çalışma 2. Qara hərflərlə verilmiş sözlərə yaxın mənalı sözlər tapın.***

Özünüqiymətləndirmə prosesində «**real** mən» obrazı ilə «ideal mən» obrazının **müqayisə edilməsi mühüm** rol oynayır. Onların bir-birinə uyğun gəlməsi psixi sağlamlığın şərtidir. İnsanın «real mən» obrazı «ideal mən» obrazına **müvafiq** olduqda, o,.adətən, özünü **yüksək** qiymətləndirir.

***Çalışma 3. Təsirsiz felləri göstərin.***

İnsan özünün hər hansı bir keyfiyyətini qiymətləndirərkən, onun yaxşı və pis keyfiyyət olduğunu necə müəyyən edir? İnsan özünə qiymət verəndə bu təsəvvürlərdən etalon kimi istifadə etməyə başlayır: əgər etdiyi hərəkətlər «yaxşı» etalonuna uyğun gəlirsə, onları müsbət, «pis» etalonuna uyğun gəlirsə, mənfi qiymətləndirir. Yaş artdıqca insanın sərvət meyilləri formalaşır, ideallarının xarakteri dəyişir və etalonlar sistemi mürəkkəbləşir.

***Çalışma 4. Əvəzlikləri göstərin.***

Biz hər hansı bir adamın özünü necə qiymətləndirdiyini aydınlaşdırmaq üçün onun özünü hansı etalonla tutuşdurduğunu, özünə hansı etalona əsasən qiymət verdiyini bilməliyik. Bu yolla biz həm də onun «ideal mən»inin məzmununu təhlil etmək imkanı əldə edirik. Çünki müvafiq etalonlar «ideal mən»də xüsusi yer tutur.

***Çalışma 5. Sözləri hecalara ayırın.***

İnsanın özünəməxsus qiymətlər sistemi vardır. Bir tərəfdən, insan özü-özünü qiymətləndirir, digər tərəfdən, onun davranış və rəftarı mənsub olduğu qrup tərəfindən qiymətləndirilir. Adam müəyyən hərəkəti edərkən ətrafdakı adamların onu necə qiymətləndirəcəklərini nəzərə alır. Buna *gözlənilən qiymətlər* deyilir.

***Çalışma 6. Özünüqiymətləndirmənin səviyyələrini öyrənin.***

Psixoloji tədqiqatlara görə, özünüqiymətləndirmənin üç səviyyəsi var. *Adekvat özünüqiymətləndirmədə* tələbə özünün ayrı-ayrı keyfiyyətlərini, əsasən, düzgün qiymətləndirir. *Qeyri-adekvat yuxarı qiymətlər* – tələbə özünün ayrı-ayrı keyfiyyətlərini olduğundan yüksək qiymətləndirir. *Qeyri-adekvat aşağı qiymət* – tələbə özünün ayrı-ayrı keyfiyyətlərini layiq olduğundan aşağı qiymətləndirir.

***Çalışma 7. İsmi xəbərləri tapın.***

Qrupun şəxsiyyətə verdiyi qiymətlərlə gözlənilən qiymətlər bir-biri ilə vəhdətdədir. Lakin onları eyniləşdirmək olmaz. Əgər tələbə özünə adekvat qiymət verirsə, onu daha da möhkəmləndirmək lazımdır. Tələbənin özünə qeyri-adekvat qiymətlər verməsini şərtləndirən amilləri müəyyənləşdirmək və aradan qaldırmaq zəruridir.

***Çalışma 8. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?***

Ailənin tipi (uğurlu və ya uğursuz, tam – natamam, çoxuşaqlı – təkuşaqlı və s.), ailə münasibətlərinin xarakteri, tərbiyə üslubu (avtoritar və ya demokratik), kollektivdə tələbənin mövqeyi, onun inkişaf səviyyəsi – bunların hamısı özünüqiymətləndirməyə mühüm təsir göstərir və onun adekvatlıq dərəcəsini müəyyən edir.

***Çalışma 9. Terminləri öyrənin.***

gözlənilən qiymətlər, adekvat özünüqiymətləndirmə, qeyri-adekvat yuxarı qiymət, qeyri-adekvat aşağı qiymət



## §28. Özünüqiymətləndirmə və iddia səviyyəsi

Özünüqiymətləndirmənin səviyyəsi iki mühüm amilin – müvəffəqiyyət və iddianın qarşılıqlı əlaqəsi ilə şərtlənir. İnsan özünü yüksək qiymətləndirmək üçün səy göstərməli və müvəffəqiyyət əldə etməlidir, başqa halda isə iddia səviyyəsini aşağı salmalı və özünün ən kiçik müvəffəqiyyətini belə, düzgün qiymətləndirməlidir. 1890-cı ildə U.Cems bunu orijinal düsturla belə ifadə etmişdi:

$$\text{Özünüqiymətləndirmə} = \frac{\text{müvəffəqiyyət}}{\text{iddia}}$$

Psixologiyada bu problem XX əsrin 30-cu illərindən öyrənilməyə başlanılmışdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| müvəffəqiyyət | uğur, nailiyyət |
| iddia | 1) tələb; 2) lovğalıq, təkəbbür, özünü yüksək tutma; 3) bir fikrin üstündə inad etmək |
| düstur | 1) qanun, qayda, əsas, üsul; 2) formul |
| kəmiyyət | miqdar, qədər, say, ədəd |
| asan | zəhmət tələb etməyən; yüngül |
| tapşırıq | 1) tapşırılmış şey, vəzifə, iş; 2) dərs; göstəriş, əmr |
| icra olunmaq | yerinə yetirilmək, həyata keçirilmək |
| eksperiment | elmi təcrübə |
| təkmilləşdirmək | daha yaxşı, mükəmməl hala gətirilmək |

| | |
|---|---|
| sərişτə | bir işi bacarma; təcrübə, bacarıq |
| tədbir | 1) bir işi görmək üçün üsul, vasitə, yol; 2) hazırlıq |
| optimal | ən əlverişli, ən münasib, ən müvafiq |

***Çalışma 2. Məsdərləri tapın, necə işləndiyini izah edin.***

Fəaliyyətin nəticəsi, yəni uğurlu və uğursuz olması iki kəmiyyət – A (adamın əldə etmək istədiyi nəticə) və B (faktik olaraq əldə etdiyi nəticə) arasındakı nisbətlə müəyyən olunur. Psixologiyada həmin faktları təhlil etmək, xüsusilə adamların öz uğurlarına və uğursuzluqlarına münasibətlərini xarakterizə etmək üçün yeni termindən – *iddia səviyyəsi* terminindən istifadə olunmağa başlanıldı.

***Çalışma 3. Felləri lazım şəklində işlədin.***

Gözləmə səviyyəsi insanın əldə etmək istədiyi nəticə (məqsəd) ilə müəyyən olunur. İddia səviyyəsi isə insanın əldə etdiyi nəticəyə münasibətində ifadə edilir. O, əldə etdiyi nəticəni bəyənir, yoxsa bəyənmir, nəticə onu təmin edir, yoxsa etmir – iddia səviyyəsini bu suallarla xarakterizə etmək olar.

***Çalışma 4. Hansı sözlər zidd mənalıdır?***

İnsanın özü haqqındakı təsəvvürlərindən, özünə verdiyi qiymətlərdən və s. asılı olaraq hər hansı nəticə müvəffəqiyyət və ya uğursuzluq kimi qiymətləndirilir. Bu zaman o, tapşırığın asan və ya çətin olmasını, onun hansı şəraitdə icra olunduğunu da nəzərə alır.



***Çalışma 5. Altından xətt çəkilmiş şəkilçilərin funksiyasını izah edin.***

30-cu illərin əvvəllərində motivasiya məsələləri psixologiyada daha çox aktuallıq kəsb edirdi. Adamlar özlərinin uğurlarına və ya uğursuzluqlarına eyni münasibət bəsləmirdilər. Bu illərdə iddia səviyyəsi sahəsində aparılan ilk eksperimentlər böyük marağa səbəb oldu. Tədqiqat metodları daha da təkmilləşdirildi və bir sıra yeni faktlar əldə edildi.

***Çalışma 6. Mənsubiyyət şəkilçilərini göstərin.***

İnsanın iddia səviyyəsinin yüksək və ya aşağı olması, bir tərəfdən, onun özü haqqındakı təsəvvürlərində, digər tərəfdən isə başqa adamlara münasibətində əks olunur. Hər bir halda iddia səviyyəsini şərtləndirən amilləri psixoloji səriştə ilə təhlil etmək və onları aradan qaldırmaq üçün təsirli tədbirlər müəyyən etmək lazımdır.

***Çalışma 7. Fellər hansı şəkildə işlənib?***

Uşaq və yeniyetmələrdə öz uğurlarına düzgün münasibət yaradılmalıdır. İnsan təlim və əmək fəaliyyətində heç bir çətinlikdən qorxmamalı, onları mətanətlə aradan qaldırmalı və başladığı işi müvəffəqiyyətlə başa çatdırmalıdır. Tərbiyə işi də şəxsiyyəti buna yönəltməlidir.

***Çalışma 8. Mötərizədəki sözləri lazım olan zaman formasında işlədin.***

İnsanın öz müvəffəqiyyətlərinə düzgün münasibət bəsləməsi psixoloji baxımdan mühüm əhəmiyyət (kəsb etmək). Bu isə iddia səviyyəsinin süni surətdə artması yolu ilə deyil, onun tənzim edilməsi, optimallaşdırılması

yolu ilə (əldə edilmək). İnsan müxtəlif həyati situasiyalarda iddia səviyyəsini spesifik yollarla (optimallaşdırmaq) və bu məqsədlə psixoloji müdafiənin formalarından (istifadə etmək).

***Çalışma 9. Terminləri öyrənin.***

özünüqiymətləndirmə, müvəffəqiyyət, iddia, iddia səviyyəsi



## §29. Psixoloji müdafiə

Müdafiə hərbi, idman və s. sahələrdə geniş tətbiq olunur. Müdafiə həm də psixoloji xarakter daşıya bilər: bu cəhəti ifadə etmək üçün alimlər «psixoloji müdafiə» söz birləşməsindən istifadə edirlər.

Psixoloji müdafiə xüsusi psixoloji fenomenlərdən biridir. O, ilk dəfə freydizmdə öyrənilməyə başlanılmış, sonralar isə müxtəlif psixoloqların diqqətini cəlb etmişdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| neytrallaşdırmaq | neytral hala salmaq |
| təsəlli vermək | dərdinə şərik olmaq, sakitləşdirmək, təskinlik vermək |
| rasional | ağıl və məntiqə əsaslanan, məqsədəuyğun |
| günahkar | 1) müqəssir, günahı olan, təqsirkar; 2) səbəbkar |
| hədələmək | qorxutmaq, təhdid etmək |
| simptom | hər hansı bir şeyin, hadisənin əlamətləri |
| instinkt | qeyri-şüuri, qeyri-iradi həvəs, hiss, duyğu |

***Çalışma 2. Qoşasaitli sözləri tapın və tələffüzünə diqqət edin.***

Psixoloji müdafiə xüsusi tənzimedici sistem kimi özünü göstərir. Bir çox hallarda insan situasiyanı dəyişə bilmir. Müəyyən edilmişdir ki, «Mən-obraz» üçün təh-

lükəli olan şəraiti, hiss və həyəcanları neytrallaşdırmaq zərurəti meydana çıxdıqda şəxsiyyət psixoloji yollarla özünü müdafiə etməyə başlayır.

***Çalışma 3. Mötərizədəki sözlərə hansı şəkilçi artırılmalıdır?***

İnsan bir halda özünə təsəlli (vermək) və ya haqq (qazandırmaq), öz səhvlərini etiraf (etmək), başqa bir halda hadisələri (rasionallaşdırmaq), özünəməxsus motivləri, əməlləri, əlamətləri başqasının adına (çıxmaq), özünü rastlaşdığı adamlarla (eyniləşdirmək).

***Çalışma 4. Əvəzlikləri tapın, növünü müəyyənləşdirin.***

Frustrasiya şəraitində müdafiənin xarakteri dəyişir. İnsan belə hallarda müxtəlif çətinliklərlə rastlaşır, onları aradan qaldıra bilmir, özünün düşdüyü bu vəziyyətə görə kimisə günahkar sayır, kimisə hədələyir. Bəzən isə frustrasiya şəraitində insan özünə qarşı aqressiv münasibət bəsləyir.

***Çalışma 5. Söz birləşmələrini göstərin.***

Psixoloji müdafiə çox vaxt adekvat formalarda ifadə olunmur. İnsan bəzən psixoloji müdafiənin formalarından düzgün istifadə etmir, bəzən isə özünü qeyri-adi şəkildə müdafiə edir. Bu zaman onun davranışında nevrotik və bəzi başqa simptomlar müşahidə olunur. Psixoloji müdafiənin məzmunu və forması insanın sosial yetkinliyi ilə əlaqədardır.



***Çalışma 6. Felləri qeyri-qəti gələcək zaman şəkilçiləri ilə işlədin.***

İnsan psixoloji müdafiə vasitəsilə öz davranış və rəftarını, qarşılıqlı münasibətlərini tənzim edir. Bu, psixoloji müdafiənin əsas funksiyasıdır. Z.Freyd psixoloji müdafiəni biolojiləşdirirdi. O, psixoloji müdafiənin mahiyyətini insanın şüursuz instinktləri ilə izah edirdi.

***Çalışma 7. Əlamət bildirən sözləri göstərin.***

Psixoloji müdafiənin geniş yayılmış formalarından biri iddia səviyyəsinin aşağı düşməsi ilə əlaqədardır. Psixoloji müdafiə insanın davranış və rəftarında xüsusi tənzimedici sistemdir. Buna görə də onun köklərini şüursuzluqda deyil, şüurda – şüurun tənzimetmə funksiyasında – axtarmaq lazımdır.

***Çalışma 8. 7-ci tapşırıqda ismi xəbərləri tapın və izah edin.***

***Çalışma 9. Suallara cavab verin.***

1. Psixoloji müdafiəni necə başa düşürsünüz? 2. Frustrasiya zamanı müdafiə necə baş verir? 3. Psixoloji müdafiənin əsas funksiyası nədir?

***Çalışma 10. Terminləri öyrənin.***

psixoloji müdafiə, fenomen, freydizm, instinkt, frustrasiya

## §30. İnsanın fərd və şəxsiyyət kimi inkişaf mərhələləri

Yaş psixologiyasında insanın fərd və şəxsiyyət kimi inkişaf mərhələləri qarşılıqlı əlaqədə təhlil olunur. Hər bir yaş dövründə ayrı-ayrı psixi proseslərin (duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür və s.) inkişaf xüsusiyyətləri ilə yanaşı, uşaq, yeniyetmə gənclər və b. üçün bir şəxsiyyət kimi səciyyəvi olan xüsusiyyətlər aydınlaşdırılır. **Şəxsiyyətin formalaşması və inkişafı** dedikdə, fərdin şəxsiyyətə – sosial fəaliyyətin obyektindən onun subyektinə çevrilməsi nəzərdə tutulur. **Fərdi inkişaf** həm insanın sosial cəhətdən şərtlənən həyat yolu, həm də konkret cəmiyyətdə şəxsiyyətin təşəkkülü tarixidir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| fərd | 1) ayrıca adam, şəxs; 2) müstəqil orqanizm; varlıq |
| şəxsiyyət | öz xarakteri, cəmiyyətdə mövqeyi və s. ilə seçilən insan, şəxs |
| duyğu | hiss; hiss etmə qabiliyyəti |
| qavrayış | anlamaq qabiliyyəti |
| diqqət | 1) fikrin, görmə və eşitmə qüvvəsinin bir obyektə yönəlməsi; 2) qayğı, meyil |
| hafizə | yaddaş |
| təfəkkür | insanın fikirləşmək, düşünmək bacarığı |



| | |
|---|---|
| yeniyetmə | gənclik yaşına çatmış oğlan və ya qız |
| rüşeym | 1) insan və heyvan embrionu; 2) bir şeyin başlanğıc halı |
| əhatə etmək | dövrələmək, əhatəyə almaq, dörd tərəfini tutmaq |
| davametmə | fəaliyyətdə olma, davamlılıq |
| uzlaşmaq | uyğunlaşmaq |
| bətin | qarın |
| nailiyyət | müvəffəqiyyət |

***Çalışma 2. Dodaq ahəngi olan sözləri göstərin.***

*Ontogenez* (yunanca ontos – həqiqi, əsas, genesis – mənşə deməkdir) fərdin inkişafı prosesidir. Bu proses iki mərhələdən ibarətdir. Birinci mərhələ rüşeymin əmələ gəldiyi andan uşağın doğulduğu ana qədərki dövrü əhatə edir və *prenetal ontogenetik inkişaf* adlanır. İkinci mərhələ isə uşağın doğulduğu andan insan ömrünün son anına qədərki dövrü əhatə edir və *postnetal ontogenetik inkişaf* adlanır.

***Çalışma 3. Postnetal inkişafın mərhələlərini öyrənin.***

Postnetal ontogenetik inkişafı üç əlamətə görə xarakterizə edirlər: 1) insanın ömrü (həyatının ümumi davametmə müddəti); 2) fərdi inkişafın bir-birini zəruri surətdə əvəz edən mərhələləri; 3) ayrı-ayrılıqda hər bir mərhələnin müddəti. Bu xarakteristikalar bir-biri ilə qarşılıqlı surətdə əlaqədardır.

***Çalışma 4. Fellər hansı növdə işlənib?***

Müasir elmdə yaşın üç əsas növü – *bioloji, psixoloji* və *sosial* yaş fərqləndirilir. Yaşın psixoloji xarakteristikaları insanın yaşadığı konkret tarixi şəraitlə, tərbiyənin

xarakteri, onun fəaliyyət və ünsiyyətinin xüsusiyyətləri ilə müəyyən olunur. Bu baxımdan yaş həm bioloji zamanın, həm də tarixi zamanın funksiyası kimi nəzərdən keçirilir. Təbiət və tarix, bioloji və sosial amillər yaşın xarakteristikalarında uzlaşır.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan şəkilçini qoyun.***

1. İnsan… ömrü mütlə'q (xronoloji və ya təqvim) yaşla xarakterizə olunur və uşaq… doğulduğu gündən hesablanır. 2. Fərdi inkişaf… mərhələləri «şərti yaş» termini ilə xarakterizə olunur. 3. İnsan… ontogenetik inkişafı beş mərhələdən ibarətdir: bədən inkişafı, uşaqlıq, gənclik, yaşlılıq və qocalıq mərhələləri. 4. Yaş xüsusiyyətləri… öyrənilməsi *yaş psixologiyası…* başlıca vəzifəsidir.

***Çalışma 6. Söz birləşmələrini tapın.***

İnsanın həyat yolu şəxsiyyətin ailədə və ictimai tərbiyənin müxtəlif vəzifələrində formalaşması prosesindən başlayır. Onun əsas məzmunu insanın cəmiyyətdəki fəaliyyətinin inkişafı ilə bağlıdır. İnsanın şəxsiyyət və fəaliyyət subyekti kimi inkişafının əsas mərhələləri bunlardır: fəaliyyətin başlanğıcı (*start*), həyat və əmək təcrübəsi topladıqca onun inkişafı, maddi və mənəvi sərvətlər istehsalı sahəsində yüksək nailiyyətlərin əldə edilməsi (*fəaliyyətin zirvəsi* və ya *optimumu*), fəaliyyətin kəsilməsi (*finiş*).

***Çalışma 7. 6-cı tapşırıqda qoşasamitli sözləri göstərin.***



***Çalışma 8. Suallara cavab verin.***

1. Şəxsiyyətin formalaşması və inkişafı nədir? 2. Fərdi inkişaf nə deməkdir? 3. Ontogenez neçə mərhələdən ibarətdir? 4. Postnetal inkişafın hansı əlamətləri var? 5. Yaşın neçə növü var? 6. İnsanın inkişaf mərhələlərini göstərin.

***Çalışma 9. Terminləri öyrənin.***

fərd, şəxsiyyət, yaş psixologiyası, duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, ontogenez, prenetal ontogenetik inkişaf, postnetal ontogenetik inkişaf, bioloji yaş, psixoloji yaş, sosial yaş, fəaliyyətin optimumu

## §31. Şəxsiyyətin inkişafı

İnkişaf maddi və ideal obyektlərdə baş verən dəyişikliklərdir. O, materiyanın universal xassəsidir, təbiət və cəmiyyət hadisələrini izah etmək üçün ən ümumi prinsipdir. İnkişaf prosesinin xüsusiyyətləri onun qanunlarının məzmununu əks etdirir. Şəxsiyyətin inkişafı prosesində onun dəyişən tələbatları ilə bunların real surətdə təmin edilməsi imkanları arasında ziddiyyətlər üzə çıxır. İnsan bunların aradan qaldırılması prosesində bir şəxsiyyət kimi formalaşır və inkişaf edir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| materiya | maddə |
| aradan qaldırmaq | yox etmək, ləğv etmək |
| müvazinət | 1) vəziyyətdə sabitlik; 2) bərabərlik, tarazlıq |
| tənzim etmək | nizama salmaq, qaydaya salmaq |
| əkslik | ziddiyyət, uyğunsuzluq |
| kəmiyyət | miqdar, qədər, say |
| keyfiyyət | fərqləndirici xüsusiyyət, əlamət |
| vəhdət | 1) birlik, bütövlük; 2) ümumilik; 3) təklik |
| əhəmiyyətini itirmək | dəyərini, qiymətini itirmək |
| üzə çıxarmaq | meydana çıxarmaq, tapmaq |
| baş vermək | 1) əmələ gəlmək, meydana gəlmək, olmaq; 2) başlamaq |



| | |
|---|---|
| imkan vermək | əlverişli şərait yaratmaq, yol vermək |

***Çalışma 2. Qara hərflərlə verilmiş sözlərə əks mənalı sözlər tapın.***

Orqanizmin **daxili** mühitinin **sabit** olduğunu göstərən **müxtəlif** faktlar XIX əsrin 70-ci illərində fransız fizioloqlarının diqqətini cəlb etmişdi. Bədənin temperaturunun, qan təzyiqinin, qanda şəkərin miqdarının sabitliyinin təmin edilməsi və s. buna misal ola bilər. Amerika fizioloqu U.Kennon 1929-cu ildə bu faktları **ümumiləşdirərək** onları *homeostaz* (yunanca homoios – bənzər, oxşar, stsis – **hərəkətsiz** deməkdir) termini ilə ifadə etdi.

***Çalışma 3. İncə sait ahəngli sözləri tapın.***

Homeostaz prinsipinə görə, orqanizm sistem üçün təhlükəli olan dəyişikliklər haqqında siqnal alan kimi özünütənzimetmə mexanizmi vasitəsilə əvvəlki müvazinətini bərpa etməyə başlayır. Bu ideya insanı özünütənzimləyən sistem kimi xarakterizə etmək üçün böyük əhəmiyyətə malik idi. Homeostaz prinsipi sonrakı illərdə fiziologiyadan kibernetikaya, psixologiyaya və bir çox başqa elmlərə nüfuz etmişdir.

***Çalışma 4. Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.***

Şəxsiyyətin sabitliyi onun ... xarakteristikalarından biridir. Lakin ... və ... amillərin təsiri ilə şəxsiyyətin müvazinəti pozulur. Şəxsiyyətin ... tələbatları onun üçün əhəmiyyətini itirir, onda ... tələbatlar, motivlər əmələ

gəlir. O, özünütənzimetmə mexanizmi vasitəsilə öz müvazinətini bərpa etməyə çalışır.

**Sözlər:** *xarici, yeni, başlıca, daxili, bir çox*

***Çalışma 5. Mötərizədəki felləri indiki zamanda işlədin.***

Homeostaz modeli fəallığın, əsasən, bir formasını – ətraf mühitdə əmələ gələn situativ dəyişikliklərə insanın verdiyi cavab reaksiyalarını aydınlaşdırmaq (imkanı vermək). İnsan hər hansı bir situasiyadan bilavasitə asılı deyildir. O ən mürəkkəb həyati situasiyada belə, öz daxili inamına görə (hərəkət etmək), hadisələrin gedişinə (qarışmaq), ətraf aləmi (dəyişmək).

***Çalışma 6. İnkişafın xassələrini öyrənin.***

İnkişaf üç xassəyə görə dəyişikliyin digər növlərindən fərqlənir. Bu xassələr aşağıdakılardan ibarətdir:

1. Dönməzlik (ilk vəziyyətə qayıtmamaq);
2. Qanunauyğunluq;
3. Dəyişikliyin müəyyən istiqamət üzrə baş verməsi.

***Çalışma 7. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?***

İnkişaf prosesinin üç qanunu var: 1) əksliklərin vəhdəti və mübarizəsi; 2) kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə keçməsi; 3) inkarın inkarı. Bu qanunlardan birincisi onun hərəkətverici mexanizmlərini, ikincisi və üçüncüsü onun xarakterini aydınlaşdırır.

***Çalışma 8. Tərcümə edin.***

Zaman inkişaf proseslərinin mühüm xarakteristikasını təşkil edir. Birincisi ona görə ki, inkişaf real zamanda



baş verir. İkincisi ona görə ki, inkişafın istiqamətini ancaq zaman üzə çıxarır. Hərəkət zamanın mahiyyətidir. Zaman geriyə dönə bilməz, o, keçmişdən gələcəyə doğru inkişaf edir.

***Çalışma 9. Terminləri öyrənin.***

inkişaf, materiya, homeostaz, homeostaz prinsipi, homeostaz modeli, kəmiyyət, keyfiyyət, zaman

## §32. Şəxsiyyətin inkişafında ünsiyyətin və qarşılıqlı münasibətlərin rolu

Ünsiyyət dialektik prosesdir. Ünsiyyət prosesində şəxsiyyət emosional cəhətdən inkişaf edir. O, hisslər mədəniyyətinə yiyələnir, onda özünəhörmət, ləyaqət, qürur hissi formalaşır. Ünsiyyət insanların qarşılıqlı təsiri prosesidir. Bu prosesdə şəxsiyyətin inkişafının əsas meyilləri ifadə olunur. Həmin meyillər daxilən əkslik təşkil etsə də, onlar vəhdətdə formalaşır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ünsiyyət | qarşılıqlı münasibət, əlaqə, yaxınlıq, xoş münasibət |
| dialektik | dialektika qanunlarına əsaslanan |
| ləyaqət | qabiliyyət, bacarıq, istedad |
| qürur | 1) iftixar, mənlik hissi; 2) məğrurluq |
| məzmun | mövzu |
| meyil | 1) bir tərəfə əyilmə; 2) istək, arzu, həvəs |
| xarakterizə etmək | xarakteristika vermək, səciyyələndirmək |
| rabitə | bağlılıq, münasibət, əlaqə |
| mənlik | 1) bir şəxsin öz varlığı; 2) şərəf |
| təsəvvür etmək | xəyala gətirmək, fikirdə canlandırmaq |
| qaynayıb-qarışmaq | yaxınlaşmaq, dostlaşmaq |
| səy göstərmək | çalışmaq, cəhd etmək |



***Çalışma 2. İkihecalı sözləri tapın.***

Şəxsiyyət fəaliyyət və ünsiyyət prosesində formalaşıb inkişaf edir. Fəaliyyət və ünsiyyət vəhdətdədir. Ünsiyyət fəaliyyətin mühüm tərkib hissəsidir. Onun funksiyaları fəaliyyətin məzmunu, məqsədi və şəraitindən asılıdır. Fəaliyyət və ünsiyyətin münasibətini  yəni subyekt – obyekt – subyekt münasibəti kimi xarakterizə edə bilərik.

***Çalışma 3. Nöqtələrin yerinə lazım olan şəkilçini yazın.***

Ünsiyyət insan psixikasının mühüm xarakteristikası... . Psixika, şüur və şəxsiyyət kommunikativ təbiətə malik... . İnsanın psixi fəaliyyəti başqa adamlarla kommunikativ rabitələrdən ibarət... . Şəxsiyyəti psixoloji cəhətdən təhlil etmək üçün insanı başqa adamlarla ictimai rabitə və münasibətlərdə öyrənmək lazım... .

***Çalışma 4. Məsdərləri tapın, necə işləndiyini izah edin.***

Özünü başqa adamlarla müqayisə etmək mənlik şüurunun formalaşmasının başlıca mexanizmidir. İnsan ancaq ünsiyyət prosesində özünə başqa adamların gözü ilə baxmağı, özünü başqa adamın yerində təsəvvür etməyi, onların davranışını təhlil etməyi, onlarla birlikdə sevinməyi və kədərlənməyi öyrənir.

***Çalışma 5. Mənsubiyyət şəkilçilərini göstərin.***

İnsanın başqa adamlara və həmin adamların ona münasibətləri mənlik şüurunun əsasını təşkil edir. İnsanda özü haqqında təsəvvürlərin formalaşması, öz hərəkət və

əməllərini başa düşməsi, özünü və həyatda öz yerini qiymətləndirməsi onun başqa adamlara münasibəti ilə bilavasitə bağlıdır.

***Çalışma 6. Mətndəki təsirsiz felləri təsirli fellərə çevirin.***

Ünsiyyət prosesində başqa adamın sevinci və kədəri onun öz hisslərinə çevrilir, insan başqa adamların sosial və psixoloji təcrübəsinə yiyələnir, mənəvi cəhətdən zənginləşir, onun inkişafı üçün yeni şərait yaranır. Şəxsiyyət emosional cəhətdən inkişaf edir.

***Çalışma 7. Mötərizədəki məsdərləri yönlük halda işlədin.***

Şəxsiyyət, bir tərəfdən, başqalarına (oxşamaq), onlar kimi hərəkət (etmək), yoldaşları və dostları ilə qaynayıb (qarışmaq), insan içində (olmaq) səy göstərir. Digər tərəfdən, insan öz «mən»ini sosial mühitdən (ayırmaq) çalışır.

***Çalışma 8. Suallara cavab verin.***

1. Ünsiyyət prosesi şəxsiyyətə necə təsir edir? 2. Fəaliyyət və ünsiyyətin münasibətini necə göstərmək olar? 3. Mənlik şüurunun mexanizmi nədir?

***Çalışma 9. Terminləri öyrənin.***

şəxsiyyət, mənlik şüuru, psixika, şüur, sosial təcrübə, psixoloji təcrübə, ünsiyyət, subyekt, obyekt



## §33. İctimai münasibətlər və şəxsiyyət

Sosial qrupların, siniflərin və millətlərin iqtisadi, ictimai-siyasi, mədəni həyatı və fəaliyyəti prosesində onların arasında və öz daxilində əmələ gələn münasibətlərə **ictimai münasibətlər** deyilir. İctimai münasibətlər şəxsiyyətin formalaşmasının obyektiv əsasını təşkil edir. Şəxsiyyət cəmiyyətin üzvüdür və onun məhsuludur. O, cəmiyyətdəki ictimai münasibətlər sisteminə daxil olur və onun bir şəxsiyyət kimi özünəməxsus xassələri formalaşır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| münasibət | 1) iki şey arasındakı uyğunluq; 2) qarşılıqlı əlaqə, yaxınlıq |
| formalaşma | əmələ gəlmə, düzəlmə, müəyyən formaya düşmə |
| özünəməxsus | özünə aid, xas olan |
| sima | 1) üz, sifət; 2) xarici görünüş; 3) şəxs |
| fəaliyyət | iş, çalışma, aktivlik |
| maraqlandırmaq | həvəsləndirmək, maraq oyandırmaq |
| qanunauyğunluq | hadisələr arasında zəruri əlaqə, obyektiv qanunlardan asılılıq |
| mənimsəmək | 1) öyrənmək; 2) başa düşərək yadda saxlamaq; 3) sahiblənmək |
| nemət | yaşamaq üçün lazım olan şeylərin məcmusu |

| | |
|---|---|
| məhsuldar qüvvələr | maddi nemətləri istehsal etmək üçün alətlər və adamlar |
| xassə | keyfiyyət, xüsusiyyət; xasiyyət |

***Çalışma 2. Qara hərflərlə verilmiş felləri qeyri-qəti gələcək zamanda şəxslər üzrə dəyişin.***

Şəxsiyyət psixologiya elmində əsas kateqoriyalardan biri hesab olunur. Şəxsiyyət bir çox elmlər tərəfindən ayrı-ayrı istiqamətlərdə **öyrənilir**. Psixologiya elmini şəxsiyyətin psixoloji siması, onun daxili aləminin, psixi həyatının formalaşması prosesinin qanunauyğunluqları **maraqlandırır**. Psixi hadisələr fəaliyyət və ünsiyyət prosesində **formalaşır**.

***Çalışma 3. Səhvləri düzəldin.***

1. İçtimayi münasibətdər iki yerə bölünür: maddi və ideyaloji münasibətdər. 2. Ayrı-ayrı adamlar içtimayi münasibətdərə hər hansı qurupun üzvü kimi daxil olur. 3. Psixi hadisələr şəxsiyətə məxsustur. 4. Hər bir konkret adam içtimayi münasibətdəri müxdəlif sosiyal qurupların vasitəsilə mənimsəyir.

***Çalışma 4. İsmi xəbərləri tapın və izah edin.***

Maddi nemətlər istehsalı cəmiyyətin əsasıdır. İqtisadi istehsal münasibətləri müəyyənedici münasibətlərdir. Maddi ictimai münasibətlərin xarakteri cəmiyyətin məhsuldar qüvvələri ilə müəyyən olunur, onlar adamların şüuru və iradəsindən asılı deyildir.

***Çalışma 5. Sifətləri tapın.***

İdeoloji münasibətlərə siyasi, hüquqi, əxlaqi və b. münasibətlər daxildir. Onlar maddi ictimai münasibətlərin



əsasında meydana çıxır. İdeoloji münasibətlərin xarakteri istehsal münasibətləri ilə müəyyən olunur.

***Çalışma 6. Adlıq halda olan isimləri tapın.***

1. İnsanların ictimai varlığı onların şüurunu müəyyən edir. 2. İctimai münasibətlər içərisində maddi münasibətlər xüsusi yer tutur. 3. Cəmiyyət ictimai münasibətlərin vahid sistemindən ibarətdir. 4. Hər şəxsiyyət cəmiyyətin həyatına özünəməxsus tərzdə daxil olur.

***Çalışma 7. Nöqtələrin yerinə hansı şəkilçilər yazılmalıdır?***

İctimai münasibətlərin növlər... müxtəlif adamların həyat...nda müxtəlif yer tutur. Bu adamların hansı sinfə, millətə, etnik qrupa mənsub olma..., daxil olduğ... sosial qrupun, o cümlədən ailə...nin tip... və quruluş..., təhsil səviyyə..., hansı ictimai və siyasi partiyanın üzv... olma... və s. ilə əlaqədardır. Bu cəhətlər insanları şəxsiyyət kimi səciyyələndirən xassələrə çevrilir.

***Çalışma 8. 7-ci tapşırıqda I növ söz birləşmələrini tapın.***

***Çalışma 9. Terminləri öyrənin.***

ictimai münasibətlər, maddi münasibətlər, ideoloji münasibətlər, iqtisadi istehsal münasibətləri, şəxsiyyət

## §34. Aparıcı fəaliyyət

İnsan varlığını xarakterizə edən kateqoriyalardan biri də fəaliyyət kateqoriyasıdır. Fəaliyyətin müxtəlif növləri vardır. Onun bir növü inkişafda başlıca, digər növləri isə köməkçi rol oynayır. Bu o deməkdir ki, psixikanın ümumiyyətlə fəaliyyətdən deyil, aparıcı (əsas) fəaliyyətdən asılı olması haqqında danışmaq lazımdır. Psixi proseslərin (qavrayış, hafizə, təfəkkür, hisslər və s.) inkişaf səviyyəsi aparıcı fəaliyyətin motivləri və vəzifələrindən, fəaliyyətin strukturundakı yerindən asılıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| aparıcı | başda gedən, irəlidə gedən, əsas, ən mühüm |
| çağa | körpə uşaq |
| çağalıq | uşaqlıq, körpəlik |
| vasitəsiz | arada heç bir vasitə olmayan |
| həmyaşıd | başqası ilə bir yaşda olan adam, yaşıd |
| mürəkkəbləşmək | mürəkkəb olmaq, çətinləşmək |
| çoxcəhətli | genişliyi, müxtəlifliyi ilə fərqlənən, çoxtərəfli |
| mənlik | bir şəxsin öz varlığı, heysiyyət, şərəf |
| özünütənzimedən | özünü nizama salan, qaydaya salan |
| özünütəkmilləşdirən | özünü daha yaxşı hala gətirən, mükəmməl edən |
| asılı olmaq | bir səbəbin nəticəsi olmaq, bir şeyə şərtlənmək |
| təmin etmək | 1) lazım olan bütün şeyləri vermək; 2) inandırmaq |



***Çalışma 2. Qara hərflərlə verilmiş sözləri inkar formada işlədin.***

Çağalıq dövründə uşağın psixi inkişafı vasitəsiz-emosional ünsiyyətlə **bağlıdır**. Körpəlik yaşında uşaq əşyavi əməliyyatlara **keçir**. Vasitəsiz-emosional ünsiyyət arxa plana, praktik işlər ön plana **keçir**. Məktəbəqədər yaş dövründə rollu oyunlar aparıcı fəaliyyətə **çevrilir**. Rollu oyunlar özünəməxsus uşaq **teatrıdır**. Onlar insan münasibətlərinin mənimsənilməsində mühüm **vasitədir**.

***Çalışma 3. -lı şəkilçisini ahəng qanununa görə nöqtələrin yerinə qoyun.***

Uşaqların yaşı artdıqca onların həyatında qayda... oyunlar mühüm yer tutur. Rol... oyunlarda uşağı nəticə deyil, proses maraqlandırır. Qayda... oyunlarda nəticə ən başlıca cəhətdir. Kiçik məktəb... yaşı dövründə təlim aparıcı fəaliyyətdir.

***Çalışma 4. Mürəkkəb sözləri tapın.***

Kiçik yeniyetməlik yaşı dövründə ünsiyyətin böyük əhəmiyyəti var. Kiçik yeniyetmənin öz həmyaşıdları ilə münasibətləri mürəkkəbləşir, çoxcəhətli və məzmunlu olur. Ünsiyyət fəaliyyətində mənlik şüuru formalaşır. Fəaliyyətin vəzifə və motivləri dəyişilir.

*Çalışma 5. Nöqtələrin yerəni yiyəlik hal şəkilçilərini yazın.*

Hər yaş dövrü... özünəməxsus aparıcı fəaliyyət tipi vardır. Aparıcı fəaliyyət... tipindən asılı olaraq psixi inkişaf... bir dövründə uşaqlarda motivasiya-tələbat sahəsi, başqa dövründə intellektual-idrak prosesləri inkişaf edir. Uşaqlar həm insanlar arasındakı münasibətlər... motivlərini və normalarını, həm də əşyalarla əməliyyat vasitələrini mənimsəyirlər.

*Çalışma 6. Səhvləri düzəldin.*

1. Hər bir sistemin mühüm xüsusiyəti vardır. 2. İnsan özünütənzimedən və özünütəkmilləşdirən sistemdir. 3. Hər sistem öz sabitdiyini saxlamağa çalışır. 4. Şəxsiyətin fəallığının mənbəyi onun tələbatdarıdır. 4. Tələbatdar ünsiyət və fəaliyət prasesində dəyişir. 5. İnsan yeni tələbatdarını təmin etməy üçün yeni vasitələr axtarır.

*Çalışma 7. Terminləri öyrənin.*

aparıcı fəaliyyət, vasitəsiz-emosional ünsiyyət, rollu oyunlar, qaydalı oyunlar, motivasiya-tələbat sahəsi, intellektual-tələbat sahəsi, intellektual-idrak prosesləri



## §35. Əşyavi fəaliyyət

Müasir psixologiyada fəaliyyət kateqoriyası mühüm yer tutur. Fəaliyyət insan fəallığının özünəməxsus formasıdır. Fəaliyyət əvvəlcə praktik fəaliyyət kimi formalaşmışdır, onun əsasında nəzəri fəaliyyət təşəkkül etmişdir. Praktik fəaliyyət əşyavi fəaliyyətdir. Praktik fəaliyyət prosesində insan əşyalarla əməliyyat aparır, onları fəaliyyət prosesində dəyişərək dərk edir və xarici aləmi daha adekvat surətdə əks etdirir. Belə fəaliyyətə **əşyavi fəaliyyət** deyilir.

*Çalışma 1. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| əşyavi | əşyaya aid olan |
| kateqoriya | varlığın ən mühüm xassələrini əks etdirən məfhum |
| əməliyyat | işlər, cərrahlıq işi, döyüş işləri, maliyyə işləri |
| adekvat | eyni, uyğun |
| dərk etmək | anlamaq, başa düşmək |
| təşəkkül etmək | formalaşmaq |
| sensor | hissi |
| perspektiv | qavrayış |
| mnemik | hafizə |
| iradi | iradəyə aid, iradədən asılı olan; ixtiyari |
| məqsəd qoymaq | arzu etmək, niyyətində olmaq |
| icra etmək | yerinə yetirmək, həyata keçirmək |

| | |
|---|---|
| aralıq | iki şeyin arası, boşluq, ortalıq |
| cari | cərəyan edən, axan, axıcı, indiki |
| kəsb etmək | 1) çalışıb qazanmaq; 2) əldə etmək, qazanmaq, öyrənmək |
| nöqsan | çatışmazlıq, qəbahət, qüsur, eyib |
| motiv | əsərin mövzusunun əsas ünsürü |
| vektor | ədəbi qiyməti olan riyazi kəmiyyət |
| səy | çalışma, cəhd |
| təhrik etmək | həvəsləndirmək |

***Çalışma 2. Sifətləri göstərin.***

Psixologiya fəaliyyətin subyektiv cəhətini və ya planını tədqiq edir. Fəaliyyətin tədqiqi zamanı onu fəaliyyətin motivləri, məqsədləri, sensor, perseptiv, mnemik, iradi, emosional və b. proseslərin rolu, funksiyaları, dinamikası maraqlandırır.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözlərə yaxın mənalı sözlər tapın.***

Fəaliyyət insanın daxili (psixi) və xarici fəallığının **vəhdətidir**. İnsanın **fəallığı** müxtəlif formalarda, məsələn, əmək, təlim və ya oyun formalarında özünü göstərir. İnsanda müəyyən bir motiv **əmələ gəlir**. Onu təmin etmək üçün insan öz **qarşısına** məqsəd qoyur və məqsədə uyğun olaraq müəyyən işləri icra edir. Eyni bir iş konkret şəraitdən asılı olaraq müxtəlif **üsullarla** icra edilə bilər.

***Çalışma 4. Mötərizədəki sözləri indiki zamanda işlədin.***

Adətən, insan öz qarşısına qoyduğu ümumi məqsədi (konkretləşdirmək), onları aralıq məqsədlərə və ya cari məqsədlərə (bölmək); aralıq məqsədlərin xarakterinə görə eyni bir fəaliyyət müxtəlif formalar (kəsb etmək). İnsan işin nəticələrini onun məqsədi ilə (müqayisə etmək), (qiymətləndirmək) və nöqsanları (aradan qaldırmaq).

***Çalışma 5. Nöqtələrin yerinə hansı samit yazılmalıdır?***

Motiv-məqsəd fəaliyyəti... özünəməxsus vektoru...u əmələ gətirir, bu, onun istiqaməti...i, subyektin fəaliyyət prosesi...də göstərdiyi səyin dərəcəsi...i müəyyən edir. Fəaliyyət prosesi...də formalaşan və inkişaf edən psixi proses və halları... bütün sistemi bu vektor vasitəsilə təşkil olu...ur.

***Çalışma 6. Adlıq halda işlənən sözləri göstərin.***

Motiv insanı fəaliyyətə təhrik edən amillərə aiddir. Onun əsas funksiyası budur. Motivsiz fəaliyyət yoxdur və ola da bilməz. Fəaliyyətin konkret xarakteristikası motiv deyil, məqsədlə müəyyən olunur. Eyni motiv müxtəlif fəaliyyətlər vasitəsilə həyata keçirilə bilər. Eyni motiv zəminində müxtəlif məqsədlər formalaşa bilər.

***Çalışma 7. Sözləri bir-birinə uyğunlaşdırın.***

təsvir, başlamaq, diqqət, etmək, yetirmək, cavab, işə, vermək

***Çalışma 8. Terminləri öyrənin.***

fəaliyyət, əşyavi fəaliyyət, praktik fəaliyyət, nəzəri fəaliyyət, daxili fəallıq, xarici fəallıq, psixi fəallıq, fiziki fəallıq, məqsəd, motiv

## §36. Əşyavi fəaliyyət (davamı)

***Çalışma 1. Felləri nəqli keçmiş zamanda işlədin.***

Hər bir fəaliyyət müəyyən obyektiv şəraitdə həyata keçirilir. İnsan öz məqsədini şəraitə görə qiymətləndirir. O, fəaliyyətin konkret vəzifələrini, üsul və vasitələrini müəyyən edir. *Məqsəd* həm perseptiv (qavrayış, surət), həm surət – təsəvvür, həm də müəyyən «məntiqi konstruksiya» (hökm və əqli nəticə) sistemi kimi meydana çıxır.

***Çalışma 2. Qara hərflərlə verilmiş sözləri keçmiş zamanda işlədin.***

*Məqsəd* işin mərkəzi tərkib **hissəsidir**. Onun *motor (hərəki)* və *sensor (hissi)* komponentləri də **vardır**. İşin tərkib hissələri fəaliyyət prosesində *hərəkətlər* kimi **təzahür edir**. İşin tərkib hissələrinin funksiyaları **bunlardır**: *icra, tənzimetmə, nəzarət.*

***Çalışma 3. Nöqtələrin yerinə yönlük hal şəkilçisini yazın.***

Hərəkətlər trayektoriyası…, icra müddəti…, gücü…, sürəti…, tempi…, bədənin hansı tərəfindən icra olunması… görə bir-birindən fərqlənir. Psixologiyada cisimlərin vəziyyətini və ya xassələrini dəyişmə… yönəlmiş hərəkətlər… *maddi (əşyavi) iş və hərəkətlər* deyilir.

***Çalışma 4. Qara hərflərlə verilmiş sözlərə əks mənalı sözlər seçin.***

1. **Xarici** fəallıq iş və hərəkətlər formasında təzahür edir. 2. Fəaliyyətin bir **ümumi** məqsədi, bir də konkret



məqsədi olur. 3. Fəaliyyətin **sadə** bir cari vəzifəni həll etməyə yönəlmiş bitmiş elementi *iş* adlanır. 4. İdrak prosesləri olmadan fəaliyyət mövcud deyil. 6. Fəaliyyət prosesində **maddi** (əşyavi) iş və hərəkətlər təkrar olunduqca möhkəmlənir və **yeni** psixoloji xüsusiyyətlər qazanır.

**İstifadə ediləcək sözlər:** *mənəvi, xüsusi, köhnə, daxili, çətin*

***Çalışma 5. Felləri əmr şəklində işlədin.***

Fəaliyyət prosesində üç istiqamət var: a) maddi iş və hərəkətlər tədricən daxili perseptiv (qavrayış), mnemik (hafizə), fikri (təfəkkür) və s. əməliyyatlara çevrilir; b) onlar avtomatlaşır və vərdişlər kimi çıxış edir; c) maddi iş və hərəkətlər kommunikativ əhəmiyyət qazanır, ifadəli hərəkətlərə – mimika, pantomimika, jestlər və s. çevrilir.

***Çalışma 6. Mətni öyrənin.***

Psixologiyada maddi (əşyavi) əməliyyatların fikri əməliyyatlara çevrilməsinə *interiorizasiya* deyilir. İnteriorizasiya latınca interior sözündən əmələ gəlmişdir, mənası *daxili* deməkdir. Maddi əməliyyatlar (çöplərlə saymaq) xarici, fikri əməliyyatlar (fikrən saymaq) daxili əməliyyatlardır.

***Çalışma 7. Cümlələri inkar formada yazın.***

1. «İnteriorizasiya» termini fransız psixoloqları P.Jane, J.Piaje, A.Vallon və b. tərəfindən təklif olunmuşdur. 2. İnteriorizasiya geniş anlayışdır. 3. İnteriorizasiya prosesində nitq mühüm rol oynayır. 4. Uşaq nitq vasitəsilə ictimai təcrübəni mənimsəyir, başqa adamlar kimi fikirləşməyi öyrənir.

*Çalışma 8. Terminləri öyrənin.*

məqsəd, sensor, icra funksiyası, tənzimetmə funksiyası, nəzarət funksiyası, maddi (əşyavi) hərəkətlər, xarici fəallıq, daxili fəallıq, iş, daxili perseptiv əməliyyat, mnemik əməliyyat, fikri əməliyyat, interiorizasiya

*Çalışma 9. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| həyata keçirmək | yerinə yetirmək, tətbiq etmək |
| məqsəd | məram, niyyət, arzu |
| hökm | əmr, buyruq, sərəncam |
| əql | ağıl |
| trayektoriya | hərəkət edən nöqtə və cismin fəzada cızdığı xətt |
| təzahür etmək | üzə çıxmaq, özünü göstərmək |
| element | tamın, bütövün tərkib hissəsi |
| tədricən | yavaş-yavaş, az-az, dərəcə-dərəcə |
| vərdiş | adət edilmiş şey |
| çöp | taxta, ağac, saman və s. parçası |
| çevrilmək | başqa hala salınmaq, döndərilmək, dönmək |



## §37. Əşyavi fəaliyyət (davamı)

*Çalışma 1. Felləri məchul növdə işlədin.*

Fikri əməliyyatlar bu mərhələlərlə formalaşır: 1) əməliyyatın motivləri təşəkkül edir; 2) ilk bələdləşmə sxemi yaranır; 3) əməliyyatın maddi əsası əmələ gəlir; 4) əməliyyatlar nitq vasitəsilə icra edilir; 5) əməliyyat icra olunmağa başlayır.

*Çalışma 2. Mətni öyrənin. İnteriorizasiya prosesi ilə müqayisə edin.*

*Eksteriorizasiya* latınca exterior sözündən əmələ gəlmişdir: mənası *xarici, zahiri* deməkdir. Xarici əməliyyatlar daxili əməliyyatlara çevrilir, sonra yenidən xarici əməliyyatlarda təcəssüm edir. Bu prosesin sxemi belədir:




*Çalışma 3. Sözləri hecalara bölün.*

Eksteriorizasiya prosesləri vərdişlər və bacarıqlar vasitəsilə həyata keçirilir. Fəaliyyət prosesində qismən avtomatlaşan hərəkətlərə *vərdişlər* deyilir. Məsələn, savadlı adamın yazması, oxuması, təcrübəli sürücünün maşını idarə etməsi və s.

*Çalışma 4. Mötərizədəki sözləri mənsubiyyət şəkilçisi ilə işlədin.*

Fəaliyyət prosesində məqsədin (həyata keçirilmək) vərdişlərin səviyyəsindən asılıdır. İnsan yeni şəraitdə həmişə öz vərdişlərindən istifadə edir. Yeni şəraitdə qarşıya qoyulmuş məqsədə uyğun olaraq iş üsullarının (seçilmək) və (həyata keçirilmək) üçün mövcud bilik və vərdişlərdən (istifadə olunmaq) *bacarıq* adlanır.

*Çalışma 5. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.*

Fəaliyyətin öz mənti...i var: onun konkret nətic...si olmalıdır. İnsanlar fəaliyyətin nətic...sini fəaliyyət pros...sində qiym...tləndirirlər. İşin nətic...sinin qiym...tləndirilməsi fəaliyyətin səmərəsini ş...rtləndirir. Məqsədlə nətic... arasında...ı əlaqə *düz əlaqə*, nətic...dən məqsəd... doğru əlaqə *əks əlaqə* adlanır.

*Çalışma 6. Mötərizədəki fellərə hansı zaman şəkilçisi artırılmalıdır?*

İnsan fəaliyyətin nəticəsini qabaqcadan (görə bilmək). Psixologiyada buna *antisipasiya* (deyilmək). Latınca anticipo – irəlicədən görmək deməkdir. Fəaliyyət prosesində antisipasiya müxtəlif səviyyələrdə (özünü göstərmək). O, hərəkətlərin dəqiqliyini (təmin etmək), obyektləri dinamik şəkildə qavramaq, işləri qabaqcadan planlaşdırmaq (imkanı vermək).



*Çalışma 7. Fellərin təsirli və ya təsirsiz olduğunu müəyyən edin.*

Əks əlaqə hissi-əyani xarakter daşıyır. Buna görə də o, sensor nəzarət yolu ilə, yəni hiss üzvlərinin köməyi ilə həyata keçirilir. Məsələn, müəllim dərs zamanı şagirdlərin danışıb-danışmamasına diqqət yetirir. Bu mənada uşaqların səsi *hissi oriyentir* adlanır. Müəllim hissi oriyentirləri işin məqsədinə əsasən müəyyən edir.

*Çalışma 8. Terminləri öyrənin.*

fikri əməliyyatlar, eksteriorizasiya, vərdiş, bacarıq, düz əlaqə, əks əlaqə, antisipasiya, hissi oriyentir

*Çalışma 9. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| fikri | fikrə, ağla, düşünməyə aid olan, əqli, zehni |
| bələdləşmək | tanış olmaq, tanımaq, bilmək |
| təcəssüm etmək | görünmək, canlanmaq |
| bacarıq | işgörmə qabiliyyəti |
| savadlı | yazıb-oxumağı bacaran |
| səmərə | fayda, xeyir |
| şərtləndirmək | bir şərtlə bağlamaq, şərt qoymaq, səbəb olmaq |
| qiymətləndirmək | qiymət vermək, dəyərləndirmək; məna vermək |
| qabaqcadan | qabaqdan, əvvəldən, irəlicədən |
| əyani | açıq, aşkar, gözlə görünən, inandırıcı |

## §38. Ali psixi funksiyalar

Ali psixi funksiyalar müasir psixologiyanın əsas anlayışlarından biridir. O, psixologiya elminə ilk dəfə L.S.Vıqotski tərəfindən daxil edilmiş, A.R.Luriya, A.N.Leontyev və başqa psixoloqlar tərəfindən daha da inkişaf etdirilmişdir. L.S.Vıqotski psixi hadisələrin iki səviyyəsini – «natural» və «mədəni» psixi prosesləri fərqləndirirdi. O, belə hesab edirdi ki, birincilər, genetik (bioloji) amillərin təsiri ilə şərtlənir, ikincilər isə sosial amillərin təsiri ilə təşəkkül edir. L.S.Vıqotski «mədəni» prosesləri ali psixi funksiyalar kimi xarakterizə edirdi.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ali | 1) ən yüksək, ən yuxarı; 2) uca, hündür, yüksək |
| xarakter daşımaq | bir şeyi təmsil etmək, mahiyyət daşımaq |
| inteqral | kiçik hissələrin məcmusu olan tam kəmiyyət |
| potensial | şərtlərin, vasitələrin məcmusu, mümkün ola bilən |
| səy göstərmək | çalışmaq, cəhd etmək |
| analizator | xarici təsirləri qavrayan hiss orqanı |
| müntəzəm | düzgün və ardıcıl, sistemli, daimi |
| məşq | təlim, hazırlıq |
| müşahidə | diqqətlə baxma, seyr etmə |
| nəzərə çarpmaq | diqqəti cəlb etmək |
| sezmək | duymaq, hiss etmək, başa düşmək, anlamaq |
| iradi | iradəyə aid olan, iradədən asılı olan; ixtiyari |



***Çalışma 2. Əks mənalı sözləri göstərin.***

Ali psixi funksiyalar sistemli xarakter daşıyır. Onlar əvvəlcə insanlar arasında qarşılıqlı təsir formasında (yəni interpsixoloji proses kimi) mövcud olur, sonra isə daxili (intrapsixoloji) prosesə çevrilir.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

1. Hər hansı bir sistemi səciyyələndirən inteqral xüsusiyyətlərə *sistemə məxsus keyfiyyətlər* deyilir. 2. Ali psixi funksiyalar mürəkkəb psixi **proseslərdir**. 3. Sistemlilik prinsipi müasir psixologiyanın metodoloji prinsiplərindən **biridir**. 4. Ali psixi funksiyalar şüurun strukturuna **daxildir**.

***Çalışma 4. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?***

*Sensor mütəşəkkillik* (təşkil olunma) dedikdə, hər bir fərd üçün xarakterik olan ayrı-ayrı hiss üzvləri sisteminin inkişaf səviyyəsi və onların bir kompleks halında birləşdirilməsi qaydası nəzərdə tutulur. İnsanın sensor mütəşəkkilliyi (hissi proseslərinin təkmilləşməsi) həyatı boyu baş verir.

***Çalışma 5. İsmi xəbərləri keçmiş zamanda işlədin.***

*Həssaslıq* (hissiyyat) insanın potensial xassəsidir. Onun gerçəkləşməsi bir sıra amillərdən asılıdır: insanın

yaşadığı həyat şəraiti, fəaliyyət növü, özündə həssaslıq növünü inkişaf etdirmək üçün iradi səy göstərmək və s. daxildir.

***Çalışma 6. II növ söz birləşmələrini tapın.***

Həyatın gedişində insanda müəyyən hissiyyat sistemi yaranır. Onlar insanın tələbatlarına, maraqlarına, idrak fəaliyyətinə və davranışına təsir edir. İnsanlar da öz sensor fəaliyyətlərini təşkil etməyə çalışırlar. Bizim analizatorlarımızın həssaslığı həyat şəraitinin, praktik əmək fəaliyyətinin təsiri ilə artır.

***Çalışma 7. Qara hərflərlə verilmiş felləri lazım şəklində işlədin.***

Əgər insan müntəzəm məşq edirsə, müşahidə mədəniyyətini yüksəldirsə, bu zaman onda *müşahidəçilik* kimi mühüm xassə inkişaf edir. Müşahidəçilik cisim və hadisələrdə zəif nəzərə çarpan, onları xarakterizə edən cəhətləri sezmək qabiliyyətidir. Müşahidəçi adam çox görür, dərin başa düşür.

***Çalışma 8. Suallara cavab verin.***

1. «Ali psixi funksiyalar» anlayışı kim tərəfindən izah edilib? 2. L.S.Viqotski psixi hadisələrin hansı səviyyələrini göstərirdi? 3. Sensor mütəşəkkillik nə deməkdir? 4. Həssaslıq nədən asılıdır? 5. Müşahidəçilik necə xüsusiyyətdir?

***Çalışma 9. Terminləri öyrənin.***

ali psixi funksiyalar, «natural» psixi proseslər, «mədəni» psixi proseslər, interpsixoloji proses, intrapsixoloji proses, sistemə məxsus keyfiyyətlər, sistemlilik prinsipi, sensor mütəşəkkillik, həssaslıq, müşahidəçilik



## §39. İdrakın formaları

İdrak mövcud olan obyektiv aləmin insanın hiss üzvlərinə, beyninə təsirindən yaranan inikas prosesidir. Burada subyektlə obyektin qarşılıqlı münasibəti ön plana keçir. İnsanın idrak fəaliyyəti həm də onun gələcəyi qabaqcadan görmək bacarığı və imkanıdır. Belə keyfiyyət insana sosiallaşma sayəsində müyəssər olmuşdur. İnikas **passiv** və **aktiv** olur. Üzvi aləmin meydana gəlməsi ilə inikas formaları dəyişir. Burada **vasitəsiz** və **vasitəli inikas** formaları meydana çıxır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| idrak | dərk etmə qabiliyyəti |
| inikas | əksetmə |
| müyəssər olmaq | mümkün olmaq, imkan daxilində olmaq, nəsib olmaq |
| təzyiq | basqı; məcbur etmə |
| bünövrə | özül, əsas, təməl |
| qıcıqlanmaq | qıcıq hiss etmək |
| qıcıqlandırıcı | qıcıqlandıran, qıcıq təsiri oyadan |

***Çalışma 2. Dodaq ahənginin pozulduğu sözləri seçin.***

Psixikanın mərkəzi zonasında və ya mərkəzi blokunda (ehtiyac, tələbat, məqsəd) şəxsiyyətin tələbat – motivasiya sahəsi ilə bağlı psixi hadisələr yerləşir. Yuxarı hissədə idrak prosesləri sistemi vardır. Qarşıya məqsəd

qoyulanda onun şərtini təhlil etmək lazım gəlir. Həmin sistemə duyğu, diqqət, qavrayış, hafizə, təfəkkür daxildir.

***Çalışma 3. Nöqtələrin yerinə hansı şəkilçilər yazılmalıdır?***

1. Duyğu və qavrayış hansı şəraitdə hərəkət etdiyimizi bilmək üçün gərək... . 2. Hafizə keçmiş təcrübəni cisimlərin indiki vəziyyəti ilə tutuşdurmaq üçün... . 3. Təfəkkür məsələ qoymaq və onun həlli yollarını tapmaq üçün lazım... .

***Çalışma 4. İsmi xəbərləri tapın, necə düzəldiyini izah edin.***

1. Məqsədlə, planlaşdırma ilə icra və onun yoxlanılması arasında iradə yerləşir. Bu, aşağı zonadır. 2. İdrakın müəyyən səviyyələri vardır: hissi və məntiqi. 3. *Hissi idrak* vasitəsiz inikasdır. 4. Məntiqi səviyyə vasitəli inikas formasıdır. 5. *Psixi inikasın* hissi-perseptiv, təsəvvürlər, nitqli və ya məfhumi təfəkkür səviyyələri mövcuddur.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

İşı...ın, səsin, təzyi...in, istinin, soyu...un və s. əks etdirilməsi duyğudur. O...un başlıca funksiyası ətraf aləmdə, bədəndə baş verən hadisələr barədə subyektə məlumat vermə...dir. Bütün idrak prosesləri...in bünövrəsini duyğular təşkil edir. O, orqanizmlə mühit arasında ilkin əla...ədir. Duyğular varlı...ın ən sadə xassələri barədə məlumat verir.



***Çalışma 6. Qara hərflərlə verilmiş sözləri inkar formada yazın.***

Hissi idrak həm heyvanlarda, həm də insanlarda **vardır**. Hissi idraka duyğu və qavrayışlar **daxildir**. Psixologiyada duyğu dedikdə, ən bəsit idrak prosesi **nəzərdə tutulur**, insan onun köməyi ilə varlığı **əks etdirir**.

***Çalışma 7. Qara hərflərlə verilmiş sözləri hallandırın.***

Duyğular – indiki anda hiss üzvlərinə təsir edən **cisim** və hadisələrin ayrı-ayrı keyfiyyət və xassələrinin **beyində** inikasıdır. Duyğular vasitəsilə biz cismin həcmi, forması, rəngi, temperaturu, səsi, qoxusu və s. haqqında məlumat alırıq.

***Çalışma 8. Qalın sait ahəngli sözləri seçin.***

İnsan həmişə duyğuların verdiyi məlumatı beyində təhlil edir, onda mürəkkəb idrak fəaliyyəti, yəni qıcıqlandırıcıların sintezi baş verir, bu zaman cisim və hadisələrin tam surəti alınır.

***Çalışma 9. Terminləri öyrənin.***

idrak, inikas, subyekt, obyekt, passiv inikas, aktiv inikas, vasitəsiz inikas, vasitəli inikas, ehtiyac, tələbat, məqsəd, duyğu, qavrayış, hafizə, təfəkkür, hissi idrak, məntiqi idrak

## §40. Duyğuların növləri

Duyğuların növləri müxtəlifdir. Duyğular müəyyən qıcıqlandırıcıların müvafiq **reseptorlara** (analizatorun birinci hissəsinə) təsiri nəticəsində baş verir. Onlar (məsələn, dadbilmə, iybilmə, aclıq, toxluq, hərəkət duyğuları və s.) insanın həyat fəaliyyətində mühüm rol oynayır. Duyğuları üç qrupa bölürlər: 1) **eksteroseptiv** və ya xarici duyğular; 2) **interoseptiv** və ya daxili duyğular; 3) **proprioreseptiv** duyğular.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| müvafiq | uyğun, münasib, yaraşan, əlverişli |
| səth | bir şeyin xarici tərəfi, üst tərəfi, üz tərəfi |
| toxuma | bir-biri ilə bağlı olan eynicinsli hüceyrə qrupu |
| oynaq | oynayan, daim hərəkətdə olan; şux; canlı, təsirli |
| əzələ | bədənin yığıla bilən orqanı və ya onun bir hissəsi |
| müvazinət | vəziyyətdə sabitlik, dayanıqlıq, duruş, tarazlıq, sükunət |
| tənzimləmək | nizama salmaq, qaydaya salmaq |
| tezlik | itilik, sürət |
| tembr | səs çaları, ton |
| qıcıq | xaraci mühitin orqanizmə təsiri |
| mütləq | qəti surətdə, heç bir şərait və s.-dən asılı olmayan |
| eynicinsli | eyni cinsdən olan |



| | |
|---|---|
| hədd | sərhəd, hüdud; son |
| həssaslıq | həssas adamın xüsusiyyəti |
| kəmiyyət | miqdar, qədər, say |

***Çalışma 2. Vurğulu hecaları göstərin.***

*Eksteroseptiv* və ya *xarici duyğuların* reseptorları bədənin səthində yerləşir, xarici aləmdə olan cisim və hadisələrin xassələrini əks etdirir. Görmə, eşitmə, iybilmə, dadbilmə və dəri duyğuları bu qrupa daxildir.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

*İnteroseptiv* və ya *daxili duyğuların* reseptorları daxili **üzvlərdə**, bədənin toxumalarında **yerləşir** və daxili üzvlərin vəziyyətini əks etdirir. **Aclıq, toxluq, susuzluq** duyğuları və s. interoseptiv duyğular qrupuna daxildir.

***Çalışma 4. Mətni oxuyun. Çətin sözlərin tələffüzünü öyrənin.***

*Proprioreseptiv duyğuların* reseptorları oynaq və əzələlərdə yerləşir, bədənimizin hərəkəti və vəziyyəti haqqında məlumat verir. Hərəki və müvazinət duyğuları bu qrupa daxildir.

***Çalışma 5. Mətndə hansı duyğudan söhbət gedir?***

Xarici duyğular içərisində ... duyğuları mühüm yer tutur. Onlar xarici aləm haqqında çox zəngin informasiya gətirir. Ətraf aləmdən insan beyninə daxil olan informasiyaların 80-90 faizi ... analizatoru vasitəsilə verilir. İş əməliyyatının 80 faizindən çoxu ... nəzarəti altında həyata keçirilir.

*Çalışma 6. Mətndə hansı hal şəkilçisindən istifadə olunmalıdır?*

Görmə duyğusu sayəsində biz cisimlərin forma və rəngi..., ölçüsü..., həcmi..., məsafəsi... dərk edirik. Həmin duyğular insanın məkanda bələdləşməsi... təmin edir, hərəkətləri... tənzimləyir.

*Çalışma 7. Mətndə hansı duyğu haqqında danışılır?*

... duyğularının qıcıqlayıcısı müxtəlif uzunluğa malik səs dalğalarıdır. İnsanın ... analizatoru saniyədə 16-dan 20000 tezliyə malik səsləri əhatə edir. ... duyğuları səsin hündürlüyünü, gurluğunu və tembrini əks etdirir. İnsan səsləri tembrinə görə bir-birindən fərqlənir.

*Çalışma 8. Qara hərflərlə verilmiş sözlər sifətin hansı dərəcəsində işlənib?*

Duyğunun əmələ gəlməsi üçün qıcıq müəyyən kəmiyyətə malik olmalıdır. Qıcıqlayıcının ilk dəfə **ən zəif** duyğu əmələ gətirə bilən **ən kiçik** kəmiyyəti *duyğunun mütləq həddi* adlanır. **Ən zəif** qıcıqlayıcını duyma qabiliyyətinə *mütləq həssaslıq* deyilir. Analizatorların həssaslığı yaşayış şəraitinin tələblərinə, fəaliyyətin xarakterinə və s. görə artıb-azala bilər. Qıcıqlayıcı **çox zəif** olduqda həssaslıq artır, **çox güclü** olduqda həssaslıq azalır.

*Çalışma 9. Fellərin hansı şəkillərdə işləndiyini tapın.*

1. Müəyyən qıcıqlandırıcının hər hansı hiss üzvünə uzun müddət fasiləsiz olaraq təsir göstərməsi nəticəsində həssaslığın dəyişməsi *adaptasiya* adlanır. 2. Adaptasiya bir sıra duyğularda (görmə, temperatur, iy və toxunma)



qüvvətli, eşitmə və ağrı duyğularında zəif olur. 3. Eynicinsli qıcıqlandırıcıların qüvvələri arasındakı ən az fərqə *duyğunun fərqləndirmə həddi* deyilir. 4. Eynicinsli qıcıqlar arasındakı ən az fərqi duyma qabiliyyətinə *fərqləndirmə həssaslığı* deyilir.

*Çalışma 10. İsimləşmiş məsdərləri tapın.*

Qıcıqlandırıcının bir analizatora təsiri nəticəsində başqa analizator üçün səciyyəvi olan duyğunun əmələ gəlməsi *sinesteziyadır* (yunanca synisthesis – birgə hiss etmə, eyni zamanda duyma). Bunun geniş yayılan növü rəngli səsdir. Səs qıcıqları eşitmə ilə yanaşı, həm də görmə, yəni rəng duyğusu yaradır. Qıcıqlayıcıların təsiri ilə sinir mərkəzlərinin həssaslığının artması *sensibilizasiyadır* (latınca sensibilis – hissiyyatlı).

*Çalışma 11. Terminləri öyrənin.*

reseptor, duyğu, eksteroseptiv duyğu, interoseptiv duyğu, proprioreseptiv duyğu, duyğunun mütləq həddi, mütləq həssaslıq, adaptasiya, duyğunun fərqləndirmə həddi, sensibilizasiya

## §41. Qavrayış

**Qavrayış** cisim və hadisələrin bütün əlamət və xassələrinin bütövlükdə inikasıdır. Qavrayış daha mürəkkəb idrak prosesidir. Onun tərkibinə duyğularla yanaşı, insanın keçmiş təcrübəsi də daxildir. Qavrayış prosesi nitq, təfəkkür, iradə və s. ilə üzvi surətdə bağlıdır. Qavrayış prosesində insanın keçmiş təcrübəsi iştirak edir və bunun sayəsində biz cismi tanıyırıq. Əgər yeni cismi qavrayarkən onu tanış cisimlər kateqoriyasına aid ediriksə, onu anlamış oluruq. Qavrayış insanın marağından, meylindən, dünyagörüşündən, yönəlişindən, emosional vəziyyətindən və s. asılıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| əlamət | işarə, nişanə, iz |
| xassə | keyfiyyət, xüsusiyyət |
| bütövlükdə | tam halda, tam formada |
| inikas | əksetmə |
| mürəkkəb | 1) bir neçə hissədən ibarət olan; 2) çətin |
| tərkib | 1) hissələrin məcmusu; 2) birləşmə |
| təcrübə | 1) sınama, yoxlama; 2) biliklərin məcmusu |
| nitq | danışma, danışıq tərzi |
| təfəkkür | fikirləşmək bacarığı |
| iradə | 1) insan xasiyyətlərindən biri; 2) istək, arzu, tələb; 3) əmr, hökm |
| üzvi | canlı, orqanik |



| | |
|---|---|
| sayəsində | nəticəsində, köməyi ilə |
| tanış | 1) bir-birini tanıyan; 2) məlum |
| kateqoriya | mühüm xassə və münasibətləri göstərən anlayış |
| aid etmək | əlaqələndirmək |
| maraq | bir şeyə diqqət, həvəs, arzu |
| meyil | 1) bir tərəfə əyilmə; 2) istək, arzu, həvəs |
| dünyagörüşü | həyat, cəmiyyət və təbiət haqqında fikirlər sistemi |
| yönəliş | istiqamətlənmək |
| məzmun | mövzu, məna |
| yönüm | istiqamət, meyil |
| münasibət bəsləmək | yaxınlıq etmək |
| asılı olaraq | nəticəsi olaraq, əlaqədar olaraq, şərtlənərək |
| şərt | 1) əsas, lazım olan amil; 2) tələb, təklif; 3) bağlaşma, saziş |
| qıcıq | təsir |
| səth | 1) üst; 2) səviyyə |
| hərəki | hərəkət edən |
| surət | 1) zahiri görünüş, şəkil; üz, sifət; 2) nüsxə; 3) üsul, qayda |
| dolğun | 1) dolu; 2) gur, güclü; 3) yetişmiş; 4) mənalı; 5) tam, çox |
| bitkin | bitmiş, qurtarmış; yetişmiş, mükəmməl |
| birgə | bir yerdə, birlikdə, bərabər |

| | |
|---|---|
| keyfiyyət | fərqli xüsusiyyət, əlamət |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| əks olunmaq | göstərilmək, ifadə edilmək |
| cəmləşmək | bir yerə toplanmaq, yığılmaq |
| məhdud | kiçik, az |
| lokalizasiya | məhdudlaşdırma, kənara çıxmağa qoymamaq |

***Çalışma 2. Altından xətt çəkilmiş şəkilçiləri müəyyən edin.***

Qavrayışın məzmununun insanın təcrübəsindən, həyata münasibətindən, maraqlarından, bilik zənginliyindən, yönümündən asılı olması *appersepsiya* adlanır. Bu, qavrayışın mühüm xüsusiyyətidir. Appersepsiya insan qavrayışını fəallaşdırır. Çünki insan hər hansı cismi, hadisəni qavrayarkən ona müəyyən münasibət bəsləyir.

***Çalışma 3. Qara hərflərlə verilmiş sözlərdə hansı ahəng növləri var?***

Qavrayış prosesi **hissi** idrakın **mühüm** mərhələsidir. Aydın qavradığımız **cisim** qavrayışın *obyekti*, **yerdə qalanlar** isə *fon* olur. İnsanın məqsədindən, cisimlərin xüsusiyyətlərindən asılı **olaraq**, obyektlə fon yerini dəyişə bilər.

***Çalışma 4. Sifətləri tapın və izah edin.***

*Analizatorun* normal fəaliyyəti duyğu və qavrayışın əmələ gəlməsi üçün mühüm şərtdir. Analizator üç hissədən ibarətdir: xarici qıcığı qəbul edən səth – *reseptor* (göz, qulaq və s.), mərkəzəqaçan – *afferent sinir*, analizatorun beyin nahiyəsi; qıcıqlayıcıya cavab isə hərəki *efferent sinirlərlə* verilir.



***Çalışma 5. Mötərizələri açın, felləri düzgün formada yazın.***

Bir analizator sistemi başqa hərəkət formaları barədə məlumat (verməmək). Duyğunun bu xüsusiyyəti *təkmodallıq* (adlanmaq). Bu, duyğunu qavrayışdan (fərqləndirmək). Duyğu surətlərində emosional ton (olmaq), qavrayış surətlərində isə cismin surəti (yaranmaq). Qavrayış ətraf aləm haqqında daha dolğun, bitkin məlumat (vermək).

***Çalışma 6. Açıq heca ilə bitən sözləri göstərin.***

Qavrayış surətləri *çoxmodallı* olur. Onlar bir neçə analizatorun birgə fəaliyyəti sayəsində baş verir. Ayrı-ayrı analizatorlar cismin bir keyfiyyətini əks etdirir. Duyğu surətlərində cismin yalnız müəyyən keyfiyyətləri əks olunur. Qavrayış surəti onun tam bir predmetə aid olduğunu göstərir.

***Çalışma 7. Səhvləri düzəldin.***

Duyğular müəyən sahədə cəmləşir. Məsələn, rənk, səs, işık və s. müəyən predmetə ayid edilir. Toxunma, ağrı, temperatur duyğuları bədənin müəyən hissəsi iylə bağlı olur. Qavrayışda belə məhdut lokalizasiya yoxdur, qavrayış surəti müəyən predmetə ayid olur.

***Çalışma 8. Suallara cavab verin.***

1. Qavrayış nədir? 2. Qavrayış nədən asılıdır? 3. Appersepsiya nə deməkdir? 4. Analizator neçə hissədən ibarətdir? 5. Duyğu və qavrayışın fərqli cəhətlərini izah edin.

*Çalışma 9. Terminləri öyrənin.*

qavrayış, qavrayış surəti, duyğu, idrak, nitq, təfəkkür, iradə, appersepsiya, analizator, hissi idrak, reseptor, afferent sinir, efferent sinir, qıcıqlayıcı



## §42. Qavrayış (davamı)

***Çalışma 1. I növ söz birləşmələrini tapın, izah edin.***

Qavrayışın növləri iki qrupa ayrılır: 1) sadə qavrayış; 2) mürəkkəb qavrayış. *Sadə qavrayışın* görmə, eşitmə, iybilmə, dadbilmə qavrayışı və s. kimi növləri var. Məsələn, şəlaləyə baxan zaman üç analizator – görmə, eşitmə və hərəkət analizatoru iştirak edir. Bu prosesdə görmə analizatoru digər analizatorlara görə üstün rol oynayır. Belə qavrayışa *görmə qavrayışı* deyilir.

***Çalışma 2. Mənsubiyyət şəkilçilərinin altından xətt çəkin.***

*Qavrayışın mürəkkəb növlərinə* məkan, zaman və hərəkət qavrayışları aiddir. *Məkan qavrayışı* cisimlərin məkan münasibətlərinin inikasıdır. Məkan qavrayışında obyektlərin forması, həcmi, onların arasındakı məsafə, onların relyefi, yerin uzaqlığı və istiqaməti əks olunur. Məkanın qavranılmasında görmə, lamisə, əzələ-hərəkət duyğuları, hətta eşitmə analizatoru da iştirak edir.

***Çalışma 3. Altından xətt çəkilmiş sözlərə diqqətlə baxın. Hansı sözlər alınmadır?***

Bəzən cisimlər təhrif olunmuş halda əks etdirilir. Bu, iki amildən asılıdır: a) cisimlərin hansı əhatədə olmasından; b) analizatorların sağlamlıq vəziyyətindən. Cisimlərin təhrif olunmuş şəkildə qavranılması *illüziya* adlanır. Görmə qavrayışlarında illüziyalar daha çox nəzərə çarpır. Bu, cisimlər arasındakı məsafəni, bucaqları müəy-

yən etməkdə, cisimlərin formalarını və s. qavramaqda özünü göstərir.

***Çalışma 4. Qohum sözləri tapın.***

*Zaman qavrayışı* cisim və hadisələrin sürətinin, müddət və ardıcıllığının inikasıdır. Həmin qavrayışın köməyi ilə ətraf mühitdə baş verən dəyişikliklər əks etdirilir. Bu prosesdə eşitmə və hərəki duyğular əsas yer tutur. Zaman qavrayışının əsasında baş beyin yarımkürələri qabığında oyanma ilə ləngimənin ritmik surətdə bir-birini əvəz etməsi durur. Zamanın qavranılmasında subyektivlik var.

***Çalışma 5. Hal şəkilçilərini göstərin.***

*Hərəkət qavrayışı* cismin istiqamətinin, sürətinin inikasıdır. Bu, cismin uzaqlığından, yerdəyişmə sürətindən, müşahidəçinin məkanda hərəkətindən asılıdır. Həmin qavrayış obyektlərin məkandakı vəziyyətinin dəyişməsini əks etdirir. Hərəkətlərin qavranılması görmə, eşitmə və hərəkət analizatorlarının birgə fəaliyyəti sayəsində baş verir.

***Çalışma 6. Bu sözləri nöqtələrin yerinə qoyun: qavranılmasıdır, qavranılan, qavraması***

İnsanın insanı ... ünsiyyət zamanı adamların bir-birini əks etdirməsi prosesidir. Bu, müşahidə vasitəsilə müvəffəqiyyətlə həyata keçirilir. Qavrayışın mühüm forması olan *müşahidə* cisim və hadisələrin niyyətli .... Müşahidənin müntəzəm olması ... obyekti hərtərəfli nəzərdən keçirməyə imkan verir.



***Çalışma 7. Altından xətt çəkilmiş sözlər fonetik cəhətdən necə sözlərdir?***

Müəyyən obyektlə rastlaşarkən onu qavramağa hazır olmaq lazımdır. *Perseptiv hazırlıq* neyrodinamik və psixoloji hazırlığı tələb edir. Perseptiv hazırlıq üçün əlverişli psixoloji şərait olmalıdır. Buraya insanın emosional vəziyyəti, intellektual fəallıq dərəcəsi, psixi xüsusiyyətləri təsir göstərir.

***Çalışma 8. Sözləri hecalara ayırın.***

*Perseptiv əməliyyatın* dörd səviyyəsi var: *aşkaretmə, fərqləndirmə, eyniləşdirmə* və *tanıma*. İlk ikisi perseptiv əməliyyata, digərləri tanıma əməliyyatına aiddir. Bu əməliyyatlar *perseptiv surəti* yaradır.

***Çalışma 9. Suallara cavab verin.***

1. Qavrayışın hansı növləri var? 2. İllüziya nədir? 3. İnsanın insanı qavraması nə deməkdir? Perseptiv əməliyyatı və hazırlığı izah edin.

***Çalışma 10. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| üstün | daha yüksək |
| rol oynamaq | əhəmiyyəti olmaq |
| relyef | 1) qabarıq; 2) Yer səthinin quruluşu |
| lamisə | hiss etmə |
| əzələ | bədənin yığıla bilən orqanı |
| təhrif olunmuş | pozulmuş, korlanmış |
| amil | səbəb, vasitə |
| bucaq | künc |
| ardıcıllıq | axıra qədər getmə, davam etmə |
| yer tutmaq | 1) rol oynamaq, əhəmiyyəti |

| | |
|---|---|
| | olmaq; 2) işğal etmək |
| oyanma | 1) yuxudan ayılma; 2) canlanma |
| ləngimə | gecikmə |
| əvəz etmək | 1) yerini tutmaq; 2) dəyişdirmək |
| subyektivlik | şəxsi |
| müvəffəqiyyətlə | uğurla, qələbə ilə |
| həyata keçirilmək | yerinə yetirilmək |
| niyyətli | məqsədli |
| müntəzəm | düzgün, sistemli, daimi |
| nəzərdən keçirmək | baxmaq |
| imkan vermək | yol vermək, şərait yaratmaq |
| əlverişli | 1) yararlı, münasib, uyğun; 2) xeyirli, faydalı |
| aşkaretmə | göstərmə, üzə çıxarma, müəyyən etmə |

*Çalışma 11. Terminləri öyrənin.*

sadə qavrayış, mürəkkəb qavrayış, görmə qavrayışı, məkan qavrayışı, zaman qavrayışı, hərəkət qavrayışı, illüziya, müşahidə, perseptiv hazırlıq, perseptiv əməliyyat, perseptiv surət



## §43. Diqqət

Diqqət idrak proseslərindən biridir. **Diqqət** şüurun müəyyən obyekt üzərinə yönəlməsi və mərkəzləşməsindən ibarət psixi hadisədir. Bu halda fərdin həm sensor, həm intellektual, həm də hərəki fəallığının səviyyəsi yüksəlir. O, cisim və hadisələrə seçici münasibət bəsləməyə başlayır. Diqqət olmasa, cismin, hadisənin aydın dərk edilməsi mümkün olmaz. **Diqqət obyekti** həm xarici aləm cisimləri, həm də insanın öz fikri, rəftarı, davranışı ola bilər.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| idrak | dərk etmə, bilmə, şüur |
| şüur | düşünmə, anlama qabiliyyəti |
| yönəlmək | 1) istiqamət almaq, getmək; 2) üzünü çevirmək |
| mərkəzləşmək | birləşmək, toplanmaq |
| fərd | ayrıca adam |
| seçici | 1) seçkidə iştirak edən; 2) xüsusi |
| dərk etmək | anlamaq, başa düşmək |
| rəftar | münasibət, davranış |
| davranış | hərəkət, rəftar |
| funksiya | vəzifə |
| əhəmiyyətli | mühüm |
| təsir | enerjinin, gücün özünü göstərməsi |
| əhəmiyyət verməmək | diqqət yetirməmək, fikir |

| | |
|---|---|
| | verməmək |
| başa çatmaq | tamamlanmaq, qurtarmaq |
| tənzim etmək | nizama salmaq, qaydaya salmaq |
| nəzarət etmək | baxmaq, nəzər yetirmək |
| akt | yazı, protokol, qərar |
| qeyri-ixtiyari | bilməyərək, istər-istəməz, iradəsiz olaraq |
| bilavasitə | birbaşa, vasitə olmadan |
| qabaqcadan | əvvəldən |
| mövcud olmaq | var olmaq, olmaq |
| əhvali-ruhiyyə | ruhi vəziyyət |
| optimal | ən əlverişli, ən münasib |
| imkan vermək | yol vermək, şərait yaratmaq |
| şərt | 1) lazım olan amil, əsas; 2) tələb, təklif; 3) bağlaşma, saziş |
| aradan qaldırmaq | yox etmək, ləğv etmək |
| maraq | bir şeyə diqqət, həvəs, arzu |
| bələd olmaq | tanış olmaq, tanımaq, bilmək |
| məxsus | xas olan, aid olan |

***Çalışma 2. II növ söz birləşmələrini göstərin.***

*Diqqətin funksiyaları* bunlardır: 1) *seçmə funksiyası* – diqqət əhəmiyyətli təsirləri seçir, kənar təsirlərə əhəmiyyət vermir; 2) *saxlanma funksiyası* – idrak fəaliyyəti və ya davranış aktı başa çatana qədər diqqət onların üzərində saxlanır; 3) *tənzim etmək* və *nəzarət etmək funksiyası* – diqqət fəaliyyətin gedişini tənzimləyir və ona nəzarət edir.



***Çalışma 3. Nöqtələrin yerinə uyğun gələn şəkilçiləri yazın.***

Diqqət... növlərindən biri *qeyri-ixtiyari diqqətdir*. O, cisim və hadisə...in bilavasitə təsiri nəticəsində əmələ gəlir. Qeyri-ixtiyari diqqət qabaqcadan qarşıya qoyulmuş məqsədlə, heç bir xüsusi niyyətlə bağlı olmur. O yalnız qıcıqlandırıcının təsir etdiyi müddətdə mövcud ol.... Qeyri-ixtiyari diqqət heyvanlar... da vardır.

***Çalışma 4. Aşağıdakı tapşırıqda hansı qrammatik kateqoriyaların əlamətləri vardır?***

Qeyri-ixtiyari diqqət aşağıdakılardan asılıdır: 1) bizə təsir edən qıcıqlayıcıların xüsusiyyətlərindən, yəni xarici səbəblərdən (məsələn, qüvvətli səs, güclü işıq, kəskin iy, yeni maşın modeli, hərəkətin başlanması və ya kəsilməsi və s.); 2) insanın daxili emosional vəziyyətindən, şəxsiyyətin istiqamətindən (məsələn, insanın sağlamlıq dərəcəsi, əhvali-ruhiyyəsi, tələbatı, maraqları və s.).

***Çalışma 5. Nöqtələrin yerinə bu sözləri yazın: ikinci, insanın, obyekti, ilə***

*İxtiyari diqqət* ... xüsusi niyyəti və məqsədi ... bağlıdır. O, fəaliyyət prosesində əmələ gəlir. Bu halda beyində ... siqnalların – söz siqnallarının təsiri ilə optimal oyanma sahəsi yaranır. İxtiyari diqqət ... ətraflı öyrənməyə imkan verir.

***Çalışma 6. Altından xətt çəkilmiş sözlərdə Azərbaycan dilinin hansı qaydalarını görürsünüz?***

İxtiyari diqqət bir sıra şərtlərdən asılıdır: 1) fəaliyyətin <u>mənasını</u>, <u>faydasını</u> dərk etmək; 2) fəaliyyətin kon-

kret məqsədini dərk etmək; 3) iş şəraitinin olması; 4) əlavə maraqların yaranması. Maraq, obyekti ətraflı qavramağa, yadda saxlamağa, dərindən öyrənməyə, çətinlikləri aradan qaldırmağa kömək edir.

***Çalışma 7. Ahəng qanununa tabe olan alınma sözləri göstərin.***

Diqqətin daha iki növü var: xarici diqqət və daxili diqqət. *Xarici diqqət* olmasa, insan ətraf aləmin cisim və hadisələrinə bələd ola bilmir. *Daxili diqqət* şəxsiyyətin öz daxili aləmini, fəaliyyətini, özünü, öz xüsusiyyətlərini dərk etməsi ilə əlaqədardır. Daxili diqqət yalnız insanlara məxsusdur.

***Çalışma 8. Suallara cavab verin.***

1. Hansı psixi hadisəyə diqqət deyilir? 2. Diqqət obyekti nədir? 3. Diqqətin hansı funksiyaları var? 4. Diqqətin neçə növü var? 5. Diqqətin əhəmiyyəti nədir?

***Çalışma 9. Terminləri öyrənin.***

diqqət, şüur, fərd, ixtiyari diqqət, qeyri-ixtiyari diqqət, xarici diqqət, daxili diqqət



## §44. Diqqətin xüsusiyyətləri

Diqqətin müxtəlif xüsusiyyətləri, keyfiyyətləri vardır. Hər bir xüsusiyyət ayrı-ayrı şəxslərdə özünəməxsus şəkildə təzahür edir. Onlara müxtəlif amillər təsir göstərir. Diqqətin beş əsas xüsusiyyəti göstərilir: **diqqətin mərkəzləşməsi, davamlılığı, həcmi, paylanması, keçirilməsi.**

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| xüsusiyyət | səciyyəvi cəhət, əlamət, spesifiklik |
| keyfiyyət | fərqli xüsusiyyət, əlamət |
| özünəməxsus | özünə aid, spesifik |
| təzahür etmək | üzə çıxmaq, özünü göstərmək |
| amil | səbəb, vasitə |
| təsir göstərmək | təsir etmək, təsiri olmaq |
| mərkəzləşmə | birləşmə, toplanma |
| davamlılıq | möhkəmlik |
| həcm | ölçü, tutum |
| paylanma | bölüşdürülmə |
| xarakterizə olunmaq | səciyyələnmək |
| bacarıq | iş qabiliyyəti, təcrübə |
| həmcins | eyni cinsli |
| dərəcə | 1) hədd; 2) vəzifə, mövqe |
| yönəlmək | 1) istiqamət almaq, getmək; 2) çevrilmək |
| əhatə olunmaq | dörd tərəfi tutulmaq |
| miqdar | say, kəmiyyət |

| | |
|---|---|
| müəyyən edilmək | qabaqcadan təyin olunmaq, müəyyənləşdirilmək |
| düzülüş | düzülmə qaydası, tərtib |
| tabe olan | razı olan, itaət edən |
| fasiləsiz | fasilə olmadan, arası kəsilmədən |
| rəngarənglik | 1) əlvanlıq; 2) müxtəliflik |
| tərəddüd | nə edəcəyini bilməmə, qərarsızlıq |
| əlaqədar olmamaq | bağlı olmamaq, əlaqəsi olmamaq, aid olmamaq |
| vərəqləmək | səhifələri çevirmək |
| yayınma | 1) başqa şeylə məşğul olma, kənara çıxma; 2) yox olma, uzaqlaşma |
| öz aləminə çəkilmək | öz dünyasında, öz mühitində olmaq |
| yerinə yetirmək | icra etmək, həyata keçirmək |
| lazımi | zəruri, gərəkli, uyğun, lazım olan, istənilən |
| ixtiyari | insanın öz arzusu ilə olan, məcburi olmayan |

***Çalışma 2. Antonim sözləri tapın.***

*Diqqətin mərkəzləşməsi* zamanı şüurumuz bir obyekt və ya bir fəaliyyətə yönəlir, başqalarından uzaqlaşır. *Diqqətin paylanması* eyni vaxtda iki müxtəlif və daha artıq işi yerinə yetirmək bacarığı ilə xarakterizə olunur. Bu, işlərin həmcins və ya müxtəlif olmasından, həmin işlərin mənimsənilmə dərəcəsindən və insanın yaşından asılıdır.



***Çalışma 3. Bu tapşırıqda hansı təsriflənməyən fel işlənib?***

*Diqqətin həcmi* eyni vaxtda əhatə olunan, aydın dərk olunan obyektlərin miqdarı ilə müəyyən edilir. Diqqətin həcmi qavranılan cisim və hadisələrin bir-biri ilə sıx əlaqədə olmasından, obyektlərin sadə və mürəkkəbliyindən, obyektlərin düzülüşündən, formasından, böyük kiçikliyindən, rəngindən, qarşıya qoyulan məqsəddən, insan fəaliyyətinin xüsusiyyətindən asılıdır.

***Çalışma 4. Bu tapşırıqda hansı kateqoriyanın şəkilçisi daha çox işlənib?***

*Diqqətin davamlılığı* onun ümumi bir məqsədə tabe olan obyektlər üzərində uzun müddət və fasiləsiz saxlanılmasıdır. Diqqətin davamlılığı obyektlərin və işlərin rəngarəngliyindən, yeniliyindən, zənginliyindən, dinamikliyindən, adamın fəallığından, marağından, yorğunluq dərəcəsindən asılıdır.

***Çalışma 5. «Obyekt» sözünü düzgün formada yazın.***

*Diqqətin keçirilməsi* onun bir obyekt... başqa obyekt... və ya bir fəaliyyətdən başqa fəaliyyətə yönəldilməsidir. *Diqqətin tərəddüdü* onun dinamik xüsusiyyətlərindən biridir. Bu, insan şüurunun əsas obyekt... kənar obyekt... keçməsi və yenə də əsas obyekt... qayıtmasıdır.

***Çalışma 6. Nöqtələrin yerinə lazım olan şəkilçini qoyun.***

Bəzən diqqət hər hansı cisim və hadisə üzərinə yönəlir. Lakin həmin cisim və hadisə hazırda qarşıda duran məqsədlə əlaqədar olmur. Bu, *diqqətin yayınma...dır.*

Məsələn, müəllim dərsi izah edərkən şagirdin küçəyə baxma..., dərsliyini vərəqləmə..., yoldaşı ilə söhbət etmə... və s. onun diqqətinin yayınma...nı göstərir.

***Çalışma 7. Hansı sıradakı şəkilçilər bu tapşırıqdakı sifətləri isimləşdirib: a) –sı$^4$, -lıq$^4$; b) –lıq$^4$, -lar$^2$; c) –sız$^4$, -ı$^4$***

Gərgin iş günündən sonra yorğunluq, insanın öz daxili aləminə çəkilməsi, maraqsız işi yerinə yetirməsi və s. *dalğınlıq vəziyyəti* yarada bilər. Dalğınlığın iki forması var: 1) adam öz diqqətini lazımi obyekt üzərində mərkəzləşdirə bilmir. Bu, ixtiyari diqqətin zəifliyidir; 2) kənar qıcıqlayıcılar diqqəti əsas obyektdən yayındıra bilmir, diqqətin gərginliyini artırır. Bu, ixtiyari diqqətin güclü mərkəzləşməsidir.

***Çalışma 8. Suallara cavab verin.***

1. Diqqətin hansı xüsusiyyətləri var? 2. Diqqətin mərkəzləşməsi və paylanması necə baş verir? 3. Diqqətin həcmi və davamlılığı nədən asılıdır? 4. Diqqət nə zaman yayınır? 5. Dalğınlıq necə yaranır?

***Çalışma 9. Terminləri öyrənin.***

diqqətin mərkəzləşməsi, diqqətin həcmi, diqqətin davamlılığı, diqqətin keçirilməsi, diqqətin tərəddüdü, diqqətin tərəddüdü, diqqətin yayınması, dalğınlıq, ixtiyari diqqət, qıcıqlayıcı, diqqətin paylanması



## §45. Hafizə

İnsanın idrak fəaliyyətində hafizənin rolu böyükdür. **Hafizə** insan təcrübəsinin, bütün psixi inkişafın təməlini təşkil edir. Hafizəsiz dərk edilən cisimlərin yadda saxlanması, ondan sonrakı təcrübədə istifadə edilməsi mümkün olmazdı. Hafizəmiz gərəkli biliklərlərlə nə qədər zəngin olarsa, fikirlərimiz də düzgün və məzmunlu olar. Hafizə insan fəaliyyətini şərtləndirir. Müasir dövrdə hafizənin **psixoloji, fizioloji, biokimyəvi nəzəriyyələri** mövcuddur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| hafizə | yaddaş |
| rol | 1) artistin oynadığı surət; 2) əhəmiyyət |
| təməl | bünövrə, bir şeyin əsası |
| təşkil etmək | düzəltmək, yaratmaq, qaydaya salmaq |
| yadda saxlamaq | unutmamaq, xatırlamaq |
| gərəkli | lazımlı, əhəmiyyətli, zəruri |
| məzmunlu | ciddi, dərin mənalı |
| şərtləndirmək | şərt qoymaq, səbəb olmaq |
| mövcud | var olan, hazırda olan |
| nəzəriyyə | ideyalar sistemi, biliklərin məcmusu |
| hifz etmə | qoruma |
| yada salma | hafizədə canlandırma |
| fərdi | 1) şəxsi; 2) xüsusi |
| toplanan | birləşən, yığılan |

| | |
|---|---|
| material | 1) cisim, maddə; 2) məlumat, vəsait |
| gələcək | indi yox, sonra olacaq; hələ çatmamış zaman |
| tələb etmək | xahiş və ya təklif etmək, istəmək |
| əlaqə | qarşılıqlı münasibət, yaxınlıq, rabitə |
| nəticələnmək | bitmək, sona çatmaq |
| iz | nişanə, qalıq, əlamət |
| hüceyrə | canlı orqanizmin ən sadə vahidi |
| sinir | əsəb |
| baş vermək | əmələ gəlmək, ortaya çıxmaq, olmaq, başlamaq |
| pillə | 1) pilləkənin hissəsi; 2) mərhələ, mərtəbə, səviyyə |
| reaksiya | 1) qarşılıqlı təsir; 2) dəyişiklik |
| mexanizm | 1) maşın, qurğu; 2) bir şeyin daxili sistemi |
| rabitə | bağlılıq, münasibət, əlaqə |
| əsaslanmaq | 1) istinad etmək; 2) yerini möhkəmlətmək |
| qonşuluq | yaşadığı yerə görə yaxınlıq |
| təsəvvür | 1) xəyala gətirmə, xəyal, fikir; 2) ümumi tanışlıq |
| canlandırmaq | 1) can vermək, ayıltmaq; 2) gücləndirmək; 3) şənləndirmək, hərəkətə gətirmək |
| oxşarlıq | bənzərlik, uyğunluq |
| bənzəyən | 1) oxşayan; 2) uyğunlaşan |
| əkslik | ziddiyyət, uyğunsuzluq |



| | |
|---|---|
| obrazlı | ifadəli, canlı, aydın |
| surət | 1) zahiri görünüş, şəkil; 2) üsul, qayda; 3) nüsxə |
| məntiqi | 1) məntiq qanunlarına uyğun; 2) zəruri, qanunauyğun |
| hərəki | hərəkət edən |
| emosional | həyəcanlı, emosiya ifadə edən |
| məqsəd | niyyət, arzu |
| qeyri-ixtiyari | bilməyərək, istər-istəməz |
| ixtiyari | insanın öz arzusu ilə olan, məcburi olmayan |
| fərqləndirilmək | seçilmək |
| müddət | vaxt, zaman |
| qeyd edilmək | 1) yazılmaq; 2) göstərilmək |

***Çalışma 2. Məsdərin isimləşməsi hansı sözlərdədir?***

Hafizənin dörd əsas prosesi var: *yaddasaxlama, hifzetmə, yadasalma və tanıma.* Müəyyən materialı yaddasaxlama həyat və fəaliyyət prosesində toplanan fərdi təcrübə ilə bağlıdır. Yadda saxlanılan materialların gələcək fəaliyyətdə istifadə olunması yadasalma və ya xatırlama tələb edir. Müəyyən materialın uzun müddət fəaliyyətlə əlaqəsinin kəsilməsi unutma ilə nəticələnir.

***Çalışma 3. Mürəkkəb sözləri tapın və izah edin.***

Hafizədə izlərin saxlanması sinir hüceyrələrində dərin biokimyəvi dəyişikliklərin baş verməsi ilə bağlıdır. Yaddasaxlama prosesi ikipilləlidir. *Birinci mərhələdə* beyin hüceyrələrində qısamüddətli elektrokimyəvi reaksiya baş verir. *İkinci mərhələdə* sinir hüceyrələrində pro-

teinin yaranması ilə bağlı biokimyəvi reaksiya əmələ gəlir. Birinci mərhələ *qısamüddətli*, ikinci mərhələ *uzunmüddətli* hafizənin mexanizmidir.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan şəkilçini yazın.***

Hafizə fəaliyyətinin əsasını müəyyən rabitələr – assosiasiyalar təşkil ed… . Bu rabitələr Aristotelin üç prinsipinə əsaslan…: 1) qonşuluq assosiasiyası – orta məktəb yoldaşımızı görmək məktəb həyatına aid təsəvvürləri canlandır…; 2) oxşarlıq assosiasiyası – dostumuza bənzəyən bir adam gördükdə onun haqqında təsəvvür yaran…, 3) əkslik assosiasiyası – qış təsəvvürü yay təsəvvürünü əmələ gətir… .

***Çalışma 5. Aşağıdakı tapşırıqda hansı nitq hissəsinə aid sözlər daha çoxdur?***

Obyektinə görə hafizənin obrazlı (surət), sözlü-məntiqi, hərəki və emosional növləri var. Fəaliyyətin məqsədindən asılı olaraq hafizənin qeyri-ixtiyari və ixtiyari növləri fərqləndirilir. Materialın yadda saxlanması müddətinə görə hafizənin qısamüddətli, uzunmüddətli və operativ növləri qeyd edilir.

***Çalışma 6. Suallara cavab verin.***

1. Hafizənin insan həyatında rolunu izah edin. 2. Hafizə hansı proseslərdən ibarətdir? 3. Yaddasaxlama prosesini izah edin. 4. Aristotelin prinsipləri hansılardır? 5. Hafizənin hansı növləri var?



***Çalışma 7. Terminləri öyrənin.***

hafizə, qısamüddətli hafizə, uzunmüddətli hafizə, qonşuluq assosiasiyası, oxşarlıq assosiasiyası, əkslik assosiasiyası, obrazlı hafizə, sözlü-məntiqi hafizə, hərəki hafizə, emosional hafizə, ixtiyari hafizə, qeyri-ixtiyari hafizə, operativ hafizə

## §46. Hafizə (davamı)

***Çalışma 1. Nöqtələrin yerinə hansı şəkilçi qoyulmalıdır: -mız$^4$, -sı$^4$, -lar$^2$***

*Surət hafizə...* cisim və hadisələrin keçmişdə qavradığımız surətlərinin yadda saxlanılma..., hifz edilmə... və yada salınma...ndan ibarətdir. Onun ilkin forma... *ardıcıl surətlərdir.* Surət hafizə...nin bir halı *əyani (eydetik)* surətlər, digər növü isə *təsəvvür surətləridir.*

***Çalışma 2. İsmi xəbərləri tapın, izah edin.***

*Hərəkət hafizəsi* müxtəlif hərəkətlərin və onların sisteminin yadda saxlanması, hifz olunması və yada salınmasıdır. İdmançılar, rəqqaslar üçün hərəki hafizə vacibdir. Hafizənin bu növü daha tez inkişaf edir. Hərəki hafizə, demək olar ki, bütün adamlarda vardır.

***Çalışma 3. Mücərrəd isimləri tapın.***

*Emosional hafizə* keçirdiyimiz hisslərin yadda saxlanması və yada salınmasıdır. Bu hafizə davranış və rəftarı tənzim edir. Sözlü-məntiqi hafizə fikirlərin, anlayışların yadda saxlanması, hifz edilməsi və yada salınmasından ibarətdir. Fikirlər dil materialında maddiləşir, ona görə də bu hafizə sözlü-məntiqi hafizə adlanır. O yalnız insanlara məxsusdur.

***Çalışma 4. Altından xətt çəkilmiş sözləri izah edin.***

Əgər materialın yadda saxlanması, xatırlanması üçün qarşıya məqsəd qoyulmursa və onlar sanki öz-özünə yadda qalırsa, bu, *qeyri-ixtiyari hafizə* adlanır. Əgər insan



materialı yadda saxlamaq üçün xüsusi üsul və qaydalardan istifadə edirsə, hafizə *ixtiyari* olur.

***Çalışma 5. Qapalı sait ahəngli sözləri seçin.***

*Qısamüddətli hafizə* çox az müddət davam edir. Az müddətdən sonra indicə qavranılan cisim və hadisələri xatırlaya bilmirik. Bu hafizənin sinonimi kimi bəzən *operativ* və ya *«işçi» hafizə* termini işlədilir. Operativ hafizə dedikdə müəyyən işin yerinə yetirilməsi üçün zəruri olan hər hansı məlumatın müəyyən müddət yadda saxlanması nəzərdə tutulur.

***Çalışma 6. Mötərizələri açın, sözləri düzgün formada yazın.***

*Uzunmüddətli hafizə* qavranılan materialın uzun müddət və möhkəm yadda saxlanması ilə xarakterizə (olunmaq). Biliklərin, bacarıq və vərdişlərin, informasiyaların uzun müddət hifz edilməsi bu hafizənin əsas məzmununu təşkil (etmək). Uzunmüddətli hafizədə biliklər daha ümumiləşmiş halda (saxlanmaq), onlar uzun müddət üçün insana lazım (olmaq).

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ilkin | ilk, birinci |
| ardıcıl | 1) arası kəsilmədən; 2) məntiqli |
| əyani | gözlə görünən, inandırıcı, aydın |
| təsəvvür | 1) xəyala gətirmə, xəyal, fikir; 2) ümumi tanışlıq |
| rəqqas | rəqs edən |

| | |
|---|---|
| hərəki | hərəkət edən |
| emosional | həyəcanlı, emosiya ifadə edən |
| hiss | 1) duyğu; 2) sevgi; 3) qavrama bacarıcı |
| davranış | davranma tərzi, rəftar |
| rəftar | münasibət, davranış |
| tənzim etmək | nizama salmaq, qaydaya salmaq |
| maddiləşmək | maddi/konkret şəkil almaq |
| məxsus olmaq | aid olmaq |
| qarşıya məqsəd qoymaq | arzu etmək, … niyyətində olmaq |
| üsul | sistem, yol, qayda, metod |
| qayda | 1) üsul, yol; 2) adət; 3) nizam, səliqə |
| davam etmək | 1) dözmək; 2) əvvəlki halında qalmaq, fəaliyyətdə olmaq; 3) işi dayandırmamaq |
| operativ | bir işi bilavasitə görən, işi düzəldən |
| işçi | çalışan |
| zəruri | ən lazımlı, ən vacib, lazım, mütlə'q |
| yerinə yetirilmə | icra edilmə, həyata keçirilmə |
| nəzərdə tutulmaq | haqqında düşünmək |
| möhkəm | 1) davamlı, bərk; 2) qüvvətli; 3) güclü, şiddətli |
| xarakterizə olunmaq | səciyyələnmək |



| | |
|---|---|
| bilik | oxumaqla, təcrübə ilə qazanılan məlumat |
| bacarıq | işgörmə qabiliyyəti, təcrübə |
| vərdiş | iş bacarığı; adət |
| məzmun | mövzu, məna |
| ümumiləşmiş | birləşmiş, ümumi olmuş |

***Çalışma 8. Suallara cavab verin.***

1. Surət hafizəsinin hansı formaları var? 2. Hərəkət hafizəsi kimin üçün vacibdir? 3. Niyə emosional hafizə yalnız insanlara məxsusdur? 4. Nə zaman hafizə ixtiyari və qeyri-ixtiyari olur? 5. Operativ hafizə nədir? 6. Uzunmüddətli hafizəni izah edin.

***Çalışma 9. Terminləri öyrənin.***

surət hafizəsi, ardıcıl surətlər, əyani (eydetik) surətlər, təsəvvür surətləri, hərəkət hafizəsi, emosional hafizə, sözlü-məntiqi hafizə, qeyri-ixtiyari hafizə, ixtiyari hafizə, qısamüddətli hafizə, uzunmüddətli hafizə, operativ hafizə, «işçi» hafizə

## §47. Hafizə prosesləri, mnemotexniki üsullar

Dərk olunan cisim və hadisələrin yadda saxlanması, hifz olunması, yada salınması və tanınması **hafizə prosesləri** adlanır. Xüsusi **mnemotexniki üsullardan** istifadə etməklə – əlavə assosiasiyalar yaratmaq yolu ilə hafizənin həcmini böyütmək və yaddasaxlamanı asanlaşdırmaq mümkündür. Qavranılan materialın yadda saxlanması və yada salınmasına yönəlmiş fəaliyyət **mnemik fəaliyyət** adlanır. Mnemonikon – yunan sözü olub, «yadda saxlamaq məharəti» deməkdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| üsul | sistem, yol, qayda, metod |
| istifadə etmək | işlətmək, faydalanmaq |
| assosiasiya | 1) birlik; 2) təsəvvürlər arasındakı əlaqə |
| həcm | ölçü, tutum |
| asanlaşdırmaq | asan etmək, yüngülləşdirmək, sadələşdirmək |
| mümkün olmaq | həyata keçə bilmək |
| yönəlmiş | istiqamətlənmiş, çevrilmiş |
| fəaliyyət | iş, çalışma, aktivlik |
| məharət | ustalıq, bacarıq, qabiliyyət, hünər |
| təəssürat | əşya və hadisələrin insan şüurundakı izi |
| möhkəmləndirilmə | möhkəm edilmə, bərkidilmə |



| | |
|---|---|
| mühit | təbii və ictimai şərait |
| təsir | enerjinin, gücün özünü göstərməsi |
| həkk olunma | 1) yazı yazılma; 2) unudulmama |
| seçici | 1) seçkidə iştirak edən adam; 2) xüsusi |
| əksini almaq | şəklini çəkmək |
| nəqşləndirmə | həkk etmə, şəkil, naxış vurma |
| nəqşlənmək | həkk olunmaq |
| özünü göstərmək | öz bacarığını göstərmək |
| dəfələrlə | bir neçə dəfə, təkrarən, çox-çox |
| təkrarən | təkrar olaraq, təkrar-təkrar |
| sayəsində | nəticəsində, köməyi ilə |
| baş vermək | əmələ gəlmək, ortaya çıxmaq, olmaq, başlamaq |
| kifayət olmaq | çatmaq, yetmək, bəs olmaq |
| başlıca | ən əsas, ən mühüm, ən çox |
| müntəzəm | sistemli, daimi, düzgün, ardıcıl |
| planlı | plan üzrə olan |
| anlaşılan | başa düşülən, aydın olan, məlum olan |
| mexaniki | 1) mexanizmlər vasitəsilə işləyən; 2) qeyri-şüuri, qeyri-iradi |
| tələb etmək | istəmək, xahiş və ya təklif etmək |
| yüklənmək | yüklə doldurulmaq |
| an | ən kiçik zaman |
| canlandırmaq | 1) can vermək, ayıltmaq; 2) yada salmaq; 3) gücləndirmək; 4) şənləndirmək |

| | |
|---|---|
| bərpa edilmək | əvvəlki halına salınmaq, yenidən düzəlmək |
| canlanma | 1) dirilmə, dirçəlmə; 2) fəallaşma; 3) yada düşmə; 4) oyanma |
| niyyətli | məqsədli, arzu ilə |
| səy göstərmək | çalışmaq, cəhd etmək |
| xarakter daşımaq | bir şeyi özündə cəmləşdirmək |

***Çalışma 2. Qara hərflərlə verilmiş sözləri kök və şəkilçiyə ayırın.***

*Yaddasaxlama* – cisim və **hadisələrin** təsiri ilə duyğu və qavrayış prosesində **beynimizdə** əmələ gələn təəssürat və surətlərin **möhkəmləndirilməsi** prosesidir. Yaddasaxlama xarici və daxili mühitin təsirinin beyində həkk olunmasıdır. Bu proses **seçici** olur. Onun üç forması var: əksinialma və ya nəqşləndirmə, qeyri-ixtiyari və ixtiyari yaddasaxlama.

***Çalışma 3. Altından xətt çəkilmiş sözlərdən istifadə edərək yeni birləşmələr düzəldin.***

Çox qüvvətli emosional təsir yaradan cisim və hadisələr beyində möhkəm nəqşlənir və uzunmüddətli hafizədə qalır. Bu, *əksinialma* və ya *nəqşləndirmədir*. İnsan həyatındakı çox ağır kədər və ya böyük sevinc də uzun müddət insanın beynində həkk olunur. Bu cür yaddasaxlama eydetik surətlərdə özünü göstərir.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan hərfləri qoyun.***

*Qeyri-ixtiyari yaddasaxlama* cismin dəfələrlə, təkrarən qavranılma...ı sayəsində baş v...rir. Bu halda



mnemik üs...llardan istifad... olun...ur. Qeyri-ixtiyari yaddasaxlama dərin bili... üçün kifayət d...yil. O tam dəqiq olmur.

***Çalışma 5. Altından xətt çəkilmiş sözlərin vurğusunu müəyyən edin.***

*İxtiyari yaddasaxlama* üçün insan müəyyən üsul və qaydalardan istifadə edir. Bu, yaddasaxlamanın insana xas olan başlıca formasıdır. İxtiyari yaddasaxlamanın xüsusi bir növü öyrənmədir. *Öyrənmə* müntəzəm, planlı və müəyyən üsullardan istifadə etməklə xüsusi təşkil edilən yaddasaxlamadır. Anlaşılan material mənalı, anlaşılmayan, çətin material mexaniki öyrənməni tələb edir.

***Çalışma 6. «Az», «süni», «gec», «lazımsız», «əlavə» sözləri mətndəki hansı sözlərlə antonimdir?***

*Hifzetmə* unutma ilə əlaqədardır. Qavradığımız materialın ya hamısı, ya da müəyyən hissəsi unudula bilər. Material mexaniki öyrənildikdə də tez unudulur. Təkrarların olmaması unutmanın əsas səbəblərindən biridir. Unutma təbii və zəruri prosesdir, çünki beyin çox yüklənə bilər.

***Çalışma 7. Feldən düzələn isimləri tapın.***

*Yadasalma* beyinin indiki an üçün zəruri olan informasiyanı seçib ayırması, canlandırmasıdır. Yadasalma sayəsində keçmiş təcrübə, hisslər, fikirlər bərpa edilir. Onun üç səviyyəsi var: tanıma, xüsusi yadasalma və xatırlama. *Tanıma* yadasalmanın başlanğıcıdır, sadə prosesdir.

***Çalışma 8. Səhvləri düzəldin.***

*Xüsusi yadasalma* zamanı materiyal sanki özü hafizədə canlanır. Bu, yadasalmanın niyyətsiz formasıdı. *Niyyətli yadasalma* mürəkkəb hafizə prosesidi, xüsusi gərginliy, səy göstərməy tələb edir. *Xatırlama* da seçici xarakter daşıyır, bu zaman zəruri olan biliyləri yada salırık. Yadasalmanın xüsusi forması xatirədi. *Xatirələr* insanın şəxsi həyatı ilə bağlı olur.

***Çalışma 9. Terminləri öyrənin.***

hafizə prosesləri, mnemotexniki üsullar, mnemik fəaliyyət, yaddasaxlama, əksinialma, nəqşləndirmə, qeyri-ixtiyari yaddasaxlama, ixtiyari yaddasaxlama, öyrənmə, hifzetmə, unutma, yadasalma, tanıma, xüsusi yadasalma, xatırlama, niyyətli yadasalma, niyyətsiz yadasalma, xatirə



## §48. Şüur və təfəkkür

Şüur psixikanın insana məxsus olan ən ali səviyyəsidir. Şüur sanki bütün psixi hadisələrin inkişafının yekunudur. O, beyinin məhsuludur, varlığı əks etdirir və insanın tarixi inkişafı prosesində əmələ gəlir. Şüur yalnız və yalnız insana məxsusdur. Şüur insanın malik olduğu biliklər məcmusudur. O, ictimai-tarixi inkişafın məhsuludur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ali | ən yüksək |
| səviyyə | yüksəlmə dərəcəsi |
| yekun | bir şeyin nəticəsi |
| məhsul | hazırlanan, yetişdirilən şeylər |
| varlıq | var olma, mövcud olma |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| əmələ gəlmək | 1) baş vermək, meydana gəlmək, mümkün olmaq; 2) düzəlmək |
| malik olmaq | sahib olmaq |
| məcmu | bütün, tamam, hamı |
| mövcudluq | mövcud olma, varlıq |
| kəsb etmək | 1) çalışıb qazanmaq; 2) əldə etmək, öyrənmək |
| əldə etmək | tapmaq, qazanmaq, ələ keçirmək |
| çıxış etmək | danışmaq, məlumat vermək, göstərmək |
| idarə etmək | 1) rəhbərlik etmək, başçılıq |

| | |
|---|---|
| | etmək; 2) istiqamətləndirmək |
| iradi | iradəyə aid; ixtiyari |
| səciyyə daşımaq | səciyyəvi xüsusiyyətlərə malik olmaq |
| xarakterizə olunmaq | səciyyələnmək, fərqli xüsusiyyətləri müəyyən etmək |
| təzahür | üzə çıxma, özünü göstərmə |
| iradə | 1) istək, arzu; 2) cəhd, inad |
| tənzim etmək | nizama salmaq, qaydaya salmaq |
| mənimsəmək | 1) öyrənmək; 2) sahiblənmək |
| xassə | keyfiyyət, xüsusiyyət |
| təşəkkül etmək | formalaşmaq |
| icra etmək | yerinə yetirmək, həyata keçirmək |
| əxlaq | etik normalar |
| göstərici | bir şeyi göstərən |
| cəmləşmək | bir yerə toplanmaq |
| meyil | 1) bir tərəfə əyilmə; 2) istək, arzu, həvəs |
| kommunikativ | ünsiyyət |
| sayəsində | nəticəsində, köməyi ilə |
| mübadilə | dəyişmək |
| mümkün olmaq | həyata keçə bilmək |
| zəmin yaratmaq | şərait yaratmaq, hazırlamaq |
| cəhət | 1) tərəf, yön, səmt; 2) bir şeyin əlaməti; 3) bir şeyin hissəsi |



***Çalışma 2. Altından xətt çəkilmiş sözlərdə hansı ahəng növü var?***

Bilik şüurun mövcudluq formasıdır. Şüur səviyyəsində bilik mənalılıq kəsb edir. *Koqnitiv funksiya* yalnız şüur səviyyəsində dərketmə, bilik əldəetmə funksiyası kimi çıxış edir.

***Çalışma 3. Mətndəki sözlərdə hansı fonetik xüsusiyyət daha çox verilib?***

Şüurun *idarəetmə funksiyası* onun iradi səciyyə daşıması ilə xarakterizə olunur, yəni fərdin davranışı onun iradəsinin təzahürüdür. Hər bir fərd öz davranış və rəftarını tənzim edir, ictimai həyat normalarını, qaydaları mənimsəyir. Bunların əsasında şəxsiyyətin müəyyən xassələri təşəkkül edir.

***Çalışma 4. Vurğulu hecaları tapın.***

Şüur *tənzimetmə funksiyasını* icra edir. Şəxsiyyət mövcud əxlaq normalarını dərindən dərk edir, öz davranış və rəftarını qurur. Şüur insanın ətraf aləmə münasibətinin əsas göstəricisi olur.

***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır: -nı$^4$, -sı$^4$, -dı$^4$?***

İnsanın dünyagörüşü, maraq və meyilləri şüurda cəmləşir. *Kommunikativ funksiya* sayə...ndə insanların bilik və təcrübə mübadilə..., bir-birinin davranış və rəftarını tənzim etmə... mümkün olur. Həmin funksiya insanın özünü dərk etmə...nə zəmin yaradır. Bu, şüurun başlıca cəhətlərindən biridir.

***Çalışma 6. Söz birləşmələri düzəldin.***

| | |
|---|---|
| idrak | həyat |
| sadə | aləm |
| diqqət | qavrayış |
| xarici | prosesi |
| şəxsi | obyekti |

***Çalışma 7. Hansı fikir yanlışdır?***

1. Qavrayış prosesi nitq, təfəkkür, iradə və s. ilə üzvi surətdə bağlıdır.
2. Qavrayışın növləri üç qrupa ayrılır.
3. Xatirələr insanın şəxsi həyatı ilə bağlı olur.
4. Hafizə insan fəaliyyətini şərtləndirmir.

***Çalışma 8. Terminləri öyrənin.***

şüur, psixika, koqnitiv funksiya, idarəetmə funksiyası, tənzimetmə funksiyası, kommunikativ funksiya



## §49. Təfəkkür

Təfəkkür varlığın inikasının ali səviyyəsidir. Təfəkkür ali idrak prosesidir, hadisənin gələcək mənzərəsini verə bilir. Psixologiyada təfəkkür dərk edən subyektlə dərk olunan obyekt arasında qarşılıqlı təsir prosesi kimi öyrənilir. Təfəkkürün mənbəyi xarici obyektiv aləmdir. Təfəkkür insanın mühitlə real qarşılıqlı təsiri prosesində əmələ gəlir. Təfəkkür şüurdan qədimdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| inikas | bir yerə dəyib qayıtma |
| mənzərə | 1) ümumi görünüş; 2) təbiət şəkli |
| mənbə | 1) qaynaq; 2) bir şeyin başlandığı yer |
| mühit | şərait |
| qədim | köhnə |
| məfhum | ümumi fikir, anlayış |
| cisim | 1) əşya; 2) bədən |
| əqli | ağıla əsaslanan; zehni |
| istidlal | xüsusi nəticə çıxarma |
| əlamət | nişanə, işarə |
| ibarət | düzəlmiş, tərtib olunmuş |
| mürəkkəb | 1) bir neçə hissədən ibarət olan; 2) çətin |
| fəaliyyət | iş, çalışma |
| nəticə | 1) son; 2) xülasə |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| fərdi | şəxsi, xüsusi |

| | |
|---|---|
| başlıca | ən əsas, ən mühüm |
| dahi | qeyri-adi ağıla malik olan şəxs |
| konkret | tam, dəqiq, aydın |
| gerçək | doğru, düz, həqiqi |
| hökm | əmr, sərəncam, qərar |
| iqrar etmək | təsdiq / qəbul etmək, etiraf etmək |
| inkar etmək | təsdiq / qəbul etməmək, rədd etmək |
| əsasında | bir şeyi əsas götürmək |
| ifadə olunmaq | söylənmək, deyilmək, izah edilmək |
| asılı olmaq | bir şeylə şərtlənmək, əlaqədar olmaq |
| şərt | 1) əsas; 2) tələb, təklif |
| geri qalmamaq | 1) sona qalmamaq; 2) ləngitməmək; 3) inkişafdan qalmamaq |
| təqsim | bölgü, bölüşdürmə |
| qəti | 1) pozulmaz, möhkəm; 2) son; 3) ən güclü |
| idrak | dərk etmə, şüur |
| iştirak etmək | 1) birlikdə fəaliyyət; 2) ortaq olmaq |
| cəhət | 1) tərəf, yön, səmt; 2) bir şeyin əlaməti; 3) bir şeyin hissəsi |
| fikri | fikrə, düşüncəyə aid; əqli |
| əməliyyat | bir-biri ilə əlaqəli işlər |
| təhlil | araşdırma, tədqiq etmə |
| müqayisə | qarşılaşdırma, tutuşdurma |
| ümumiləşdirmə | birləşdirmə; ümumi fikir, ümumi nəticə |
| konkretləşdirmə | konkret hala salmaq, müəyyənləşdirmək |



| | |
|---|---|
| təsnifat | ümumi əlamətlərə görə qruplara ayrılma |

***Çalışma 2. «Heç vaxt», «xüsusi», «sadə» «lazımsız» sözləri mətndəki hansı sözlərlə əks mənalıdır?***

Təfəkkürün üç forması var: məfhum, hökm, əqli nəticə və ya istidlal. *Məfhum* cisim və hadisələrin ümumi və mühüm əlamətlərinin inikasından ibarət formadır. Məfhum həmişə sözlərdə ifadə olunur. Məfhumlar beyinin mürəkkəb fəaliyyətinin nəticəsidir.

***Çalışma 3. Sifətləri seçin və izah edin.***

*Ümumi məfhumlar* müəyyən cisim və hadisələr qrupunun mühüm və ümumi əlamətlərini əks etdirir. Məsələn, şagird, müəllim, bitki, şəhər və s. *Fərdi məfhumlar* ayrı-ayrı cisim və hadisələrin başlıca xüsusiyyətlərini əks etdirir. Məsələn, dahi şair Nizami və s. *Konkret məfhumlar* gerçək cisimlərin mühüm əlamətlərinin inikasıdır. Məsələn, qələm, maşın, kitab və s.

***Çalışma 4. Hansı sözlərin tərkibində birsaitli heca var?***

*Hökm*, varlığın cisim və hadisələri arasında müəyyən əlaqə və münasibətin olub-olmadığını iqrar və ya inkar etməkdən ibarətdir. Hökm dil materialları əsasında ifadə olunur. Onun əsas ifadə vasitəsi qrammatik cümlədir.

***Çalışma 5. Qapalı sait ahəngi olan sözləri göstərin.***

Ümumi, xüsusi, fərdi hökmlər vardır. «Bütün quşlar uçur» ümumi, «Bəzi quşlar suda üzür» xüsusi, «Bu quş gözəldir» fərdi hökmdür. Hökmlər iqrari və inkari olur.

«Təxəyyül insana məxsusdur» iqrari, «Heyvanlarda şüur yoxdur» inkari hökmdür.

***Çalışma 6. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Hər hansı fikrin həqiqiliyi hökmdəki şərt...dən asılıdırsa, bu, *şərti hökm* adlanır. Məsələn, «Əgər şagird daim çalışarsa, dərs...indən geri qalmaz». *Təqsimi hökm...də* cismin xüsusiyyət...i iqrar və ya inkar edilir. Məsələn, «Şagird ya beşinci, ya ikinci, ya da üçüncü sinifdə oxuyur». *Qəti hökm...də* əlamət şərtsiz iqrar və ya inkar edilir. Məsələn, «Bakı Xəzər dənizinin sahilində yerləşir».

***Çalışma 7. İsimləri tapın və təhlil edin.***

Təfəkkür idrak fəaliyyətində iştirak edir. Bu cəhət *fikri fəaliyyət* adlanır. Fikri fəaliyyət prosesində insan bir sıra əməliyyatlardan istifadə edir. Bunlar *fikri əməliyyatlar*, yaxud *təfəkkür prosesləri* adlanır. Təfəkkür proseslərinə *təhlil, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə* və *təsnifat* daxildir.

***Çalışma 8. Terminləri öyrənin.***

təfəkkür, varlıq, idrak, şüur, məfhum, hökm, əqli nəticə, ümumi məfhum, fərdi məfhum, konkret məfhum, şərti hökm, təqsimi hökm, xüsusi hökm, ümumi hökm, fərdi hökm, qəti hökm, fikri fəaliyyət, fikri əməliyyat, təfəkkür prosesləri, təhlil, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə, təsnifat



## §50. Təfəkkür (davamı)

***Çalışma 1. Açıq sait ahəngli sözləri seçin.***

*Mümkünlük hökmlərində* deyilən əlamət cisimdə ola da bilər, olmaya da. Bu hökmlərin həqiqiliyi təcrübə ilə yoxlanılır. Məsələn, «Bəlkə, bu gün hava tutuldu, yağış yağdı». *Gerçəklik hökmü* cisimlə onun xassəsi arasındakı əlaqəni əks etdirir: «Bu gün hava tutqundur».

***Çalışma 2. «Mühüm», «axırıncı», «uca», «əşya» sözləri mətndəki hansı sözlərlə yaxın mənalıdır?***

*Zərurət hökmü* cisim və hadisələrlə onların əlamətləri arasındakı zəruri əlaqələri əks etdirir. Bu, hökmün ən yüksək formasıdır. Çünki zərurət hökmləri təbiət və cəmiyyət qanunları haqqında elmin son sözünü qeyd edir: «Yer Günəş ətrafında fırlanır».

***Çalışma 3. Mətni diqqətlə oxuyun. Hansı fonetik xüsusiyyətə daha çox rast gəlmək olar?***

Bir çox hallarda hökmün doğru və ya yanlışlığını bilavasitə müşahidə ilə müəyyənləşdirmək mümkün olmur, müəyyən hökmün doğruluğunu əqli əməliyyat vasitəsilə sübut etmək lazım gəlir. Buna *əqli nəticə* və ya *istidlal* deyilir. Əqli nəticənin üç növü var: induksiya, deduksiya, təşbih.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan şəkilçini yazın.***

*İnduksiya* xüsusidən ümumiyə gedən əqli ədir. O, ayrı-ayrı fakt... üzərində aparılan müşahidə... əsasında

ümumi əqli nəticə çıxarmaqdan ibarətdir. İnduksiyanın köməyi ilə şagird... fizikanın, kimyanın və s. qanun...nı mənimsəyirlər.

***Çalışma 5. Səhvləri düzəldin.***

*Deduksiya* ümumidən xüsusiyə gedən əqli nəticədi. O, müəyən xüsusi hallar hakqında nəticə çıxarmağdan ibarəttir. Riyazi teoremlər ən çox deduktiv yolla isbat edilir.

***Çalışma 6. Altından xəttçəkilmiş sözləri kök və şəkilçiyə ayırın.***

Təşbih zamanı hadisələr <u>arasındakı</u> qismən oxşarlıq əsasında nəticə <u>çıxarılır</u>. Təşbih xüsusidən xüsusiyə <u>gedən</u> istidlaldır. Lakin təşbihin <u>nəticəsi</u> bəzən doğru, bəzən yanlış olur.

***Çalışma 7. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mümkünlük | mümkün ola bilmə |
| yoxlanılmaq | başqası tərəfindən yoxlanmaq |
| tutulmaq | 1) xəstələnmək; 2) pozulmaq; 3) örtülmək |
| xassə | keyfiyyət, xüsusiyyət |
| əlaqə | qarşılıqlı münasibət, bağlılıq, yaxınlıq, rabitə |
| tutqun | batmış (səs), açıq olmayan, buludlu |
| zərurət | lazım olma, vaciblik |
| zəruri | 1) ən lazımlı, ən vacib; 2) məcburi, mütləq |
| qeyd etmək | 1) qısaca yazmaq; 2) göstərmək, söyləmək |



| | |
|---|---|
| bilavasitə | vasitəsiz, birbaşa |
| yanlışlıq | səhv etmə, yanlış söz və ya hərəkət |
| müşahidə | diqqətlə baxma, baxaraq öyrənmə |
| müəyyənləşdirmək | müəyyən etmək, təyin etmək, aydınlaşdırmaq |
| mümkün olmamaq | həyata keçə bilməmək |
| müəyyən | 1) qəti təyin edilmiş, lazımi; 2) aydın, dəqiq, qəti; 3) bir qədər |
| doğruluq | düzgünlük, gerçəklik |
| sübut etmək | bir faktı təsdiq etdirmək |
| lazım gəlmək | vacib olmaq, zəruri olmaq, məcburi olmaq |
| təşbeh | bənzər, oxşar, bənzəmə, oxşama |
| müşahidə aparmaq | diqqət yetirib öyrənmək |
| nəticə | 1) son, yekun; 2) xülasə |
| nəticə çıxarmaq | bir fikrə, qərara gəlmək |
| fakt | 1) olmuş hadisə, nümunə; 2) gerçəklik, reallıq, həqiqət |
| isbat edilmək | sübut edilmək |
| riyazi | riyaziyyata aid |
| teorem | riyazi müddəa (fikir, tezis) |
| qismən | bir qədər |

***Çalışma 8. Terminləri öyrənin.***

mümkünlük hökmü, gerçəklik hökmü, zərurət hökmü, əqli nəticə, istidlal, induksiya, deduksiya, təşbih

## § 51. Təfəkkürün növləri

Təfəkkür, cisim və hadisələrin mahiyyətinin insan şüurunda ümumiləşmiş inikasından ibarətdir. Duyğular və qavrayış təfəkkürün mənbəyidir. Təfəkkür sayəsində insan gerçəkliyi daha dəqiq dərk edir. Təfəkkür prosesində bütün beyin qabığı iştirak edir. Təfəkkür məqsədəyönəlmiş idrak prosesidir. Adam fikirləşərkən müəyyən məqsədlə düşünür.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mahiyyət | daxili məzmun, məna, əsas |
| ümumiləşmiş | birləşmiş, ümumi olmuş |
| duyğu | hiss |
| mənbə | 1) qaynaq; 2) bir şeyin başlandığı yer |
| sayəsində | nəticəsində, köməyi ilə |
| dərk etmək | anlamaq, başa düşmək |
| beyin qabığı | beyinin üstündəki örtü |
| məqsəd | niyyət, arzu |
| məqsədəyönəlmiş | müəyyən məqsədi olan, məqsədəuyğun |
| idrak prosesi | dərk etmə prosesi |
| əyani | açıq, inandırıcı |
| əməli | lazım olan, praktik |
| əlaqədar olmaq | bağlı olmaq, əlaqəsi olmaq |
| bağlı olmaq | 1) bağlanmaq; 2) örtülmək; 3) əlaqəli olmaq |



| | |
|---|---|
| üstün olmaq | daha yüksək səviyyədə olmaq |
| həyata keçirilmək | yerinə yetirilmək |
| obrazlı | ifadəli, aydın |
| material | 1) cisim, maddə; 2) məlumat |
| istinad etmək | bir şeyi kömək hesab etmək |
| əsaslanmaq | istinad etmək, əsas götürmək |
| məktəbəqədər | uşağın məktəbə getməyə qədərki dövrü |
| mücərrəd | konkret olmayan |
| dəyər | qiymət, əhəmiyyət |
| ədalət | düzgünlük, insaf |
| xoşbəxtlik | böyük sevinc, səadət |
| kəmiyyət | miqdar, say |
| keyfiyyət | fərqli xüsusiyyət, əlamət |
| həll etmək | 1) qərara gəlmək, nəticəyə gəlmək; 2) yerinə yetirmək |
| məsələ | həll olunması lazımlı iş |
| alət | texniki vasitə, cihaz |
| cihaz | alət |
| bədii | gözəl, qəşəng, estetik |
| texniki | texnikaya aid |
| yönəlmək | 1) istiqamətlənmək, yanına getmək; 2) çevrilmək |
| nail olmaq | əldə etmək, çatmaq |
| imkan yaratmaq | şərait yaratmaq, yol vermək |
| məntiqi | 1) məntiq qanunlarına uyğun; 2) zəruri, qanunauyğun |
| obyektiv gerçəklik | mövcud olan hər şey |

| | |
|---|---|
| qanunauyğun | qanunla düz gələn, qanuna tabe olan |
| inikas etdirilmə | göstərilmə |
| ardıcıllıq | məntiqlilik |
| əsaslılıq | ciddilik, inandırıcılıq |
| daim | həmişə, hər vaxt |
| inkişaf | artma, yüksəlmə |
| dialektik | dialektikaya aid olan |
| nəzəri | nəzəriyyə ilə əlaqədar |
| aşkar etmək | üzə çıxarmaq |
| yaradıcı | bir şeyi yaradan |

***Çalışma 2. Bir səsdən ibarət hecaları tapın.***

*Əyani-əməli təfəkkür* bilavasitə təsir edən cisim və hadisələrin dərk edilməsi ilə əlaqədardır, əşyalar üzərində praktik fəaliyyətlə bağlıdır. Təfəkkürün bu növü 3 yaşına qədər uşaqlarda üstün olur. Əyani-əməli təfəkkür hərəkətlərin köməyi ilə həyata keçirilir.

***Çalışma 3. Felləri kök və şəkilçiyə ayırın.***

*Əyani-obrazlı təfəkkür* prosesində fikri fəaliyyət obrazlı materiala istinad edir. Bu növ məktəbəqədər yaşlı uşaqlarda özünü göstərir. Uşaq təfəkkürü qavrayışa əsaslanır.

***Çalışma 4. Cümlələri tamamlayın.***

| | |
|---|---|
| *Mücərrəd təfəkkür* zamanı fikri fəaliyyət ümumi və mücərrəd məfhumlara ... . Dəyər, ədalət, xoşbəxtlik, kəmiyyət, keyfiyyət və s. haqqında fikirləşmək mücərrəd ... . Bunun sayəsində fikri məsələləri həll etmək ... . | mümkündür, istinad edir, təfəkkürdür |



***Çalışma 5. Səhvləri düzəldin.***

Əməli məsələlərin həlli ilə əlaqədar olan təfəkkür *əməli* və ya *praktik təfəkkür* adlanır. Model, alət və cihazdar düzəltməy, onnardan istifadə etməy əməli təfəkkürlə əlaqədardır. Varlığı obrazdı əks etdirməylə əlaqədar olan təfəkkürə *bədii təfəkkür* deyilir.

***Çalışma 6. –lıq, -lik, -luq, -lük şəkilçisini hansı sözlərdə nöqtələrin yerinə qoymaq olar?***

*Texniki təfəkkür* texniki məsələ...in həllinə yönəlir və bu sahədə yüksək göstəricilərə nail olmağa imkan yaradır. *Məntiqi təfəkkür* obyektiv gerçək...in qanunauyğun əlaqə...inin düzgün inikas etdirilməsi ilə əlaqədardır. Bu təfəkkür hökm...in ardıcıl...ı, əsaslı...ı ilə bağlıdır.

***Çalışma 7. Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğun olmayan sözləri seçin və izah edin.***

Təbiət və ictimai həyat hadisələrini daim inkişafda, dəyişmə prosesində əks etdirən təfəkkür *dialektik təfəkkür* adlanır. *Nəzəri təfəkkür* cisimlərin, hadisələrin əsas xüsusiyyətlərini, qanunauyğunluqlarını aşkar edir. *Yaradıcı təfəkkür* sayəsində idrak fəaliyyəti prosesində yeni məhsul, yeni cəhətlər yaradılır.

***Çalışma 8. Terminləri öyrənin.***

əyani-əməli təfəkkür, əyani-obrazlı təfəkkür, qavrayış, mücərrəd təfəkkür, əməli təfəkkür, bədii təfəkkür, texniki təfəkkür, məntiqi təfəkkür, dialektik təfəkkür, nəzəri təfəkkür, yaradıcı təfəkkür

## §52. Təfəkkür və nitq

Təfəkkürün inkişafına nitq ünsiyyəti ciddi təsir göstərir. Normal adamın təfəkkürü nitqlə üzvi surətdə əlaqədardır. Biz sözlərin köməyi ilə fikirləşirik, təfəkkür nitq vasitəsilə həyata keçirilir. Nitq vasitəsilə insanlar öz fikirlərini bir-birinə çatdırır, hisslərini, arzu və istəklərini, cismə, hadisəyə münasibətini bildirir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| nitq | danışma |
| ünsiyyət | qarşılıqlı münasibət, əlaqə, yaxınlıq |
| təsir göstərmək | təsiri olmaq |
| üzvi | 1) canlı, orqanik; 2) tamın hissəsi; 3) daxili |
| çatdırmaq | 1) bildirmək, yetişdirmək; 2) gecikməmək |
| funksiya | vəzifə, fəaliyyət |
| fərqləndirmək | seçmək |
| vəziyyət | hal, şərait |
| kateqoriya | 1) ən ümumi və mühüm xassələri göstərən məfhum; 2) dərəcə |
| təzahür etmək | üzə çıxmaq, özünü göstərmək |
| davranış | hərəkət, rəftar |
| vəzifə | 1) iş; 2) mövqe |
| təhrik etmək | bir iş etməyə həvəsləndirmək |
| ünsiyyət saxlamaq | bir-biri ilə yaxın olmaq |
| fikir mübadiləsi | qarşılıqlı söhbət |
| təhlil etmək | araşdırmaq |



| | |
|---|---|
| tələffüz etmək | sözü düzgün və ya yanlış demək |
| qəbul etmək | 1) verilən bir şeyi almaq; 2) razı olmaq; 3) gələni qarşılamaq |
| təmin etmək | lazım olan şeyləri vermək |
| anlaşılma | başa düşülmə, məlum olma |
| pozulmaq | 1) silinmək; 2) kefi pisləşmək; 3) bir-birinə qarışmaq |
| qabiliyyət | istedad, bacarıq |
| zədələnmək | əzilmək, yaralanmaq |

***Çalışma 2. Hal şəkilçilərini göstərin.***

Nitqin funksiyaları müxtəlifdir. Onun birinci funksiyası əşyaları, hərəkəti, vəziyyəti və s. adlandırmaqdır. Bu, nitqin *siqnifikativ* və ya *semantik (məna) funksiyasıdır*. Həmin funksiya insan nitqini heyvanların ünsiyyətindən fərqləndirir.

***Çalışma 3. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun və cümlələri tamamlayın.***

... ikinci funksiyası *ümumiləşdirmədir*. ... söz ümumiləşdirir. ... cisimlər kateqoriyasına aid əlamət və xassələri əks etdirir. ... ağac, meşə, tələbə, insan və s.

müəyyən
məsələn
nitqin
hər bir

***Çalışma 4. Qapalı sait ahəngi olan sözləri seçin.***

Nitqin üçüncü funksiyası *kommunikativ funksiyasıdır*. Bu, nitq davranışı kimi təzahür edir. Həmin funksiyanın vəzifələri bunlardır: 1) məlumat vermək; 2) fəaliyyətə, işə təhrik etmək. Nitqin köməyi ilə ünsiyyət saxlayırıq, fikir mübadiləsi edirik.

***Çalışma 5. Altından xətt çəkilmiş sözləri təhlil edin.***

Nitqi qəbul etmək üçün səsləri fərqləndirmək lazımdır. Bu nitqin qavranılmasıdır. Sözləri məna cəhətdən təhlil etmək də zəruridir. Bu nitqin anlaşılmasıdır. Nitqi anlamaq üçün sözləri qavramaq lazımdır.

***Çalışma 6. II növ söz birləşmələrini tapın və izah edin.***

Sözlər «siqnallar siqnalıdır». Onlar insana üç əsas formada təsir edir: görülən, eşidilən, tələffüz edilən. Biz bir-birimizlə danışarkən, eşidilən (şifahi nitq), görülən (yazılı nitq) nitq siqnallarını qəbul edir, ağız aparatı vasitəsilə sözləri tələffüz edirik. Bu halda beyin qabığında üç nitq mərkəzi fəaliyyətə başlayır: eşitmə, görmə və nitqin hərəkət mərkəzi.

***Çalışma 7. Mətni diqqətlə oxuyun. Nöqtələrin yerinə uyğun gələn zaman şəkilçisini yazın.***

*Eşitmə mərkəzi* (Vernike mərkəzi) qavranılan sözlərin anlaşılmasını təmin ed... . Onun fəaliyyəti pozularsa, insan sözləri fərqləndirmək, tanımaq qabiliyyətini iti... . Nitqin *hərəki mərkəzi* (Broka mərkəzi) sözlərin tələffüzünü təmin ed... . O zədələndikdə insan heç bir sözü tələffüz edə bil..., amma sözlərin mənasını başa düş... . *Görmə mərkəzi* yazılı nitqin, oxunun anlaşılmasını təmin ed... . Bu mərkəz pozulduqda insan oxumaq qabiliyyətini itir.., lakin görmə qabiliyyəti qal... .

***Çalışma 8. 7-ci tapşırıqda felin hansı formaları işlənib?***



***Çalışma 9. Terminləri öyrənin.***

siqnifikativ funksiya, ümumiləşdirmə funksiyası, kommunikativ funksiya, nitq mərkəzi, eşitmə mərkəzi, hərəki mərkəz, görmə mərkəzi

## § 53.Nitqin növləri

Nitq ünsiyyəti dil qanunlarına uyğun həyata keçirilir. **Nitq** – insanların dil vasitəsilə həyata keçirilən ünsiyyət prosesidir. **Dil** insanlar arasında ünsiyyət vasitəsidir. Dil nitqdən genişdir. Çünki dil bir xalqa məxsusdur, nitq bir fərdə aiddir. Dil ictimai-tarixi təcrübənin saxlanması və verilməsi vasitəsi, kommunikasiya vasitəsi, intellektual fəaliyyətin silahıdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| proses | hadisənin, işin gedişi, işlərin məcmusu |
| məxsus | yalnız birinə aid olan, xas olan |
| fərd | adam, şəxsiyyət |
| vasitə | üsul, yol |
| silah | 1) hücum aləti; 2) vasitə, üsul |
| şərait | şərtlər, vəziyyət, mühit |
| dialoq | iki şəxsin söhbəti |
| monoloq | bir adamın nitqi |
| şifahi | dil ilə |
| xarici | xaricə aid, başqa ölkədən gəlmiş |
| daxili | içəriyə aid olan |
| qiymətləndirmək | qiymət vermək, fikir söyləmək |
| ardıcıl | 1) arası kəsilmədən, bir-birinin ardınca; 2) məntiqli |
| şərh etmək | izah etmək, anlatmaq |
| fasiləsiz | fasilə olmadan |



| | |
|---|---|
| əlaqəli | əlaqəsi olan, bir-biri ilə bağlı |
| məzmunluluq | mənalılıq, ciddilik |
| ifadəlilik | aydın ifadə etmə |
| anlaşıqlı | aydın, başa düşülən |
| qrafik | 1) xətlərlə təsvir; 2) qrafikaya aid |
| kod | şərti işarələr |
| durğu işarələri | yazıdakı qrafik işarələr |
| auditoriya | 1) mühazirə, iclas otağı; 2) mühazirə dinləyənlər |
| nəzərdə tutulmaq | haqqında düşünülmək |
| səssiz | səs çıxarmayan, sakit, yavaş |
| ifadə | 1) anlatma; 2) söz birləşməsi; 3) məlumat |
| passiv | fəal olmayan |
| çatdırılmaq | 1) yetişdirilmək, məlumat verilmək; 2) gecikdirilməmək |
| cisim | maddə, əşya |
| məlumat | bilik, xəbər |
| hərtərəfli | ətraflı |
| təsirlilik | təsir gücü |
| şərt | amillər |
| səmimilik | səmimi münasibət |
| inandırıcı | inandıran |

***Çalışma 2. Felin təsriflənməyən formalarını tapın və izah edin.***

Ünsiyyətin şəraitinə görə nitqin iki növü var: xarici və daxili nitq. *Xarici nitq* eşidilən, görünən və tələffüz edilən nitqdir. Xarici nitqin mühüm növü olan *şifahi nitq*

tələffüz edilən, eşidilərək qavranılan, başa düşülən nitqdir. Şifahi nitq zamanı adamlar bir-birini görür, eşidirlər.

***Çalışma 3. Qoşasaitli və qoşasamitli sözləri tapın, tələffüzünə diqqət edin.***

Şifahi nitqin dialoji və monoloji formaları var. *Dialoji nitq* iki və ya bir neçə şəxsin ünsiyyət prosesidir. *Dialoq* zamanı şəxslər bir-birini qavrayır, emosional vəziyyətlərini qiymətləndirirlər. Dialoq müəyyən şərait və ya obyektlə bağlı olur.

***Çalışma 4. Zərfləri seçin.***

*Monoloji nitq* bir adamın öz fikirlərini ardıcıl şərh etməsidir. *Monoloq* fasiləsiz, əlaqəli, ardıcıl və məntiqi olur. Monoloji nitqdə məzmunluluq və ifadəlilik birləşməlidir. Bu nitq hamı üçün aydın və anlaşıqlı olmalıdır.

***Çalışma 5. Altından xətt çəkilmiş şəkilçiləri təyin edin.***

*Yazılı nitqdə* qrafik koddan, durğu işarələrindən, qəbul edilmiş yazı formasından istifadə edilir. Yazılı nitq daha geniş auditoriya üçün nəzərdə tutulur. Burada sözlər, ifadələr xüsusi seçilməli, yerində işlədilməlidir.

***Çalışma 6. Cingiltili samit ahəngi olan sözləri seçin.***

*Daxili nitq* insanın öz-özünə fikirləşməsi, özü ilə danışması prosesidir. Bu, tələffüz edilməyən, səssiz nitqdir. Daxili nitq çox qısa, bəzən ayrı-ayrı ifadələrdən ibarət olur. O, xarici nitq əsasında əmələ gəlir.



***Çalışma 7. Felləri seçin və təhlil edin.***

1. *Passiv nitq* başqasının nitqini dinləmək və ya yazdığını oxumaq prosesidir. 2. *Fəal nitq* zamanı fikir başqalarına yazılı və ya şifahi yolla çatdırılır. 3. Nitqdə cisim və hadisə haqqında verilən məlumat hərtərəfli olduqda belə nitqə *məzmunlu nitq* deyilir. 4. Nitqin anlaşıqlı olması üçün adam aydın və məntiqli danışmalı, sözləri bir mənada işlətməlidir. 5. Nitqin təsirliliyinin şərtləri danışanın səmimiliyi, nitqin aydın və inandırıcı olmasıdır.

***Çalışma 8. Terminləri öyrənin.***

nitq, dil, xarici nitq, daxili nitq, şifahi nitq, dialoji nitq, monoloji nitq, monoloq, dialoq, yazılı nitq, passiv nitq, fəal nitq, məzmunlu nitq

## §54. Təxəyyül

Keçmiş qavrayış materialları əsasında yeni surətlərin yaradılmasından ibarət psixi prosesə **təxəyyül** deyilir. Təxəyyül də xarici aləmin inikasıdır. Təxəyyül prosesində insan xarici aləmdə bilavasitə olmayan yeni surətlər yaradır, bu surətin əlamət və ünsürlərini həyatdan götürür.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| material | 1) cisim, maddə; 2) məlumat |
| surət | 1) görünüş, şəkil, üz; 2) üsul, qayda, tərz; 3) xarakter; 4) portret, təsvir |
| aləm | kainat, dünya, yer üzü |
| ünsür | 1) hissə; 2) element |
| həyata keçirmək | yerinə yetirmək |
| mümkün olmamaq | həyata keçə bilməmək |
| niyyətli | məqsədli, arzu ilə |
| niyyətsiz | məqsədsiz |
| əsrarəngiz | sirli, anlaşılmaz |
| həzz almaq | ləzzət almaq, xoşlanmaq |
| xəyal | fikir, təxəyyül, düşüncə |
| arzu edilən | istənilən |
| gələcək | indi yox, sonra |
| bərpaedici | əvvəlki hala salan, bərpa edən |
| təsvir | 1) şəkil; 2) danışma |
| çertyoj | qrafik təsvir; cizgi |
| sxem | plan, sadə çertyoj |



| | |
|---|---|
| not | qrafik işarə |
| xəritə | Yer səthinin təsviri |
| canlandırmaq | 1) can vermək, ayıltmaq; şənləndirmək; 2) təsəvvür yaratmaq; 3) gücləndirmək |
| müstəqil | 1) sərbəst; 2) ayrıca, xüsusi |
| xarakterizə etmək | fərqli xüsusiyyətləri müəyyənləşdirmək |
| sənətkarlıq | ustalıq, böyük bacarıq |
| yer tutmaq | 1) rol oynamaq, mövqe tutmaq, əhəmiyyətli olmaq; 2) çox sahə tutmaq |
| proqnoz | qabaqcadan söylənilən fikir |
| layihə | plan |
| əksini tapmaq | göstərilmək, ifadə edilmək |
| imkan vermək | yol vermək, şərait yaratmaq |
| vəhdətdə olmaq | birlikdə olmaq |
| məsələ | həll edilməsi lazım olan iş |
| başlıca | ən əsas, ən mühüm |
| üslub | üsul, tərz |
| inkişaf | artma, yüksəlmə |
| səviyyə | yüksəlmə dərəcəsi |
| ahəng | uyğunluq |
| məna | sözün, cümlənin ifadə etdiyi anlayış |

***Çalışma 2. Əks mənalı sözləri seçin, izah edin.***

İnsan bəzən elə şeylər fikirləşir ki, onları həyata keçirmək mümkün olmur. Belə təxəyyülə *passiv təxəyyül* deyilir. Passiv təxəyyül niyyətli və niyyətsiz olur. *Xülya* niyyətli passiv təxəyyüldür. Xülya zamanı insan əsrarəngiz

surətlər yaradır, bu prosesdən həzz alır. Xülya xəyal deyil. *Xəyal* arzu edilən gələcəyin surətlərini yaratmaqdır.

***Çalışma 3. Yiyəlik halda olan sözləri tapın.***

*Aktiv təxəyyülün* növləri bərpaedici və yaradıcı təxəyyüldür. Obyektin təsvir, çertyoj, sxem, not, xəritə və s. əsasında yaradılan surətinə *bərpaedici təxəyyül* deyilir. Bərpaedici təxəyyül prosesində insan qavradığı təsviri gözü qarşısında canlandırır.

***Çalışma 4. Hansı cümlələrdə şəkilçilər yeni mənalı söz düzəldib?***

*Yaradıcı təxəyyül* yeni surətlərin müstəqil yaradılmasıdır. O, insanı yaradıcı şəxsiyyət kimi xarakterizə edir. Yaradıcı təxəyyül surətlərində insanın şəxsiyyəti, sənətkarlığı və s. əks olunur.

***Çalışma 5. Verilmiş cümlələrdə hansı hal şəkilçisi daha çox işlənib?***

Hər hansı bir surətin yaradılmasında müxtəlif psixi proseslər (qavrayış, hafizə, təfəkkür, təxəyyül, nitq, hisslər və s.) iştirak edir. Lakin onların içərisində təxəyyül xüsusi yer tutur. Bədii yaradıcılıq sahəsində təxəyyül surətləri ədəbiyyat və incəsənət əsərlərində, elmi-texniki yaradıcılıqda isə müxtəlif proqnozlarda, layihələrdə, planlarda və s.-də əksini tapır.

***Çalışma 6. Nöqtələrin yerinə uyğun gələn sözləri qoyun.***

1. Təfəkkür … görmək imkanı verir. 2. Təfəkkür … vəhdətdədir. 3. Məsələ həlli təfəkkürün … funksiyasıdır.



4. Nitq üslubu … ümumi mədəni inkişaf səviyyəsindən asılıdır. 5. Ahəng danışığa müxtəlif … verə bilir.

**Sözlər:** *başlıca, məna, gələcəyi, insanın, nitqlə*

***Çalışma 7. Suallara cavab verin.***

1. Təxəyyül nədir? 2. Passiv təxəyyül neçə yerə bölünür? 3. Xülya və xəyalın fərqi nədir? 4. Aktiv təxəyyülün hansı növləri var? 5. Bədii yaradıcılıqda təxəyyülün rolu nədir?

***Çalışma 8. Terminləri öyrənin.***

təxəyyül, passiv təxəyyül, xülya, xəyal, aktiv təxəyyül, bərpaedici təxəyyül, yaradıcı təxəyyül

## § 55. İdrak və motivləşmə

İdrak insan fəaliyyətinin ən mürəkkəb növüdür. **İdrak** psixi inikas prosesi olub, fərdin ontogenetik inkişafında təcrübə və bilik qazanmasını təmin edir. O, xarici aləmi əks etdirir. İdrak fəaliyyətdir. Ona aid olan cəhətlər bunlardır: fəaliyyətin motivi, məqsədi, tənzimedilmə xüsusiyyətləri, fəaliyyətin icra edilməsinin vasitələri və s.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| idrak | dərk etmə, bilmə, şüur |
| mürəkkəb | 1) bir neçə hissədən ibarət olan; 2) çətin |
| inikas | əks olunma |
| ontogenetik | ayrıca bir varlığın inkişafına aid olan |
| təmin etmək | 1) lazım olan şeyləri vermək; 2) lazımi şərait yaratmaq |
| xarici aləm | ətraf mühit |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| cəhət | 1) tərəf, yön; 2) bir şeyin tərkib hissəsi, elementi |
| tənzimedilmə | nizama salınma |
| icra edilmək | yerinə yetirilmək, həyata keçirilmək, əməl edilmək |
| daim | həmişə |
| tərkib | hissələrin, şeylərin, ünsürlərin məcmusu |



| | |
|---|---|
| iradi | iradəyə aid, iradə ilə bağlı olan; ixtiyari |
| emosional | emosiya ifadə edən, emosiya ilə dolu olan, həyəcanlı |
| formalaşmaq | əmələ gəlmək, düzəlmək |
| motiv | mövzunun əsas ünsürü |
| amil | səbəb, vasitə, faktor |
| təhrikedici | həvəsləndirici |
| həqiqət | bir şeyin əsli, düzlük |
| axtarış | axtarma işi |
| ödəyən | 1) qaytaran, verən; 2) təmin edən |
| törətmək | əmələ gətirmək, yaratmaq, meydana gətirmək |
| zəmin | mühit, vəziyyət, şərait, imkan |
| aclıq | yemək ehtiyacı |
| doğurmaq | meydana gətirmək, səbəb olmaq, törətmək |
| tələbat | tələb olunan şeylər |
| şərtlənən | bir şərtə bağlanan |
| səciyyə daşıyan | səciyyəvi xüsusiyyətlərlə fərqlənən |
| fəallaşdıran | fəal edən, canlandıran |
| istiqamətləndirən | istiqamət verən, yol göstərən |
| nəzərdə tutulmaq | haqqında düşünülmək |
| yönəliş | istiqamətlənmə |
| ideal | 1) ən yüksək məqsəd; 2) bir şeyin ən gözəl nümunəsi |
| maraq | həvəs, meyil, arzu |
| həvəs | bir şeylə məşğul olma arzusu, meyil, |

| | |
|---|---|
| | istək |
| ilkin | ilk olaraq, birinci dəfə, birinci, ilk |
| davranış | davranma tərzi, hərəkət, rəftar |
| açar | açmaq və bağlamaq aləti |
| zidd | başqasına əks olan |
| mənfi | inkar bildirən, müsbət olmayan, pis |
| təsir göstərmək | təsiri olmaq |

***Çalışma 2. Tapşırıqda hansı növ söz birləşmələri verilib?***

İdrak təfəkkürün obyektə daim yaxınlaşmasıdır. İdrakın tərkibinə *idrak prosesləri, emosional-iradi proseslər* daxildir. Onların qarşılıqlı əlaqəsi ilə *idrak motivləri* formalaşır. Emosiyalar və hisslər idrakın təhrikedici amilidir. İnsan emosiyası olmadan həqiqət axtarışı mümkün deyil.

***Çalışma 3. Feli sifət şəkilçilərini göstərin.***

Tələbatı ödəyən obyektlərin seçilməsi, onların dərk olunması tələbatların törətdiyi fəallıqdır. Bu, motivləşmənin zəminidir. *Sensor aclıq* idrak obyektinə tələbat doğurur. İdrak tələbatı idrak fəaliyyəti üçün təhrikedici amildir. İdrak passiv proses deyil, sosial cəhətdən şərtlənən və şəxsi səciyyə daşıyan fəal prosesdir.

***Çalışma 4. İsimləri tapın və təhlil edin.***

*Motivləşmə* dedikdə, orqanizmi fəallaşdıran və həmin fəallığı istiqamətləndirən təhriklər nəzərdə tutulur. Motivləşmə anlayışı psixologiya elminin bütün sahələrində istifadə olunur. Tələbatlar və maraqlar, həvəs və emosiyalar, yönəliş və ideallar motiv ola bilər.



***Çalışma 5. Nöqtələrin yerinə «motiv» və «motivləşmə» sözlərini düzgün formada yazın.***

... ilkin forması real əşyalardır. Həmin əşyalar insanın ən sadə maddi tələbatını ödəyir. Sonradan ideal əşyalar, cisimlər ... ola bilir. İnsanın davranışını başa düşmək üçün ... bir açardır. Eyni fəaliyyətin bir-birinə zidd bir neçə ... olduqda ... fəaliyyətə mənfi təsir göstərir.

***Çalışma 6. Mətni və tapşırıqları diqqətlə oxuyun və suallara cavab verin.***

1. İdrak nədir? 2. İdrakın cəhətlərini göstərin. 3. Motiv və motivləşmə nədir? 4. Tələbat anlayışını izah edin.

***Çalışma 7. «Ödəmək» və «formalaşmaq» fellərini gələcək zamanda şəxslərə görə dəyişin.***

***Çalışma 8. Terminləri öyrənin.***

idrak, psixi inikas, fərd, ontogenetik inkişaf, motiv, məqsəd, təfəkkür, obyekt, idrak prosesləri, emosional-iradi proseslər, idrak motivləri, emosiya, hiss, tələbat, motivləşmə, sensor aclıq, təhrik, həvəs, maraq, yönəliş, ideal

## § 56. Fəaliyyət

Fəaliyyət insanın sosial fəallıq formasıdır. O, sosial kateqoriyadır. Hərəkət, iş, məqsəd, motiv və s. fəaliyyətin tərkib hissələridir. Fəaliyyət insanın dərk olunmuş məqsədlə tənzim olunan daxili (psixi) və xarici (fiziki) fəallığıdır. Fəaliyyət həmişə müəyyən məqsədlə bağlıdır. O, şüurlu səciyyə daşıyır, yəni insan öz fəaliyyətinin məqsədini dərk edir. Fəaliyyət zamanı psixi proseslərin təkmilləşməsi baş verir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| fəallıq | çalışqanlıq, fəaliyyət, aktivlik |
| kateqoriya | ümumi və mühüm xüsusiyyətləri göstərən məfhum |
| tərkib hissə | ünsür, element |
| məqsəd | niyyət, arzu |
| dərk olunmuş | başa düşülmüş, qavranılmış |
| tənzim olunan | nizamlanan, qaydaya salınan |
| şüurlu | şüuru olan, düşüncəli |
| səciyyə daşımaq | səciyyəvi xüsusiyyətlərlə fərqlənmək |
| təkmilləşmə | daha yaxşı olma, mükəmməlləşmə |
| baş vermək | əmələ gəlmək, meydana gəlmək, ortaya çıxmaq, olmaq, başlamaq |
| nəticə | son, xülasə |
| mexanizm | 1) bir şeyin daxili quruluşu; 2) hadisə və proseslərin məcmusu |



| | |
|---|---|
| emosiya | həyəcan, təəssürat |
| əhvali-ruhiyyə | ruhi hal, ruhi vəziyyət |
| müsbət | bəyənilən, yaxşı |
| təsir etmək | təsirli olmaq |
| həvəslə | ürəkdən, məmnuniyyətlə |
| yerinə yetirmək | icra etmək, həyata keçirmək |
| mane olmaq | qarşısını almaq |
| şərait | şərtlər, vəziyyət |
| vahid | bir, tək, yeganə, ümumi |
| ixtiyari | öz arzusu ilə olan, məcburi olmayan, iradi |
| niyyətli | məqsədli |
| vasitəli | vasitəsi olan, vasitə ilə olan |
| bələdləşmə | tanış olma, öyrənmə |
| icra | bir işin, qərarın yerinə yetirilməsi |
| nəzarət | fikir vermə, diqqət yetirmə |
| arzu olunan | istənilən |
| surət | 1) zahiri görünüş, şəkil, üz; 2) üsul, qayda, tərz; 3) tip, xarakter |
| layihələşdirmə | 1) layihə hazırlama; 2) təxmin etmə |
| tələb | bir şeyi istəmə, inadlı xahiş |
| seçilmək | fərqlənmək, nəzərə çarpmaq, görünmək |
| çevrilmək | başqa hala salınmaq, döndərilmək, dönmək |
| əlavə | əsas şeyin üstünə artırılan |
| qəbul edilmək | 1) alınmaq, götürülmək; 2) daxil |

| | |
|---|---|
| | edilmək; 3) qarşılanmaq; 4) təsdiq edilmək |
| konkretləşmə | müəyyənləşmək, aydınlaşmaq |
| səy | çalışma, cəhd |
| səfərbər edilmə | 1) hərbi vəziyyətə keçirmə; 2) hazır vəziyyətə gətirmə |
| müəyyənləşdirilmə | müəyyən olunma, aydınlaşdırılma, dəqiqləşdirilmə |
| dəyər | 1) qiymət; 2) əhəmiyyət |
| istehsal olunmaq | hazırlanmaq |
| zəruri | 1) ən lazımlı, ən vacib; 3) məcburi, mütləq |
| ehtiyac | tələbat, gərəklik |
| sayəsində | nəticəsində, köməyi ilə |
| fikri | düşüncəyə aid olan |
| yaradıcı | bir şeyi yaradan |
| təşkil etmək | 1) düzəltmək, təsis etmək, yaratmaq; 2) qaydaya salmaq; 3) ibarət olmaq |
| təlim | 1) öyrənmə, dərs vermə, tədris; 2) nəzəri sistem |

***Çalışma 2. Altından xətt çəkilmiş sözlərə sual verin və onları izah edin.***

*Emosiyalar* həm fəaliyyətin nəticəsi, həm də onun hərəkət «mexanizmi»dir. İnsanın yaxşı əhvali-ruhiyyəsi onun fəaliyyətinə müsbət təsir edir. Pis əhvali-ruhiyyə isə insanın bir işi həvəslə yerinə yetirməsinə mane olur.



*Fəaliyyətin emosional tənzimi* fəaliyyət üçün əlverişli emosional şəraitin yaradılması ilə bağlıdır.

***Çalışma 3. Açıq sait ahəngi olan sözləri tapın.***

İş fəaliyyətin vahididir. İş və ya *əməl* dedikdə, şüurlu və ya dərk edilmiş məqsədə çatmaq üçün insanın ixtiyari, iradi, niyyətli və vasitəli fəallığı nəzərdə tutulur. İş prosesində insan təbiətə, əşyalara, başqa adamlara təsir göstərir. *Bələdləşmə, icra və nəzarət* işin hissələridir.

***Çalışma 4. Nöqtələrin yerinə sonluqları yazın.***

*Məqsəd* psixi hadisə..., fəaliyyətin nəticəsinin arzu olunan surəti... . *Məqsədgüdmə* məqsədin yaranması prosesinin nəticəsi... . Məqsədgüdmə prosesini planlaşdırma prosesi kimi anlamaq vacib... . Fəaliyyətin hər tərkib hissəsi – işin, əməlin nəticəsi, əməliyyatlar, motivlər layihələşdirmə obyekti ola bilər.

***Çalışma 5. Fellərin məna növünü müəyyən edin.***

Məqsədin bir sıra əmələgəlmə mexanizmləri vardır. Bəzən məqsəd kənardan alınır, qəbul edilir və fərdi məqsədə çevrilir. Bəzən isə bir neçə tələbdən biri seçilir, motiv dərk edilərkən məqsədə çevrilir. Əməlin, işin ayrı-ayrı əlavə nəticələri də məqsədə çevrilə bilər.

***Çalışma 6. Mənsubiyyət şəkilçilərini tapın.***

Məqsədgüdmə artıq beyində hazır olan nəticəyə çatmaqla bağlıdır. Məqsədgüdmə həm məqsədin (obyektin) konkretləşməsi, aydın dərk edilməsi, həm də ona çatmaq yollarının müəyyənləşdirilməsi, iradi səyin səfərbər edilməsidir. O, fəaliyyətin sonrakı gedişinə təsir göstərir.

***Çalışma 7. Cingiltili samit ahəngi olan sözləri seçin.***

Fəaliyyətin üç növü var: oyun, təlim və əmək fəaliyyəti. *Əmək fəaliyyəti* zamanı ictimai dəyərə malik məhsul istehsal olunur. İnsanın ən zəruri ehtiyacları əmək fəaliyyəti sayəsində təmin edilir. Əmək fəaliyyəti praktik, fikri və yaradıcı fəaliyyət növlərinin əsasını təşkil edir.

***Çalışma 8. Hansı fonetik xüsusiyyətə mətndə daha çox rast gəlinir?***

Fəaliyyət ictimai, kollektiv səciyyə daşıyır. Fəaliyyət kollektivdə və kollektiv üçün həyata keçirilir. Əmək fəaliyyəti əmək alətləri hazırlamaq, ondan istifadə etmək, onları mühafizə etmək və təkmilləşdirməklə əlaqədardır. *Əşyavi fəaliyyətin* məzmununa işin məqsədi, iş görülən obyektin xassəsi və iş şəraiti daxildir.

***Çalışma 9. Terminləri öyrənin.***

fəaliyyət, psixi fəallıq, fiziki fəallıq, kateqoriya, məqsəd, motiv, əməl, emosiya, məqsədgüdmə, oyun, təlim, əmək fəaliyyəti, praktik fəaliyyət, fikri fəaliyyət, yaradıcı fəaliyyət, əşyavi fəaliyyət



## §57. İnsanın cins-yaş xüsusiyyətləri

Cinsin formalaşması müxtəlif bioloji və sosial amillərlə şərtlənən mürəkkəb prosesdir. Uşağın cinsi inkişafı onun ümumi inkişafının mühüm bir cəhətini təşkil edir, əslində oğlan və ya qızın doğulduğu gündən başlayaraq fasiləsiz davam edir. Cinsi xüsusiyyətlər uşaqların həm yaş xüsusiyyətləri, həm də fərdi xüsusiyyətləri isə vəhdətdə formalaşır. Hər yaş dövründə cinsi xüsusiyyətlər özünəməxsus olur. Eyni bir cinsi xüsusiyyət müxtəlif uşaqlarda müxtəlif çalarlarla təzahür edir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| cins | 1) kişi və qadını fərqləndirən əlamət; 2) soy, nəsil, mənşə; 3) növ |
| əslində | 1) həqiqətdə; 2) başlanğıcda |
| fasiləsiz | fasilə olmadan |
| davam etmək | 1) dözmək; 2) fəaliyyətdə olmaq, işi dayandırmamaq |
| dövr | 1) fırlanma; 2) zamanın bir hissəsi, vaxt, mərhələ |
| inkişaf | artma, yüksəlmə, yüksəliş |
| məktəbəqədər | məktəbə qədər olan dövr |
| neytral | nə o, nə bu |
| yetişmə | böyümə |
| sürətlənmək | daha sürətli olmaq, tezləşmək |
| müddət | vaxt, zaman |
| ərzində | içərisində, müddətində |

| | |
|---|---|
| yetkin | yetişmiş, təcrübəli |
| yetkinləşmək | daha yetkin olmaq |
| orqanizm | canlı insan və ya heyvan bədəni |
| yeniyetmə | çox gənc |
| təsadüf etmək | 1) görmək, rastlaşmaq; 2) baş vermək, olmaq |
| erkən | 1) səhər tezdən; 2) vaxtından əvvəl, tez |
| mərhələ | dövr |
| əhatə etmək | dövrələmək, dörd tərəfini tutmaq |
| yetişkənlik | yetişmiş |
| ətraf mühit | ictimai şərait, ətrafdakı şərait |
| rol | 1) artistin göstərdiyi surət; 2) əhəmiyyət |
| xarakter daşımaq | səciyyələnmək, özünəməxsus xüsusiyyətlərlə fərqlənmək |
| səciyyəvi olmaq | fərqli olmaq, bir şeyə xas olmaq |
| təzahür etmək | üzə çıxmaq, özünü göstərmək |
| vəhdət | 1) birlik, bütövlük; 2) ümumilik; 3) təklik |
| özünəməxsus | özünə aid, spesifik |
| çalar | 1) rəng müxtəlifliyi; 2) fərq |

***Çalışma 2. Altından xətt çəkilmiş sözləri hallandırın.***

Oğlan və qızların cinsi inkişafı prosesini iki əsas dövrə bölmək olar. Birinci dövr yeni doğulmuş uşaq yaşından başlayaraq *məktəbəqədər* *yaş* *dövrünü* əhatə edir. Bu dövr uşaqlıq və ya *infantilizm*, yaxud *neytral uşaqlıq dövrü* də adlanır.



***Çalışma 3. Nöqtələrin yerinə zaman şəkilçisini yazın.***

İkinci dövrdə cinsi yetişmə sürətlən... . Qısa müddət ərzində uşaq orqanizmi yetkinləş... . Həmin dövr *cinsi yetişmə dövrü* adlan... . Cinsi yetişmə yeniyetmə yaşına təsadüf ed... . Yeniyetmə yaşı 10-11 yaşından 14-15 yaşına qədər, erkən gənclik 15 yaşından 18 yaşına qədərdir.

***Çalışma 4. Nöqtələrin yerinə lazım olan say şəkilçilərini yazın.***

İki... dövr daxilində üç mərhələ var. Bir... mərhələ 11 – 13 yaşları (IV –VI siniflər), iki... mərhələ 14 –15 yaşları (VII – VIII siniflər), üç... mərhələ isə 16 –18 yaşları (IX – XI siniflər) əhatə edir. Cinsi yetişkənlik orqanizmin ətraf mühitlə qarşılıqlı təsiri prosesində baş verir. Cinsi yetişmə prosesində uşağın həyat şəraitinin, xüsusilə onun sosial inkişaf şəraitinin rolu böyükdür.

***Çalışma 5. 4-cü tapşırıqdakı sözlə verilmiş sayları rəqəmlə, rəqəmlə verilmiş sayları sözlə yazın.***

***Çalışma 6. Altından xətt çəkilmiş sözləri izah edin.***

*Cinsi dimorfizm* – cinslər arasında morfoloji, fizioloji və psixoloji şərtlərin formalaşmasıdır. Bu prosesdə oğlan və qızlarda cinsi xüsusiyyətlər əmələ gəlir. Cinsi xüsusiyyətlər dixotomik xarakter daşıyır: onlar ya oğlanlar, ya da qızlar üçün səciyyəvi olur. Cinsi xüsusiyyətlər uşaqların yaş xüsusiyyətləri ilə vəhdətdə təzahür edir.

***Çalışma 7. Aşağıdakı sözlərə cümlə qurun.***

şəxsiyyət, cəmiyyət, fəaliyyət, hiss, inkişaf

***Çalışma 8. Suallara cavab verin.***

1. Cinsi inkişaf nədir? 2. İnfantilizm dövrü hansı dövrdür? 3. Cinsi yetişmə dövrü nəyə deyilir? 4. Cinsi dimorfizm nə deməkdir?

***Çalışma 9. Terminləri öyrənin.***

cins, cinsi inkişaf, məktəbəqədər yaş dövrü, infantilizm, neytral uşaqlıq dövrü, cinsi yetişmə, cinsi yetişkənlik, cinsi dimorfizm



## § 58. Cinsi tərbiyə

Hər bir xalqın oğlan və ya qız tərbiyəsi ilə bağlı özünəməxsus adət-ənənəsi olmuşdur. Bu adət və ənənələrin əsas funksiyalarından biri uşaq və yeniyetmələrin cinsi tərbiyəsi idi. Cinsi tərbiyənin tarixi çox qədimdir. O, ayrıca bir tərbiyə nəzəriyyəsi sahəsi kimi sonralar formalaşmış, XIX əsrin sonu, XX əsrin əvvəllərindən sürətlə inkişaf etməyə başlamışdır. Müasir dövrdə də uşaq və yeniyetmələrin cinsi tərbiyəsi çox aktualdır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| tərbiyə | 1) böyütmə; 2) gözəl əxlaq |
| özünəməxsus | özünə aid, spesifik |
| adət-ənənə | qayda, dəb, üsul, norma |
| nəzəriyyə | ideyalar sistemi, elmi sistem, təcrübi biliyin əksi |
| formalaşmaq | düzəlmək, əmələ gəlmək |
| sürətlə | tez, cəld, iti |
| mənəvi | insanın daxili ilə bağlı olan, maddi olmayan |
| əqli | ağılla olan, zehni |
| qarşılıqlı | hər iki tərəfə aid olan |
| münasibət | 1) uyğunluq; 2) qarşılıqlı əlaqə, yaxınlıq |
| əxlaq | mənəviyyət, etik normalar |
| əsasında | bir şeyin mənbəyi olmaq |
| nikah | kəbin, qanunla evlənmə |

| | |
|---|---|
| urbanizasiya | şəhər əhalisinin çoxalması prosesi |
| akselerasiya | fərdlərin böyümə və yetişməsinin kəskin tezləşməsi |
| diqqəti cəlb etmək | maraqlandırmaq |
| nəsil | 1) qohumlar, soy; 2) eyni vaxtda yaşayan adamlar |
| getdikcə | 1) irəli hərəkət etdikcə; 2) uzandıqca; 3) tədricən, yavaş-yavaş, zaman keçdikcə |
| rol oynamaq | əhəmiyyətli olmaq |

***Çalışma 2. İsmi xəbərləri tapın, necə düzəldiyini izah edin.***

Cinsi tərbiyə məsələləri həm uşaqların mənəvi tərbiyəsi, həm də əmək, estetik, əqli və fiziki tərbiyəsi ilə bağlıdır. *Cinsi tərbiyə* – ağıllı və gözəl qarşılıqlı münasibətlərin tərbiyə edilməsidir. Onun əsas məqsədi cinslərarası münasibətlərin əxlaq normaları əsasında inkişaf etdirilməsidir.

***Çalışma 3. Mətndən söz birləşmələrini seçin və növünü müəyyən edin.***

Uşaqların cinsi inkişafı onların psixi inkişafının mühüm sahələrindən biridir. Cinsi xüsusiyyətlər həm ümumi psixologiyanın, həm də pedaqoji psixologiyanın, sosial, etnik, əmək, məhkəmə, incəsənət, yaş psixologiyasının aktual problemidir. Uşaqların cinsi tərbiyəsində ailə mühüm rol oynayır.



***Çalışma 4. Nöqtələrin yerinə hansı kateqoriyaların şəkilçiləri yazılmalıdır?***

Cinsi tərbiyənin vəzifə...i bun...dır: oğlan... və qız... ara...da mənəvi qarşılıqlı münasibət...in formalaşma..., hiss..., mədəniyyət...nin tərbiyə olunma..., cinsin bioloji və sosial problem...i, qız...da qadınlıq, oğlan...da kişilik keyfiyyət...inin inkişaf etdirilmə..., oğlan və qız...ın nikaha, sağlam və xoşbəxt ailə həyat...na hazırlanma... və s.

***Çalışma 5. Aşağıdakı cümlələrdə hansı sözlər termindir?***

1. Müxtəlif sosial-demoqrafik proseslər, urbanizasiya, akselerasiya və s. ilə əlaqədar olaraq cinsi tərbiyə məsələləri diqqəti daha çox cəlb edir. 2. Şəxsiyyət psixologiyası cinsi tərbiyə nəzəriyyəsinin əsasını təşkil etməlidir. 3. Müasir dövrdə gənc nəslin mənəvi tərbiyəsinin əhəmiyyəti getdikcə artır. 4. Ailə-nikah münasibətlərində psixoloji amillər mühüm rol oynayır.

***Çalışma 6. Sözləri bir-birinə uyğunlaşdırın.***

şəxsi, psixologiya, funksiya, psixi, hissi, həyat, şifahi, idrak, ümumi, proses, koqnitiv, nitq

***Çalışma 7. Suallara cavab verin.***

1. Cinsi tərbiyə nədir? 2. Cinsi tərbiyənin vəzifələri nədən ibarətdir? 3. Cinsi tərbiyədə ailənin rolunu izah edin.

***Çalışma 8. Terminləri öyrənin.***

cinsi tərbiyə, cinsi inkişaf, cinsi xüsusiyyət, urbanizasiya, akselerasiya

## § 59. Qabiliyyətlər

Qabiliyyətlər şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətidir. İnsanlar öz qabiliyyətlərinə görə bir-birindən fərqlənir. Qabiliyyətlər müəyyən fəaliyyətin müvəffəqiyyətli icrasının şərtidir. Ayrı-ayrı qabiliyyətlər eyni bir fəaliyyətin tərkibində bir-biri ilə üzvi surətdə və qarşılıqlı əlaqədə mövcud olur. Qabiliyyətlər yalnız insanın həyat və fəaliyyəti şəraitində inkişaf edə bilər.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| fərdi | şəxsi, xüsusi |
| müvəffəqiyyətli | yaxşı, müsbət nəticə verən |
| şərt | 1) lazım olan amillər, əsas; 2) tələb və ya təklif |
| mövcud olmaq | var olmaq |
| yalnız | ancaq, təkcə |
| ehtiyat | 1) saxlanmış şey; 2) tədbirli davranma |
| ifadəli | yaxşı və aydın ifadə edən |
| assosiasiya | 1) ayrı-ayrı təsəvvürlər arasındakı əlaqə; 2) birlik |
| həssaslıq | həssas şeyin və ya adamın xüsusiyyəti |
| didaktik | tərbiyə məqsədli, nəsihətverici |
| təsviri | təsvir olunan, təsvir etməyə kömək edən |
| anadangəlmə | lap doğulandan xas olan |
| imkan | 1) mümkün olma; 2) əlverişli şərait |



| | |
|---|---|
| xassə | keyfiyyət, xüsusiyyət |
| müvafiq | uyğun, yaraşan, münasib |
| konkret | tam, dəqiq, aydın, qəti, real |
| təşəkkül etmək | formalaşmaq |
| məzmun | mövzu, məna |
| səviyyə | yüksəlmə dərəcəsi |
| asılı olmaq | əlaqədar olmaq, şərtlənmək |

***Çalışma 2. Altından xətt çəkilmiş sözlərdə hansı ahəng növü var?***

Hər bir fəaliyyət daxilində iki növ qabiliyyət olur: ümumi qabiliyyətlər, xüsusi qabiliyyətlər. Fəaliyyət sahələri müxtəlifdir, hər birinin öz xüsusiyyətləri vardır. Lakin hamısı üçün ümumi cəhətlər də mövcuddur. Ümumi qabiliyyətlər belə əmələ gəlir və inkişaf edir.

***Çalışma 3. Tərkibində açıq heca olan sözləri tapın.***

*Ümumi qabiliyyətlər* dedikdə, bir sıra fəaliyyət sahələrində iştirak edən, onların müvəffəqiyyətli icrası üçün şərt olan qabiliyyətlər nəzərdə tutulur. Ümumi qabiliyyətlər psixi proseslər, ali psixi proseslər əsasında formalaşır.

***Çalışma 4. I növ söz birləşmələrini seçin.***

*Xüsusi qabiliyyətlər* yalnız müəyyən fəaliyyət növünün uğurlu icrası üçün şərt olan qabiliyyətlərdir. Ədəbi yaradıcılıq üçün lüğət ehtiyatı və ifadəli dil, söz assosiasiyalarının zənginliyi, texniki yaradıcılıq üçün rəngləri fərqləndirmə həssaslığı, təsviri fəaliyyət, məkan qavrayışı, pedaqoji fəaliyyət üçün didaktik qabiliyyətlər və s. xüsusi qabiliyyətlərdir.

***Çalışma 5. Hansı sözlər səhv yazılıb?***

İnsannarın anadangəlmə təbiyi imkannarı eyni deyildir. *Təbiyi imkannar* dedikdə, anatomik-fiziyoloji xüsusiyətdər nəzərdə tutulur. *Anatomik xususiyyatlərə* beyinin mikrostrukturu, bədənin konstitusiyası, gözün, qulağın, səs tellərinin, əl və ayağların və s. quruluşu ayiddir. Ali sinir faliyətinin xüsusiyətdəri isə *fiziyoloji xüsusiyətdərdir*.

***Çalışma 6. Altından xətt çəkilmiş şəkilçilər hansı kateqoriyaya aiddir?***

«Təbii imkanlar» anlayışına orqanizmin psixofizioloji xassələri də daxildir. *Psixofizioloji xassə* dedikdə, uşaqda, bəzən də yaşlılarda incə rəng fərqləndirmə həssaslığı, görmə hafizəsi, musiqi eşitmə həssaslığı və s. Kimi xassələr başa düşülür.

***Çalışma 7. Nöqtələrin yerinə hansı hal şəkilçisi yazılmalıdır?***

Qabiliyyətlər müvafiq konkret fəaliyyətdən kənarda təşəkkül edə bilməz. Qabiliyyətlərin təbii imkanlar əsasında təşəkkülü və inkişafı fəaliyyətin motivlərin..., məzmunun..., xüsusiyyətlərin... və inkişaf səviyyəsin... asılıdır. Təbii imkanların qabiliyyətə çevrilib-çevrilməməsi fəaliyyət... asılıdır.

***Çalışma 8. 7-ci tapşırıqda hansı fonetik xüsusiyyətə rast gəldiniz?***

***Çalışma 9. Suallara cavab verin.***

1. Qabiliyyət nədir? 2. O, necə formalaşır? 3. Ümumi qabiliyyət nə deməkdir? 3. Xüsusi qabiliyyətlərə nə daxildir? 4. Anatomik-fizioloji xüsusiyyətləri izah edin. 5. Psixofizioloji xassə dedikdə nə başa düşülür?

***Çalışma 10. Terminləri öyrənin.***

qabiliyyət, ümumi qabiliyyət, xüsusi qabiliyyət, təbii imkanlar, psixofizioloji xassə

## §60. Qabiliyyətlərin ölçülməsi

Qabiliyyətlər keyfiyyət və kəmiyyət baxımından bir-birindən fərqlənir. **Qabiliyyətlərin ölçülməsi dedikdə**, onların kəmiyyət cəhətdən xarakterizə olunması nəzərdə tutulur. Psixologiya tarixində ölçmə ideyası ilk dəfə hələ XVII əsrin 30-cu illərində irəli sürülmüşdür. «Psixometriya» (yunanca psuxhe – ruh, metreo – ölçü) termini də məhz həmin illərdə əmələ gəlmişdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| keyfiyyət | fərqli xüsusiyyət, əlamət |
| kəmiyyət | miqdar |
| xarakterizə olunma | səciyyələndirilmək, fərqli xüsusiyyətlərin müəyyən edilməsi |
| irəli sürülmək | təklif edilmək |
| nailiyyət | yaxşı nəticə, müvəffəqiyyət |
| yer tutmaq | 1) rol oynamaq, əhəmiyyəti olmaq; 2) çox sahə tutmaq |
| sınaq | imtahan |
| birlik | 1) bir olma, bütövlük, vəhdət; 2) ittifaq; 3) sıx əlaqə |
| vəhdət | 1) birlik, bütövlük; 2) ümumilik, eynilik; 3) təklik |
| nəzərdə tutulmaq | fikirdə tutulmaq, haqqında düşünülmək |
| cəhət | 1) tərəf, yön, səmt; 2) bir şeyin tərkib hissəsi, elementi; 3) əlamət |



| | |
|---|---|
| göstərici | bir şeyi göstərən |
| adət etdiyi | alışdığı, öyrəşdiyi |
| əməliyyat aparmaq | bir iş etmək |
| mücərrəd | konkret olmayan, abstrakt |
| uyğunlaşmaq | bir şeyə uyuşmaq, öyrəşmək |
| əqli | ağılla olan, zehni |
| xronoloji | ardıcıl, tarixi |
| uyğun gəlməmə | düz gəlməmək, uyğun olmamaq |
| hesab edilmək | sayılmaq, bilinmək |
| nisbət | bağlılıq, münasibət, mənsubiyyət, oxşarlıq, uyğunluq |
| əmsal | 1) oxşarlar; 2) tay-bərabər; 3) cismin xüsusiyyətini göstərən kəmiyyət |
| düstur | 1) qanun, qayda, əsas; 2) şərti işarə, formul |
| hesablanmaq | sayılıb yekunlaşdırılmaq |

***Çalışma 2. Sonluqları yazın.***

İstedad qabiliyyətlərin özünəməxsus birliyi…. *Ümumi istedad* dedikdə, ümumi qabiliyyətlər və ya qabiliyyətlər üçün ümumi olan cəhətlərin vəhdəti nəzərdə tutulmalı…. Hər bir adam üçün ümumi amil – ümumi istedad amili səciyyəvi….

***Çalışma 3. Hansı sözlər «istedad» sözünün mənası ola bilər: 1) insanın adət etdiyi şey; 2) bir şeyi etmək bacarığı; 3) davranış.***

İngilis psixoloqu Spirmen ümumi istedad amilini G amili adlandırırdı. G ingiliscə «general» (ümumi deməkdir) sözünün baş hərfidir. G amil ümumi istedadın

göstəricisidir. Həmin amil bütün fəaliyyət sahələri üçün ümumidir.

***Çalışma 4. Vurğulu hecaları seçin.***

«İntellekt» (intellectus) latın sözüdür: müxtəlif dillərdə «anlama, dərketmə, başa düşmə», «dərrakə, ağıl» mənalarında işlənir. *İntellekt* mücərrəd simvollarla əməliyyat aparmaq, mühüm əlaqələri başa düşmək, yeni situasiyaya uyğunlaşmaq qabiliyyəti və s. kimi xarakterizə olunur.

***Çalışma 5. Nöqtələrin yerinə bu sözləri qoyun: «müxtəlif», «həmin», «üçün», «başqa», «uşaqları», «yeni»***

1904-cü ildə Fransada əqli cəhətdən geri qalan ... müəyyən etmək ... komissiya yaradılmışdı. Alfred Bine bu problemi öyrənirdi. A.Bine T.Simon adlı ... fransız psixoloqu ilə birlikdə ... yaşlı uşaqların diqqətini, hafizəsini, təfəkkürünü və s. öyrənməyə başladı. Bu eksperimentlər əsasında ... testlər yaradıldı. Psixologiyada ... testlər *Bine-Simon testləri* adlanır.

***Çalışma 6. Altından xətt çəkilmiş sözlərdə hansı fonetik xüsusiyyətlər var?***

Testologiyada *xronoloji yaş* – CA (ingiliscə – Chronological Age) və *ağıl yaşı* – MA (ingiliscə – Mental Age) anlayışlarından istifadə olunur. Onların bir-birinə uyğun gəlməməsi ya əqli geriliyin (MA SA-dan aşağı olanda), ya da istedadın (MA SA-dan yüksək olanda) göstəricisi hesab edilir. 1912-ci ildə V.Ştern onların nisbətini *intellekt əmsalı* (ingiliscə – intellect, intelligence



quotient) adlandırmışdır. İntellekt əmsalı – LQ bu düsturla hesablanır:

$$LQ = \frac{MA}{CA}\ 100$$

***Çalışma 7. Ahəng qanununa tabe olan alınma sözləri tapın.***

Psixodiaqnostikada müxtəlif növ testlərdən istifadə olunur. Onların içərisində intellekt testləri, qabiliyyət və ya kreativlik (latınca creatio – yaradılan, yaratmaq deməkdir) testləri, nailiyyət testləri və s. xüsusi yer tutur. İlk dəfə «test» terminini ingilis alimi Halton işlətmişdir (ingiliscə test – «sınaq» deməkdir).

***Çalışma 8. Suallara cavab verin.***

1. «Qabiliyyətlərin ölçülməsi» nə deməkdir və bu ideya nə vaxt yaranıb? 2. Bu anlayış hansı terminlə ifadə edilir? 3. İstedad nədir? 4. «İntellekt» sözünün mənalarını izah edin. 5. Alfred-Bine testləri necə yaranıb? 6. İntellekt əmsalı necə hesablanır? 7. Testlərin hansı növləri var?

***Çalışma 9. Terminləri öyrənin.***

psixometriya, psixodiaqnostika, test, ümumi istedad, istedad amili, intellekt, xronoloji yaş, ağıl yaşı, intellekt əmsalı

## §61. Qabiliyyətlərin formalaşması

Qabiliyyətlər uşaq və yeniyetmələrin psixi həyatının mühüm cəhətlərindən biridir. Qabiliyyətlər kiçik yaşlarda formalaşmağa başlayır. Qabiliyyətlərin formalaşması prosesini düzgün təhlil etmək üçün yaş xüsusiyyətlərini ətraflı öyrənmək lazımdır. Hər yaş dövrünün səciyyəsi xüsusiyyətləri qabiliyyətlərin formalaşmasına mühüm təsir göstərir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| yeniyetmə | çox gənc oğlan və ya qız |
| formalaşma | bir şəklə, formaya düşmək |
| təhlil etmək | araşdırmaq, tədqiq etmək |
| ətraflı | hərtərəfli, geniş |
| səciyyəvi | bir şeyi və ya şəxsi başqasından fərqləndirən |
| təsir göstərmək | 1) təsiri olmaq; 2) müəyyən bir şeyin özünü göstərməsi |
| istiqamət | bir şeyin hərəkət xətti |
| inkişaf etmək | irəliləmək, artmaq, yüksəlmək, genişlənmək, böyümək, qüvvətlənmək |
| öz-özlüyündə | ayrılıqda, ayrılıqda götürüldükdə |
| təsir | müəyyən bir şeyin özünü göstərməsi |
| əlverişli | 1) uyğun; 2) faydalı |
| şərait | lazım olan şərtlər, vəziyyət, mühit |
| həmyaşıd | başqası ilə bir yaşda olan |
| ötüb keçən | keçib gedən, gəlib keçən |
| qəribə | eşidilməmiş, görünməmiş, qeyri-adi, çox maraqlı |
| görkəmli | 1) seçilən, yaxşı; 2) məşhur, tanınmış; 3) mühüm; 4)hamının gördüyü; 5) maraqlı, baxmalı |
| yazıçı | bədii əsərlər yazan |
| bəstəkar | musiqi əsərləri yazan |
| alim | 1) mütəxəssis; 2) elmli, bilikli, çox oxumuş |
| vahid | 1) tək, yeganə; 2) ümumi, birləşmiş; 3) qəbul edilmiş kəmiyyət, ölçü |



***Çalışma 2. Şəkilçilərin iki və ya dörd cür yazıldığını müəyyən edin.***

Müxtəlif yaş dövrlərində ümumi və xüsusi qabiliyyətlər makro və mikro istiqamətlərdə inkişaf edir. *Makroinkişaf* qabiliyyətlərin müəyyən bir yaş dövründə qarşılıqlı əlaqədə inkişafıdır. *Mikroinkişaf* ayrı-ayrı qabiliyyətlərin öz-özlüyündə inkişafı prosesidir.

***Çalışma 3. Nöqtələrin yerinə lazım olan şəkilçiləri yazın.***

*Senzitiv* (latınca sensus – hiss, duyğu deməkdir) *dövr* uşağ... ontogenetik ink işafı... mühüm mərhələsidir. Bu zaman inkişaf edən uşaq ətraf mühit... müəyyən təsirlərinə həssas olur. Psixika... inkişafı üçün əlverişli şərait yaranır. Məsələn, 3 – 5 yaş dil öyrənmək üçün senzitiv dövr hesab olunur.

***Çalışma 4. İsmi xəbərləri tapın və necə düzəldiyini izah edin.***

Öz həmyaşıdlarını xeyli ötüb keçən uşaqlar *vunderkind* uşaqlardır. Almanca vunder – qəribə, kind – uşaq deməkdir. Onlar yüksək əqli qabiliyyətlərə malikdir. Mədəniyyət tarixində sonralar görkəmli yazıçı, bəstəkar, alim və s. kimi tanınmış çoxlu vunderkind uşaqlar məlumdur.

***Çalışma 5. Hansı fikir səhvdir?***

1. Tələbatlar və maraqlar, həvəs və emosiyalar, ideallar motiv ola bilər.
2. Emosiya fəaliyyətin vahididir.
3. İngiliscə «test» - «qabiliyyət» deməkdir.
4. Qabiliyyətlərin iki növü var: ümumi və xüsusi qabiliyyətlər.
5. İdrak insan fəaliyyətinin növüdür.

***Çalışma 6. Suallara cavab verin.***

1. Qabiliyyətlər nə zaman formalaşır? 2. Qabiliyyətlərin formalaşmasına nə təsir göstərir? 3. Qabiliyyətlər hansı istiqamətlərdə inkişaf edir? 4. Senzitiv dövrü izah edin. 5. Vunderkind uşaq hansı uşağa deyilir?

***Çalışma 7. Aşağıdakı sözləri cümlədə işlədin.***

adət-ənənə, ağıl, iradə, bilik, xüsusiyyət

***Çalışma 8. Terminləri öyrənin.***

qabiliyyət, senzitiv dövr, makroinkişaf, mikroinkişaf, vunderkind



## §62. Şəxsi konstrukt nəzəriyyəsi

Psixoloji tədqiqatlar göstərir ki, hər bir adamda dünya və insan münasibətləri haqqında özünəməxsus təsəvvür və anlayışlar əmələ gəlir. O, cisim və hadisələri qavrayarkən onları bu baxımdan mənalandırır, şərh edir, yozur və qiymətləndirir. Cisim və hadisələrin belə şərholunma və ya yozulma tərzi psixologiyada **şəxsi konstruktlar** adlanır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| tədqiqat | araşdırma |
| təsəvvür | 1) xəyal, fikir, təxəyyül; 2) bir şey, adam haqqında bilik |
| mənalandırmaq | 1) mənasını açmaq, şərh etmək, məna vermək; 2) qiymətləndirmək, müəyyən etmək, dərk etmək |
| baxım | fikir, təsəvvür, mülahizə |
| şərh etmək | izah etmək, açmaq, anlatmaq |
| yozmaq | özü istədiyi kimi izah etmək, məna vermək |
| qiymətləndirmək | 1) qiymət vermək, dəyərləndirmək; 2) fikir söyləmək |
| tərz | üsul, qayda |
| adlanmaq | adı olmaq |
| çoxmənalı | çox mənası olan |
| reallıq | gerçəklik, həqiqilik, real olma |
| nəzəriyyə | 1) ideyalar sistemi, elmi sistem; |

| | |
|---|---|
| | 2) elmin ümumi əsasları |
| irəli sürmək | təklif etmək |
| nəşr olunmuş | 1) çap olunmuş; 2) yayılmış; 3) elan edilmiş |
| dolayısı ilə | başqa yollarla, başqa vasitə ilə |
| qavramaq | başa düşmək, anlamaq, dərk etmək |
| şəbəkə | 1) tor, hörgü, ornament; 2) bir şeyin məcmusu |
| tamaşaya qoyulan | səhnədə göstərilən |
| məcmu | bütün, tamam, hamı, yekun, cəm |
| ifa etdiyi | yerinə yetirdiyi, göstərdiyi |
| çətinlik | 1) çətin olma; 2) maneə; 3) əziyyət |
| göstərici | bir şeyi göstərən mexanizm, alət, rəqəm və s. |
| daxili aləm | iç dünya |
| nüfuz etmək | təsir etmək, keçmək |
| əhəmiyyət | rol, dəyər |
| sözdəyişdirici | forma dəyişən, məna dəyişməyən |

***Çalışma 2. İsimləşən felləri göstərin. –ma, -mə şəkilçisini izah edin.***

«Konstrukt» termini latınca – «construere» sözündən əmələ gəlmişdir. «Construere» çoxmənalı sözdür. Burada «construere» şərhetmə, yozma, başadüşmə, «konstrukt» isə reallığı şərhetmə vasitəsi və ya reallığın şəxsiyyət tərəfindən yozulması mənasında işlənir.

***Çalışma 3. Mənsubiyyət şəkilçilərini göstərin.***

*Konstrukt nəzəriyyəsini* amerikan psixoloqu C.Kelli XX əsrin 50-ci illərinin birinci yarısında irəli sürmüşdür.



Onun 1955-ci ildə nəşr olunmuş məşhur kitabı da belə adlanır: «Şəxsi konstruktlar psixologiyası». Kellinin fikrincə, insan xarici aləmi dolayısı ilə konstruktlarla qavrayır.

***Çalışma 4. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Kelli şəxsiyyəti öyrənmək üçün yeni metod – *repertuar şəbəkə* metodunu yaratmışdır. *Repertuar* fransız sözü olub, bu mənaları ifadə edir: 1) teatrda tamaşaya qoyulan əsərlər... məcmusu; 2) aktyor... ifa etdiyi rollar..., müğənni... oxuduğu mahnılar... məcmusu. Kelli repertuar sözünü insan... həyatdakı rolları... məcmusu mənasında işlədir.

***Çalışma 5. Hansı sözlərdə sözdəyişdirici şəkilçilər var?***

Şəxsi konstruktları xarakterizə etmək üçün göstəricilər var. Bunlardan biri *koqnitiv çətinlik* adlanır. Həmin göstərici mühüm əhəmiyyətə malikdir. Mürəkkəb konstruktlar sisteminə malik adamlar başqalarının davranışını dəqiq və diferensial qiymətləndirirlər.

***Çalışma 6. «O» və «öz» əvəzliklərini nöqtələrin yerinə düzgün formada yazın.***

Kellinin fikrincə, insana təsir göstərmək üçün ... şəxsi konstruktlarını – dünya haqqındakı fikirlərini öyrənmək lazımdır. Psixologiyanın əsas vəzifələrindən biri şəxsiyyətin daxili aləminə, ... dünya, ... haqqındakı təsəvvürlər sisteminə nüfuz etməkdir. ..., konstrukt nəzəriyyəsinin əhəmiyyətini bununla izah edirdi.

*Çalışma 7. 6-cı tapşırıqda hansı hal şəkilçiləri işlənib?*

*Çalışma 8. Suallara cavab verin.*

1. Şəxsi konstruktlar nəyə deyilir? 2. «Konstrukt» sözünün mənası nədir? 3. Konstrukt nəzəriyyəsinin müəllifi kimdir? 4. Kelli hansı metodu yaradıb? 5. Konstrukt nəzəriyyəsinin əhəmiyyəti nədir?

*Çalışma 9. Terminləri öyrənin.*

şəxsi konstrukt, koqnitiv çətinlik, repertuar şəbəkə metodu



## §63. Temperament

İnsanın dinamik xassələri vardır. **Dinamika** yunan sözüdür. Bir şeyin hərəkət halı, inkişafının, dəyişilməsinin gedişi deməkdir. **Psixi fəaliyyətin** və ya **davranışın dinamik xarakteristikası** dedikdə, onun hərəkət halı üçün səciyyəvi olan xüsusiyyətlər nəzərdə tutulur. Davranışın dinamik xarakteristikasının xüsusiyyətlərini təhlil etmək üçün sürət, temp, ritm, intensivlik, plastiklik, dözümlülük və s. kimi anlayışlardan istifadə olunur. **Temperament** psixi fəaliyyətin dinamik xarakteristikasıdır.

*Çalışma 1. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| davranış | hərəkət, rəftar |
| xarakteristika | səciyyəvi xüsusiyyətlərin təsviri |
| səciyyəvi | bir şəxsə və ya şeyə xas olan |
| sürət | bir hərəkətin tezlik dərəcəsi |
| temp | bir şeyin sürət dərəcəsi |
| ritm | ardıcıllıq, ahəng, vəzn |
| intensivlik | 1) məhsuldarlıq; 2) gərginlik |
| plastiklik | zəriflik, ahəngdarlıq |
| dözümlülük | dözmə qabiliyyəti, möhkəmlik, davamlılıq |
| istifadə olunmaq | işlənmək |
| adət | ənənə, qayda, dəb |
| halət | hal, vəziyyət |
| tələb | xahiş, arzu, istək, təklif |
| şərtlənmək | bir şərtlə bağlanmaq |
| müvəqqəti | keçici |

| | |
|---|---|
| əsas | 1) bünövrə, təməl; 2) başlıca, ən mühüm, zəruri; 3) sübut |
| təlim | 1) öyrətmə, dərs vermə, tədris; 2) əsgəri məşq; 3) nəzəriyyə, nəzəri sistem |
| quruluş | 1) üsul, sistem; 2) bir şeyin düzəliş qaydası, konstruksiya; 3) hissələrin birləşməsi, düzülüşü |
| mütəhərriklik | hərəkət etmə |
| oyanma | 1) yuxudan ayılma, gözlərini açma; 2) canlanma; 3) əmələ gəlmə |
| ləngimə | 1) gecikmə; 2) dayanıb gözləmə; 3) geridə qalma |
| müvazinət | 1) cismin hərəkətsizlik halı; 2) sabitlik; 3) sakitlik; 4) bərabərlik, uyğunluq |
| qüvvə | 1) güc, qüvvət, enerji; 2) gərginlik |
| rabitə | əlaqə, münasibət |
| yüngüllük | 1) çəkisi az olmaq; 2) qeyri-ciddilik; 3) rahatlıq, sevinc |
| ifadə etmək | demək, söyləmək, bildirmək, anlatmaq |

***Çalışma 2. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Psixi fəaliyyətin dinamik xüsusiyyət...i çoxdur. Onlar temperament, fəaliyyətin motiv...i, insanın adət...i, psixi halət...i, situasiyanın tələb...i və s. ilə şərtlənir. Psixi fəaliyyətin dinamikasının dəyişilməsi müvəqqətidir.



***Çalışma 3. Söz birləşmələrini seçin və izah edin.***

Temperamentin *bioloji əsasları* bunlardır: 1) *humoral sistem* – Hippokratın təlimində temperament qan, öd, qara od və seliyin bədəndəki nisbəti ilə əlaqələndirilmişdir; 2) *somatik sistem* – alman psixiatrı E.Kreçmer, Amerika alimləri U.Şeldon və S.Stivens temperamenti insan bədəninin quruluşu ilə izah edirdilər; 3) *sinir sistemi* – İ.P.Pavlov temperamenti ali sinir fəaliyyətinin tipləri ilə izah edirdi.

***Çalışma 4. Hansı sözlər səhv yazılıb?***

İ.P.Pavlov *sinir sisteminin üç xassəsini* müəyən etmişti: 1) oyanma və ləngimənin qüvvəsi; 2) onnarın müvazinət dərəcəsi; 3) oyamma və ləngimənin mütəhərrikliyi. Bu xassələr bir biri ilə qarşılıklı əlaqədədi. Onnar *sinir sistemi tipini* müəyən edir.

***Çalışma 5. Sifətləri tapın və izah edin.***

«Sinir sistemi tipi» terminini İ.P.Pavlov təklif etmişdir. *Temperament tipi* sinir sistemi tipi əsasında formalaşır. Sinir sistemi tipi *fizioloji*, temperament tipi *psixoloji* anlayışdır. İ.P.Pavlov ali sinir fəaliyyətinin dörd tipini müəyyən etmişdir: I tip – zirək, II itp – sakit, III tip – coşğun, IV tip – zəif.

***Çalışma 6. İsimləri tapın və təhlil edin.***

XX əsrin 50-ci illərində psixoloqlar V.M.Teplov və V.D.Nebılitsın sinir sisteminin yeni xassələrini müəyyən etmişlər: dinamiklik və labilik. *Dinamiklik* – beyin qabığında müvəqqəti rabitələrin yaranma surətini və yüngüllüyünü ifadə edir. *Labilik* – oyanma və ləngimə prosesinin

əmələgəlmə və kəsilmə sürətini səciyyələndirir. Qüvvə, dinamiklik, mütəhərriklik və labilik *sinir sisteminin əsas xassələridir*.

***Çalışma 7. Verilmiş fellərdə hansı sözləri işlətmək olar?***

**Fellər:** *etmək, olmaq, gəlmək, tutmaq, tapmaq*

**Sözlər:** *nəzərdə, istifadə, əks, izah, yer, əhəmiyyət, şərh, malik, ifadə, mövqe, əmələ, təşkil, meydan*

***Çalışma 8. Suallara cavab verin.***

1. Dinamika nə deməkdir? 2. Temperament nədir? 3. Temperamentin bioloji əsaslarını izah edin. 4. Sinir sisteminin hansı xassələri var? 5. Sinir sistemi tipi nədir?

***Çalışma 9. Terminləri öyrənin.***

temperament, dinamika, psixi fəaliyyət, davranış, humoral sistem, somatik sistem, sinir sistemi, sinir sistemi tipi, temperament tipi, dinamiklik, labilik



## §64. Temperamentin xassələri

Temperament nəzəriyyəsi qədim tarixə malikdir. Onun mahiyyəti haqqında ilk təlim eramızdan əvvəl V əsrdə əmələ gəlmişdir. Temperament fərdi-psixoloji xüsusiyyətdir. Onu yalnız sinir sisteminin xassələri ilə əlaqəsini ilk dəfə İ.P.Pavlov kəşf etmişdir. Ümumi aktivlik, hərəki aktivlik və emosionallıq temperamentin əsas xassələridir.

***Çalışma 1. Sözləri mənasını öyrənin.***

| | |
|---|---|
| qədim | çox köhnə |
| malik olmaq | sahib olmaq |
| mahiyyət | məna, məzmun, əsas |
| əmələ gəlmək | 1) baş vermək, mümkün olmaq, həyata keçmək; 2) yaxşılışmaq, düzəlmək |
| əlaqə | qarşılıqlı münasibət, sıx münasibət, yaxınlıq, tanışlıq, rabitə, qarşılıqlı asılılıq, asılı olma |
| kəşf etmək | tapmaq, aşkar etmək, açmaq, müəyyən etmək |
| hərəki | hərəkətli |
| emosionallıq | həyəcanlılıq, təsirlilik |
| dərəcə | səviyyə, hədd, vəzifə, mövqe |
| özünü göstərmək | nümayiş etdirmək, təzahür etmək |
| ifadə etmək | demək, söyləmək, bildirmək, anlatmaq |

| | |
|---|---|
| mənimsəmək | 1) öyrənmək; 2) sahiblənmək |
| meyil | 1) bir tərəfə əyilmə; 2) istək, arzu, həvəs |
| təşkil etmək | 1) düzəltmək, yaratmaq; 2) qaydaya salmaq; 3) əmələ gətirmək, ibarət olmaq |
| əzələ | bədənin yığıla bilən orqanı |
| tezlik | 1) tez vaxt, az zaman; 2) itilik, sürət |
| qüvvə | güc, taqət, qüdrət |
| kəskinlik | itilik, kəskin şeyin xassəsi |
| amplituda | yüksəkliklər fərqi |
| xarakterizə etmək | səciyyələndirmək, fərqli xüsusiyyətləri müəyyən etmək |
| vərdiş | iş bacarığı, adət edilmiş şey |
| əksini tapmaq | göstərilmək, ifadə edilmək |
| zəruri | 1) ən lazımlı, ən vacib; 2) məcburi, mütləq |
| tərkib | hissələrin məcmusu |
| sözdüzəldici | yeni söz düzəldən, sözün mənasını dəyişən |
| affekt | ruhi həyəcan |
| əhval | kef, hal, ruhi vəziyyət |
| mütəəssirlik | kədərli olmaq, halı dəyişilmək, əhvalı pozulmaq |
| impulsivlik | tez coşmaq, qeyri-iradilik |
| emosiogen | emosional |
| təhrikedici | təhrik edən, həvəsləndirən |
| reaktivlik | əhvalda kəskin dəyişiklik |



***Çalışma 2. Vurğulu hecaları göstərin.***

*Ümumi aktivlik* müxtəlif temperamentli adamlarda müxtəlif dərəcədə özünü göstərir. Onun mahiyyətini insanın özünü ifadə etmək, xarici aləmi mənimsəmək və dəyişmək meyli təşkil edir. Temp, ritm, sürət, intensivlik, plastiklik, dözümlülük və s. ümumi aktivliyin əsas göstəriciləridir.

***Çalışma 3. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

*Hərəki aktivliyi* əzələ hərəkəti… tezlik, qüvvə, kəskinlik, ritm, amplituda və başqa əlamətləri ilə xarakterizə edirlər. Hərəki aktivlik vərdişlər… dinamik xarakteristikasında öz əksini tapır. Ümumi aktivlik intellekt…, idrak prosesləri…, emosionallıq isə xarakter… zəruri tərkib hissəsidir.

***Çalışma 4. 3-cü tapşırıqdakı sözlərdə [k] səsinin tələffüzünə diqqət edin.***

***Çalışma 5. Mətni diqqətlə oxuyun. Hansı şəkilçilər sözdüzəldicidir?***

İnsanın affekt və əhvalları *emosionallıq xassəsində* öz əksini tapır. Mütəəssirlik, impulsivlik və emosional labillik emosionallığın əsas cəhətləridir. *Mütəəssirlik* insanın emosiogen təsirlərə affektiv həssaslığıdır. *İmpulsivlik* dedikdə, emosiyaların hansı sürətlə insan hərəkətlərinin təhrikedici qüvvəsinə çevrilməsi başa düşülür. *Emosional labillik* bir təəssüratın başqası ilə əvəzolunma sürətidir.

***Çalışma 6. Nöqtələrin yerinə hansı sifəti yazmaq düzgün olar: hündür, yüksək, uca, ali, böyük, nəhəng***

Psixoloji ədəbiyyatda müxtəlif temperament tipləri təsvir olunmuşdur. Sanqvinik temperament tipinə … reak-

tivlik, … fəallıq, … plastiklik, həssaslıq xasdır. Xolerik üçün də … reaktivlik, aktivlik və cəld reaksiya səciyyəvidir. O, səbirsizdir, az plastikdir.

***Çalışma 7. Nöqtələrin yerinə lazım olan sonluqları yazın.***

Fleqmatikdə reaktivlik, plastiklik az…. O, səbirli, təmkinli…, hərəkətləri asta…, mehriban…. Onu güldürmək və ya hirsləndirmək çətin…. Melanxolik asta-asta danış…, hərəkətləri süst və zəif…, özünə inanm…, çox həssas…, küsəyən…, əhvalı tez dəyiş….

***Çalışma 8. Suallara cavab verin.***

1. Temperament nəzəriyyəsi nə vaxt əmələ gəlib? 2. Temperamentin əsas xassələrin hansıdır? 3. Ümumi aktivliyin mahiyyəti nədir? 4. Hərəki aktivlik nə deməkdir? 5. Emosionallığın əsas cəhətlərini sayın. 6. Temperament tiplərinin xüsusiyyətlərini göstərin.

***Çalışma 9. Terminləri öyrənin.***

temperament, ümumi aktivlik, hərəki aktivlik, emosionallıq, vərdiş, affekt, əhval, sanqvinik, xolerik, fleqmatik



## §65. Xarakter

İnsanlar öz xarakterlərinə görə bir-birindən fərqlənir. Bütün dövrlərdə başqa adamı tanımaq, onun xarakterini müəyyən etmək psixoloji məharətin əsas əlamətidir. **Xarakter** insanın başlıca fərdi-psixoloji xüsusiyyətlərindən biridir. Hər insanın şəxsiyyət kimi fərdi xüsusiyyətləri vardır. Xarakter bu xüsusiyyətlərin məcmusudur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| xarakter | 1) xasiyyət; 2) tip, surət, obraz; 3) mahiyyət, keyfiyyət, xüsusiyyət |
| məharət | ustalıq, bacarıq, qabiliyyət |
| məcmu | bütün, tamam, hamı, yekun, cəm |
| xüsusiyyət | fərqli, səciyyəvi cəhət, əlamət, xassə |
| amil | səbəb, vasitə |
| şərtlənmək | bir şərtlə bağlanmaq |
| ünsiyyət | qarşılıqlı münasibət, əlaqə, yaxınlıq |
| fəaliyyət | iş, çalışma, aktivlik |
| dünyagörüşü | həyat, təbiət və cəmiyyət haqqında fikirlər |
| əqidə | 1) insanın həyat haqqında düşüncə və inamı; 2) fikir |
| asılı olmaq | əlaqədar olmaq, bir şeylə şərtlənmək |
| şərtləndirmək | bir şərtlə bağlamaq |
| tərz | üsul, qayda |
| münasibət | qarşılıqlı əlaqə, yaxınlıq, uyğunluq |
| ifadə etmək | demək, söyləmək, bildirmək, |

| | |
|---|---|
| | anlatmaq |
| tipik | 1) müəyyən tipə xas olan; 2) səciyyəvi |
| fərdi | şəxsi |
| qayğıkeşlik | qayğı çəkmə, diqqət göstərmə |
| kobudluq | 1) incəliyini itirmə; 2) tərbiyəsizlik |
| əməksevərlik | əməyi sevmə, çalışqanlıq |
| tənbəllik | tənbəl adamın halı |
| lovğalıq | özünü öymə, təkəbbür |
| səliqəlilik | səliqəli olma, dürüstlük, dəqiqlik |
| tələbkarlıq | ciddilik, çox böyük şeylər tələb etmək |
| bütövlük | tamlıq |
| dərd | qəm, kədər, əziyyət |
| anomaliya | qeyri-adilik |
| istənilən | hər hansı |
| əsəb | sinir |
| hətta | həm də |
| əsaslı | 1) əsası olan, möhkəm; 2) ciddi, inandırıcı; 3) doğru, gerçək; 4) çox mühüm |
| səbəb | bəhanə, əsas |
| meyar | qiymət vermək üçün ölçü, əlamət |
| patoloji | patologiyaya aid, qeyri-normal, xəstə |
| sima | 1) üz, sifət; 2) xarici görünüş; 3) əlamətlərin məcmusu; 4) şəxs |
| nisbi | müqayisə üçün olan |
| bütünlükdə | tam şəkildə, hamısı |
| uyğunlaşmaq | öyrəşmək |



| | |
|---|---|
| çətinləşdirmək | daha da çətin etmək, ağırlaşdırmaq |
| konfliktdə olmaq | mübahisə etmək, münaqişə etmək |
| sabitlik | dəyişməzlik |
| sarsıntı | 1) titrəyiş; 2) həyəcan |
| əkslik | ziddiyyət, uyğunsuzluq, məntiqsizlik |

***Çalışma 2. Səhvləri düzəldin.***

Temperament biyoloji, xarakter sosiyal amillərlə şərtdənir. Xarakter faliyət və ünsiyət prosesində əmələ gəlir. Xarakter şəxsiyətin dünyagörüşü və əlaqəsinnən bilavasitə asılıdı. Xarakter şəxsiyətin tipik davranış tərzini şərtdəndirir.

***Çalışma 3. Altından xətt çəkilmiş sözləri hallandırın.***

Xarakter insanın münasibətlərini ifadə edir. Xarakter əlamətləri iki yerə bölünür: tipik və fərdi. Etnik və milli xarakter əlamətləri makromühitdə formalaşır. Xarakter əlamətləri bunlardır: qayğıkeşlik, kobudluq, əməksevərlik, tənbəllik, lovğalıq, səliqəlilik, tələbkarlıq və s. Xarakter əlamətlərinin qarşılıqlı əlaqədə olması xarakterin bütövlüyüdür.

***Çalışma 4. Sözləri kök və şəkilçiyə ayırın.***

"Psixopatiya" yunanca psixo və pathos (dərd, xəstəlik) sözlərindən ibarətdir. Psixopatiya xarakterin anomaliyasıdır. Psixopatiya halları hər bir şəraitdə istənilən əsəb sarsıntısı nəticəsində, hətta əsaslı səbəb olmadıqda da əmələ gəlir.

***Çalışma 5. Mötərizədəki felləri düzgün formada yazın.***

Rus psixiatrları P.B.Qannuşkin və O.V.Kerbikovun diaqnostik meyarlarına görə psixopatiyanın 3 əsas əlaməti vardır: 1) patoloji xarakter əlamətlərinin ümumiliyi – onlar fərdin psixi simasını bütünlükdə (müəyyən etmək). Psixopatın xarakter tipi istənilən şəraitdə özünü (göstər-

mək); 2) patoloji xarakter əlamətlərinin nisbi sabitliyi – onlarda fərdin bütün həyatı boyu əsaslı dəyişiklik (baş verməmək); 3) patoloji xarakter əlamətləri fərdin ətraf mühitə uyğunlaşmasını (çətinləşdirmək). Belə adamlar öz xarakterlərinə görə başqa adamlarla konfliktdə (olmaq).

***Çalışma 6. Söz birləşmələri düzəldin.***

| | |
|---|---|
| psixoloji | aləm |
| koqnitiv | zonası |
| xarici | müdafiə |
| sosial | funksiya |
| mimika | etalon |

***Çalışma 7. Sözlərin yerini dəyişin, cümlə qurun.***

1. həyatında, əmək, yer tutur, insanın, xüsusi
2. "mübarizəsidir", inkişaf, əksliklərin
3. müxtəlif, insan, sosial, şəxsiyyət, daxil olur, münasibətlərə, kimi
4. və, çox, insanın, rəngarəngdir, hissləri

***Çalışma 8. Suallara cavab verin.***

1. Xarakter nədir? 2. Xarakterin əlamətlərini göstərin və izah edin. 3. "Psixopatiya" anlayışını izah edin. 4. Psixopatiyanın hansı əlamətləri var?

***Çalışma 9. Terminləri öyrənin.***

xarakter, psixopatiya, psixiatr, temperament, dünyagörüşü, əqidə, fərd



## §66. Xarakterin aksentuasiyası

«Aksentuasiya» latınca «vurğu» deməkdir. Biz, adətən, danışanda hər hansı bir fikri nəzərə çarpdırmaq üçün müəyyən bir sözü xüsusi vurğu ilə deyirik. **Xarakterin aksentuasiyası** dedikdə, onun ayrı-ayrı əlamətlərinin həddindən artıq güclənməsi nəticəsində daha kəskin surətdə nəzərə çarpması başa düşülür. Xarakterin aksentuasiyası tipləri psixopatiyanın tiplərinə çox oxşayır, bəzən onlara uyğun gəlir. Lakin onları eyniləşdirmək olmaz.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| nəzərə çarpdırmaq | göstərmək, diqqətə çatdırmaq |
| müəyyən | 1) lazımi; 2) aydın, diqqət, qəti; 3) bir hissə, bir qədər |
| adətən | həmişə olduğu kimi, daim, həmişə |
| hədd | sərhəd, hüdud, son |
| kəskin | 1) iti; 2) güclü, şiddətli; 3) qıcıqlandırıcı; 4) aydın; 5) gərgin, ağır; 6) sərt, amansız; 7) çox həssas; 8) qəti |
| surətdə | halda, şəkildə, formada |
| nəzərə çarpmaq | görünmək. diqqəti cəlb etmək |
| oxşamaq | bənzəmək |
| eyniləşdirmək | bərabər tutmaq, eyni hesab etmək |
| uyğun gəlmək | düz gəlmək, uyğun olmaq |
| pozgunluq | nizamsızlıq, qarışıqlıq |

| | |
|---|---|
| toxunanda | dəyəndə, əl vuranda |
| hadisə | əhvalat, iş, macəra |
| kənar | 1) son xətt, yan tərəf, qıraq; 2) yad, özgə, başqa; 3) ətraf, yan; 4) mərkəzdən uzaq |
| ifrat | son hədd, qəti |
| variant | bir şeyin başqa şəkli, forması |
| təsnif etmək | əlamətlərə görə qruplara, dərəcələrə ayırma |
| keçici | müvəqqəti, ötəri, keçən |
| situativ | situasiya ilə, şəraitlə, vəziyyətlə əlaqədar olan |
| reaksiya | 1) əks təsir; 2) əhvalda kəskin dəyişiklik; 3) qarşılıqlı təsir |
| inkişaf etmək | 1) irəliləmək, artmaq, yüksəlmək, genişlənmək; 2) böyümək, möhkəmlənmək, qüvvətlənmək; 3) kamilləşmək |
| kəsb etmək | 1) çalışıb qazanmaq; 2) əldə etmək, öyrənmək |
| üzə çıxmaq | 1) irəli getmək; 2) aşkar olmaq, müəyyənləşmək, məlum olmaq |
| psixogen | psixoloji |
| səciyyəvi | bir şəxsə, bir şeyə xas olan |
| reaktiv | xüsusi reaksiya əmələ gətirən |
| nevrologiya | sinir sistemi və onun xəstəlikləri haqqında elm |
| nevroz | mərkəzi sinir sistemi xəstəliyi |



| | |
|---|---|
| affekt | ruhi həyəcan |
| situasiya | vəziyyət, şərait |

***Çalışma 2. «Nə zaman?» sualına cavab verən söz və ifadələri tapın.***

Xarakterin aksentuasiyası şəraitində hər bir tipin öz «zəif yeri» vardır. Belə hallarda pozğunluq ancaq müəyyən əsəb sarsıntısı zamanı, yalnız bəzi çətin situasiyalarda, ətrafda baş verən hadisələr həmin adamın «zəif yerinə» toxunanda baş verir. Xarakterin aksentuasiyası xarakter əlamətlərinin kənar (ifrat) variantlarıdır.

***Çalışma 3. Felləri təhlil edin.***

Xarakterin aksentuasiyası problemi ilk dəfə psixiatriyada və psixonevrologiyada öyrənilib. Bunun üçün «şizoid əlamətlər», «epileptoid əlamətlər» və s. kimi psixiatriya terminlərindən istifadə olunmuşdur. Xarakterin aksentuasiyası tiplərini alman psixiatrı K.Leonqard və rus psixiatrı A.Liçko təsnif etmişlər.

***Çalışma 4. Hansı düzdür?***

Xarakterin aksentuasiyasının əsas tip(lar/lər)i yeniyetməlik yaşında formalaşır. Uşağın yaşı artdıqca xarakterin aksentuasiyasında dəyişiklik(lar/lər) baş verir. Onların bəzi(lar/lər)i yaş xüsusiyyətidir, bəzi(lar/lər)i isə keçici ümumi dinamik dəyişiklik(lar/lər)dir. Məsələn, kəskin affektiv reaksiya(lar/lər), situativ patoxarakteroloji reaksiya(lar/lər) və s. Bəzi hal(lar/lər)da nevroz, reaktiv depressiya və s.inkişaf edir.

*Çalışma 5. Mötərizələri açın, felləri düzgün formada yazın.*

Yaş artdıqca bəzən xarakterin ayrı-ayrı əlamətləri gizli forma (kəsb etmək). Lakin bəzi psixogen amillərin təsiri ilə səciyyəvi əlamətlər (üzə çıxa bilmək). Xarakterin aksentuasiyası tipləri də bir çox hallarda (dəyişilmək), bir tipdə yaxın tipin əlamətləri (formalaşmaq).

***Çalışma 6. 5-ci tapşırıqdakı fellərə diqqətlə baxın. Düzgün cavabı tapın: a) məchul fellərdir; b) təsirsiz fellərdir; c) nitq felləridir; d) keçmiş zaman felləridir; e) arzu formasında olan fellərdir.***

***Çalışma 7. «Psixo...» elementi ilə başlayan terminləri yazın.***

***Çalışma 8. Suallara cavab verin.***

1. «Xarakterin aksentuasiyası» nə deməkdir? 2. «Zəif yer» ifadəsini necə başa düşürsünüz? 3. Xarakterin aksentuasiyası tipləri nə vaxt və necə formalaşır?

***Çalışma 9. Terminləri öyrənin.***

aksentuasiya, xarakterin aksentuasiyası, affektiv reaksiya, nevroz, reaktiv depressiya, patoxarakteroloji reaksiya, psixogen, şizoid əlamət, epileptoid əlamət, affekt



## § 67. İradə və iradi iş

İradə insan fəallığının xüsusi formasıdır. İradə mürəkkəb psixi prosesdir. İradə bu hallarda özünü aydın göstərir: 1) aktual olmayan işlər görmək zərurəti olduqda; 2) zahiri və daxili çətinlikləri aradan qaldırdıqda; 3) zahirən eyni mənalı görünən iki motiv və məqsəddən birini seçmək zərurəti olduqda. İnsan müxtəlif çətinlikləri aradan qaldırdıqca, onun iradi keyfiyyətləri möhkəmlənir və xarakter əlamətlərinə çevrilir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| mürəkkəb | 1) bir neçə hissədən ibarət olan; düzəlmiş, 2) çox müxtəlif; 3) çətin |
| aktual | indi üçün ən mühüm, ən vacib |
| iş görmək | 1) işləmək, çalışmaq; 2) hərəkət etmək |
| zərurət | 1) məcbur olma; 2) lazım olma, vaciblik; 3) ehtiyac |
| zahiri | xarici |
| daxili | iç |
| çətinlik | 1) çətin olma; 2) maneə; 3) əziyyət |
| aradan qaldırmaq | yox etmək, ortadan qaldırmaq |
| möhkəmlənmək | 1) möhkəm olmaq; 2) bərkimək |
| çevrilmək | 1) başqa hala, şəklə, formaya salınmaq; 2) başqa bir şey olmaq: 3) dönmək, üzünü döndərmək |

| | |
|---|---|
| iradi | iradəyə aid, ixtiyari |
| struktur | quruluş |
| qətiyyətlilik | möhkəmlik, dönməzlik, cəsarətlilik |
| mərdlik | 1) sədaqət, vəfa, etibarlılıq: 2) igidlik, qəhrəmanlıq |
| müstəqillik | müstəqil, sərbəst olma |
| təkidlilik | israr etmə, inadlılıq |
| özünəməxsus | özünə aid, spesifik |
| yer tutmaq | 1) rol oynamaq, mövqe tutmaq: 2) çox sahə tutmaq |
| funksiya | vəzifə, spesifik fəaliyyət |
| ləngitmə | gecikdirmək |
| eyniləşdirmək | eyni şey hesab etmək, bənzətmək, bərabər tutmaq |
| təhriketmə | həvəsləndirmə |
| bilavasitə | vasitə olmadan, birbaşa |
| məqsəd qoymaq | niyyətində olmaq |
| idarə olunmaq | 1) nizama salınmaq, yönəldilmək: 2) dolanmaq |
| ixtiyari | insanın öz arzusu ilə olan |
| tənzim etmək | nizama salmaq, qaydaya salmaq |
| tədricən | yavaş-yavaş |
| imkan | mümkün olma, əlverişli şərait |
| nəticə | son, yekun, qısa xülasə |
| səmərəli | faydalı, xeyirli, əlverişli |
| qərar | 1) nəticə; 2) fikir |
| müvəffəqiyyətsizlik | uğursuzluq |



| | |
|---|---|
| uğramaq | 1) rast gəlmək, üz-üzə gəlmək; 2) məruz qalmaq |
| kifayət | yetər, kafi |
| planlaşdırılma | plan hazırlanması |
| niyyət | məqsəd |
| tabe edilmə | asılı olma |
| qərar vermək | müəyyən nəticəyə gəlmək |
| mübarizə | 1) çalışma, cəhd, fəaliyyət göstərmə: 2) vuruşma, döyüş |

***Çalışma 2. Vurğulu hecaları tapın.***

Xarakterin strukturunda iradi əlamətlər – qətiyyətlilik, mərdlik, müstəqillik, təkidlilik və s. özünəməxsus yer tutur. İradənin iki mühüm funksiyası – *təhriketmə* və *ləngitmə funksiyaları* vardır. İradə şəxsiyyətin motivləri ilə bağlıdır. Lakin onları eyniləşdirmək olmaz.

***Çalışma 3. Altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz etmək olar?***

1. *Reaktiv davranış* bilavasitə situasiya ilə şərtlənir. 2. *İmpulsiv* (*qeyri-ixtiyari*) *davranış* bilavasitə tələbatlarla və emosiyalarla idarə olunur. 3. *İradi iş* mahiyyətinə görə ixtiyari işdir. 4. İradi iş zamanı insan qarşısına məqsəd qoyur və onu yerinə yetirir.

***Çalışma 4. Fellərin təsirli-təsirsiz olduğunu müəyyən edin.***

Motiv insanı fəaliyyətə təhrik edir. Çox hallarda fəaliyyətə başlamaq üçün ya təhriklər qüvvətli olmur, ya da iş prosesində tədricən zəifləyir. Bu zaman insan öz fəaliyyətini iradə vasitəsilə tənzim edir.

***Çalışma 5. Altından xətt çəkilmiş sözlərə əks mənalı sözlər tapın.***

İradi iş mürəkkəb xarakter daşıyır. Hər hansı bir ixtiyari iş iradi iş deyil. İradi iş ixtiyari işin xüsusi formasıdır. İradənin inkişafı təfəkkürün inkişafından, insanın situasiyanı, öz imkanlarını, öz işinin nəticələrini düzgün qiymətləndirməsindən asılıdır.

***Çalışma 6. Fellərin məna növünü tapın.***

İradi işin şəxsiyyət üçün iki mənası olur. *Birinci məna* şəxsiyyətin həyati motivləri ilə müəyyən olunur. *İkinci məna* xəyali motivlə şərtlənir. Bu motivi insan özü ixtiyari surətdə yaradır.

***Çalışma 7. Altından xətt çəkilmiş sözlərdə hansı ahəng növü var?***

Psixologiyada *səmərəli* və *səmərəsiz risk* fərqləndirilir. Birinci halda insan qərar qəbul edərkən daha ağıllı hərəkət edir. İkinci halda şəraiti kifayət qədər təhlil edə bilmir və müvəffəqiyyətsizliyə uğrayır.

***Çalışma 8. Mənsubiyyət şəkilçilərini göstərin.***

İradi işin iki mərhələsi var: *intellektual* və *icra*. Birinci mərhələnin psixoloji məzmunu belədir: tələbatın dərk olunması nəticəsində həvəs və arzunun əmələ gəlməsi, niyyətin yaranması, qərar qəbulu, məqsədin formalaşması, iradi işin planlaşdırılması. İnsan fikirləşir, əvvəl vacib işləri, sonra az əhəmiyyətli işləri görür. Bu prosesə "*motivlərin əsas motivə tabe edilməsi*" deyilir. Bəzən insan hansı işi görəcəyinə qərar verə bilmir. Bu proses



"*motivlər mübarizəsi*" adlanır. İnsanın iradi keyfiyyətləri ikinci mərhələdə özünü göstərir.

***Çalışma 9. Suallara cavab verin.***

1. İradə nədir və nə zaman özünü göstərir? 2. İradi əlamətlər hansıdır? 3. İradənin funksiyaları hansıdır? 4. İradi iş hansı mənalara malikdir? 5. Riskin hansı növləri var? 6. İradi işin hansı mərhələləri var?

***Çalışma 10. Terminləri öyrənin.***

iradə, iradi iş, davranış, reaktiv davranış, impulsiv davranış, motiv, motivlər mübarizəsi

## §68. Fərdiyyətin tipologiyası

Tipologiya iki yunan sözündən – tip (müəyyən adamlar qrupu üçün nümunə, onların ümumiləşmiş obrazı) və loqos (təlim, elm) sözlərindən əmələ gəlmişdir. **Tipologiya** dedikdə, cisim və hadisələrin müxtəlif tipləri arasındakı qarşılıqlı münasibətləri əks etdirən təsnifat başa düşülür. Bütün adamların fərdi xüsusiyyətlərinin öyrənilməsi mümkün deyil. Bu baxımdan insanların tipoloji xüsusiyyətlərinin öyrənilməsi daha geniş imkanlara malikdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| nümunə | örnək, model |
| obraz | surət |
| təlim | 1) öyrətmə, dərs vermə, tədris; 2) nəzəriyyə, nəzəri sistem |
| təsnifat | ümumi əlamətlərə görə bölgü |
| diferensial | bərabər olmayan, fərqli |
| peşə | sənət, iş |
| tətbiqi | praktik əhəmiyyəti olan |
| zəngin | 1) çox varlı; 2) çoxlu, çox geniş |
| sxem | 1) çertyoj, plan; 2) əsas fikirlərin təsviri, şərhi |
| variant | bir şeyin başqa şəkli |
| rasionalist | məntiq və ağıla əsaslanan adam |
| empirik | təcrübi |
| bölmək | bir şeyi hissələrə ayırmaq |



| | |
|---|---|
| fərdiyyət | 1) tipik xüsusiyyətlərin məcmusu; 2) şəxsiyyət, fərd |

***Çalışma 2. Nöqtələrin yerinə lazım olan sözləri qoyun, cümlələri tamamlayın.***

XIX əsrin sonu – XX əsrin əvvəllərində psixologiya elmində xüsusi bir sahə – diferensial psixologiya ... . *Diferensial psixologiya* insanların fərdi-tipoloji xüsusiyyətlərini ... . Təlim, tərbiyə, psixiatrik və psixoterapevtik təsir, peşəseçmə və peşəyönümü praktikası üçün onun məlumatları mühüm tətbiqi əhəmiyyətə ... .

**Sözlər:** *öyrənir, yaranmışdır, malikdir.*

***Çalışma 3. Sifətləri tapın, izah edin.***

Hər bir adama təkrarolunmaz xüsusiyyətlərlə yanaşı, müəyyən adamlar qrupu üçün tipik, ümumi olan xüsusiyyətlər də xasdır. İstər fərdi, istərsə də tipik xüsusiyyətlərin öyrənilməsi əhəmiyyətlidir. Psixologiyanın tətbiqi sahələrində – uşaq psixologiyası, pedaqoji psixologiya, əmək psixologiyası və başqa sahələrdə də fərdi tipoloji fərqlər haqqında zəngin materiallar toplanmışdır.

***Çalışma 4. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

XX əsrdə psixologiyada tipoloji sxemlərin müxtəlif variantları irəli sürül...dür. Həmin variantları A.Bine, A.Cordan, V.Cems, Q.Qross, E.Şprangel, E.Kreçmer, U.Şeldon, K.Yunq və başqaları hazırla...dır. Onlar insanları müxtəlif meyarlara görə obyektiv və subyektiv, rasionalist və empirik, ekstravert və intravert tiplərə böl...lər.

*Çalışma 5. 4-cü tapşırıqda iki və dörd cür yazılan şəkilçiləri tapın.*

*Çalışma 6. Aşağıdakı sözləri cümlədə işlədin.*

davranış, xarakter, dünyagörüşü, xüsusiyyət, iradə

*Çalışma 7. Suallara cavab verin.*

1. Tipologiya anlayışını izah edin. 2. Diferensial psixologiya nəyi öyrənir? 3. Psixologiyanın hansı tətbiqi sahələri var? 4. Tipoloji sxemlərin variantlarını izah edin.

*Çalışma 8. Söz birləşmələri düzəldin.*

| | |
|---|---|
| ictimai | amillər |
| fərdi | prosesi |
| sosial | mühit |
| həyat | xüsusiyyətlər |
| diferensiasiya | tərzi |

*Çalışma 9. Terminləri öyrənin.*

fərdiyyət, tipologiya, diferensial psixologiya, psixoterapevtik təsir, uşaq psixologiyası, pedaqoji psixologiya, əmək psixologiyası, ekstravert tip, intravert tip



## §69. Bədən quruluşu və xarakter

İnsanın psixi həyatının dinamikasında **somatik** (yunanca soma – bədən deməkdir) amillərin, o cümlədən qanın kimyəvi tərkibinin, daxili sekresiya vəzilərinin hasil etdikləri hormonların və s. müəyyən rolu vardır. Biologiyada, antropologiyada, təbabətdə insanın (eləcə də heyvanın) təbii xassələrini ifadə etmək üçün **konstitusiya** (latınca konstitutus – müəyyən olunmuş, davamlı quruluş deməkdir) terminindən istifadə olunur. Psixologiyada da bu termin həmin mənada işlənir.

*Çalışma 1. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| dinamika | hərəkət, inkişafın gedişi |
| kimyəvi | kimyanın obyekti olan |
| tərkib | hissələrin məcmusu |
| sekresiya | şirə ifrazetmə prosesi |
| hasil etmək | 1) almaq, əldə etmək; 2) istehsal etmək |
| hormon | aktiv fizioloji maddə |
| təbabət | tibb |
| davamlı | 1) dözümlü; 2) çox möhkəm; 3) etibarlı; 4) uzun sürən, ardıcıl |
| ölçü | bir şeyin böyüklüyü, kiçikliyi, həcmi, dərəcəsi; hədd, çərçivə |
| nisbət | 1) mənsubiyyət, bağlılıq, münasibət; 2) oxşarlıq, uyğunluq |
| hüceyrə | canlı orqanizm quruluşunun ən sadə vahidi |

*Çalışma 2. Qapalı sait ahəngli sözləri seçin.*

«*Konstitusiya*» termini bəzən bədən quruluşu tipi, qabitus (zahiri görkəm), insanın fiziki xüsusiyyətləri kimi başa düşülür. İnsanın ümumi və xüsusi konstitusiyası var. *Ümumi konstitusiya* dedikdə, orqanizmin bütövlükdə fərdi-tipik xassələrinin məcmusu, bütün fiziki və fizioloji xassələrinin funksional vəhdəti nəzərdə tutulur.

***Çalışma 3. Cümlələri tamamlayın.***

| | |
|---|---|
| *Xüsusi konstitusiya* iki yerə ...: a) morfoloji konstitusiya; b) funksional konstitusiya. *Morfoloji konstitusiya* mikrofiziki və makrofiziki konstitusiyadan ... . *Funksional konstitusiyaya* neyrodinamik, fizioloji və biokimyəvi konstitusiya ... . | ibarətdir, daxildir, bölünür |

***Çalışma 4. Altından xətt çəkilmiş şəkilçiləri təyin edin.***

*Mikrofiziki konstitusiya* insan orqanizminin bütün hüceyrələrinə xas olan fiziki əlamətlərin (onların ölçüsü, nisbəti və s.) məcmusundan ibarətdir. *Makrofiziki konstitusiya* makromorfoloji əlamətlərdən və ya orqanizmin cismani əlamətlərindən – insanın somatotipindən, morfotipindən ibarətdir. Konstitusiyanın bu növü bütövlükdə orqanizmin asanlıqla müşahidə olunan hissəsidir.

***Çalışma 5. 4-cü tapşırıqda hansı fonetik hadisə var?***

***Çalışma 6. Nöqtələrin yerinə hansı hal şəkilçisi yazılmalıdır?***

1. Orqanizm... mühitlə qarşılıqlı əlaqəsi *neyrodinamik konstitusiya* vasitəsilə təmin olunur. 2. İ.P.Pavlov



temperament xassələri... formalaşmasında neyrofizioloji (sinir) amillər... həlledici rol oynadığını ilk dəfə əsaslandırmışdır. 3. Fərdi-psixoloji xüsusiyyət... həyat tərzindən, ... sosial-iqtisadi və mədəni inkişaf şəraitindən asılıdır.

***Çalışma 7. Söz birləşmələrini tapın və izah edin.***

Alimlər insanın fərdi-psixoloji xassələrinin bu sistemlərini göstərirlər: 1. Orqanizmin fərdi xassələri sistemi – a) biokimyəvi xassələr; b) ümumi-somatik xassələr və neyrodinamik xassələr (sinir sisteminin xassələri). 2. Fərdi psixi xassələrin sistemi: a) psixodinamik xassələr (temperamentin xassələri); b) şəxsiyyətin psixi xassələri. 3. Sosial-psixoloji fərdi xassələr sistemi: a) sosial qrup və kollektivlərdə sosial rollar; b) sosial-tarixi ümumiliklərdə (etnik qrup, xalq) sosial rollar.

***Çalışma 8. Suallara cavab verin.***

1. Hormonlar nədir və onların rolu nədən ibarətdir? 2. «Konstitusiya» terminindən nə zaman istifadə olunur? 3. Konstitusiyanın hansı növləri var? 4. İnsanın fərdi-psixoloji xassələrinin sistemini izah edin.

***Çalışma 9. Terminləri öyrənin.***

somatik ami, konstitusiya, hormon, ümumi konstitusiya, xüsusi konstitusiya, morfoloji konstitusiya, funksional konstitusiya, mikrofiziki konstitusiya, makrofiziki konstitusiya, neyrodinamik konstitusiya, fizioloji konstitusiya, biokimyəvi konstitusiya, sosial qrup, sosial rol

# §70. Psixopatiyanın tipləri

Psixopatiya endogen (irsi) amillərin və müxtəlif xəstəliklərin (baş-beyin zədələri, infeksiya, intoksikasiya və s.) nəticəsi kimi əmələ gəlir. Onu törədən əsas səbəblərdən biri də tərbiyə işində yol verilən nöqsanlar, mühitin mənfi təsirləridir. Mühitin mənfi təsirləri ancaq müəyyən şəraitdə (xroniki somatik xəstəlik zamanı, cinsi yetişmədə uyğunsuzluq olduqda, fiziki defektlər olduqda və s.) psixopatiyanın əmələ gəlməsində mühüm rol oynayır. Xarakterin aksentuasiyası zəminində psixopatiya asanlıqla əmələ gəlir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| zədə | əzik yeri |
| infeksiya | mikrob |
| intoksikasiya | zəhərlənmə |
| törədən | əmələ gətirən |
| nöqsan | 1) çatışmazlıq; 2) qüsur, eyib |
| xroniki | çox davam edən, daimi |
| defekt | nöqsan, qüsur, zədə |
| etibarən | başlayaraq |
| təsvir olunmaq | şərh olunmaq |
| həsr olunmaq | yalnız bir işə və ya şəxsə verilmək |
| meydana çıxmaq | aşkar olmaq, ortada görünmək |
| monoqrafiya | tədqiqat əsəri |
| nəşr olunmaq | çap olunmaq, yayılmaq |



| | |
|---|---|
| fəaliyyət göstərmək | işləmək |
| eksperimental | təcrübi |
| sayıqlama | yuxuda aydın olmayan şeylər danışma |
| kəmağıllılıq | ağlın azlığı |
| pasiyent | müalicəyə gələn xəstə |
| klinik | klinikaya aid olan |
| müalicə | xəstəliyi sağaltmaq üçün tədbirlər |
| səbatsız | sabit olmayan, möhkəm olmayan |
| müşahidə olunmaq | 1) baxılmaq; 2) öyrənilmək |
| əksini tapmaq | göstərilmək, ifadə edilmək |

***Çalışma 2. Sözləri kök və şəkilçiyə ayırın.***

Psixopatiya və ona bənzər pozğunluqlar XIX əsrin əvvəllərindən etibarən müxtəlif psixiatrlar tərəfindən təsvir olunmağa başlanmışdır. XIX əsrin II yarısından başlayaraq psixopatiyaya həsr olunmuş müxtəlif əsərlər meydana çıxır. Bu sahədə məşhur rus psixiatrları S.S.Korsakov, V.X.Kandinski və başqalarının əsərləri var.

***Çalışma 3. Mötərizədəki felləri düzgün formada və zamanda yazın.***

Psixiatriyaya həsr olunmuş ilk monoqrafiyanı rus psixiatrı və psixoloqu V.M.Bexterev (yazmaq). Onun monoqrafiyası 1886-cı ildə Kazan şəhərində (nəşr olunmaq). V.M.Bexterev psixoloq kimi geniş fəaliyyət (göstərmək). Rusiyada ilk eksperimental laboratoriyanı o,1886-cı ildə Kazan şəhərində (yaratmaq).

***Çalışma 4. Cümlələri tamamlayın.***

| | |
|---|---|
| Psixopatlar ağır xarakterli ... . Bu zaman pozğunluqlar insanın intellekti ilə deyil, emosional-iradə səviyyəsində ... və onun xarakterində öz ... . Psixopatiya inkişafın düz getməməsi ilə ... . Psixopatiyanın klinik strukturuna hallüsinasiya, sayıqlama, kəmağıllılıq və s. ... . | əksini tapır<br>daxil deyil<br>adamlardır<br>əmələ gəlir<br>bağlıdır |

***Çalışma 5. Fellərin təsirli-təsirsiz olduğunu müəyyən edin.***

Psixopatiya uzun müddət psixiatrlar tərəfindən öyrənilmişdir. O, psixiatriyanın predmeti hesab olunur. Psixoloq həm sağlam, həm də xəstə adamın psixi proses və xassələrini öyrənir, psixiatr isə pasiyentin vəziyyətini klinik cəhətdən təhlil edir və müalicə təyin edir.

***Çalışma 6. Mətni diqqətlə oxuyun və onun leksik tərkibini təhlil edin.***

Psixopatiyanın müxtəlif *tipləri* var: şizoid, tsikloid, epileptoid, astenik, psixastenik, paronoyal psixopatiya, isterik psixopatiya, səbatsız psixopatiya, üzvi psixopatiya. Oğlanlarda ən çox epileptoid və şizoid, eləcə də kipertim və səbatsız psixopatiya tiplərinə təsadüf edilir. Yeniyetmə qızlarda isteroid, epileptoid və başqa psixopatiya tipləri daha çox müşahidə olunur. Üzvi psixopatiya hallarına yeniyetmə qızlarda iki dəfə az rast gəlinir.

***Çalışma 7. Suallara cavab verin.***

1. Psixopatiyanın yaranma səbəblərini izah edin. 2. Mühitin hansı mənfi təsirləri var? 3. Psixopatiya nə



vaxtdan tədqiq olunmağa başlayıb? 4. Psixopatiya haqqında əsərin müəllifi kimdir? 5. Psixopatlar necə adamlardır? 6. Psixopatiyanın hansı tipləri var?

***Çalışma 8. Terminləri öyrənin.***

endogen amil, infeksiya, intoksikasiya, cinsi yetişmə, somatik xəstəlik, psixopatiya, psixiatriya, hallüsinasiya

## §71. Şəxsiyyətin fərdi xüsusiyyətlərinin təhlili

İctimai praktikanın müxtəlif sahələrində (sənaye, kənd təsərrüfatı, maarif, səhiyyə və s.) fərdi xüsusiyyətlərin təhlili və nəzərə alınması psixologiyada xüsusi yer tutur. Gənc nəslin təlimi və tərbiyəsində onun əhəmiyyəti böyükdür. Alimlər uşaq tərbiyəsindən danışarkən həmişə **fərdi yanaşma** məsələlərinə diqqəti cəlb etmişlər.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| sənaye | xalq təsərrüfatının sahəsi, müəssisələr |
| kənd təsərrüfatı | əkinçilik, heyvandarlıq və meşəçilik |
| maarif | bilik, təhsil, savad |
| səhiyyə | sağlamlığı qoruma |
| nəzərə alınma | nəzərdə tutulma, haqqında düşünülmə |
| yanaşma | 1) yaxınlaşma; 2) münasibət göstərmə |
| cəlb etmək | 1) çəkmək, özünə tərəf çəkmək; 2) bir işdə iştirak etdirmək; 3) maraq oyatmaq |
| şərtlənmək | səbəb olmaq, şərtlə bağlanmaq |
| qavrama | başa düşmə, anlama, dərk etmə |
| müəyyən olunmaq | müəyyənləşdirilmək, qabaqcadan təyin olunmaq |
| təsir | hal, əlamət, iz |



| | |
|---|---|
| tərbiyə | 1) yetişdirib böyütmə; 2) gözəl əxlaq |
| konkretləşdirilmək | müəyyənləşdirilmək |
| səmərəli | yaxşı nəticə verən, faydalı, xeyirli, əlverişli |
| əhəmiyyətini itirmək | vacib olmamaq, mənasını itirmək |
| fərdiləşdirilmə | fərqləndirilmə, xüsusiləşdirilmə |
| faydalı | xeyirli, yaxşı nəticə verən |
| tərbiyəçi | uşaq tərbiyə edən adam |

***Çalışma 2. Cümlələri tamamlayın.***

Fərdi yanaşma mühüm psixoloji-pedaqoji ... . Həmin prinsipə görə, təlim-tərbiyə işində hər bir uşağın fərdi xüsusiyyətləri nəzərə ... . *Pedaqoji təsir* həmişə uşağın psixoloji xüsusiyyətləri ilə .... Pedaqoji təsirin xarakteri uşağın həmin təsiri necə qavraması ilə ... .

şərtlənir
prinsipdir
müəyyən olunur
nəzərə
alınmalıdır

***Çalışma 3. Altından xətt çəkilmiş sözləri təhlil edin.***

Tərbiyə işində fərdi yanaşma çox vacibdir. Təbiyənin ümumi məqsədləri həm uşaqların yaş və cinsi xüsusiyyətlərinə, həm də fərdi xüsusiyyətlərinə uyğun konkretləşdirilir. Uşaqların fərdi xüsusiyyətləri nəzərə alınmadıqda ən səmərəli təsir vasitələri də əhəmiyyətini itirir.

***Çalışma 4. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

Fərdi yanaşmanın iki tərəf... vardır: a) şəxsiyyətin fərdi xüsusiyyətlər...nin təhlil...; b) xüsusiyyətlərin psixoloji cəhətdən düzgün nəzərə alınma... . Uşağa fərdi yanaş-

maqla onun şəxsiyyət kimi inkişaf etmə... üçün şərait yaradırıq. Uşaqların fərdi xüsusiyyətlər...nin öyrənilmə... üçün müxtəlif tədqiqat üsullar...ndan – müşahidə, eksperiment və s. istifadə olunur.

***Çalışma 5. Altından xətt çəkilmiş şəkilçiləri təyin edin.***

Təlim işində də fərdi yanaşma zəruridir. Son zamanlar pedaqoji psixologiyada xüsusi termindən – *"təlimin fərdiləşdirilməsi"* terminindən istifadə olunur. Müəllim və tərbiyəçilər üçün uşaqları təbii şəraitdə - dərsdə, sinif yoldaşları ilə ünsiyyətdə, ictimai-faydalı əməkdə öyrənmək vacibdir.

***Çalışma 6. Hansı fikir səhvdir?***

1. Uşağı lap kiçik yaşlarından tərbiyə etmək lazımdır.
2. Freydizm cərəyanı XX əsrin sonu – XXI əsrin əvvəllərində əmələ gəlmişdir.
3. İnsanın tələbatları cəmiyyətdə formalaşır.
4. Motivasiya tələbatların inkişafı prosesidir.

***Çalışma 7. Verilən mənalara uyğun sözü tapın.***

iş, çalışma, aktivlik – ...
üsul, qayda – ...
vəziyyət, şərait – ...
xasiyyət, tip, xüsusiyyət – ...
bir şeyin başqa şəkli, forması – ...



***Çalışma 8. Suallara cavab verin.***

1. Fərdi yanaşmanı necə başa düşürsünüz? 2. Fərdi xüsusiyyətlər hansı üsullarla öyrənilir? 3. "Təlimin fərdiləşdirilməsi" nə deməkdir?

***Çalışma 9. Terminləri öyrənin.***

təlim, tərbiyə, fərdi yanaşma, fərdiləşdirilmə, müşahidə, eksperiment, pedaqoji psixologiya

## §72.Ünsiyyətin xüsusiyyətləri

Ünsiyyət iki və daha çox adamın qarşılıqlı təsiridir. Onun **məqsədi**_münasibətləri aydınlaşdırmaq_və ümumi nəticə əldə etməkdir. Bunun üçün insanlar öz səylərini birləşdirməlidir. Ünsiyyətin **predmeti** başqa adamdır. Ünsiyyətin **motivləri** başqa adamla əlaqədardır. Ünsiyyət tələbatı insan tələbatları içərisində xüsusi yer tutur. Ünsiyyət situasiyasının iki tipi var: **birgə fəaliyyətdə ünsiyyət, şəxsi ünsiyyət.**

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| əldə etmək | nail olmaq, ələ keçirmək, tapmaq, qazanmaq |
| səy | çalışma, cəhd |
| səylərini birləşdirmək | birlikdə çalışmaq |
| predmet | 1) şey, əşya, cisim, maddə; 2) obyekt, mövzu; 3) fənn, dərs |
| birgə | bir yerdə, birlikdə, bərabər |
| həyata keçirilmək | yerinə yetirilmək, tətbiq edilmək |
| mülahizə | fikir, rəy |
| replika | etiraz, cavab |
| mimik | üz əzələlərinin hərəkətini göstərən |
| ekspressiv | mənalı, təsirli, ifadəli |
| təbəssüm | gülümsəmə |
| tərs | 1) bir şeyin arxası, əks tərəfi; 2) tərslik edən; 3) acıqlı, hirsli; 4) əksinə |
| vokal | səsə aid olan, oxumaq üçün yazılmış |
| əşyavi | əşyaya aid olan |
| etiraz | qəbul etməmək, narazılıq etmək |
| jest | əl-qol hərəkəti |
| mimika | üz əzələlərinin hərəkəti |
| akt | 1) sənəd, yazı, protokol; 2) fərman, qərar |
| düstur | 1) qanun, qayda, üsul; 2) formul |
| təsvir etmək | 1) şəklini çəkmək; 2) yazılı və ya şifahi danışmaq; 3) şərh etmək |
| təsvir olunmaq | 1) şəkli çəkilmək; 2) danışılmaq; 3) şərh olunmaq |
| müzakirə etmək | fikir mübadiləsi etmək |
| müsahib | söhbətdə iştirak edən |
| obraz | surət |
| təhlil | 1) araşdırma; 2) tamı hissələrə ayırma |
| tərs baxış | acıqlı, hirsli baxış |



***Çalışma 2. Səhvləri düzəldin.***

Ünsiyət müxtəlif vasitələrnən həyatakeçirilir. Onnarın arasında nitk (mülahizə, sual, cavab, replika və s.) xüsusi yer tutur. Ünsiyətin *ekspressiv-mimik vasitələri* də mühümdür: təbəssüm, tərs baxış, mimika, əl və bədənin ifadəli hərəkətdəri, vokal mimikası. Bunnar insanın emosional vəziyətini ifadə edir.

***Çalışma 3. Mətnə diqqətlə baxın. Hansı fonetik xüsusiyyətə daha çox rast gəlmək olar?***

Ünsiyyətin *əşyavi-hərəki vasitələri* də vardır. Onları belə qruplaşdırmaq olar: a) ünsiyyət məqsədilə istifadə olunan lokomotor və əşyavi hərəkətlər, eləcə də poza; b) başqa adama yaxınlaşma, ondan uzaqlaşma, nəyi isə vermək və ya uzatmaq, onu özünə doğru çəkmək və ya özündən itələmək; c) etiraz. Əşyavi-hərəki jestlər insanın ünsiyyət aktının ayrı-ayrı elementlərini təsvir edir. Onlar insanların bir-birinə qarşılıqlı təsiri prosesində daha mühüm rol oynayır.

***Çalışma 4. Fellərin məna növünü tapın.***

Ünsiyyət fəaliyyətin – əmək, təlim, oyun və s.-nin zəruri tərkib hissəsidir. Fəaliyyət S – O (subyekt – obyekt), ünsiyyət S – S (subyekt – syubyekt) düsturu ilə təsvir olunur. Onlar qarşılıqlı əlaqədə belə ifadə edilir:




Ünsiyyətin mövzusu birgə fəaliyyətin obyekti ilə müəyyən olunur.

***Çalışma 5. Sözləri kök və şəkilçiyə ayırın.***

Adamların müxtəlif hadisələri öz aralarında müzakirə etməsi *şəxsi ünsiyyət* adlanır. Şəxsi ünsiyəti belə təsvir etmək olar:






Burada $S_1$ – haqqında danışılan, $S_2$ – danışan, $S_3$ – məlumat alan şəxsdir.

***Çalışma 6. Altından xətt çəkilmiş vahidləri izah edin.***

Şəxsi ünsiyyət "müsahibin obrazı" <u>ilə</u> şərtlənir. Şəxsi ünsiyyətdə <u>həm</u> informasiyanın (mövzunun) məzmunu, <u>həm də</u> onun müsahiblər <u>üçün</u> əhəmiyyəti mühümdür. Eyni mövzu müxtəlif formalarda (müzakirə, təhlil <u>və s.</u>) ifadə oluna bilər.

***Çalışma 7. 6-cı tapşırıqda söz birləşmələrini tapın.***

***Çalışma 8. Suallara cavab verin.***

1. Ünsiyyətin məqsədi və predmeti nədir? 2. Ünsiyyətin hansı tipləri var? 3. Ünsiyyətin ekspressiv-mimik vasitələrinə nə daxildir? 4. Ünsiyyətin əşyavi-hərəki vasitələri nədən ibarətdir? 5. Şəxsi ünsiyyət nəyə deyilir?

***Çalışma 9. Terminləri öyrənin.***

fəaliyyət, ünsiyyət, lokomotor hərəkət, şəxsi ünsiyyət

## §73. Ünsiyyətin xüsusiyyətləri (davamı)

Müasir psixologiyada ünsiyyətin üç tərəfi fərqləndirilir: **kommunikativ, interaktiv və perseptiv.** Bunlar aşağıdakılardan ibarətdir: 1) ünsiyyət informasiya mübadiləsi kimi; 2) informasiya qarşılıqlı təsir kimi; 3) ünsiyyət insanların bir-birini qavraması prosesi kimi. Psixologiyada ünsiyyət qarşılıqlı təsir prosesi kimi təhlil olunur. İnsanlar arasındakı əlaqə və münasibət məhz ünsiyyət sayəsində yaranır.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| kommunikativ | ünsiyyətə aid olan |
| interaktiv | qarşılıqlı əlaqəyə, dialoqa əsaslanan |
| perseptiv | hissi qavrama ilə bağlı olan |
| mübadilə | dəyişmə |
| məhz | ancaq, yalnız, tək, təkcə, şübhəsiz |
| sayəsində | nəticəsində, köməyi ilə |
| vasitəsiz | vasitə olmayan |
| təmas | toxunma, yaxınlıq, əlaqə |
| tədricən | yavaş-yavaş, az-az |
| müdafiə etmək | qorumaq |
| əməl | iş |
| qiymətləndirmək | qiymət vermək, dəyərləndirmək |
| iştirak etmək | başqaları ilə birlikdə fəaliyyət göstərmək |
| səy göstərmək | çalışmaq |
| məsləhət | təklif, göstəriş, tövsiyə |



| | |
|---|---|
| qadağanetmə | icazə verməmək, yasaq etmək |
| stimullaşdırmaq | stimul yaratmaq, gücləndirmək |
| təsbitedici | sabitləşdirən, təsdiq edən, qəbul edən |
| xidmət etmək | iş görmək, çalışmaq |
| vəhdətdə olmaq | birləşmək |

***Çalışma 2. Hal şəkilçilərini göstərin.***

Şəxsi ünsiyyətin iki səviyyəsi var. *Birinci səviyyədə* ünsiyyət iki (və ya üç) adamın vasitəsiz təması kimi meydana çıxır və emosional xarakter daşıyır. Lakin tədricən emosional ünsiyyət şəraitində adamlar öz fikirlərini izah etməyə, müdafiə etməyə, bir-birlərinin fikirlərini, əməllərini qiymətləndirməyə başlayırlar. Bu, şəxsi ünsiyyətin *ikinci səviyyəsidir.*

***Çalışma 3. Felləri təhlil edin.***

Ünsiyyət prosesində adamlar subyekt kimi iştirak edirlər. Bu prosesdə informasiya həm verilir, həm də o, ünsiyyət prosesinin özündə formalaşır, dəqiqləşir, inkişaf edir. İnsanlar ünsiyyət prosesində informasiya mübadiləsi edir, həmin informasiya əsasında ümumi nəticə (məna) çıxarmağa səy göstərirlər. İnformasiya qəbul edilməli və dərk olunmalıdır.

***Çalışma 4. Mürəkkəb sözləri tapın və izah edin.***

İnformasiyanın iki tipi var: 1) *təhrikedici informasiya* əmr, məsləhət, xahiş formasında ifadə olunur. Onlar danışanın hər hansı bir hərəkətini müxtəlif formalarda (təhriketmə, qadağanetmə və s.) stimullaşdırmağı nəzərdə

tuturlar; 2) *təsbitedici informasiya* məlumat formasında olur.

***Çalışma 5. Sözləri sıra ilə yerinə qoyun və cümlə düzəldin.***

söz, qarşılıqlı təsir, birləşir, hərəkət, prosesində, özünəməxsus, və, hiss, şəkildə

ünsiyyət, təşkilinə, bu zaman, birgə, xidmət edir, fəaliyyətin

əmələ gəlmişdir, tələbatı, özündə, əmək prosesinin, ünsiyyət

***Çalışma 6. Nöqtələrin yerinə lazım olan sözləri qoyun.***

Ünsiyyət prosesində ... bir-birinə məlumat verərkən, həm də ... qavrayırlar. *Sosial persepsiya* ünsiyyət prosesinin səmərəli olmasının ... şərtidir. ... kommunikativ, interaktiv və perseptiv tərəfləri ... vəhdətdədir.

**Sözlər:** *bir-birlərini, başlıca, insanlar, bir-biri ilə, ünsiyyətin*

***Çalışma 7. "Fərqlənmək" və "qavramaq" fellərini qəti gələcək zamanda şəxslərə görə dəyişin.***

***Çalışma 8. Suallara cavab verin.***

1. Ünsiyyətin hansı tərəfləri var? 2. Şəxsi ünsiyyətin səviyyələrini izah edin. 3. İnformasiya prosesində nə baş verir? 4. İnformasiyanın neçə tipi var? 5. Sosial persepsiya nədir?

***Çalışma 9. Terminləri öyrənin.***

ünsiyyət, şəxsi ünsiyyət, təhrikedici informasiya, təsbitedici informasiya, sosial persepsiya



## §74. Qarşılıqlı münasibətlər və ünsiyyət

İnsanların qarşılıqlı münasibətləri ünsiyyət prosesində öz əksini tapır. Ünsiyyət situasiyasında iki (və ya üç) adamın iştirak etməsi insanlar arasında qarşılıqlı münasibətlərin olmasını nəzərdə tutur. Qarşılıqlı münasibətlər ünsiyyət prosesində formalaşır. Qarşılıqlı münasibətlərin tipi və xarakteri ünsiyyətin məzmununa və formasına mühüm təsir göstərir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin***

| | |
|---|---|
| əksini tapmaq | göstərilmək, ifadə edilmək |
| nəzərdə tutmaq | nəzərə almaq, fikirdə tutmaq, haqqında düşünmək |
| formalaşmaq | müəyyən bir şəklə, formaya düşmək |
| üzvi | 1) canlı, orqanik; 2) daxili |
| tamamlamaq | 1) bütövləşdirmək; 2) qurtarmaq, sona çatdırmaq |
| konflikt | münaqişə, mübahisə |
| səbəb olmaq | əsas olmaq |
| müvafiq | uyğun, münasib, yaraşan, əlverişli |
| normativ | norma göstəricisi |
| əks etdirmək | göstərmək, ifadə etmək |
| tənzim edilən | nizama salınan, qaydaya salınan |
| işgüzar | bacarıqlı, işbacaran, ciddi |
| məsul | 1) cavabdeh olan: 2) çox mühüm, əhəmiyyətli |
| asılılıq | tabelik, sərbəstliyin olmaması |
| əlverişli | 1) yararlı, münasib, uyğun; 2) fay- |

| | |
|---|---|
| | dalı, xeyirli |
| təşəkkül etmək | formalaşmaq |
| iqlim | bir yerin meteoroloji şəraiti |
| nəzakətlilik | ədəblilik, tərbiyəlilik, incəlik |
| təmkinlilik | ağırlıq, soyuqqanlılıq |
| mehribanlıq | mehriban, xoş münasibət, dostluq |
| xeyirxahlıq | yaxşılıq, kömək |
| zövq | 1) sevinc hissi; 2) gözəlliyi hiss etmək |
| kədər | qəm, dərd |

***Çalışma 2. Ahəng qanununa tabe olan alınma sözləri tapın.***

Qarşılıqlı münasibətlər müxtəlifdir. Onların bu tipləri var: a) *formal (və ya rəsmi)*; b) *qeyri-formal (və ya qeyri-rəsmi)* qarşılıqlı münasibətlər. Formal və qeyri-formal münasibətlər bir-birini üzvi şəkildə tamamlayır. Bir sıra hallarda onlar bir-birinə uyğun gəlmir və kollektivdə konfliktlərə səbəb olur.

***Çalışma 3. Necə? hansı? suallarına cavab verən sözləri tapın.***

Hər bir fərd müvafiq konkret qrupda rəsmi statusa (mövqeyə) malik olur. Formal qarşılıqlı münasibətlər bu statusla şərtlənən münasibətlərin məcmusudur. Onlar fəaliyyətin normativ cəhətlərini əks etdirir və müəyyən qaydalarla tənzim edilən işgüzar münasibətlərdə ifadə olunur. Rəsmi münasibətlər səviyyəsində məsul asılılıq münasibətləri sistemi yaranır.



***Çalışma 4. Mötərizələri açın, sözləri düzgün formada yazın.***

Qeyri-formal qarşılıqlı münasibətlər heç kəs tərəfindən müəyyən (edilməmək), əlverişli şəraitdə öz-özünə təşəkkül (etmək). Onlar şəxsi xarakter (daşımaq). Bu münasibətlər kollektivdə müvafiq psixoloji iqlim (yaratmaq). Onların məzmunu kollektivin inkişaf səviyyəsindən (asılı olmaq).

***Çalışma 5. Sözləri kök və şəkilçiyə ayırın.***

*Ünsiyyət mədəniyyəti* insan münasibətlərinin daxili gözəlliyində ifadə olunur. Nəzakətlilik, təmkinlilik, mehribanlıq, xeyirxahlıq, insanı dinləmək, başa düşmək bacarığı, onun zövqünə, fikirlərinə hörmətlə yanaşmaq, sevinc və kədərini anlamaq ünsiyyət mədəniyyətinin əsasıdır.

***Çalışma 6. "İnformasiya" və "əmək"sözlərini hallandırın.***

***Çalışma 7. "Anlamaq" və "bölmək" fellərini qeyri-qəti gələcək zamanda təsdiq və inkarda şəxslərə görə dəyişin.***

***Çalışma 8. Suallara cavab verin.***

1. Qarşılıqlı münasibətlər necə əmələ gəlir? 2. Qarşılıqlı münasibətlərin neçə tipi var? 3. Formal qarşılıqlı münasibətlər necə baş verir? 4. "Qeyri-formal qarşılıqlı münasibətlər" nə deməkdir? 5. "Ünsiyyət mədəniyyəti" anlayışını izah edin.

***Çalışma 9. Terminləri öyrənin.***

ünsiyyət, rəsmi qarşılıqlı münasibətlər, qeyri-rəsmi qarşılıqlı münasibətlər

## §75. Ünsiyyət çətinlikləri

Ünsiyyət prosesində müəyyən çətinliklər – **kommunikativ maneələr** müşahidə olunur. Onlar, adətən, sosial və ya psixoloji xarakter daşıyır. Psixoloqların fikrincə, kommunikativ maneələri aradan qaldırmaq üçün adamların ünsiyyət mədəniyyətini artırmaq lazımdır. Bunun üçün **sosial-psixoloji treninqdən** (ingiliscə training – öyrənmə, məşq etmə deməkdir) istifadə olunur.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| çətinlik | 1) çətin olma; 2) maneə; 3) əziyyət |
| maneə | çətinlik, əngəl |
| aradan qaldırmaq | yox etmək, ləğv etmək, ortadan qaldırmaq |
| məşq etmə | hazırlıq |
| mənsub | əlaqəsi olan, aid |
| mürəkkəbləşmək | mürəkkəb olmaq, qarışmaq, çətinləşmək |
| utancaq | çox utanan |
| qapalı | 1) qapanmış, bağlı; 2) örtülü; 3) gizli; 4) ünsiyyətsiz |
| qərəz | gizli məqsəd, pis niyyət, gizli ədavət |
| ədavət | düşmənçilik hissi, kin, qəzəb |
| düşmənçilik | ədavət |
| inamsızlıq | inam, etibar yoxluğu |
| meydana çıxmaq | aşkar olmaq, ortada görünmək |



| | |
|---|---|
| tətbiqi | praktik əhəmiyyəti olan |
| vərdiş | iş bacarığı, adət |
| vasitə | üsul, yol, alət |
| diskussiya | açıq müzakirə |
| rollu | roldan ibarət |
| tətbiq etmək | həyata keçirmək, işlətmək |
| təşkil olunmaq | 1) düzəldilmək, yaradılmaq; 2) qaydaya salınmaq; 3) əmələ gətirilmək |
| müddət | vaxt, zaman |
| ərzində | içərisində, müddətində |
| mütəxəssis | xüsusi biliyi olan |
| fəaliyyət göstərmək | işləmək |

***Çalışma 2. Mötərizədəki sözləri lazım olan formada yazın***

Müxtəlif sosial qruplara mənsub adamlar arasında sosial, siyasi, dini, peşə fərqləri və s. kəskin şəkildə özünü göstərdikdə, onlar situasiyanı eyni şəkildə (başa düşməmək), anlayışları müxtəlif mənalarda (işlətmək). Belə maneələr olduqda da kommunikasiya prosesi (həyata keçmək). Sosial xarakterli kommunikativ maneələr olduqda, ünsiyyət şəraiti (mürəkkəbləşmək).

***Çalışma 3. 2-ci tapşırıqda əlamət bildirən sözləri seçin və izah edin.***

***Çalışma 4. Mətnə diqqətlə baxın. Hansı şəkilçilər yeni söz düzəldib?***

Psixoloji çətinliklər ya müsahiblərin müəyyən fərdi psixoloji xüsusiyyətlərə malik olması (məsələn, utancaq,

qapalı və s. olması), ya da onların arasında psixoloji münasibətlərin – bir-birinə qarşı qərəz, ədavət, düşmənçilik, inamsızlıq və s.-nin əmələ gəlməsi nəticəsində meydana çıxır.

***Çalışma 5. Nöqtələrin yerinə uyğun gələn şəkilçiləri qoyun.***

*Sosial-psixoloji treninq* sosial psixoloya... tətbiqi bölmələrindən biri... . Onun əsas vəzifə... özünüdərketmə, ünsiyyət və qarşılıqlı təsir vərdiş...inin formalaşması üçün qrup metodları... işlənilməsidir. Sosial-psixoloji treninq prosesində başlıca vasitə kimi qrup diskussiyasından və rollu oyunlar... istifadə olun... .

***Çalışma 6. Sözləri düzgün sıra ilə yerinə qoyun, cümlə düzəldin***

alman, treninq, Kurt Levin, sosial-psixoloji, irəli sürmüşdür, psixoloqu, ideyasını

əksini tapmışdır, sosiometriya, bu, psixoanaliz, C.Morenonun, öz, nəzəriyyəsində, Z.Freydin

ilk, treninqi, psixiatr, dəfə, amerikalı, və 1947-ci ildə, sosial-psixoloji, tətbiq etmişdir, psixoloq, K.Rocers

***Çalışma 7. Mətnin leksik tərkibini izah edin.***

Sosial-psixoloji treninq üçün xüsusi kiçik qruplar təşkil olunur. 1949-cu ildə bu qruplara T-qrup adı verildi. T – “Treninq qrup” deməkdir. T-qrup qısa müddət ərzində fəaliyyət göstərir: bir neçə gündən bir neçə həftəyə qədər. Sosial-psixoloji treninqdən müxtəlif mütəxəssislərin – rəhbər işçilər, müəllimlər, həkimlər, psixoloqlar, ticarət işçiləri və s. hazırlığında istifadə olunur.



***Çalışma 8. Suallara cavab verin.***

1. Ünsiyyət çətinlikləri nədən ibarətdir? 2. Onu aradan qaldırmaq üçün nə etmək lazımdır? 3. Ünsiyyət şəraiti nə vaxt mürəkkəbləşir? 4. Psixoloji çətinliklər necə meydana gəlir? 5. Sosial-psixoloji treninq ideyası kimindir və bu treninqin vəzifəsi nədir? 6. “T-qrup” nə deməkdir?

***Çalışma 9. Terminləri öyrənin.***

kommunikativ maneə, psixoloji çətinlik, treninq, sosial psixologiya, sosial-psixoloji treninq, psixoanaliz, sosiometriya

## §76. Qrup və kollektiv

Psixologiyada **qrup** dedikdə, tarixən müəyyən cəmiyyət çərçivəsində yaranmış ümumi mənafe, sərvətlər və davranış normalarına malik adamların sabit məcmusu nəzərdə tutulur. Qrupda müəyyən bir sosial şəraitdə bir nəfər deyil, mütləq bir neçə nəfər iştirak edir. Qrup müəyyən adamlar çoxluğundan ibarətdir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| tarixən | tarixə görə, tarix baxımından |
| çərçivə | 1) qəfəs; 2) haşiyə; 3)bir şeyin sərhədi |
| mənafe | fayda, xeyir |
| sərvət | 1) var, dövlət; 2) maddi nemətlər |
| sabit | hərəkətsiz, hərəkət etməyən, dəyişməyən |
| məcmu | 1) bütün, tamam, hamı; 2) yekun, cəm |
| mütləq | 1) əlbəttə, şübhəsiz; 2) əsla, qətiyyən |
| struktur | quruluş |
| nəzarət etmək | nəzər yetirmək, baxmaq, yadda saxlamaq |
| icraçı | bir işi edən adam |
| təsadüf | gözlənilməyən hadisə, görüşmə |
| əslində | 1) lap əvvəlində; 2) həqiqətdə |
| miqyas | ölçü, dərəcə |
| təbəqə | qat, lay, hissə |
| qəbilə | tayfa, nəsil |
| təqaüdçü | təqaüd alan adam |



| | |
|---|---|
| əhali | bir yerdə yaşayan adamlar |
| müəssisə | təşkilat, idarə |
| istehsal | hazırlama |
| tənzim olunmaq | nizama salınmaq, qaydaya salınmaq |
| fəhlə | işçi, əməkçi |
| briqada | işçilər dəstəsi |
| rabitə | bağlılıq, münasibət, əlaqə |
| təqaüd | pul yardımı |

***Çalışma 2. «Funksiya», «əmələ gəlir», «aidlik», spesifik» sözləri mətndəki hansı sözləri əvəz edə bilər?***

Qrup özünəməxsus sistemdir və müəyyən struktura malikdir. Qrupa daxil olan hər bir adamın rolu və vəzifəsi olur. Hər bir qrup müxtəlif formalarda öz üzvlərinə nəzarət edir. Qrup üzvlərində qrupa mənsubluq hiss – «biz» hissi yaranır.

***Çalışma 3. «Qrup» sözünü düzgün formada işlədin.***

Hər bir adam, adətən, müxtəlif ... üzvü olur. O, bütün ... eyni statusa malik olmur, müxtəlif ... müxtəlif rollar ifadə edir. Məsələn, bir ... lider olan şəxs başqa ... icraçı ola bilər.

***Çalışma 4. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

*Şərti və ya nominal qrup* dedikdə, bir-biri ilə real əlaqəsi olan adam... kateqoriyası nəzərdə tutulur. On... müəyyən bir şərti əlamətə (cins, yaş, peşə və s.) görə fərqlənir... . Şərti qrupa daxil olan adam..., adətən, bir-birini tanımır... . Lakin lazım gəldikdə, bir-bir...inə

kömək edir, ya da bir-bir...ini müdafiə edir... . Məsələn, qadın..., sürücü... və s.

***Çalışma 5. Əlamət bildirən sözləri tapın.***

Real qrupların iki növü var: real laborator qruplar və real təbii qruplar. *Laborator qruplar* hər hansı bir təsadüf əsasında meydana çıxır. *Təbii real qrupların* böyük və kiçik növləri var. Böyük və orta sosial qruplarda insanların münasibətləri rəsmi ictimai münasibətlərlə tənzim olunur. Laborator qruplar da əslində kiçik qruplardır.

***Çalışma 6. İsimləri təhlil edin.***

*Böyük qruplar* cəmiyyət (ölkə) miqyasında mövcud olan adamların məcmusudur: siniflər, sosial təbəqələr, peşə qrupları, etnik birliklər (millət, xalq, qəbilə), yaş qrupları (gənclər, təqaüdçülər və s.). Eyni bir müəssisə işçiləri, istehsal birlikləri və ərazi birlikləri (kənd, şəhər, rayon əhalisi) sosiologiyada *orta və ya lokal qruplar* adlanır.

***Çalışma 7. Aşağıdakı mətnə aid suallar hazırlayın.***

*Kiçik qrupların* üzvləri bir-biri ilə müxtəlif formalarda gündəlik ünsiyyət və rabitəyə girir, onların arasında qeyri-rəsmi münasibətlər formalaşır. Ailə, fəhlə briqadası, tələbə qrupu, bir sinfin şagirdləri və s. kiçik qruplardır. Kiçik qrupların spesifik əlaməti budur ki, üzvlər bir-biri ilə bilavasitə şəxsi ünsiyyətə girir.

***Çalışma 8. Suallara cavab verin.***

1. Psixologiyada «qrup» anlayışı necə izah olunur? 2. Qrupun tərkibi necə olur? 3. Qrup necə sistemdir?



4. «Şərti qrup» nə deməkdir? 5. Real qrupların hansı növləri var? 6. Böyük və orta qruplara kim daxildir?

***Çalışma 9. Terminləri öyrənin.***

qrup, kollektiv, şərti qrup, nominal qrup, orta qrup, kiçik qrup, lokal qrup

## §77. Qrup və kollektiv (davamı)

***Çalışma 1. Nöqtələrin yerinə nəqli keçmiş və indiki zaman şəkilçilərini yazmaq lazımdır. Onların yerini dəqiq müəyyən edin (indiki zaman şəkilçisi yalnız iki felə artırılacaq).***

1942-ci ildə referent qrup fenomeni müəyyən edil...dir. Amerika psixoloqu Q.Haymen kiçik qrupların iki növünü göstər..., birinci qrupu üzvlük qrupu, ikinci qrupu referent qrup adlandır...dır. O müəyyən et...dir ki, qrupun bəzi üzvləri mənsub olduqları qrupun deyil, başqa qrupun normalarını qəbul ... və öz davranışlarında onlara əsasla...lar.

***Çalışma 2. Sözləri kök və şəkilçiyə ayırın.***

*Üzvlük qrupu* elə qrupdur ki, fərd onun yalnız iştirakçısıdır. Belə qrupu bəzən *iştirak qrupu* da adlandırırlar. Əlverişli şəraitdə üzvlük qrupu referent qrupa çevrilə bilər.

***Çalışma 3. Fellərin təsirli-təsirsiz olduğunu müəyyən edin. Felləri inkarda işlədin.***

*Referent qrup* elə real və ya xəyali qrupdur ki, fərd onun standartlarını qəbul edir, onun normalarından etalonlar sistemi kimi istifadə edir. Bəzi müəlliflər referent qrupları *etalon qrup* da adlandırırlar. Əksər hallarda şəxsiyyətin bir referent qrupu olur.



***Çalışma 4. Nöqtələrin yerinə bu qoşmaları yazın: ilə, kimi, və, üçün.***

Referent qrupun növləri bunlardır: *referent müqayisə qrupları ... normativ referent qrupları.* Birinci halda insan bütün sosial hadisələri referent qrupun normaları ... müqayisə edib qiymətləndirir. Qrupun normaları onun ... etalon olur. İkinci halda insan qrupun normalarını öz normaları ... qəbul edir.

***Çalışma 5. Mətndəki sözləri təhlil edin.***

İnkişaf etmiş qrupun ən yüksək forması kollektivdir. Hər bir kollektiv qrup hesab olunur. Hər bir qrup kollektiv deyil. *Kollektiv* – cəmiyyətin bir hissəsi olan insan qrupudur. Əmək, uşaq, hərbi, idman, pedaqoji, şagird və başqa kollektivlər olur.

***Çalışma 6. Suallara cavab verin.***

1. Q.Haymen kiçik qrupların hansı növlərini göstərmişdir? 2. Üzvlük qrupu necə qrupdur? 3. Hansı qrupa referent qrup deyilir? 4. Referent qrupun hansı növləri var? 5. Kollektiv nədir?

***Çalışma 7. Terminləri öyrənin.***

referent qrup, üzvlük qrupu, etalon qrup, referent müqayisə qrupu, normativ referent qrupu, kollektiv

***Çalışma 8. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| fenomen | qeyri-adi şəxsiyyət, hadisə |
| üzv | 1) insan bədəninin bir hissəsi, orqan; 2) hər hansı təşkilatın tərkibinə daxil olan adam |
| üzvlük | hər hansı təşkilatın üzvü olma |

| | |
|---|---|
| müəyyən edilmək | qabaqcadan təyin edilmək, müəyyənləşdirilmək |
| əsaslanmaq | istinad etmək, əsas götürmək |
| yalnız | ancaq, təkcə |
| iştirakçı | bir işdə iştirak edən adam |
| xəyali | təsəvvür edilən, qeyri-real |
| standart | 1) forma, tip, nümunə; 2) bir-birinə oxşayan, şablon |
| etalon | ən dəqiq ölçü nümunəsi, əyar |
| əksər | ən çox, lap çox, ümumiyyətlə |
| müqayisə etmək | qarşılaşdırmaq, tutuşdurmaq |



## §78. Birgə işləməyə alışma və uyuşma

İnsanlar birgə fəaliyyət şəraitində bir yerdə işləməyə alışırlar və ya öyrənirlər. Bu zaman işçilər bir-birlərinin xüsusiyyətlərini nəzərə almağa başlayırlar. İşçilər arasında yaxınlıq əmələ gəlir. Belə hallarda onlar bir-birinə psixoloji cəhətdən uyuşurlar. Psixoloji uyuşma insanların qarşılıqlı təsiri prosesində əmələ gəlir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| alışmaq | 1) öyrəşmək, adət etmək; 2) alovlanmaq |
| nəzərə almaq | nəzərdə tutmaq, haqqında düşünmək |
| uyuşmaq | 1) uyğunlaşmaq, alışmaq; 2) duymu qabiliyyətini itirmək |
| işgüzar | bacarıqlı, işdə təcrübəsi olan |
| səciyyəvi | bir şəxsi və ya şeyi fərqləndirən |
| uyuşmazlıq | bir-birinə uyğun gəlməmək, bir-birinə zidd olmaq |
| münaqişə | çəkişmə, toqquşma, ixtilaf |
| nəticələnmək | nəticəsi olmaq, bitmək, sona çatmaq |
| əhəmiyyət | rol, dəyər |
| şüurlu | 1) şüuru olan, düşüncəli, şüurla bağlı olan; 2) qəsdən |
| təşkil etmək | 1) düzəltmək, yaratmaq; 2) qaydaya salmaq; 3) əmələ gətirmək |
| təsirli | təsir edən, təsiri olan |
| təmin edilmək | 1) lazım olan bütün şeylərin verilməsi; 2) lazımi şəraitin olması |

| | |
|---|---|
| şərait yaratmaq | lazımlı şeylərin, vəziyyətin olması |
| təlim | 1) öyrətmə, dərs vermə, tədris; 2) nəzəriyyə, nəzəri sistem |
| xarakterizə etmək | səciyyələndirmək, fərqli xüsusiyyətləri müəyyən etmək |
| düstur | 1) qanun, qayda, üsul; 2) formul |
| şagird | 1) məktəbli; 2) peşə öyrənən gənc |
| tərbiyə | 1) yetişdirib böyütmə; 2) gözəl əxlaq |
| bölmə | şöbə, hissə |

***Çalışma 2. Nöqtələrin yerinə bu vahidləri qoyun: ilə, isə, və. Substantivləşmiş felləri tapın.***

Birgə işləməyə alışmaq insanların rəsmi (işgüzar) münasibətləri, uyuşma ... qeyri-rəsmi (şəxsi) münasibətlər üçün səciyyəvidir. Birgə işləməyə alışma ... uyuşma bir-biri ... qarşılıqlı əlaqədədir. Uyuşma işçilərin bir-birinə alışmasında həmişə mühüm rol oynayır. Uyuşmazlıq onların arasında müxtəlif münaqişələrin yaranması ... nəticələnir. Əmək, pedaqoji, şagird, tələbə kollektivlərində, ailə həyatında onun əhəmiyyəti böyükdür.

***Çalışma 3. Cümlələri tamamlayın.***

1. Şəxsiyyətin formalaşmasının əsasını şüurlu aktiv fəaliyyət ... . 2. Uşaq kollektivi uşaqların bütün münasibətlərinin formalaşması, inkişaf etməsi, dəyişməsi üçün ən təsirli sosial ... . 3. Uşaq kollektivində ünsiyyət tipinin əsas forması ... . 4. Kollektiv uşaqların ünsiyyət tələbatının təmin edilməsi və inkişafı üçün əlverişli ... .

dialoqdur
təşkil edir
şərait yaradır
mühitdir



***Çalışma 4. Səhvləri düzəldin.***

*Pedaqoji psixologiya* müstəkil elim sahəsi kimi XIX-cu əsirin ikinci yarısında əmələgəlmişdir. Hal-hazırda o, psixologiya eliminin inkişaf etmiş sahələrinnən biridi. Pedaqoji psixologiyanın üç bölməsi var: *təlim psixologiyası, tərbiyə psixologiyası, müəllim psixologiyası.*

***Çalışma 5. Altından xətt çəkilmiş sözlərə diqqətlə baxın. Hansı sözdən düzəldiyini izah edin.***

Müəllimlərlə (tərbiyəçilərlə) şagirdlərin ünsiyyəti özünəməxsus ünsiyyət sahəsidir. Ünsiyyətin bu növünə *pedaqoji ünsiyyət* deyilir. Pedaqoji ünsiyyətdə müəllim və şagird şəxsiyyət kimi iştirak edirlər. Pedaqoji ünsiyyəti S – S düsturu ilə xarakterizə etmək olar. Müəllim – şagird münasibətləri işgüzar (rəsmi) münasibətlərdir.

***Çalışma 6. Aşağıdakı feli birləşmələri ad birləşmələrinə çevirin və sonra cümlədə işlədin.***

elmi inkişaf etdirmək, hadisələri təsvir etmək, fakt və hadisələri təhlil etmək, mühüm problemləri tədqiq etmək, emosiyaları ifadə etmək

***Çalışma 7. Suallara cavab verin.***

1. Psixoloji uyuşma nədir və nə zaman əmələ gəlir? 2. Uyuşmanın nə kimi əhəmiyyəti var? 3. Pedaqoji psixologiya nədir və hansı bölmələri var? 4. Pedaqoji ünsiyyət nəyə deyilir?

***Çalışma 8. Terminləri öyrənin.***

psixoloji uyuşma, uyuşmazlıq, pedaqoji ünsiyyət, pedaqoji psixologiya, təlim psixologiyası, müəllim psixologiyası

## § 79. Liderlik və rəhbərlik

Qrupda şəxsiyyətlərarası münasibətlər qrup üzvlərinin sosial-psixoloji statusunu əks etdirir. Sosial psixologiyada bu cəhət «rəhbər işçi», «lider» və s. kimi anlayışlarla ifadə olunur. Hər bir qrupun öz başçısı olur. Psixologiyada kollektivin idarə edilməsi prosesində iki cəhət – rəhbərlik və liderlik fərqləndirilir. Liderliyin üç funksiyası var: a) liderin təşkilatçılıq funksiyası (TF); b) informasiya funksiyası (İF); c) sosializasiya funksiyası (SF).

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| əks etdirmək | göstərmək, ifadə etmək |
| rəhbər | başçı |
| cəhət | 1) tərəf, yön, səmt; 2) bir şeyin tərkib hissəsi; 3) bir şeyə aid əlamət |
| başçı | rəhbər, rəis, böyük |
| təşkilatçılıq | təşkil etmə bacarığı |
| sosializasiya | fərdin davranış, sosial norma və dəyərlər, bilik və vərdiş nümunələrini qavrama prosesi |
| nüfuz | hörmət, etibar, təsir |
| təsir göstərmək | 1) təsiri olmaq, nüfuz etmək |
| təhrik etmək | həvəsləndirmək |
| qərar | 1) nəticə, qətnamə; 2) fikir, mülahizə |
| planlaşdırılma | plan tərtib edilmə |
| bölgü | 1) bölmək işi; 2) cihaz üzərində dərəcə |



| | |
|---|---|
| əlaqələndirmək | bir-biri ilə bağlamaq |
| səmərəli | yaxşı nəticə verən, faydalı, xeyirli, əlverişli |
| hifz edilmək | qorunmaq; unudulmamaq |
| təmsil etmək | kimisə əvəz etmək, onun adından danışmaq, birinin fikrini ifadə etmək |
| səlahiyyət | bir iş görməyə hüququ olma |
| stabil | sabit, daimi, dəyişməz |

***Çalışma 2. Altından xətt çəkilmiş sözləri kök və şəkilçiyə ayırın.***

*Rəhbərlik* kollektivin idarə olunması <u>prosesidir</u>. *Liderlik* dedikdə, bir <u>işçinin</u> şəxsi nüfuzunun kollektivin bir çox və ya bütün <u>üzvlərinin</u> <u>davranışına</u> təsiri nəzərdə <u>tutulur</u>. <u>Rəhbərlik</u> və liderlik müxtəlif sosial-<u>psixoloji</u> <u>fenomenlərdir</u>.

***Çalışma 3. Felləri təhlil edin.***

Başqalarına təsir göstərməyi, onları fəaliyyətə təhrik etməyi bacaran adam lider ola bilir. Lider özünün işgüzar və şəxsi keyfiyyətləri, ünsiyyətə girmək, adamlarla rabitə yaratmaq qabiliyyəti ilə fərqlənir. Bəzən müəyyən adamlar qrupu da lider olur. Sosial psixologiyada belə qrupa *kollektiv subyekt* deyilir.

***Çalışma 4. Mötərizədəki sözləri düzgün formada yazın.***

*Təşkilatçılıq funksiyası* budur: lider qrupun məqsədini (müəyyən etmək), qərar qəbulunu, məqsədlərin yerinə yetirilməsi üsullarının planlaşdırılmasını (təşkil etmək), vəzifə bölgüsü (aparmaq), qrup üzvlərinin birgə fəaliyyətini (əlaqələndirmək).

***Çalışma 5. Nöqtələrin yerinə uyğun gələn şəkilçini qoyun.***

Qrup fəaliyyətinin səmərəli olma... üçün zəruri informasiyanın toplanma..., işlənmə... və hifz edilmə..., onların qrup üzvlərinə vaxtında verilmə... *informasiya funksiya...nın* əsas cəhətidir. *Sosializasiya funksiya...* liderin qrup üzvlərinə təsir göstərmə...dir.

***Çalışma 6. Söz birləşmələrini seçin və izah edin.***

Rəhbər işçi yüksək peşə keyfiyyətlərinə malik olduqda liderlik hüququ qazana bilər. Rəhbər işçinin intellektual keyfiyyətləri, kommunikativ xüsusiyyətləri, təşkilatçılıq qabiliyyəti, rəhbərlik üslubu, ünsiyyət və liderlik qabiliyyəti çox əhəmiyyətlidir.

***Çalışma 7. Altından xətt çəkilmiş sözlərdə hansı ahəng növü var?***

Rəhbərlik daha çox stabil xarakter daşıyır, onun təsir sahəsi genişdir. Rəhbər işçi başqa təşkilatlarda öz qrupunu təmsil edir. Rəhbər işçiyə qanunla hüquq və səlahiyyət verilir. Rəhbər işçi rəsmi surətdə təyin olunur. O, böyük informasiya sistemi kanallarına malikdir.

***Çalışma 8. Suallara cavab verin.***

1. Şəxsiyyətlərarası münasibətlər nəyi göstərir? 2. Liderliyin hansı funksiyaları var? Onları izah edin. 3. Rəhbərlik və liderlik bir-birindən nə ilə fərqlənir? 4. «Kollektiv subyekt» nə deməkdir? 5. Rəhbər işçi necə olmalıdır?

***Çalışma 9. Terminləri öyrənin.***

lider, rəhbər işçi, sosializasiya, kollektiv subyekt, sosial psixologiya



## §80. Liderlik və rəhbərlik (davamı)

Liderlik müəyyən kəmiyyətlərlə bağlıdır: 1) «makromühit» – sosial-iqtisadi quruluş, siyasət, mədəniyyət, ideologiya; 2) «mikromühit» - kiçik qrupun sosial, sosial-psixoloji, psixoloji hadisələri (tipik və qeyri-tipik sosial şərait, qrup fəaliyyətinin məzmunu, məqsədi, vəzifələri, sosial-psixoloji iqlim və s.); 3) liderin və qrup üzvlərinin fərdi-psixoloji xassələri (intellekt, emosional-iradi sahəsinin xüsusiyyətləri, təşkilatçılıq qabiliyyətləri, kommunikativ keyfiyyətlər və s.).

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| kəmiyyət | miqdar, say, qədər |
| bağlı olmaq | 1) bağlanmış; 2) asılı olmaq, əlaqədar olmaq |
| ideologiya | ideyalar, təsəvvürlər sistemi |
| məzmun | mövzu, məna, mahiyyət |
| məqsəd | məram, niyyət, arzu |
| vəzifə | 1) dərəcə, rütbə; 2) funksiya |
| xassə | keyfiyyət, xüsusiyyət |
| təşkilatçılıq | təşkil etmə bacarığı |
| diqqəti cəlb etmək | maraqlandırmaq |
| xidmət | işləmə, vəzifə, iş |
| peşə | sənət |
| inzibati | 1) qanunlara uyğun olan; 2) idarə sisteminə aid olan |
| keyfiyyət | fərqləndirən xüsusiyyət, əlamət |

| | |
|---|---|
| nüfuzlu | hörməti, etibarı olan |
| əxlaqi | əxlaqa aid olan |
| istinad etmək | 1) bir şeyi kömək hesab etmək; 2) nəyisə əsas götürmək |
| pozucu | 1) nizamsızlıq, qaydasızlıq edən; 2) dağıdıcı |
| tənqid | müzakirə, təhlil, mənfi fikir |
| nüfuzunu saxlamaq | hörmətini saxlamaq, etibarını saxlamaq |
| zahirən | xarici görünüşünə görə |
| işə qarışmamaq | işin gedişinə təsir etməmək, iştirak etməmək |
| imkan | mümkünlük, əlverişli şərait |
| şayiə yaymaq | hamıya bildirmək, söz-söhbət yaymaq |
| istehzalı | istehza bildirən |
| rol oynamaq | əhəmiyyəti olmaq, təsiri olmaq |
| mövqe | 1) yer; 2) rol, vəziyyət; 3) vəzifə, dərəcə |
| sağlam | 1) normal işləyən; 2) düzgün, ağıllı; 3) xeyirli, təmiz, saf; 4)möhkəm; 5) salamat |
| qapalı | 1) bağlı; 2) örtülü; 3) gizli; 4) cəmiyyətdən ayrılmış |
| irəli sürülmək | təklif edilmək |
| məhdudlaşmaq | məhdud olmaq, kifayətlənmək |
| məsuliyyət daşımaq | cavabdeh olmaq |
| vasitə | üsul, yol, alət |



***Çalışma 2. Əlamət bildirən sözləri tapın və izah edin.***

Sosial psixologiyada liderin müxtəlif tipləri mövcuddur. Onlardan ikisi – *rəsmi (formal)* və *qeyri-rəsmi (qeyri-formal) liderlər* diqqəti cəlb edir. Rəsmi lider kollektivdə xidmət və peşə nüfuzuna malik olan inzibati və ictimai rəhbərdir. Rəsmi liderin yüksək işgüzar və şəxsi keyfiyyətləri olmalıdır.

***Çalışma 3. Nöqtələrin yerinə uyğun gələn sözləri yazın.***

Bəzən kollektivdə rəhbər işçi ilə yanaşı, ... nüfuzlu şəxs də olur. Sosiologiyada və sosial psixologiyada ... şəxsə *qeyri-rəsmi lider* deyilir. *Pozitiv qeyri-rəsmi lider* ... davranışında ... əxlaqi prinsiplərə istinad edir və kollektiv üzvlərinə ... təsir göstərir. *Neqativ qeyri-rəsmi lider* isə ... əxlaqi prinsiplərə istinad edir və kollektiv üzvlərinə ... təsir göstərir.

**Sözlər:** *öz, müsbət, başqa, yüksək, pozucu, belə, mənfi*

***Çalışma 4. Ahəng qanununa tabe olan milli və alınma sözləri seçin.***

Davranışın xarakterinə görə neqativ qeyri-rəsmi liderin iki tipi var: *təşkilatçı neqativ lider* və *kommunikator neqativ lider*. Birinci tip özünün işgüzar fəallığı ilə fərqlənir və çox vaxt qrup üzvlərini ayrı-ayrı işlərə təhrik edir. Belə lider üçün tənqid qrupda öz nüfuzunu saxlamaq vasitəsidir.

***Çalışma 5. Səhvləri düzəldin.***

Kommunikator neqativ lider zahirən heçbir işə qarışmır, imkan olduxda şayiə yayır. Onun tənqid vasitəsi

istehzalı gülüştür. Belə liderrər kallektivdə psixaloji iklimin – insannar arasındakı qarşılıxlı münasibətdərin pozulmasında rol oynıyır.

*Çalışma 6. Nöqtələrin yerinə uyğun gələn şəkilçini qoyun.*

Qeyri-rəsmi neqativ lider müxtəlif şəraitlərdə meydana çıxa bilər: 1) rəsmi liderin kollektivdə mövqe...nin zəif olma..., onun şəxsi nüfuz...nun olmama...; 2) onunla işçilər ara...da sağlam münasibətlərin olmama...; 3) qrupda işçilərə mənfi təsir edən şəxslərin olma... .

*Çalışma 7. Sözləri sıra ilə yerinə qoyun, cümlələri düzəldin.*

qapalı, prosesdir, əmələ gələn, liderlik
surətdə, lider, irəli sürülür, qeyri-rəsmi
dinamikdir, liderlik
məhdudlaşır, sahəsi, qrupdaxili, liderin, münasibətlərlə, təsir
qrupun, çox, üçün, o, vaxt, məsuliyyət daşımır, fəaliyyət, hüquqi

*Çalışma 8. Suallara cavab verin.*

1. Liderlik hansı kəmiyyətlərlə bağlıdır? 2. Makromühit və mikromühitə nə daxildir? 3. Liderin hansı tipləri var? 4. Liderin xüsusiyyətlərini izah edin.

*Çalışma 9. Terminləri öyrənin.*

rəsmi lider, qeyri-rəsmi lider, pozitiv qeyri-rəsmi lider, neqativ qeyri-rəsmi lider, təşkilatçı neqativ lider, kommunikator neqativ lider



## §81. Şəxsiyyət və ailə

Ailə dialektika qanunlarına tabedir. Hər bir ailə öz psixoloji xüsusiyyətlərinə görə başqalarından fərqlənir. Ailə xoşbəxt olmaq və xoşbəxt uşaqlar tərbiyə etmək üçündür. Ailədə gümrahlıq, optimizm, mehribanlıq və dostluq ruhu hökm sürməlidir. İnsan həyatının çox mühüm hissəsi ailədə keçir. Ər-arvad münasibətləri kişi və qadının psixologiyasını dəyişir.

*Çalışma 1. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| dialektika | bir şeyin hərəkət və inkişaf prosesi |
| tabe olmaq | razı olmaq, itaət etmək |
| xoşbəxt | uğurlu, sevincli, məsud, bəxtəvər, səadətli, xoş |
| gümrahlıq | sağlamlıq, qıvraqlıq |
| mehribanlıq | xoşluq, səmimilik, dostluq |
| ruh | 1) psixi aləm, hiss və duyğular, əhvali-ruhiyyə; 2) bir şeyin əsas mahiyyəti, ən lazımlı nöqtəsi, xüsusiyyəti |
| hökm sürmək | ağalıq etmək, hökmranlıq etmək |
| mürəkkəbləşmək | mürəkkəb olmaq, qarışmaq, çətinləşmək, dolaşmaq |
| əhəmiyyətli | əhəmiyyəti olan, mühüm |
| sərvət | 1) var, dövlət; 2) maddi nemətlər, əhəmiyyətli şey |

| | |
|---|---|
| baxış | 1) baxmaq tərzi; 2) fikir, mülahizə |
| ümumi | 1) hamıya aid olan; 2) müştərək; 3) birgə, bütün, cəm |
| şərt | 1) lazım olan amillər, əsas; 2) tələb, təklif |
| münaqişə | çəkişmə, toqquşma, ixtilaf |
| müşahidə olunmaq | 1) diqqətlə baxılmaq; 2) görülmək, hiss edilmək |
| mənsub olmaq | aid olmaq |
| səmimi | ürəkdən gələn, həqiqi, ciddi, doğru, ən yaxın |
| etimad | etibar, inam, inanma |
| qayğısına qalmaq | baxmaq, qulluq etmək, xidmət etmək |
| bölüşmək | bölmək, paylaşdırmaq |
| güzəştə getmək | 1) başqasına görə bir şeydən əl çəkmək; 2) bağışlamaq |
| borc | 1) alınan, verilən bir şey; 2) vəzifə; 3) haqq |
| məsuliyyət | cavabdehlik |
| vəhdət | 1) birlik, bütövlük; 2) ümumilik, eynilik; 3) təklik |
| nikah | qanuni evlənmə |
| məişət | yaşayış tərzi, yaşama |
| əmək | faydalı fəaliyyət, zəhmət |
| əhəmiyyət vermək | diqqət yetirmək, məna vermək, fikir vermək, çox lazımlı hesab etmək |



| | |
|---|---|
| qoşulmaq | 1) bağlanmaq; 2) birləşmək, qarışmaq, daxil olmaq; 3) məşğul olmaq |
| yiyələnmək | 1) sahib olmaq; 2) yaxşı öyrənmək, bilmək |
| nöqsan | 1) çatışmazlıq; 2) qüsur |
| əsası qoyulmaq | 1) təsis edilmək; 2) başlanmaq |

***Çalışma 2. Söz birləşmələrini tapın və izah edin.***

Ailə inkişaf etdikcə, ər-arvadın münasibətləri mürəkkəbləşir. Ər-arvadın bir-birinə uyuşması ailə həyatı üçün əhəmiyyətlidir. Ailə həyatında uyuşmanın bu növləri mühüm rol oynayır: 1. Sosial-mənəvi uyuşma. 2. Psixoloji uyuşma. 3. Psixofizioloji uyuşma. Sosial-mənəvi uyuşma ər və arvadın ideya-mənəvi sərvətlərinin, həyat mövqelərinin, həyata baxışlarının ümumi olmasını nəzərdə tutur.

***Çalışma 3. «Nə zaman?» sualına cavab verən ifadələri tapın.***

Psixoloji uyuşma ailədə əlverişli psixoloji iqlimin yaranmasının əsas şərtlərindən biridir. Ər-arvad bir-birinə uyuşa bilməyəndə ailədə münaqişə şəraiti yaranır. Psixofizioloji uyuşma prosesində maraqlı xüsusiyyətlər müşahidə olunur. Ər-arvad müxtəlif temperament tipinə (məsələn, sanqvinik və fleqmatik) mənsub olduqda bir-birinə daha yaxşı uyuşurlar.

***Çalışma 4. Hal şəkilçilərini göstərin.***

Ailə mədəniyyəti geniş anlayışdır. Ailə mədəniyyəti bir-birinə hörmətdən, səmimi münasibətdən, qarşılıqlı

etimaddan, bir-birinin qayğısına qalmaqdan, fikir və hissləri bölüşməkdən, güzəştə getməkdən yaranır. Nikahın əsasını məhəbbət hissi ilə borc və məsuliyyət hisslərinin vəhdəti təşkil edir.

***Çalışma 5. Nöqtələrin yerinə lazım olan şəkilçini qoyun və həmin sözləri izah edin.***

Ailə problemləri: uşaq qayğısı, zəruri məişət məsələləri, ər və arvadın əmək fəaliyyətində çətinliklər, qonşulara münasibət, ictimai-mədəni hadisələr, şəxsi həyatla bağlı məsələlər – ər-arvad ünsiyyətinin əsas məzmunu... . Uşaqlarla ünsiyyət də mühüm... . Ünsiyyət tələbatının təmin olunmasında söhbətlərin əhəmiyyəti böyük... . Ünsiyyət mədəniyyəti insanların həyat tərzi ilə əlaqədar... .

***Çalışma 6. Səs artımı hadisəsi hansı sözlərdə baş verib?***

Uşaq şəxsiyyətinin formalaşmasında ailə əsas rol oynayır. İnsanın xarakteri, əməyə, ideya və mədəniyyət sərvətlərinə münasibəti ailədə formalaşır. Psixoloqlar uşağın emosiya və hisslərinin inkişafında ananın roluna böyük əhəmiyyət verirlər.

***Çalışma 7. Mötərizədəki felləri düzgün formada yazın.***

Ailədə uşaq sosial münasibətlərə – ailədaxili münasibətlərə (qoşulmaq), onların vasitəsilə insan, dünya, mənəvi sərvətlər haqqında anlayışlara (yiyələnmək), cisim və hadisələrə qiymət verməyi, başqa adamları başa düşməyi, yaşlılara, kiçiklərə hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi (öyrənmək). Uşağın gələcək kişi və qadın kimi formalaşmasının əsasları ailədə (qoyulmaq).

***Çalışma 8. Suallara cavab verin.***

1. «Ailə» anlayışını izah edin. 2. Uyuşmanın hansı növləri var? 3. «Ailə mədəniyyəti» nə deməkdir? 4. Ailədə ünsiyyətin əhəmiyyəti nədir? 5. Uşağın həyatında ailənin rolu necədir?

***Çalışma 9. Terminləri öyrənin.***

dialektika, psixoloji uyuşma, psixofizioloji uyuşma, temperament, sanqvinik, fleqmatik, emosiya, hiss

## §82. Psixoterapiya və psixoloji xidmət

Psixoterapiya iki yunan sözündən – psyche (ruh) + therapeia (müalicə) sözlərindən əmələ gəlmişdir. **Psixoterapiya** dedikdə, insanın psixi təsir yolu ilə müalicəsi prosesi nəzərdə tutulur. Mütəxəssislərin fikrincə, psixoterapiya müstəqil elm sahəsidir. Psixoterapevt iki elm sahəsini – psixiatriya və psixologiya elmlərini mükəmməl bilməlidir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| müalicə | xəstəni sağaltmaq üçün tədbirlər |
| mütəxəssis | xüsusi biliyi olan adam |
| mükəmməl | 1) heç bir qüsuru, nöqsanı olmayan; 2) hərtərəfli, tam, bütün, əla |
| tətbiq olunmaq | həyata keçirilmək, işlədilmək |
| fayda vermək | xeyri, faydası, nəticəsi olmaq |
| tədqiqat aparmaq | araşdırmaq, öyrənmək |
| imkan yaratmaq | şərait yaratmaq, yol vermək |
| məsləhət | təklif, göstəriş, tövsiyə |
| tövsiyə | təklif, məsləhət, tapşırıq |
| zəmin | 1) yer; 2) şərait, mühit |
| yardım | kömək |
| məsələ | yerinə yetirilməsi lazım olan iş |
| məşğul olmaq | 1) bir sənəti olmaq; 2) bir iş görmək; 3) maraq göstərmək |
| yardım göstərmək | kömək etmək |
| sağlamlıq | orqanizmin sağlam vəziyyəti |



| | |
|---|---|
| təşkilat | ictimai birləşmə və ya dövlət idarəsi |
| həll etmək | 1) qərara gəlmək, nəticəyə gəlmək; 2) həyata keçirmək, yerinə yetirmək; 3) axtarılan cavabı tapmaq |
| nöqsan | çatışmazlıq, qüsur |
| aradan qaldırılma | yox edilmə, ortadan qaldırılma |
| profilaktika | sağlam şərait yaradan tədbir |

***Çalışma 2. Nöqtələrin yerinə lazım olan şəkilçiləri yazın.***

Psixologiya elmi... böyük praktik əhəmiyyəti var... . Psixoloji biliklər ictimai təcrübə... müxtəlif sahələrində tətbiq ol...ur və böyük fayda verir. *«Psixoloji xidmət»* sistemi tətbiqi tədqiqat...ın aparılma... üçün geniş imkan yara... . Psixoloji xidmət prosesində rəhbər işçilər..., vətəndaşlar... müxtəlif formalarda praktik məsləhətlər və tövsiyələr ver...ir.

***Çalışma 3. Felləri təhlil edin.***

Psixoterapiyada üç istiqamət – psixoanalitik, biheviorístik və ekzistensial-humanistik psixoterapiya daha çox inkişaf etmişdir. Onlar freydizm, biheviorizm və humanistik psixologiya zəminində formalaşmışdır. Psixoloji yardım məsələləri ilə psixoloqun məşğul olması həkimsiz psixoterapiya təcrübəsində yeni mərhələdir. Psixoloq psixoterapevt kimi müalicə etmir, o, sağlam adama öz psixoloji problemlərini – öz münasibətlərini, davranış motivlərini, başqa adamın xüsusiyyətlərini və s. dərk etməkdə psixoloji yardım göstərir, psixi sağlamlığını qoruyur.

*Çalışma 4. 3-cü tapşırıqda hansı terminlər işlənmişdir?*

*Çalışma 5. Altından xətt çəkilmiş sözlərə sual verin. Mətndə hansı leksika daha çox işlənib?*

Psixoloji xidmət praktik təşkilatdır. Onun əsas vəzifəsi praktik problemləri həll etməkdir. Psixoloji xidmətin yeni və perspektivli bir sahəsi – *ailə xidməti* formalaşmışdır. Ailə xidmətinin işində psixoloq və pedaqoqlarla yanaşı, sosioloq, hüquqşünas, psixiatr, seksoloq və başqa mütəxəssislər iştirak etməlidir.

*Çalışma 6. Sözləri kök və şəkilçiyə ayırın.*

Müasir dövrdə məktəbdə psixoloji xidmətin təşkili çox aktualdır. Şagirdlərə fərdi yanaşma, onların təlim və tərbiyəsi prosesindəki çətinliklərin psixoloji profilaktikası, uşaq şəxsiyyətinin inkişafındakı nöqsanların aradan qaldırılması məktəbdə psixoloji xidmətin vəzifələridir. Bu xidmət çətin tərbiyə olunan uşaqlar probleminin həllinə kömək edə bilər.

*Çalışma 7. «Formalaşmaq» felini bütün zamanlara və şəxslərə görə dəyişin.*

*Çalışma 8. Suallara cavab verin.*

1. Psixoterapiya nədir? 2. Psixoloji xidmət nə üçün təşkil edilir? 3. Psixoterapiyada hansı istiqamətlər var? 4. Psixoloqun vəzifəsi nədir? 5. Ailə xidmətinin və məktəbdə psixoloji xidmətin əhəmiyyəti nədir?

*Çalışma 9. Terminləri öyrənin.*

psixologiya, psixoterapiya, psixiatriya, psixoloji xidmət, psixoloq, psixoterapevt, biheviorizm, freydizm, humanistik psixologiya



## §83. Psixi sağlamlıq

İnsanın psixi sağlamlığını üç səviyyədə nəzərdən keçirmək olar: bioloji, psixoloji və sosial səviyyələrdə. İnsanın psixi sağlamlığı o zaman pozula bilər ki, şəxsiyyətin xarakterində, inteqral psixi keyfiyyətlərində bu və ya digər neqativ cəhət özünü qabarıq büruzə verir, mənəvi-əxlaqi sferada defekt nəzərə çarpır. Adətən, şəxsiyyətin psixi inkişafındakı pozğunluq və ya anomaliya onun sosial sahə ilə disharmoniyasında (ahəngdarlığın pozulmasında), həmin mühitə uyğunlaşa bilməməsində özünü göstərir.

*Çalışma 1. Sözlərin mənasını öyrənin.*

| | |
|---|---|
| inteqral | kiçik hissələrin məcmusu olan tam kəmiyyət |
| neqativ | mənfi |
| cəhət | 1) tərəf, yön; 2) element; 3) keyfiyyət, əlamət |
| qabarıq | çox aydın |
| büruzə vermək | üzə çıxarmaq, göstərmək |
| sfera | sahə, dairə, mühit, şərait |
| defekt | nöqsan, qüsur, zədə |
| nəzərə çarpmaq | diqqəti cəlb etmək, görünmək |
| ahəngdarlıq | uyğunluq |
| adekvat | eyni, uyğun |
| reaksiya | 1) əks təsir; 2) kəskin dəyişiklik; 3) qarşılıqlı təsir |
| təbabət | tibb |

| | |
|---|---|
| nisbətən | müqayisə edilərsə; görə |
| səmərəli | yaxşı nəticə verən, faydalı, xeyirli, əlverişli |
| mülahizə | fikir, rəy |
| ön plana keçmək | daha mühüm, vacib olmaq |
| səciyyə | fərqli xüsusiyyət, xarakter |
| mənəviyyat | mənəvi keyfiyyətlər, yüksək əxlaq |
| pozulmaq | 1) silinmək; 2) əhvalı pis olmaq; 3) bir-birinə qarışmaq |
| müvazinəz | 1) hərəkətsizlik halı; 2) sabitlik; 3) sakitlik; 4) bərabərlik |
| ifadəlilik | ifadəli olma, yaxşı və aydın ifadə etmə |
| hövsələsiz | səbirsiz, dözümsüz |
| dəyanətsiz | möhkəm olmayan |
| istehlak | işlətmə, istifadə etmə |
| təmənnasızlıq | özü üçün fayda gözləməmək |
| göstərici | bir şeyi göstərən qurğu, alət, cihaz, rəqəm və s. |
| mövcud olmaq | var olmaq, olmaq |
| müvazinətlilik | 1) uyğunluq, bərabərlik; 2) sabit vəziyyətdə olma |
| vicdanlı | vicdanı olan |
| iddia | 1) tələb; 2) özünü yüksək tutma |
| xeyirxahlıq | xeyirxah münasibət, yaxşılıq, kömək |
| dözümlülük | dözmə, möhkəmlik, səbirlilik |
| münasibət bəsləmək | münasibəti olmaq |



| | |
|---|---|
| üstün olmaq | 1) daha yaxşı, daha yüksək olmaq; 3) qalib gəlmək |
| vicdan | mənəvi məsuliyyət |

***Çalışma 2. Ahəng qanununa tabe olan sözləri seçin və hansı ahəng növü olduğunu tapın.***

*Bioloji səviyyədəki sağlamlıqda* orqanizmin bütün daxili üzvlərinin dinamik ahəngdarlığı və onların xarici təsirlərə adekvat reaksiyası əsas olur. Bu sahədə təbabətin təsiri nisbətən səmərəlidir. *Psixoloji sağlamlıqda* şəxsiyyətin psixi bütövlüyü əsas götürülür. Yəni «sağlam şəxsiyyət kimdir və ya nə deməkdir» mülahizəsi ön plana keçir.

***Çalışma 3. Söz birləşmələrini tapın və izah edin.***

Sosial şəraitin, ictimai münasibətlərin şəxsiyyətin psixi sağlamlığına təsiri daha güclü olur. Yəni sosial-maddi və sosial-mənəvi şərait, ailə münasibətləri, ünsiyyətin xarakteri, digər qarşılıqlı münasibətlərin səciyyəsi psixi sağlamlığa ciddi təsir edir. Glverişli sosial şərait olmadıqda insanın mənəviyyatı pozulur.

***Çalışma 4. Sözləri kök və şəkilçiyə ayırın.***

*Psixi müvazinətin* ifadəlilik dərəcəsi insanın obyektiv şəraitlə ahəngdarlığında, ona uyğunlaşa bilmək qabiliyyətində özünü göstərir. Hövsələsiz, dəyanətsiz adamlarda müvazinət pozulur. Ancaq psixi cəhətdən sağlam adamlarda, yəni müvazinətli şəxslərdə davranış sabitliyi nəzərə çarpır.

***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır?***

*Şəxsiyyətin sosial sağlamlığı* onun sosial gerçəkliyi adekvat qavramasın…, ətraf aləmə maraq, fiziki və ictimai mühitə uyğunlaşmaq…, istehlak mədəniyyətin…, təmənnasızlıq…, davranış…, demokratizm… və s. ifadə olunur. Şəxsiyyətin psixi sağlamlığı onun idrak proseslərinin xüsusiyyətlərin… də görünür.

***Çalışma 6. Mətndə hansı kateqoriya şəkilçi daha çox işlənib?***

Şəxsiyyətin psixi sağlamlığının müəyyən göstəriciləri mövcuddur: şəxsiyyətin optimizmi, müvazinətliliyi, diqqətliliyi, mənəvi keyfiyyətləri (düzgünlüyü, vicdanlı olması və s.), məsuliyyət hissi, adekvat iddia səviyyəsi, özünəinamı, müstəqilliyi, təbiiliyi, yumor hissi, xeyirxahlığı, dözümlülüyü, özünəhörməti, özünənəzarəti.

***Çalışma 7. 6-cı tapşırıqda hansı növ söz birləşmələri vardır?***

***Çalışma 8. Mötərizədəki felləri düzgün formada yazın.***

Psixi cəhətdən sağlam olmamağın da əlamətləri vardır. Belə adamlarda maraqlar, iradə (zəifləmək), yaxın adamlara münasibət (soyumaq), passiv həyat mövqeyi üstün (olmaq), özünənəzarət ya zəif, ya da normadan yuxarı (olmaq). Onlar ətrafdakılara düşmən münasibət (bəsləmək).



***Çalışma 9. Suallara cavab verin.***

1. Psixoloji sağlamlığın hansı səviyyələri var? 2. Psixi sağlamlıq nə zaman pozulur? 3. Psixi pozğunluq özünü necə göstərir? 4. Sosial şərait psixi sağlamlığa necə təsir edir? 5. Psixi müvazinətin sabitliyi və pozulması necə baş verir? 6. «Sosial sağlamlıq» nə deməkdir? 7. Psixi sağlamlığın hansı göstəriciləri var?

***Çalışma 10. Terminləri öyrənin.***

psixi sağlamlıq, bioloji sağlamlıq, sosial sağlamlıq, psixi pozğunluq, psixi anomaliya, psixi müvazinət

## §84. Özünüidarə və psixi sağlamlıq

Özünüidarə ideyası XX əsrdə bir çox psixoloq və psixiatrların diqqətini cəlb etmişdir. Belə bir fikir mövcud olmuşdur ki, xəstə insandan fərqli olaraq sağlam insan öz psixikasını idarə etməyi və ona nəzarəti daha yaxşı bacarır. Psixoloji özünüidarə psixi sağlamlığın ən mühüm meyarlarından biridir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ideya | anlayış, təsəvvür, fikir, qayə, məqsəd |
| nəzarət | fikir vermə, diqqət yetirmə |
| bacarmaq | bir işi edə bilmək |
| meyar | ölçü, əsas cəhət |
| tələb etmək | qəti istəmək |
| proses | hadisənin gedişi |
| şüurlu | şüuru olan, düşüncəli, şüurla bağlı olan, qəsdən |
| məqsədyönlü | məqsədli |
| ardıcıl | 1) arası kəsilmədən, bir-birinin ardınca; 2) məntiqli, qanunauyğun |
| kəsb etmək | qazanmaq, öyrənmək |
| mütləq | 1) şübhəsiz, əlbəttə; 2) qəti surətdə |
| mərhələ | dövr |
| məqsəd qoymaq | arzu etmək, niyyətində olmaq |
| həyata keçirilmə | yerinə yetirilmə |
| təmin etmək | lazımlı şeyləri vermək |



| | |
|---|---|
| deformasiya | dəyişilmə, pozulma |
| səbəb olmaq | əsas olmaq |
| axın | 1) sel, iti cərəyan; 2) axma; 3) gediş |
| məhrum edilmə | bir şeyin əlindən alınması |
| illüziya | boş ümid, xəyal, səhv təsəvvür |
| hallüsinasiya | gözəgörünmə |
| optimal | ən əlverişli, ən münasib, ən müvafiq |
| həcm | ölçü, böyüklük, miqdar, miqyas |
| məşq etdirmək | hazırlaşdırmaq |
| tərbiyə etmək | böyütmək, yetişdirmək |
| nizam yaratmaq | qayda yaratmaq |
| tələbat ödənilməsi | lazım olan şeylərin verilməsi, iş görülməsi |

***Çalışma 2. Səhvləri düzəldin.***

*Psixi özünüidarə* insannan tələb edir ki, ona xas olan psixi hadisələrə (prosesdərə, xassələrə, hallara) şüurru təsir göstərsin. Psixi özünüidarə prosesdəri mütlək şüurru və məksədyönnü, ardıcıl və fəal xarakter kəsp edir. Psixoloji özünüidarənin mərhələləri bunnardır: a) idaraetmə məksədinin qoyulması; 2) informasiyanın qəbulu və işdənməsi; c) qərar qəbulu; ç) qərarın həyata keçirilməsi və nəzarət.

***Çalışma 3. Nöqtələrin yerinə uyğun gələn şəkilçiləri yazın.***

Həyatda məqsədin düzgün seçilmə... psixi sağlamlığı təmin edir. Məsələn, həyat yol...nun düzgün seçilmə..., sənət seçim..., cəmiyyətdə yer...ni və mövqe...ni müəyyənləşdirmək və s. əhəmiyyətli məsələlərdir. İnsanın

uzun müddət xoşlama... bir işdə çalışma... onun daxili psixoloji vəziyyət...nin pozulma...na, şəxsiyyətin deformasiya...na səbəb olur.

***Çalışma 4. Cümlələri tamamlayın.***

İnsan uzun müddət «sensor aclıq» (informasiya axınından məhrum edilməsi) şəraitində saxlanılması onun psixikasında bəzi neqativ hallar ... (illüziya, hallüsinasiya). İnsanın qəbul etdiyi informasiyanın çoxluğu da psixikanın normal fəaliyyətini ... . Buna görə də informasiya axını optimal həcmə ... .

malik olmalıdır
yaradır
pozur

***Çalışma 5. Nöqtələrin yerinə hansı şəkilçi yazılmalıdır: -maq$^2$, -malı$^2$, -ası$^2$.***

İnsan psixi sağlamlığını idarə etməyi bacar...dır. Bunun üçün insan psixikasını məşq etdir..., onun imkanlarını bil... və inkişaf etdir...dir. İnsan ağıl və hisslərində nizam yarat...dır. İnsanda psixoloji mədəniyyət tərbiyə edil...dir.

***Çalışma 6. Altından xətt çəkilmiş sözlərə yaxın mənalı sözlər tapın.***

*Həyat tərzi* dedikdə, insanların müəyyən ictimai-iqtisadi şəraitdə həyat və fəaliyyəti, maddi və mənəvi tələbatlarının ödənilməsi, ünsiyyət və davranış normaları başa düşülür. Sağlam həyat tərzi orqanizmin möhkəmlənməsini, şəxsiyyətin ahəngdar inkişafını, əmək və istirahət üsullarının qarşılıqlı təsirini bildirir.



***Çalışma 7. Verilmiş felləri əmr formasında şəxsə və kəmiyytə görə dəyişdirin.***

qəbul etmək, yaratmaq, keçirmək, çalışmaq

***Çalışma 8. Verilmiş sözlərdən cümlələr qurun.***

1) şəxsiyyət, psixologiya, elm, əsas kateqoriyalar, bir

2) psixologiya, elm, qədim, tarix, malik olmaq

3) proses, hadisə, başlanmaq, gediş, və, inkişaf, mərhələlər

4) psixologiya, heyvanlar, və, insanlar, psixika, öyrənmək

5) psixologiya, insan, əmək, idrak, idrak, və, ünsiyyət, subyekt, kimi, öyrənilmək

***Çalışma 9. Suallara cavab verin.***

1. «Özünüidarə» anlayışını necə başa düşürsünüz? 2. Psixi özünüidarənin tələbləri necədir? 3. Psixi özünüidarənin hansı mərhələləri var? 4. Məqsəd seçimi insana necə təsir edir? 5. İnformasiya qəbulu insana necə təsir edir? 6. «Həyat tərzi» nə deməkdir?

***Çalışma 10. Terminləri öyrənin.***

psixi özünüidarə, psixi sağlamlıq, psixi hadisə, sensor aclıq, illüziya, hallüsinasiya

## §85. Psixikanın ehtiyatları

İnsanın imkanları, ehtiyatları dedikdə, psixi ehtiyatlar nəzərdə tutulur. İnsan psixikasının və əsəb sisteminin böyük imkanlarının artırılması, inkişafı və ondan istifadə olunması əhəmiyyətli məsələdir. Psixologiyanın vəzifələrindən biri psixikanın imkanlarının müəyyən edilməsi, onun inkişafı və istifadə olunmasının prinsip və mexanizmlərinin öyrənilməsidir. İnsanın imkanlarının inkişaf sərhədləri biokimyəvi, neyrofizioloji və fizioloji proseslər səviyyəsində öyrənilir.

***Çalışma 1. Sözlərin mənasını öyrənin.***

| | |
|---|---|
| ehtiyat | 1) saxlanmış şey; 2) tədbirli hərəkət etmə |
| mexanizm | 1) iş görmək üçün maşın, qurğu; 2) bir şeyin sistemi; 3) vəziyyət və proseslərin məcmusu |
| imkan | mümkünlük, əlverişli şərait |
| sərhəd | 1) ayırıcı xətt; 2) norma, hüdud |
| səviyyə | dərəcə |
| vərdiş | bacarıq, adət |
| yerinə yetirmək | icra etmək, həyata keçirmək |
| reallaşdırmaq | həyata keçirmək, gerçəkləşdirmək |
| mənimsəmək | 1) öyrənmək; 2) sahiblənmək |
| əsaslandırılmış | inandırıcı sübutlar gətirilmiş |
| sınaqdan keçirilmiş | yoxlanmış |
| dolğun | 1) dolmuş; 2) dolu; 3) gur, qüvvətli, güclü; 4) yetişmiş; 5) mənalı |
| inkar | tanımama, rədd etmə, qəbul etməmə |
| yol verməmək | icazə verməmək, mane olmaq |
| qanunauyğunluq | hadisələr arasında əlaqə, qanunlardan asılılıq |
| proqnoz | fikir söyləmə |
| maksimum | ən çox, ən böyük |
| həmçinin | həm, həm də, … da, … də |
| baş verən | olan, əmələ gələn, başlanan |
| istənilən | hər, hər hansı |
| bölmək | ayırmaq |
| nəzərə almaqla | fikirdə tutmaqla, haqqında düşünməklə |
| inikas | əks, xəyalda canlanma |
| reflektor | mexaniki, şüurlu olmayan |
| xarakter daşımaq | xarakterə malik olmaq |
| xassə | keyfiyyət, xüsusiyyət |
| fakt | 1) olmuş hadisə; 2) nümunə; 3) dəlil; 4) reallıq |



***Çalışma 2. Sözləri sıra ilə yerinə qoyun və cümlələri düzəldin.***

tələbatın, istənilən, təmin olunmalıdır, fəaliyyət

bioloji, iki, tələbatları, olmaqla, mütəxəssislər, yerə, sosial, bölürlər, və

tələbat, şəxsiyyətin, bioloji, isə, tələbatıdır, orqanizmin, sosial

həyata keçirmək, tələbat, ən, imkanlarını, insanın, yüksək, öz, tələbatıdır

işi, qabiliyyətidir, funksional, bacarıq, nəzərə almaqla, öz, insanın, bilik, yerinə yetirmək, imkan, vərdişlərini, və

***Çalışma 3. Sözləri kök və şəkilçiyə ayırın.***

Psixika orqanizmdə baş verən bütün prosesləri, həmçinin davranış və fəaliyyətimizi də idarə edir. Buna görə də imkanların inkişafı psixikanın ehtiyatı ilə bağlıdır. *Psixikanın ehtiyatı* reallaşdırılmamış imkanlardır.

***Çalışma 4. Saf hecalı sözləri tapın.***

*Autogen məşq* fiziki fəallıq üçün çox vacibdir. Autogen məşq (AM) metodikası 2 hissədən ibarətdir – *yüksək* və *adi*. AM 7 çalışmadan ibarətdir. Bütün çalışmalar ardıcıl həyata keçirilməlidir. Autogen məşqi mənimsəmək üçün 3-4 ay vaxt kifayətdir. AM-lə gün ərzində 10-15 dəqiqə məşğul olmaq lazımdır. Hər çalışma müəyyən orqana təsir edir.

***Çalışma 5. Altından xətt çəkilmiş sözləri təhlil edin.***

Autogen məşq (autotreninq) elmi cəhətdən əsaslandırılmış və sınaqdan keçirilmiş metodikadır. Bu zaman deyilən cümlələr qısa və dolğun olmalı, inkara yol verilməməlidir. Çalışmalar yerinə yetirilərkən sakitləşdirici musiqidən də istifadə etmək olar.

***Çalışma 6. Cingiltili samit ahəngi olan sözləri seçin.***

*Biomexanika* adlı yeni bir elm sahəsi mövcuddur. O, hərəkətin qanunauyğunluqlarını öyrənməklə məşğuldur.



Onun köməyi ilə idman yarışlarında proqnozlar öyrənilir. Müasir dövrdə insanların maksimum imkanlarını öyrənən *maksimologiya* adlı elm meydana gəlmişdir. Bu elm tibbi idman və idman psixologiyasının sərhədləri daxilində formalaşmışdır.

***Çalışma 7. Hansı fikir yanlışdır?***

1. Psixika subyektiv aləmin obyektiv inikasıdır.
2. Subyekt dedikdə, obyektiv aləmi dərk edən və dəyişən insan nəzərdə tutulur.
3. Psixika reflektor xarakter daşımır.
4. Psixika beyinin xassəsi deyil.
5. Psixologiya psixikanın faktlarını, qanunauyğunluqlarını, mexanizmlərini öyrənir.

***Çalışma 8. Suallara cavab verin.***

1. Psixi ehtiyatlar nədir? 2. Tələbatlar neçə yerə bölünür? 3. Autogen məşq necə yerinə yetirilir? 4. «Biomexanika» və «maksimologiya» nə deməkdir?

***Çalışma 9. Terminləri öyrənin.***

psixikanın ehtiyatı, autogen məşq, autotreninq, biomexanika, maksimologiya, neyrofizioloji proses, biokimyəvi proses

## MÜNDƏRİCAT

Ön söz ....................3
§1. Psixologiyanın mövzusu ....................6
§2. Psixologiya elminin tarixindən ....................11
§3. XX əsrdə psixoloji cərəyanlar ....................16
§4. Psixi hadisələrin mahiyyəti ....................21
§5. Psixika ....................26
§6. Psixologiyanın sahələri ....................30
§7. Psixologiyanın prinsipləri ....................36
§8. Psixologiyanın tədqiqat metodları ....................42
§9. Psixologiyada statistik (riyazi) metodlar ....................47
§10. Şəxsiyyət, fərd və fərdiyyət anlayışları ....................51
§11. Tələbatlar ....................56
§12. Motivlər ....................62
§13. Emosiyalar və hisslər ....................66
§14. Emosional halətlər ....................71
§15. Emosional stress və psixosomatik xəstəliklər ....................76
§16. Ali hisslər ....................80
§17. Sosial mövqe, gözləmələr və nəzarət ....................85
§18. Sosial mövqe, gözləmələr və nəzarət (davamı) ....................90
§19. Sosial yönümlər ....................94
§20. İnsanların bir-birini qavraması və anlaması ....................99
§21. İnsanların bir-birini qavraması və anlaması (davamı) ....................104
§22. Şüur ....................108
§23. Şüur və şüursuzluq ....................111
§24. Mənlik şüuru ....................115
§25. Mənlik şüuru (davamı) ....................118
§26. Özünüqiymətləndirmə ....................121
§27. Özünüqiymətləndirmə (davamı) ....................124
§28. Özünüqiymətləndirmə və iddia səviyyəsi ....................127
§29. Psixoloji müdafiə ....................131
§30. İnsanın fərd və şəxsiyyət kimi inkişaf mərhələləri ....................134



§31. Şəxsiyyətin inkişafı ....................138
§32. Şəxsiyyətin inkişafında ünsiyyətin və qarşılıqlı münasibətlərin rolu ....................142
§33. İctimai münasibətlər və şəxsiyyət ....................145
§34. Aparıcı fəaliyyət ....................148
§35. Əşyavi fəaliyyət ....................151
§36. Əşyavi fəaliyyət (davamı) ....................154
§37. Əşyavi fəaliyyət (davamı) ....................157
§38. Ali psixi funksiyalar ....................160
§39. İdrakın formaları ....................163
§40. Duyğuların növləri ....................166
§41. Qavrayış ....................170
§42. Qavrayış (davamı) ....................175
§43. Diqqət ....................179
§44. Diqqətin xüsusiyyətləri ....................183
§45. Hafizə ....................187
§46. Hafizə (davamı) ....................192
§47. Hafizə prosesləri, mnemotexniki üsullar ....................196
§48. Şüur və təfəkkür ....................201
§49. Təfəkkür ....................205
§50. Təfəkkür (davamı) ....................209
§51. Təfəkkürün növləri ....................212
§52. Təfəkkür və nitq ....................216
§53.Nitqin növləri ....................220
§54. Təxəyyül ....................224
§55. İdrak və motivləşmə ....................228
§ 56. Fəaliyyət ....................232
§57. İnsanın cins-yaş xüsusiyyətləri ....................237
§58. Cinsi tərbiyə ....................241
§59. Qabiliyyətlər ....................244
§60. Qabiliyyətlərin ölçülməsi ....................248
§61. Qabiliyyətlərin formalaşması ....................252
§62. Şəxsi konstrukt nəzəriyyəsi ....................255

§63.Temperament ........................................................259
§64. Temperamentin xassələri ..........................................263
§65. Xarakter ..............................................................267
§66. Xarakterin aksentuasiyası .........................................271
§ 67. İradə və iradi iş .....................................................275
§68. Fərdiyyətin tipologiyası ...........................................280
§69. Bədən quruluşu və xarakter ......................................283
§70. Psixopatiyanın tipləri ..............................................286
§71. Şəxsiyyətin fərdi xüsusiyyətlərinin təhlili ...................290
§72.Ünsiyyətin xüsusiyyətləri ...........................................294
§73. Ünsiyyətin xüsusiyyətləri (davamı)............................298
§74. Qarşılıqlı münasibətlər və ünsiyyət ...........................301
§75. Ünsiyyət çətinlikləri...................................................304
§76. Qrup və kollektiv ......................................................308
§77. Qrup və kollektiv (davamı).........................................312
§78. Birgə işləməyə alışma və uyuşma..............................315
§79. Liderlik və rəhbərlik ..................................................318
§80. Liderlik və rəhbərlik (davamı)....................................321
§81. Şəxsiyyət və ailə .......................................................325
§82. Psixoterapiya və psixoloji xidmət..............................330
§83. Psixi sağlamlıq..........................................................333
§84. Özünüidarə və psixi sağlamlıq...................................338
§85. Psixikanın ehtiyatları ................................................342

Çapa imzalanmışdır 08.04.2014.

Formatı 60x84 1/16.

Fiziki çap vərəqi 21,75.

Tirajı 100.

9 №-li KM-in mətbəəsində çap olunmuşdur.
Ünvan:A.Məmmədov küçəsi 83